ISSN 2224-0829



NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

# ELMİ ƏSƏRLƏR

İCTİMAİ ELMLƏR SERİYASI

TARİX, ANTROPOLOGİYA və SİYASİ ELMLƏR
FƏLSƏFƏ və HÜQUQ ELMLƏRİ
İQTİSAD ELMLƏRİ

Nakhchivan State University
SCIENTIFIC WORKS
SERIES OF SOCIAL SCIENCES

Нахчыванский Государственный Университет
НАУЧНЫЕ ТРУДЫ
СЕРИЯ СОЦИАЛЬНЫХ НАУК

2020 № 6 (107)

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

İSSN 2224-0829

# ELMİ ƏSƏRLƏR

## *İctimai elmlər seriyası*

## *№ 6 (107)*

- **Tarix, antropologiya və siyasi elmlər**
- **Fəlsəfə və hüquq elmləri**
- **İqtisad elmləri**

**Naxçıvan – 2020**

Naxçıvan Dövlət Universiteti. "Elmi əsərlər".
*İctimai elmlər seriyası. 2020, № 6 (107)*

*Jurnal 13 fevral 1997-ci il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. (Şəhadətnamə № 550*)

**BAŞ REDAKTOR:** ***Elbrus İSAYEV***
*Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent*

**BAŞ REDAKTOR MÜAVİNİ:** ***Məftun İSMAYILOV***
*Naxçıvan Dövlət Universitetinin elmi katibi, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*

**REDAKTOR**: ***Samir TARVERDİYEV***
*Naxçıvan Dövlət Universitetinin "Qeyrət" nəşriyyatının direktoru*

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**

***Tarix, antropologiya və siyasi elmlər üzrə:***

**İsmayıl Muxtar oğlu Hacıyev**
*tarix üzrə elmlər doktoru, professor*
*AMEA-nın həqiqi üzvü*
**Zəhmət Əbülfət oğlu Şahverdiyev**
*tarix üzrə elmlər doktoru, professor*
*AMEA-nın müxbir üzvü*
**İbrahim Ethem Atnur**
*tarix üzrə elmlər doktoru, professor*
**Şamxal Şükür oğlu Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Elçin Dağbəyi oğlu Zamanov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

***Fəlsəfə və hüquq elmləri üzrə:***
**Məmməd Hüseyn oğlu Rzayev**
*fəlsəfə üzrə elmlər doktoru, professor*
**Qərib Vəli oğlu Allahverdiyev**
*fəlsəfə üzrə elmlər doktoru, dosent*
**Yusif Hüseyn oğlu Hüseynov**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
**Novruzəli Həmzə oğlu Rəhimov**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
**Elman Yusif oğlu Cəfərli**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Qəhrəman Novruz oğlu Behbudov**
*hüquq üzrə fəlsəfə doktoru, dosent*
**Şükür Aloş oğlu Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**Yunis Fərman oğlu Xəlilov**
*Baş müəllim*

***İqtisad elmləri üzrə:***
**Ağarza Ağahəsən oğlu Rüstəmov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Teymur Abbas oğlu Abbasov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Nazim Hidayət oğlu Əhmədov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Müslüm Əli oğlu Cabbarzadə**
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Ceyhun İlham oğlu Mahmudov**
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Yuliya Vasiliyevna Cutceva**
*(Rusiya Dövlət Aqrar Universiteti)*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 3-7
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 3-7
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 3-7

# TARİX

**ŞAMXAL MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*
*shamkhal.mammadov@gmail.com*

**UOT: 94(479.25)**

## "ERMƏNİSTAN" VƏ "ERMƏNİ" ANLAYIŞLARI ANTİK DÖVRDƏ VƏ GÜNÜMÜZDƏ

*Saxtakar erməni tarixçilərinin iddialarının əksinə olaraq, müasir dövrün əksər aparıcı tarixçiləri, ermənilərin bir etnos olaraq formalaşdığı ərazilərin Cənubi Qafqaz hüdudlarından kənarda yerləşdiyini göstərməkdədirlər. Bu isə o deməkdir ki, ermənilər regionun aborigen əhalisi olmayıb uzun yüzilliklər boyu bura köçən mühacirlərin nəsilləridir. Antik müəlliflər olan Heredot, Strabon və onlardan sonra gələn tarixçilər, coğrafiyaşünaslar, səyyahlar da, Qafqazda deyil, Fərat çayının yuxarı axarlarında məskunlaşan ermənilərdən və onların yaşadıqları ərazilərdən bəhs etmişlər.*

*Əksər mütəxəssislərin fikrincə, Ermənistan kəlməsi də ermənilərin sahib olduqları torpaqlar (Hayastan) anlamını özündə etiva etmir. Hələ eramızdan əvvə I minilliklərdə Cənub-Şərqi Anadoludakı dağlıq ərazilər, çevrədəki etnoslar tərəfindən «Armina» (Yuxarı məmləkət), buradakı çoxsaylı müxtəlif tayfalar isə erməni» (Yuxarı məmləkətli) adlandırılırdı. E.ə. VI əsrdə Əhəməni hökmdarı Daranın zamanında region-Armina, Ərəb Xilafəti zamanında Ərməniyyə adlanırdı ki, bu da xalqın adı kimi deyil, coğrafi məkanın adı kimi anlaşılırdı.*

*Orta çağlarda Cənubi Qafqazda heç bir erməni dini yerarxiyasının və erməni kilsəsinin olmaması da, regionun erməni torpaqları olmaması və ermənilərin bura sonralar köçməsi qənaətini də ortaya qoyur.*

***Açar sözlər:*** *Armina, Hayastan, Urarat, Aştişat, Ərməniyyə, Moisey Xorenli, Bisutun yazıları*

"Tarixin atası" Heredotdan üzü bəri min illərdir aparılan araşdırmalara əsaslanıb demək olar ki, ermənilər Qafqaz əsilli etnoslar deyildir və uzun əsrlər boyu Cənubi Qafqaz hüdudlarından kənarda, başlıca olaraq Cənub-Şərqi Anadoluda, Fərat çayının yuxarı hövzəsindəki ərazilərdə məskunlaşmış, buradan da ətraf regionlara miqrasiya etmişlər.

Məşhur Avstriya alimi Erix Fayql keçmişi və müasirliyi qarşılıqlı surətdə təhlil edərək, "Ermənistan" kəlməsinin mahiyyətinə aydınlıq gətirməyə çalışmışdır: "Elə ölkələr vardır ki, öz adını onun sakinləri olan əhalinin adından almışdır. Misal üçün, Fransa, İngiltərə, Almaniya, Türkiyə kimi ölkələrin ərazisi orada yaşayan fransızların, ingilislərin, almanların türklərin adı ilə adlanmışdır. Amerika, Boliviya, Ekvador kimi ölkələrin adları sadəcə olaraq coğrafi regionu ehtiva edir və etnonim ifadə etmir. Antik zamanlarda Anadoluda çoxsaylı əyalət adları məlum idi ki, eyni zamanda əhalini də həmin adlarla adlandırırdılar. Məsələn, Pafloqoniya, Pamfiliya, Kappodokiya. Bu əyalətlərin əhalisi yekcins etnik qrupa aid deyildilər; onların etnik adı da yaşadıqları regionun adı ilə adlandırılırdı. "Ermənistan" da digər qeyd edilən ərazilər kimi xay-erməni xalqının adı deyil, coğrafi zonanın adı idi" (11, s.13).

Tarixdən məlum olduğu kimi, qədim yunanlar və romalılar özlərindən olma-yan xalqları "barbar", orta əsrlərdə ərəblər, ərəb olmayanları "əcəm" adlandırmışlar. Eləcə də çevrədə yaşayan assuriyalılar, aramilər, yəhudilər dağlıq yaylada yaşayan və müxtəlif etnoslara məxsus olan tayfaları "erməni" (yuxarı məmləkətli-Ş.M.), yaylanın özünü isə "Ermənistan" (ermənilər ölkəsi-Ş.M.) adlandırmışlar. Görkəmli amerikan alimi C.Makkarti də eyni fikri paylaşır və hesab edir ki, cənub-şərqi Anadolu yalnız ermənilərə deyil, həm də digər etnoslara da məxsusdur: "Onlar Şərqi Anadoluya

miqrasiya etmişlər” (6, s.13).

Türk tarixçisi Kamuran Gürün də bu fikirdədir ki, “Ermənistan, yəni qədim zamanlardan bəri bu adı daşıyan coğrafi rayon erməni deyilən xalqın daimi yaşadığı yer olmamışdır. Ölkədə şübhəsiz ki, yadelli tayfalar olmasa da, özgə dildə danışan xalqlar da yaşamışlar” (2, s.176).

Digər bir türk alimi Sədi Koçaş da ermənilərin tarixini öyrənməzdən əvvəl Ermənistan adlandırılan diyarı tanımağın faydalı olduğunu demişdi: “Bu bölgəyə ayrı-ayrı dillərdə-aysor dilində Urartu, ivrit dilində Ararat, arami dilində Harminyan, Harmeni kimi müxtəlif adlar verilmiş və ilk dəfə Bisutun kitabəsində Armeni-“Yuxarı məmləkət” kimi göstərilmişdir” (1, s.8). Oxşar fikri Fayql da dilə gətirir: “Ararat qədim yəhudilərin Umrana mətnində xatırlanan “Urarat”, assuriyalıların dilindəki “Urartu” adıdır. Urartulular özlərini “Bianili” adlandırırdılar ki, Van sözü də buradan əmələ gəlmişdi” (11, s.16).

Beləliklə, “Ermənistan” kəlməsinin kökündə dayanan “Armi ölkəsi”, “Armina” sözləri bu yerlərin qədim sakinləri olan xetlərin, hurritlərin, elamların dilində “yuxarı məmləkət”, yəni dağlıq ərazilər mənasını vermiş və bütün qədim mənbələrdə coğrafi bir məkan kimi qəbul edilmişdi. Eramızdan əvvəl bu yerləri işğal edən assuriyalılar onu Urartu, aramilər Harminap deyə adlandırmışlar. Eramızdan əvvəl VI əsrin 20-ci illərində bölgəni işğal edən Əhəməni hökmdarı I Daranın (522-484) göstərişi ilə tərtib olunan məşhur “Bisutun yazıları”nda Van gölündən cənub-qərbə doğru olan, habelə Mesopotamiyanın şimal torpaqlarını əhatə edən ərazilər “Armina” kimi xatırlanır və imperiyanın 23 satraplığından biri kimi təqdim olunurdu (10, s.255).

Cənubi Qafqaz hüdudlarından aralıda yerləşən Van gölü, Dəclə və Fərat çaylarının başlanğıcı arasını əhatə edən bu torpaqlar antik mənbələrdə də coğrafi ərazi kimi qəbul edilmişdi. Məsələn, məşhur Heredot özünün “Tarix” əsərinin I kitabının 180-ci bölümündə göstərirdi ki, “Fərat çayı öz başlanğıcını Ermənistandan alır”, sonrakı 194-cü bölümündə isə yazırdı ki, “Assuriyadan yuxarıda Ermənistan yerləşir” (4, s.89, 96). Əsərin I kitabının 72-ci bölümündə isə Heredot Ön Asiyada “Ermənistan” deyilən coğrafi məkanın yerləşdiyi ərazini təsvir edir: “Midiya və Lidiya çarlıqlarının sərhəddi Qalis çayı (İndiki Türkiyə Respublikasındakı Qızılüzən çayı-Ş.M.) idi. Çay Dağlıq Ermənistan silsiləsindən axır, Kilikiyadan keçir. Onun sağında Matienlərin vilayəti, solunda isə friqiyalıların torpaqları yerləşir. Çay Friqiyadan keçərək, şimala dönür, sağda Suriya kappadokiyalıları ilə, solda isə paflaqonlarla sərhəd yaradır” (4, s.414). Heredot əsərin V kitabının 52-ci bölümündə yenidən bu məsələ üzərinə qayıdaraq yazırdı ki, “Kilikiya ilə Ermənistanın sərhəddini gəmilərin üzə bildiyi Fərat çayı təşkil edir. Ermənistandan yol Matienə gedir” (4, s.347).

Beləliklə, Heredot erməni toplumu və ya haylarla məskunlaşan heç bir ərazidən deyil, paflaqonlar, kappodokiyalılar, matienlər kimi çoxlu etnosların məskunlaşdığı vilayətlərdən, onların sərhədlərindən və qonşularından bəhs edir. Həmin qonşulardan biri də friqiyalılardır ki, onlardan da ermənilərin törədiyi fərz edilir. Ermənistan, Heredota görə bir toplumla yox, çoxsaylı xalqlar və tayfalarla məskunlaşan coğrafi regiondur. Heredot Ermənistandan danışarkən Qafqazın adını çəkmir və onu Ermənistan hesab etmir, halbuki, həmin dövrdə yunanların Qafqazla bağlı xeyli məlumatları vardı və əsərin başqa bölümlərində Qafqazdan bəhs edirdi.

Antik coğrafiyaşünas Strabon da özünün “Coğrafiya” kitabının XIV fəslini bütövlükdə Ermənistana həsr etmişdi. Lakin böyük alim haylarla və ya erməni etnosu ilə məskunlaşan bir ölkədən deyil, Tavr dağları, Mesopotamiya, Böyük Midiya, Atropatena ilə çevrələnən bir coğrafi regiondan danışır. “Strabona görə iberlərin və albanların yaşadığı Qafqaz isə şimalda yerləşib, Ermənistana qədər uzanan əraziləri əhatə edir” (9, s.739). Beləliklə, Ermənistanın sərhədləri, çayları, torpaqları, qısa tarixi, əhalinin dini baxışları və s. barəsində geniş məlumat verən Strabon da, konkret olaraq erməniləri Qafqazla bağlamır.

Nəhayət VII əsrdə bu torpaqları tutan ərəblər onu “Ərməniyyə” adlandırmışlar ki, əvvəlkilər kimi bu da yuxarı (hündür) məmləkət anlamını verirdi. Ermənistan coğrafi bir məkan, ermənilər isə burada yaşayan müxtəlif etnosların məcmusu kimi başa düşülürdü.

Tarixi əsərlərdə “Hayastan” (“Ermənilərin torpağı”) ifadəsinin işlənməsi isə Moisey Xorenlidən başlanmış və sonrakı dövrlərin erməni tarixçiləri tərəfindən davam etdirilmişdir. Dünyanın ən müxtəlif dillərində olan, qədim zamanlardan son orta əsrlərə qədərki dövrü əhatə edən

minlərlə tarixi mənbənin heç birində "Hayastan", başqa sözlə deyilərsə, "ermənilərin torpağı" adlı bir ifadəyə rast gəlinmir. Çünki, sadəcə olaraq nə Kiçik Asiyada, nə də onun hüdudlarından kənarda heç zaman "hayların torpağı", "hayların ölkəsi" adlanan bir ərazi mövcud olmamışdır. Yalnız zaman-zaman saxtakar erməni kilsə xadimləri və tarixçiləri xarici mənbələri və başqa dillərdə yazılmış elmi-tədqiqat əsərlərini erməni dilinə tərcümə edərkən "ermənilər" kəlməsini "hayots", "Ermənistan" kəlməsini isə "Hayastan" kimi təqdim etmişlər. Beləliklə, bütün dünyanın coğrafi məkan kimi qəbul etdiyi "Ermənistan", ermənilər tərəfindən milli məkan kimi dərk edilən "Hayastan"la eyniləşdirilmişdir. Nəticədə üzərində onlarla xalqların və toplumların yaşadığı geniş ərazilərin yalnız "haylara" mənsub olması iddia olunmuşdur. Məsələ bundadır ki, "hay" adlandırılan toplum da əsrlər boyunca nə yazılı mənbələrdə, nə də şifahi folklorunda və məişət ənənələrində özlərini "erməni", yaşadıqları əraziləri isə "Ermənistan" adlandırmamışlar" (5, s.13).

Beləliklə, real Ermənistanla qondarma Hayastan, yuxarı məmləkətli anlamını verən və çoxsaylı etnosları özündə ehtiva edən ermənilərlə, azsaylı haylar fərqli anlayışlardır. Hayların azsaylı, elə bir siyasi çəkiyə malik olmayan, regionun tarixində ciddi əhəmiyyəti olmayan bir toplum olmadığını erməni tarixinin "atası" sayılan Moisey Xorenli də etiraf edir: "Biz böyük olmayan, olduqca azsaylı, əksər hallarda özgə ağalığı altında olan xalqıq" (8, s.3-4).

Buradan aydın olur ki, saxtakar erməni tarixçilərinin əsrlər ərzində yazdıqları uydurma tarix, hayların yox, regionda yaşayan və hay kimi qələmə verilən çoxsaylı etnosların tarixidir.

Yuxarıda qeyd edildiyi kimi, yalnız "Erməni məsələsi"nin meydana çıxmasından sonra erməni ideoloqları tərəfindən ermənilərin "müqəddəs" etnik mənşəyi və "qafqazəsilli" olmaları gündəmə gətirilmiş və qabardılmışdır. Lakin zaman-zaman digər tarixçilər və tədqiqatçılar ermənilərin qafqazəsilli olmadığını, tarixi Ermənistan deyilən ərazilərin isə Qafqaz hüdudlarından kənarda yerləşdiyini demişlər. Məsələn, XIX əsr fransız tədqiqatçısı İ.Şopen, erməni alimi M.Abeqyan, XX əsr sovet alimi İ.Dyakonov və başqaları öz əsərlərində ermənilərin nəinki qafqazəsilli olmadıqlarını, hətta Kiçik Asiyanın özünə də köçmə olduqlarını, onların bir xalq olaraq məhz Anadoluda formalaşdıqlarını göstərmişlər. Erməni tarixçisi Q.Kapançyan da etiraf etmişdir ki, erməni xalqının formalaşması prosesi Qafqaz hüdudlarından kənarda, Kiçik Asiya ərazilərində baş vermişdir" (3, s.123).

Görkəmli Azərbaycan alimi Fəridə Məmmədova başlıca olaraq ermənilərin öz mənbələri əsasında yazdığı "Qafqaz Albaniyası və albanlar" əsərində göstərmişdir ki, istər ilk erməni xristian kilsəsi, istərsə də sonrakı yüzilliklərdəki erməni dini tikililəri Qafqaz hüdudlarından kənarda mövcud olmuşdur.

Alim yazır ki, müqəddəs Qriqorinin nəslindən olan və Qriqoridən sonra ermənilərin altıncı katolikosu hesab edilən müqəddəs I Böyük Nerses (353-373-cü illər) 365-ci ildə "Erməni ölkəsinin ana kilsəsinin tikildiyi Aştişat kəndində ilk soborsinod (ümumi kilsə yığıncağı-Ş.M.) çağırdı" (7, s.628). Göründüyü kimi, məclis saxtakar erməni ideoloqlarının göstərdiyi kimi, "erməni kilsələrinin anası sayılan Eçmiədzin"də deyil, Kiçik Asiyanın cənub-şərqindəki Tarom vilayətində, Fərat çayının bir qolu olan Muradçayın sahilindəki Aştişat kəndində çağrılmışdı. Sual oluna bilər ki, niyə Aştişatda? Cavab çox sadədir. Həmin tarixi zamanlarda oğuz-türk tayfalarının yaşadığı indiki Ermənistan ərazilərində nə ermənilər, nə də onların Eçmiədzin məbədi mövcud deyildi.

Alim çoxsaylı erməni mənbələrinə əsaslanmaqla göstərir ki, bütün erkən orta əsrlər ərzində vaxtaşırı keçirilən erməni kilsə məclislərinin hamısı Fərat çayının yuxarı axarları və Van gölü çevrəsindəki erməni yaşayış məskənlərində çağrılırdı. Məntiqlə isə həmin məclislər erməni mifinə görə "İsa peyğəmbərin səmadan yenərək ilk kilsənin tikilməsi üçün göstərdiyi yerdə"-Eçmiədzində keçirilməli idi.

Fəridə Məmmədova daha bir faktı göstərir: "Erkən orta əsrlərdə erməni Qriqoryan kilsəsinin heç bir yeparxiyası (regional dini qurumu-Ş.M.) Qafqaz meqaregionunda yerləşmirdi, bu ərazilərdən qərbdə yerləşirdi. 649-cu ildəki Divin soborunun reyestri və erməni katolikosunun alban katolikosuna ünvanlanmış məktubu əsasında 17 erməni yepiskopluğunun adları bir-bir göstərilmişdi… Erməni yepiskopluqları Mərkəzi Qafqazdan qərbdə-Şərqi Anadoluda yerləşirdilər" (7, s.630-631). Digər çoxsaylı faktlar kimi, bu faktın özü də ermənilərin qafqazəsilli olmadığının, həmin tarixi zamanlarda Cənubi Qafqazda yaşamadığının və regiona köçmə bir xalq olduğunun göstəricisidir.

Deyilənlərə əsasən, bu qənaətə gəlmək olur ki, ermənilərin tarixən bir etnos olaraq formalaşdığı və məskunlaşdığı ərazilər Cənubi Qafqaz hüdudlarından kifayət qədər uzaq olan Ön Asiya torpaqları idi. Erməni ideoloqlarının özləri də ara-sıra bu reallığı etiraf etmək məcburiyyətində qalmışlar. Bu baxımdan erməni patriarxı Yefremin Rusiya Dövlət Şurasının hərbi işlər üzrə Departamentinin sədri A.Arakçeyevə ünvanladığı 30 oktyabr 1824-cü il tarixli məktubu diqqəti çəkir. Keşiş məktubunda həmin dövrlərdə imperatorun ən yaxın adamlarından olan Arakçeyevə yaltaqlanır, onun vasitəsilə ermənilər üçün yeni güzəştlər və imtiyazlar əldə etməyə çalışır, əvvəlki rus çarlarının ermənilərə göstərdiyi mərhəməti və qayğını xatırladır: "İmperator böyük Pyotr ermənilərin Rusiyada baş məskunlaşdırıcısı olmuşdur, bilərəkdən onları vətənlərindən çağırmış, etibarlı məskənlərlə təmin etmiş, fərmanlarda əks olunan müxtəlif üstünlüklər və imtiyazlar vermişdir. İmperatriça II Yekaterina, imperator Pavel və haliyədə uğurla çarlıq edən monarx Aleksandr da dəfələrlə və təntənəli şəkildə ümumxalq fərmanları vasitəsilə erməni xalqına hüquqlar və mərhəmət əta etmişdir. Beləliklə, bütün millətimiz sizdən ehtiramla, etibarlı himayə, halallıq və xeyirxahlıq gözləyir" (12, v.146).

Göründüyü kimi, keşişin etirafından da məlum olur ki, erməniləri tarixən məskunlaşdıqları, özlərinə "vətən" bildikləri Cənubi Azərbaycan və İran ərazilərindən, sonralar isə Anadolu torpaqlarından məhz I Pyotrdan başlayaraq rus hakim dairələri çağırıb öz işğal etdikləri ərazilərə yerləşdirmiş, onlara yerli xalqlara rəva görmədikləri imtiyazlar və üstünlüklər vermişlər. Əvvəlki zamanlarda ermənilər Cənubi Qafqaza əsrlər ərzində, tədricən sürünüb gələn, köçmənlər idi. Onların nə ərazi, nə də din, dil və antropoloji baxımdan Cənubi Qafqazla bağlantıları olmamışdır. Yalnız Rusiya imperiyasının hakim dairələri öz geosiyasi maraqları və iqtisadi çıxarları üzündən onları qafqazlı etmişdir.

Orta çağların başlanğıcında xristianlığın qriqoryan məzhəbi ətrafında birləşən və kilsə xadimi Mesrop Maştos tərəfindən tərtib edildiyi güman olunan əlifbanın köməyilə yazı dili formalaşan "yuxarı məmləkətlilər" bir etnos halına gəlməyə başladılar. Bu etnosun kökündə haylarla bərabər, regionun digər toplumları olan kürdlər, xetlər, yəhudilər, parfiyalılar və başqaları da vardı. Sonrakı əsrlər boyu digər qonşu etnoslarla on dəfələrlə qaynayıb-qarışan, dili, mədəniyyəti dəyişikliklərə uğrayan, qriqoryan kilsəsinin əli ilə azsaylı bəzi xalqları-kürdləri, qaraçıları, yəhudiləri, aysoriləri və başqalarını öz içərisində əridən haylar yenə də çevrədəki xalqlar üçün erməni ("yuxarı məmləkətli") olaraq qalırdılar.

Saxtakar erməni tarixçilərinin "uydurma tarix" kitablarının əksinə olaraq heç bir sanballı tarixi mənbə erməniləri qafqazəsilli etnos olaraq tanımadıqları kimi, Qafqazı da erməni torpaqları olaraq tanımır.

## ƏDƏBİYYAT


1. Koçaş S. Tarixdə ermənilər və türk-erməni münasibətləri. Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1998, 160 s.
2. Kamuran Gürün. Ermeni dosyası. İstanbul: RüstəmYayınevi, 2001, 415 s.
3. Вердиева Х. Переселенческая политика Российской империи в Северном Азербайджане XIX- начало XX веков. Баку: Алтай, 1999, 298 с.
4. Гередот. История. Ленинград: Наука, 2009, 600 с.
5. Исламов А. Фальшивая «история хайев» Моисея Хоренского. Баку: Елм и тахсил, 2015, 285 с.
6. Маккарти Дж., Маккарти К. Тюрки и армяне. (Руководство по армянскому вопросу). Баку: Азернешр, 1996, 159 с.
7. Мамедова Ф. Кавказская Албания и албаны. Баку: ЦИКА, 2005, 798 с.
8. Моисей Хоренаци. История Армении. Перевел с армянского и объяснил Н. Емин. Москва: Гатцунъ, 1893, 300 с.
9. Страбон. География. Москва: Наука, 1964, 944 с.
10. Хрестоматия по истории древнего мира. Москва: Учпедгиз,1950, 360 с.
11. Файгл Э. Правда о терроре. Армянский терроризм-истоки и причины. Баку: Азернешр, 2000, 176 с.
12. Российский Государственный Исторический Архив (РГИА) ф.880, оп.5, д.387

## SUMMARY

**Shamkhal Mammadov**

## "ARMENIA" AND "ARMENIAN" CONCEPTS IN ANCIENT TIMES AND TODAY

Contrary to the claims of fraudulent Armenian historians, most leading historians of modern times point out that the territories where Armenians were formed as an ethnos are located outside the South Caucasus. This means that Armenians are not aboriginal people of the region, but descendants of immigrants who moved here for many centuries. The ancient authors Herodotus, Strabo, and later historians, geographers, and travellers also spoke of the Armenians and their territories, not in the Caucasus, but in the upper reaches of the Euphrates River.

According to most experts, the word Armenia does not mean the lands owned by Armenians (Hayastan). As early as the first millennium BC, the mountainous areas of Southeastern Anatolia were called "Armina" (Upper Country) by the surrounding ethnoses, and the many different tribes here were called "Armenian" (Upper Countryman). BC in the 6th century, during the reign of the Achaemenid ruler Dara, the region was called Armina, and during the Arab Caliphate, it was called Armenia, which was understood not as the name of a people, but as the name of a geographical place.

The fact that in the Middle Ages there were no Armenian religious dioceses and Armenian churches in the South Caucasus, once more proves the absence of Armenian lands in the region and the subsequent migration of Armenians here.



## РЕЗЮМЕ

**Шамхал Мамедов**

## "АРМЕНИЯ" И "АРМЯНСКИЕ" КОНЦЕПЦИИ В ДРЕВНИЕ ВРЕМЯ И СЕГОДНЯ

Вопреки утверждениям фальсифицированных армянских историков, большинство ведущих историков современности указывают на то, что территории, на которых армяне сформировались как этнос, располагались за пределами Южного Кавказа. А это значит, что армяне не являются аборигенным населением региона, а являются потомками иммигрантов, которые сюда переселялись на протяжении многих столетий. Античные авторы Геродот, Страбон и последовавшие за ними историки, географы, путешественники также упоминали армян, населявших не только Кавказ, но и верховья Евфрата, и территории, на которых они проживали.

По мнению большинства специалистов, слово Армения также не несет в себе значения земель, которыми владеют армяне (Хайастан). Еще в I тысячелетии до н. э. горные районы Юго-Восточной Анатолии окруженные этносами назывались «Арминами» (верхний мамлюк), а многочисленные племена-» армянами " (верхний мамлюк). Э.А. В VI веке, во времена Ахеменидского правителя Дарана, реджион-Армина назывался Арменией, во времена арабского Халифата - Арменией, что понималось не как название народа, а как название географического места.

Отсутствие армянской религиозной епархии и армянской церкви на Южном Кавказе в Средние века также свидетельствует об отсутствии армянских земель в регионе и последующем переселении сюда армян.



***Məqalə daxil olmuşdur:*** *01 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 8-13
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 8-13
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 8-13

**ALLAHVERDİ HÜSEYNOV**
**XƏZƏR HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*
*xezerhuseynov@gmail.com*

**UOT: 94(479.24)**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ PARLAMENTİNİN YARANMASI TARİXİNDƏN

*Məqalədə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranması tarixinin aktual problemləri müəyyən olunur. 1918-1920-ci illərdə Azərbaycan parlamentinin yaranması, fəaliyyəti, formalaşması, dövlət aparatının təşkil edilməsi, ölkənin sərhədlərinin müəyyənləşdirilməsi, beynəlxalq münasibətlərinin yaranması, xarici dövlətlər tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin tanınması, Azərbaycan Parlamentinin real şəkildə həyata keçirdiyi mühüm məsələlər elmi dəlillərlə əsaslandırılır və araşdırılır.*

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan Parlamenti, Milli Şura, Fraksiya, parlamentinin fəaliyyəti, İstiqlal bəyannaməsi, qanun, Zaqafqaziya Seymi*

1914-cü il avqustun 1-də imperialist dövlətləri arasında ziddiyyətlərdən doğan Birinci Dünya müharibəsi başladı. Müharibədə iştirak edən Rus imperiyası iqtisadi böhrana düçar oldu və fevral inqilabı ilə nəticələndi. 1917-ci il fevralın 27-də Rusiyanın paytaxtı Petroqradda baş vermiş inqilab nəticəsində Rus imperiyasının, Romanovlar sülaləsinin 304 illik hökmranlığına son qoydu. Bu Azərbaycanda da mütləqiyyətin süqutu ruh yüksəkliyi ilə qarşılandı.

Fevral burjua-demokratik inqilabın qələbəsindən sonra ölkədə demokratik respublika tipli dövlət forması yaratmaq üçün Müəssisələr Məclisinə seçkilər keçirilməsi qərara alındı. Monarxiya rejimi aradan qaldırıldıqdan sonra hakimiyyətə gələn müvəqqəti hökumət Cənubi Qafqazın idarəçiliyi üzrə Xüsusi Komitə (Xüsusi Zaqafqaziya Komitəsi) yaratdı.

1917-ci il martın 3-də yaradılmış Xüsusi Komitə RSFSR XKS-nə tabe olmadı. Cənubi Qafqaz millətlərinin bərabərliyini təmin edə bilmədi, aqrar məsələdə heç bir iş görə bilmədi. 1917-ci il noyabrın 15-də Cənubi Qafqaz Xüsusi Komitəsi ləğv edildi. Cənubi Qafqaz Komissarlığı yaradıldı (9, s. 240).

1917-ci ildə Cənubi Qafqazda Rusiyanın Müəssisələr Məclisini buraxdıqdan sonra, bolşeviklər 1918-ci il fevralın 23-də Tiflisdə Cənubi Qafqazın Ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini, başqa sözlə Zaqafqaziya parlamentini yaratdılar (2, s. 27).

Dövlət dumasında olduğu kimi, Qafqazın ümumi mənafeyi ilə bağlı məsələlərdə Zaqafqaziya Seyminin də ən ardıcıl üzvləri Azərbaycan nümayəndələri idilər. Məhz onların tələbi ilə 1918-ci il aprelin 22-də Zaqafqaziya Seymi Cənubi Qafqazın müstəqilliyini elan etdi və Zaqafqaziya Demokratik Federativ Respublikası yaradıldı. Lakin istər daxili, istərsə də, xarici siyasət sahəsində Cənubi Qafqaz xalqları arasında olan kəskin milli mənafe ziddiyyətlərinin olması Zaqafqaziya Seymi və Birləşmiş Zaqafqaziya Cümhuriyyət hökumətinin konkret addımlar atmağa imkan vermədi.

1918-ci ilin aprelində yaranmış müstəqil Zaqafqaziya Demokratik Federativ Respublikası bölgənin üç əsas millətinin azərbaycanlılar, gürcülər və ermənilərin mənafeyini qorumaq işində aciz qaldığı üzə çıxdı.

1918-ci il mayın 11-də Batumda başlanan növbəti Türkiyə-Zaqafqaziya Seymi nümayəndələrinin apardığı danışıqlar zamanı, burada müşahidəçi kimi iştirak edən Almaniya nümayəndəsi fon Lossov gürcüləri müxtəlif vədlərlə aldadıb danışıqlardan yayındırdı. Belə bir şəraitdə gürcülər Zaqafqaziya Seyminin tərkibindən çıxıb, gürcüstanın dövlət müstəqilliyini elan etmək qərarına gəldilər. Nəticədə, gürcü nümayəndələri Seymdən çıxdılar və 1918-ci il mayın 26-da Gürcüstanın müstəqilliyini elan etdilər (2, s. 27).

1918-ci il mayın 27-də Seymin Müsəlman fraksiyasının üzvləri də özlərinin ayrıca iclaslarını

keçirdilər və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Bu məqsədlə Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası özünü Azərbaycan Milli Şurası, daha doğrusu, Azərbaycan Parlamenti elan etdi. Bununla, əslində Azərbaycanın ilk Parlamenti yarandı və ilk parlamentli respublikanın bünövrəsini qoydu.

1918-ci il mayın 27-də keçirilən iclasda Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə seçildi. Həsən bəy Ağayev və Mir Hidayət Seyidov isə sədrin müabinləri təsdiq olundular (2, s. 27).

Azərbaycan Milli Şurasının mayın 27-də keçirilən iclasında, eyni zamanda, Fətəli xan Xoyski yekdilliklə Milli Şuranın icra orqanının sədri seçildi.

1918-ci il mayın 28-də M.Ə.Rəsulzadə Batumda danışıqlar apardığına görə, Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası Qafqaz canişininin Tiflisdəki iqamətində keçirildi. İclasda Azərbaycan Milli Şurası İstiqlal bəyannaməsini qəbul etdi. İstiqlal bəyannaməsi bütün türk-müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun – parlamentli respublikanın yaradılacağından xəbər verdi (2, s. 27). Azərbaycan Xalq Cümhuriyyətini elan etdi. Azərbaycan Parlamenti yarandı. Azərbaycan dövlətçiliyi tarixində ilk Konstitusiya aktı-İstiqlal aktının qəbulu olundu.

Azərbaycan istiqlal mübarizəsi tarixinin bu dəyərli və parlaq sənədinə bütün Azərbaycan tarixşünaslığında ən obyektiv tarixi qiyməti ilk dəfə olaraq ümummilli lider Heydər Əliyev vermişdir: "Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər – Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əminamanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı" (2, s. 28).

Yenicə yaratmış Cümhuriyyət Hökumətinin başçısı Fətəli xan Xoyski 1918-ci il mayın 30-da bir sıra dövlətlərin xarici işlər nazirliyinə radioqram göndərərək, Azərbaycanın müstəqil dövlət elan olunduğunu bəyan etdi: Konstantinopol (İstanbul), Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Kristianiya (Oslo), Kopenhagen və Tokioya göndərilən həmin radioqramda, eyni zamanda, bildirilirdi ki, Cümhuriyyət Hökuməti, müvəqqəti olaraq, Yelizavetpolda (Gəncə) fəaliyyət göstərəcəkdir (2, s. 28).

Qeyd etmək olar ki, bu zaman Azərbaycan Xalq Cümhuriyyəti Gürcüstanda fəaliyyət göstərirdi. Gürcüstan hökumətinin tələbi ilə iyunun 16-da Azərbaycan Milli Şurası və Müvəqqəti Hökumət Gəncə şəhərinə köçdü. 1918-ci il sentyabrın 14-də Bakıda "Sentrokaspi diktatura"sı devrildi. Azərbaycan və türk ordusu sentyabrın 15-də Bakını azad etdi. Sentyabrın 17-də Azərbaycan Milli Hökuməti Bakıya köçdü. Azərbaycanın ərazi bütövlüyü təmin edildi. Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycanın bütün ərazisində hakimiyyətini bərpa etdi (9, s. 245, 247).

Azərbaycan Milli Şurası 1918-ci il noyabrın 16-da toplaşdı və noyabrın 19-da "Azərbaycan Parlamentinin yaradılması haqqında" qanun qəbul etdi. Qanuna görə, təkpalatalı parlament 120 nəfərdən ibarət olmalı idi. Qanuna görə Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşayan xalqların sayı nəzərə alınaraq, azərbaycanlılardan 80 nəfər, ermənilərdən 21 nəfər, ruslardan 10 nəfər, yəhudilərdən 1, almanlardan 1 nəfər nümayəndə göndərilməli idi. Qanunda sayları az olduğuna görə nümayəndə seçmək səlahiyyətləri olmayan, lakin Cümhuriyyət ərazisindəki digər azsaylı xalqlar nisbətən çoxluq təşkil edən gürcü və polyak milli komitələrinin hərəsindən 1 nümayəndə göndərmələrinə razılıq verilirdi. Bundan əlavə, Parlamentə Bakı Həmkarlar İttifaqı təşkilatı tərəfindən 3 nəfər və Bakı Neft Sənayeçiləri İttifaqından 2 nəfər nümayəndənin göndərilməsi də nəzərdə tutulurdu (2, s. 151).

AXC-nin Parlamenti olduqca çətin tarixi şəraitdə fəaliyyətə başlamışdı. Parlamentin açılışı 1918-ci il dekabrın 3-nə təyin olunmuşdu. Lakin Bakıda fəaliyyət göstərən erməni və rus milli şuraları Azərbaycan Parlamentinin açılışına hər vasitə ilə mane olmağa çalışdılar. Azərbaycan Milli Şurasının Parlamentin təsis olunması haqqında qanuna uyğun olaraq erməni nümayəndələri üçün 21, rus nümayəndələri üçün 10, həmkarlar ittifaqları nümayəndələri üçün 3 yer ayrılmasına baxmayaraq, onlar Azərbaycan Parlamentinin açılışına gəlməkdən imtina etdilər. Azərbaycan Parlamentinin işini pozmağa çalışdılar. Onlar məqsədlərinə nail olmaq üçün bu ərəfədə Bakıya gəlmiş müttəfiq qoşunlarının baş komandanı ingilis generalı Tomsondan istifadə etməyə cəhd göstərdilər. İlk əvvəlcə onların müttəfiqi olan general Tomson Azərbaycan Parlamentinin açılmasına mane oldu.

Azərbaycan Hökumətinin general Tomsonla apardığı danışıqlar nəticəsində, general Tomson Parlamentin aparılmasına və təşkilinə etiraz etmədi. Azərbaycan diplomatiyasının bu nailiyyəti ölkənin istər daxili və istərsə də beynəlxalq həyatında mühüm rol oynadı.

Azərbaycan Hökuməti generalı Tomsonla apardığı danışıqların uzanması və qəzalardan bütün deputatların vaxtında Bakıya gələ bilməməsi nəticəsində Parlamentin ilk iclasının açılışı 1918-ci il dekabrın 7-nə keçirildi. Həmin gün saat 13-də Hacı Zeynalabdin Tağıyevin Nikolay küçəsində (indiki İstiqlaliyyət) yerləşən qız məktəbinin (indiki Əlyazmalar İnstitutunun) binasında bütün türk dünyasında və müsəlman Şərqində ilk Parlamentin birinci iclası təntənəli şəkildə açıldı (2, s. 152).

Parlamentin iclas salonunda Türk Demokratik Federativlər Partiyası-"Müsavatın" üzvləri, eləcə də azlıqda qalan millətlərin nümayəndələri ortada, hümmətçi menşeviklər və sosialistlər solda, bitərəflər və İttihad partiyasının üzvləri sağda əyləşmişdilər. Diplomatik nümayəndələr lojada, general Tomsonun nümayəndəsi Kokgerel, İranın baş konsulu Sədülvüzarə və onun maliyyə müşaviri, Dağlılar hökumətinin sədri T.Çermoyev, bu hökumətin Azərbaycandakı nümayəndəsi Qandəmirov, Gürcüstan Respublikasının nümayəndəsi Karsevadze, eləcə də Araz Respublikası nümayəndəsi P.Əliyev oturmuşdular. Azərbaycan hökumətinin üzvləri də iclasda iştirak edirdi (7, s. 76).

Parlament 11 fraksiyadan ibarət idi. Ən böyük parlament fraksiyasını "Müsavat" partiyası təşkil edirdi. Bundan başqa, "İttihad", "Əhrar", "Hümmət" və Müsəlman Sosialistlər Blokunun üzvlərindən ibarət olan sosialistlər fraksiyası, "Daşnaksütyun" fraksiyası, erməni icması və Milli azlıqlar fraksiyalarının hər birinin – 4 nümayəndəsi də var idi. Parlamentdə "bitərəflər" və "müstəqillər" fraksiyaları da fəaliyyət göstərirdi (6, s. 348).

Parlamentin birinci iclasını Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə açmış və böyük təbrik nitqi söyləmişdir. Onun hərarəti nitqində Azərbaycan Xalq Cümhuriyyəti qarşısında duran ən mühüm məsələlər barəsində fikirlərini söyləyib başlıca milli qayənin azadlıq və müstəqillik ideyalarını gerçəkləşdirmək və təsdiq etmək olduğunu vurğuladı.

"Müsavat" fraksiyasının sədri M.Ə.Rəsulzadə tarixi nitqində "Əfəndilər, bu gün firqə ehtirasları, şəxsiyyətləri və bütün bu kimi vətən və millət qayəsi qarşısında sofla qalan qərəzləri atmalı, Vətən qayğısı və millət duyğusunu hər şeydən yüksək tutmağa çağırmışdır" (7, s. 92).

Parlamentin sədri M.Ə.Rəsulzadə öz tarixi nitqini yekunlaşdıraraq demişdir: "Azərbaycan bir ataş mənbəyidir... Bu ataş sönməmək üçün əl-ələ verib müttəhiddən çalışalım, Əfəndilər! Mən sizi belə bir ittihadə dəvət edirəm" (1, s. 349; 7, s. 92).

Məhəmməd Əmin nitqini bitirib, parlament sədrini və sədr müavinlərini seçməyi təklif etdi.

Parlamentin ilk iclasında "Müsavat" fraksiyası adından çıxış edən Şəfi bəy Rüstəmbəylinin təklifi ilə bitərəf hüquqşünas Əlimərdan bəy Topçubaşov Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri, "Müsavat" partiyasının üzvü hüquqşünas Həsən bəy Ağayevi onun müavini vəzifəsinə namizədliyini irəli sürdü. Səsvermədən sonra Əlimərdan bəy Topçubaşov Parlamentin Sədri, Həsən bəy Ağayev isə onun birinci müavini seçildi (7, s. 76).

Parlament sədrinin müavini seçilən Həsən bəy Ağayevin təklifi ilə ən gənc deputat Rəhim bəy Vəkilov parlamentin katibi seçildi. Əlimərdan bəy Topçubaşov Bakıda olmadığından sədr vəzifəsinin icrası müvəqqəti olaraq H.Ağayevə həvalə olundu. Parlamentin cari işlərinin nizama salınması məqsədilə parlament sədri, onun müavini və fraksiyaların nümayəndələrindən ibarət Ağsaqqallar Şurası yaradıldı (1, s. 349). Sonra parlament baş nazir Fətəli xan Xoyski hökumətinin daxili və xarici siyasəti haqqında hesabat məruzəsini dinlədi. Hesabatın sonunda Fətəli xan Xoyski müvəqqəti hökumətin istefası ilə bütün hakimiyyətin parlamentə təhvil verilməsini elan etdi.

İclasda Azərbaycan Xalq Cümhuriyyəti Müvəqqəti Hökumətinin başçısı Fətəli xan Xoyski Hökumətinin fəaliyyəti haqqında hesabatından sonra onun istefa verdiyini elan etdi. Parlament yeni hökumətin təşkilini təkrarən Fətəli xan Xoyskiyə tapşırdı (2, s. 153). Lakin Fətəli xan Xoyski səhhətinin pisliyindən yeni hökumətə başçılıq etmək iqtidarında olmadığını bildirdi.

1918-ci il dekabrın 18-də parlament sədrinin müavini H.Ağayev Fətəli xan Xoyskiyə hökumət təşkil etmək xahişi ilə müraciət etdi. Müraciətdə deyilirdi: "Fraksiyalar arzusu, habelə Sizin siyasi təcrübəniz, Vətənə və Millətə xidmət işinizdə göstərdiyiniz mühüm fəaliyyət və fədakarlığınız məni vadar edir ki, Sizi vacib və çətin bir işə, baş nazir vəzifəsini öz üzərinizə götürməyə və koalisyon kabinet təşkil etməyə dəvət edirəm" (1, s. 354).

Fətəli xan Xoyski əvvəlcə səhhətinin pozulmasına istinad edərək və təklifdən imtina etdi. Həmin təklif yenidən F.X.Xoyskiyə müraciət edildikdə ölkədə yaranmış vəziyyətin onun siyasətçi

bacarığına və dövlət idarəçiliyi sahəsindəki qabiliyyətinə ehtiyacı olduğunu görüb, yeni hökumət təşkil etməyi və onun rəhbəri – baş nazir olmağa razılıq verdi.

Ölkədə formalaşmış partiya sistemi və siyasi qüvvələrin mövcud düzümünə hər cəhətdən gözəl bələd olan F.X.Xoyski 10 nəfərdən ibarət, yeni koalisyon hökumətinin tərkibini və iş proqramını hazırlayıb 1918-ci il dekabrın 26-da Parlamentə təqdim etdi.

Parlament Fətəli xan Xoyski kabinəsinə dekabrın 26-da öz etimadını bildirdi. Yeni, koalisyon hökumətin təsdiq edilməsi və işə başlamasını lazım bildi (7, s. 78).

General Tomson da Parlamentin etimad göstərdiyi kabinəni dekabrın 28-də tanıdığını və Azərbaycanda yeganə qanuni hökumət hesab etdiyini bildirdi.

İngilis komandanlığının siyasəti təkcə Azərbaycan hökumətini yeganə qanuni hakimiyyət kimi tanımaqla məhdudlaşmırdı. Öz siyasi mənafeyindən çıxış edən ingilislər əslində Rusiyanın birləşdirilməsinə deyil, onun parçalanmasına çalışırdı. Bununla da onlar bir tərəfdən, öz müstəqilliklərinin təhlükəsizliyini təmin etməyə, digər tərəfdən isə Rusiyanı zəiflətməyə və sabiq Rusiya əyalətlərinin bütün iqtisadiyyatını öz əllərinə keçirmək üçün imkan qazanmağa çalışırdılar (1, s. 356). Hətta, milli hökumətin xeyrinə köməkliklər edir və güzəştə gedirdi.

Öz növbəsində Azərbaycan Hökuməti yaranmış vəziyyətdən bacarıqla istifadə etmiş, ölkənin daxili işlərinə yad qüvvələrin müdaxiləsini heçə endirməyə müvəffiq olmuşdur.

Azərbaycan Parlamenti Azərbaycan Xalq Cümhuriyyətinin siyasi sisteminin formalaşmasında mühüm rol oynamışdı. Çoxlu parlament fraksiyalarının mövcudluğu, fikir plüralizminin, parlament fraksiyalarının qızğın siyasi mübarizəsi, parlament fəaliyyətinin həqiqi demokratik zəmində qurulduğunu göstərmişdi (4, s. 90).

Parlament 17 aylıq fəaliyyəti dövründə 145 iclas keçirmişdi. Yetərsay olmadığı üçün iclasların 15-i baş tutmamışdır. 2 iclas təntənəli yubiley iclas xarakterində olmuş, (Azərbaycanın müstəqilliyinin birliyi mnasibətilə 1919-cu ilin 28 may tarixli və Bakının azad olunmasının 1-ci ildönümü münasibətilə 1919-cu il 15 sentyabr tarixli iclasları), 1 fövqəladə iclas Gürcüstanla Ermənistan arasında müharibənin başlanmasına həsr edilmişdir. Daha üç iclas da təntənəli şəraitdə keçmiş, onlar Fevral inqilabının ikinci və üçüncü ildönümləri münasibətilə 1919 və 1920-ci il martın 12-də, Azərbaycanın Gürcüstanla hərbi əməkdaşlıq münasibətinə həsr olunmuş, 1919-cu il iyun və Paris sülh konfransı tərəfindən Azərbaycan münasibətlərinin defakto tanınması münasibətilə 1920-ci il 14 yanvarda olmuşdur (2, s. 155; 7, s. 81).

Parlamentin qalan iclaslarında ölkənin daxili və xarici siyasəti, iqtisadiyyat və mədəniyyət vəziyyəti, qanunvericilik aktlarının müzakirəsi və qəbulu, ordu quruculuğu və s. məsələlər müzakirə edilmişdir. Müzakirəyə çıxarılan qanun layihələri, bir qayda olaraq yalnız üçüncü oxunuşdan sonra qəbul edildi.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fəaliyyəti dövründə müzakirəyə 270-dən çox qanun layihəsi çıxarılmış, onlardan təxminən 230-u qəbul olunmuşdur.

Azərbaycan Parlamentinin qəbul etdiyi qanun və qərarlar müstəqil dövlətin ilk qanun və qərarları olduğu üçün böyük əhəmiyyətə malik idi.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti 17 aylıq aramsız və gərgin fəaliyyəti ərzində həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi, xüsusən də parlament mədəniyyəti tarixində dərin və zəngin iz qoymuşdur.

Qeyd etmək olar ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentçilik tarixi iki dövrə ayrılır:

Birinci dövr-1918-ci il mayın 27-dən noyabrın 19-dək davam etmişdir. Bu altı ay ərzində Azərbaycan Milli Şurası adı ilə fəaliyyət göstərən və 44 nəfər müsəlman – türk deputatından ibarət olan ilk Azərbaycan Parlamenti çox mühüm tarixi qərarlar qəbul etmişdir. İlk parlament 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini elan etmiş, ölkənin idarə olunmasını öz üzərinə götürmüş və tarixi İstiqlal bəyannaməsini qəbul etmişdir. Azərbaycan Milli Şurasının o zaman çox mürəkkəb və həlledici bir tarixi məqamda Tiflisdə-Qafqaz canişininin iqamətgahında elan etdiyi İstiqlal bəyannaməsi Azərbaycanın demokratik və parlamentarizm ənənələri tarixinin ən parlaq hüquqi sənədi olaraq bu gün də öz tarixi və praktiki əhəmiyyətini saxlamaqdadır. Milli Şura dövründə Azərbaycan Parlamentinin təsis toplantısı ilə birlikdə cəmi 10 iclası keçirilmişdir. İlk iclas 1918-ci il mayın 27-də Tiflisdə, son iclas-1918-ci il noyabrın 19-da Bakıda keçirilmişdir. Mayın 27-də

Azərbaycan Milli Şurası təsis olunmuş, iyunun 17-də isə fəaliyyətini müvəqqəti dayandırıb, 6 aydan gec olmayaraq Müəssisələr Məclisi çağırmaq şərti ilə, bütün qanunverici və icraedici hakimiyyəti Müvəqqəti Hökumətə vermişdir. Xalq Cümhuriyyəti Hökuməti 1918-ci il sentyabrın 17-də Bakıya köçdükdən sonra Azərbaycan Milli Şurası noyabrın 16-da öz fəaliyyətini yenidən bərpa etmişdir. Noyabrın 19-da Azərbaycan Milli Şurası həmin il dekabrın 3-də Müəssisələr Məclisinin – geniş tərkibli Azərbaycan Parlamentinin çağırılması haqqında qanun qəbul etdi və öz fəaliyyətini dayandırdı. Beləliklə, Azərbaycan Parlamenti öz fəaliyyətinin bu dövründə, daha doğrusu, Milli Şura dövründə Tiflisdə, Gəncədə və Bakıda fəaliyyət göstərmişdir.

İkinci dövr - Azərbaycan Xalq Cümhuriyyətinin parlamentçilik tarixində ikinci dövr və ya Bakı dövrü 1918-ci il dekabrın 7-dən 1920-ci il aprelin 27-dək – cəmi 17 ay davam etmişdir. İlk iclas 1918-ci il dekabrın 7-də, son iclas-1920-ci il aprelin 27-də keçirilmişdir. Bu dövrdə Parlamentin cəmi 145 iclası olmuşdur. Bütün bu iclaslarda Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti İstiqlal bəyannaməsinin müəyyən etdiyi prinsiplərə sadiq qalaraq və konkret tarixi şəraiti nəzərə alaraq, ölkənin ərazi bütövlüyünü təmin etmək və müstəqilliyini qoruyub saxlamaq, insan hüquqları və azadlıqlarının dolğun təmin olunduğu ən müasir hüquqi-demokratik dövlət yaratmaq məqsədi daşıyan çox mühüm qanunlar və qərarlar qəbul etmişdi. Bütün bu qanunlar və qərarlar, nəticə etibarı ilə, hakimiyyətin üç qolunun – qanunvericilik, icra və məhkəmə orqanlarının formalaşdırılmasına yönəlmişdi (2, s. 34-35).

Birinci dünya müharibəsi (1914-1918) illərində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu və ölkənin başı üzərini yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb daxili və beynəlxalq şəraitdə fəaliyyət göstərən Azərbaycan Parlamenti öz fəaliyyətinin mühüm hissəsini dövlət müstəqilliyinin qorunub saxlanmasına, ordu quruculuğuna, beynəlxalq və başqa mühüm məsələlərə yönəltmişdi.

Azərbaycan Parlamenti və Cümhuriyyət Hökuməti bu və ya digər sahələrdə olduğu kimi, mürəkkəb və ziddiyyətli tarixi şəraitdə olduqca fəal xarici siyasətə də nail olmuşdular. Azərbaycan dövləti 1920-ci il yanvarın 11-də Paris sülh konfransında Azərbaycan haqqında xüsusi qərar qəbul edilməsinə nail oldu. Həmin qərara əsasən konfrans iştirakçısı olan dövlətlər Azərbaycanı müstəqil dövlət kimi de-fakto tanıdılar (2, s. 40).

Azərbaycan Xalq Cümhuriyyəti Türkiyə, İran, Ukrayna, Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, Belçika, Hollandiya, Yunanıstan, Polşa, İsveçrə, İsveç, Danimarka, Latviya, Litva, Estoniya, Finlandiya, Rumıniya, Almaniya və başqa ölkələrdə səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaratdı, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər imzaladı. Bakıda xarici diplomatik nümayəndəliklər yaradıldı.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fəaliyyətinə yüksək qiymət verərək, demişdir: “1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə düşdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət orqanları təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruluşu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarif və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanda ilk universitet təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü” (3, s.1).

1920-ci il aprelin 28-də XI rus ordusunun köməyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti devrildi. Bolşeviklər hakimiyyəti ələ aldılar. Buna baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti xalqının dövlətçilik və ictimai-siyasi fikir tarixində misilsiz rol oynadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi: “1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi. Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olaraq onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalq Cümhuriyyətin istiqlalının dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir” (3, s. 2).

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Yeddi cilddə, V cild, Bakı: Elm, 2001, 672 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə, I cild, Bakı, "Lider" nəşriyyatı, 2004, 440 s.
3. İ.H.Əliyev. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı: 16 mart 2017-ci il
4. Azərbaycan Demokratik Respublikası (Məqalələr toplusu). Bakı: Azərnəşr, 1992, 191 s.
5. XX əsr Azərbaycan tarixi. II cild, Bakı: Təhsil, 2009, 560 s.
6. İsmayıl Məmmədov. Azərbaycan tarixi (Ali məktəb üçün dərslik), Bakı: "Adiloğlu" nəşriyyatı, 2005, 486 s.
7. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası (Məqalələr və sənədlər). Bakı: Elm, 1990, 112 s.
8. Yaqub Mahmudov. Azərbaycan dövlətçilik və parlamentarizm ənənələri tarixindən. "Müstəqil dövlətimiz və parlamentimiz" (məqalələr məcmuəsi). Bakı: 2001
9. Səttar Allahverdiyev, Əli Haqverdiyev, Mürşüd Behbudov. Azərbaycan tarixi. Bakı: 2005, 332 s.
10. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı: 2001
11. Cəmil Həsənov. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı: Azərnəşr, 1993, 362 s.


## SUMMARY


**Khazar Huseynov**
**Allahverdi Huseynov**


## FROM THE HISTORY OF THE CREATION OF THE PARLIAMENT OF THE PEOPLE'S REPUBLIC OF AZERBAIJAN


The article identifies topical issues in the history of the establishment of the Parliament of the Azerbaijan Democratic Republic. The establishment, activity, and formation of the Azerbaijani parliament in 1918-1920, organization of the state apparatus, definition of the country's borders, establishment of international relations, recognition of the Azerbaijan Democratic Republic by foreign countries, important issues implemented by the Azerbaijani Parliament are substantiated and researched on the scientific reasons.



***Key words:*** *Azerbaijan People's Republic, Azerbaijan Parliament, National Council, Fraction, Activity of the parliament, Declaration of Independence, Law, Transcaucasian Seym*


## РЕЗЮМЕ


**Аллахверды Гусейнов**
**Хазар Гусейнов**


## ПАРЛАМЕНТА АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ ИЗ ИСТОРИИ ВОЗНИКНОВЕНИЯ


В статье определяются актуальные проблемы истории создания парламента Азербайджанской Демократической Республики. Научно обоснованы и исследованы важные вопросы создания, деятельности, формирования азербайджанского парламента в 1918-1920 годах, организации государственного аппарата, определения границ страны, установления международных отношений, признания Азербайджанской Народной Республики иностранными государствами, реального осуществления Азербайджанским Парламентом.



***Ключевые слова:*** *Азербайджанская Народная Республика, Парламент Азербайджана, Национальный Совет, Фракция, Деятельность парламента, Декларация независимости, Закон, Закавказский Сейм*

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev*
***Məqalə daxil olmuşdur:*** *01 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 14-18
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 14-18
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 14-18

**YAŞAR RƏHİMOV**
*AMEA Naxçıvan Bölməsi*

**UOT: 94(479.242)**

# NAXÇIVAN YENİ İQTİSADİ SİYASƏT DÖVRÜNDƏ (1921-1925)

*Məqalədə 1921-ci ilin mart ayının 14-də RK(b)P X qurultayı yeni iqtisadi siyasətə keçmək (YİS) haqqında qərar qəbul etməsi, həmin vaxtdan başlayaraq digər sovet respublikaları ilə yanaşı Azərbaycan SSR-də, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da "hərbi kommunizm" siyasətindən yeni iqtisadi siyasətə (YİS) keçidin əməli olaraq həyata keçirilməyə başlaması, ölkəmizin digər ərazilərində olduğu kimi, Naxçıvan bölgəsində də ərzaq sapalağının qalıqlarının ləğv edilməsi, natural ərzaq vergisinə keçilməsi, ticarətdə müstəqilliyə icazə verilməsi, yerli xüsusiyyətlərin nəzərə alınması və s. məsələlər işlənmişdir. Məqalədə həmçinin YİS-in Naxçıvanda həyata keçirilməsi kənd sakinlərində-kəndlilərdə kənd təsərrüfatı məhsullarını artırmaq üçün maraq oyatması və onlara öz məhsullarından istədikləri kimi istifadə etmək imkanı yaratması, 1922-ci il may ayının 3-də Azərbaycanın II Sovetlər qurultayı ərzaq vergisi haqqında dekreti təsdiqlədikdən sonra Naxçıvanda da kənd təsərrüfatında məhsuldar qüvvələrin artması və inkişafının təsərrüfat quruculuğunda əsas və başlıca vəzifə kimi qeyd olunması, bölgədə ərzaq siyasəti sahəsində mühüm dəyişikliklər baş verməsi tədqiq edilmişdir.*

*Belə nəticəyə gəlinmişdir ki, 1922-1924-cü illərdə regionda baş vermiş yoxsulluq və aclığı aradan qaldırmaq məqsədilə ərzaq sapalağı əvəzində ərzaq vergisi tətbiq edilmiş, yeni iqtisadi siyasət metodundan istifadə genişləndirilərək suvarma və əkinəyararlı torpaq sahələrinin həcmi artırılmış, toxum fondu və kəndlərdə aqronom məntəqələri şəbəkələri yaradılmağa başlanmış, kənd təsərrüfatına verilən kredit artırılmışdır.*

***Açar sözlər:*** *yeni iqtisadi siyasət (YİS), Naxçıvan, ərzaq vergisi, torpaq, kəndli, kənd təsərrüfatı, əkinçilik, kollektivləşdirilmə*

Sovetləşmənin ilk illərində Azərbaycanın digər bölgələrində olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da əhalinin yaşayış vəziyyəti və maddi rifah halı ağırlaşmışdı. Yeni bolşevik hökumətinə qarşı əhalinin bütün təbəqələrinin-fəhlə və kəndlilərin narazılığı artırdı. Sosial-iqtisadi vəziyyətin getdikcə çətinləşməsi İttifaq rəhbərliyini-Moskvanı ciddi tədbirlər görməyə vadar etdi. Və belə tədbirlərdən biri də 1921-ci ilin mart ayında RK(b)P X qurultayının yeni iqtisadi siyasətə keçmək (YİS) haqqında qəbul etdyi qərar idi. Həmin vaxtdan başlayaraq Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da "hərbi kommunizm" siyasətindən yeni iqtisadi siyasətə (YİS) keçid əməli olaraq həyata keçirilməyə başladı. 1921-ci il mayın 17-də "Ərzaq inhisarlarının bütün formalarının ləğv edilməsi barədə" Azərbaycan İnqilab Komitəsinin dekreti verildi (12, s.479). Bu dekretlə ərzaq siyasəti tamamilə dəyişdirildi, ticarətdə müstəqilliyə icazə verildi, ərzaq sapalağının qalıqları ləğv edildi, milli adət-ənənələr və xüsusiyyətlər nəzərə alındı və s.

Naxçıvanda bu istiqamətdə atılan ilk addımlardan biri kənd təsərrüfatının yenidən qurulması və torpaqların ölçülüb kəndlilər arasında bölüşdürülməsinə cəhd edilməsi idi.

Ölkənin bərpa edilməsi və torpaqların kəndlilər arasında bölüşdürülməsi sahəsində Azərbaycan Kommunist (Bolşeviklər) Partiyasının Naxçıvan qəza partiya təşkilatının birinci konfransı (18 noyabr 1921-ci il) mühüm əhəmiyyət kəsb edirdi. Konfrans öz qərarında göstərirdi ki, "Şura hökuməti çoxdan bəri möhkəmlənir... Məmləkətin xalq təsərrüfatının yüksəlməsi nəzəri cəlb edir. Buna şübhəsiz füqərieyi-kasibənin mənafeyindən xaric olmayan yeni iqtisadi siyasət kömək edəcək. Qurultay xalq təsərrüfatını var qüvvəsilə yüksəltməyə səy etməyə söz verir ki, bununla bərabər kommunizmin istədiyi məqsədə nail olsun" (2, v.10).

Partiya konfransının sənədlərində göstərilirdi ki, kommunizmin istədiyi məqsədə nail olmaq

mümkündür. Buna görə ölkəni bərpa edib hökm sürən dağınıqlıq və səfalətə son qoyulmalıdır. Naxçıvan, xüsusən Şərur qəzasının münbit torpaqları əkilsə də, müdaxiləçilik və çarpışmalar bu işə ciddi əngəl olurdu. Konfrans aşağı partiya özəklərindən və sovet təşkilatlarından tələb edirdi ki, partiyanın yeni iqtisadi siyasət metodunu düzgünlüyü ilə həyata keçirmək, əkinçiliyi bərpa etdirmək məqsədilə Şərur qəzasına buraxılan 8.000 pud toxumdan səmərəli surətdə istifadə etmək, qolçomaqların əlində olan torpaqların yoxsullara paylanmasını başa çatdırmaq, torpaq bölgüsünə başlamaq üçün mühəndislər çağırmaq və s. bu kimi tədbirləri həyata keçirmək.

Konfrans torpaqların tezliklə ölçülüb kəndlilərə paylanması barədə xüsusi qərar qəbul etmişdir. Qərarda göstərilirdi ki, torpaq üzərində xüsusi mülkiyyət tezliklə ləğv edilsin, torpaq kəndlilərə verilsin, torpağın kəndlilərə paylanması işinə partiya işçiləri və mütəxəssis yer quruluşu işçiləri cəlb edilsinlər. Bununla bərabər, konfransın qərarında deyilirdi ki, kasıb və mikinətli (aztəminatlı) kəndlilərə iş malı, kotan və s. kənd təsərrüfat alətləri verilməsi, torpaqların geniş surətdə suvarma üsuluna keçilməsi, kəndlilərin mədaxilini hər cürə xəstəliklərdən mühafizə etmək üçün onlara aqronom verilməsinin ardıcıl surətdə təmin edilməsi həyata keçirilsin və s.

Kənddə sinfi təbəqələşmə və qolçomaqlara qarşı mübarizəyə gəldikdə konfransın qərarında göstərilirdi ki, orta kəndliləri tədricən fəallaşdırıb sovet quruluşu işinə irəli çəkməli, orta kəndlini qolçomaqdan ayırmaq üçün onları fəhlə sinfi tərəfinə çəkməli, ehtiyacları barədə daha artıq diqqətli olmalı, geriliyini aradan qaldırmalı, təsərrüfatına zərər dəyməmək üçün hər dürlü güzəştlər etməli (2, v.2-3).

Birinci partiya konfransı Naxçıvan ölkəsində partiya təşkilatının ilk təsis orqanı olmaqdan başqa, ölkədə əsasına qədər dağılmış kənd təsərrüfatının bərpasına dair xüsusi proqram verdi.

Yeni iqtisadi siyasət şəraitində orta kəndlilərin qolçomaqlara yaxınlaşmasına imkan ola bilərdi. Buna imkan verməmək üçün kəndin yoxsul təbəqəsilə ortabab kəndlilərin ittifaqını möhkəmləndirmək lazım idi. Kəndli mühiti olan Naxçıvanda yeni iqtisadi siyasətə keçmək daha zəruri idi. V.İ.Lenin deyirdi: “Biz xırda istehsalçı olan kəndliyə geniş meydan verməliyik. Biz kəndli təsərrüfatını yüksəltmədən ərzaq məsələsini həll edə bilmərik” (4, s.445-446.). Leninin bu müddəası Naxçıvan üçün daha əhəmiyyətli idi.

O dövrdə yeganə hakim partiyanın yeni iqtisadi siyasət metodu ölkənin bütün partiya, komsomol və sovet təşkilatları tərəfindən hərarətlə alqışlandı. Çünki Naxçıvan ölkəsində xırda istehsalçı olan kəndliyə geniş imkan verilmədikcə kənd təsərrüfatını bərpa və inkişaf etdirmək olmazdı. Bunsuz kənd ilə şəhər arasında iqtisadi, ticarət və mədəni əlaqələri genişləndirmək mümkün deyildi.

V.Lenin tərəfindən irəli sürülüb, partiya tərəfindən həyata keçirilən yeni iqtisadi siyasət metodu Şərur qəza partiya təşkilatının 2-ci qurultayında (konfransda) müzakirə edilərək belə bir qərar qəbul edilmişdir: “Biz Şərur kommunistləri, partiyamızın qabaqcıl yeni iqtisadi siyasətilə tam həmrəy olub öhdəmizə alırıq ki, bu sahədə işi ikiqat artıraraq, proletariatın qabaqcıl dəstəsi olmaq etibarilə təsərrüfat dağınıqlığı ilə mübarizədə ölməyə hazırıq.

Biz kapitalist quruluşu dövründən qalan kəndli kütləvi geriliklə mübarizə edəcək və milli nifaqların kökünü kəsəcəyik” (3, v.2).

Kəndi yenidən qurmaq, əsrlərdən bəri mülkədar əsarətində, fanatik aləmdə geri qalmış mühitdə yaşayan kəndlini sosializm quruluşuna çəkmək, onu xüsusi mülkiyyət ideyasından ayırmaq böyük təbliğati-təşkilati iş və əməldə inandırıcılıq tələb edirdi. Bu sahədə torpaqların ölçülüb kəndlilərə verilməsi böyük əhəmiyyətə malik idi.

Sovet hökuməti respublikada 273.900 hektar xan və bəy, 180.500 hektar xəzinə, 14.200 hektar məscid torpaqlarını müsadirə edib kəndlilərin istifadəsinə verdi. Halbuki inqilabdan əvvəl torpaqların 92%-i mülkədarların, xəzinənin və məscidin əlində idi, yalnız 8%-i kəndlilərə məxsus idi (7, v.1).

Torpaqların ölçülüb kəndlilərə paylanması 1923-cü ildən başlanıb 1929-cu ildə qurtardı. Bu müddətdə 231 kənddə torpaq ölçüsü aparılıb başa çatdırılmışdır. Qeyd etmək lazımdır ki, inqilabadək 1.630 təsərrüfatın torpaq payı, 8.714 təsərrüfatın isə canlı və cansız əmlakı yox idi. Bu zaman Naxçıvan şəhər torpaqlarında 40 təsərrüfatdan ibarət Sultanabad (indiki Sovetabad) və 100 təsərrüfata malik Hacıvar, Şərurda 50 təsərrüfatdan ibarət Şurabad və 102 təsərrüfata malik Arazdəyən kəndləri salındı.

Naxçıvan ölkəsində iqtisadiyyatın, xüsusən kənd təsərrüfatının bərpası çoxlu çətinliklərə rast gəlirdi. Bu çətinlik 1918-20-ci illərdə baş verən müdaxiləçilik nəticəsində daha artmışdır. Ölkənin

iqtisadi həyatının əsaslı şəkildə pozulması ilə əlaqədar olaraq ölkədə aclıq, dilənçilik və yoxsulluq hökm sürürdü.

Ölkə o vəziyyətə düşmüşdü ki, kəndlilərin əkməyə toxumları yox idi. Əkinçiliyin bərpası və zəhmətkeşlərin güzəranını yaxşılaşdırmaq məqsədilə Naxçıvan ölkə icraiyyə komitəsi sərəncamında olan 3.000 pud arpa toxumunu 6 mart 1923-cü il tarixli qərarla məntəqələr arasında aşağıdakı kimi bölmüşdür: 1. Şərur məntəqəsinə 400 pud; 2) Şahtaxtıya 600 pud; 3) Ordubada-1000 pud; 4) Cəhriyə-400 pud; 5) Əbrəqunusa-100 pud, 6) Tumbul məntəqəsinə-500 pud arpa toxumu buraxılır. Bu fakt göstərir ki, əkməyə toxumu və qoşmağa malı olmayan kəndlilər o dərəcəyə qədər yoxsullaşmışdılar ki, məhsuldar və münbit torpaqları əkib becərə bilmirdilər.

Bölgədə yoxsulluq, aclıq 1922-1924-cü illərdə də davam etmişdir. Bu vəziyyəti aradan qaldırmaq məqsədilə ərzaq sapalağı əvəzində ərzaq vergisi tətbiq edildi və yeni iqtisadi siyasət metodundan istifadə genişləndirildi. Ərzaq vergisi yolu ilə ölkədə 200.000 pud taxıl toplanmalı idi. Bu məqsədlə ölkə iki kateqoriyaya bölündü: 1) hektardan 50-60 pud taxıl məhsulu verən Şərur, Tumbul nahiyyələri, Naxçıvan şəhər ətrafı, Cəhri və Əbrəqunus nahiyyələrinin aşağı hissələri; 2) hektardan 40-50 pud taxıl məhsulu verən bütün Ordubad nahiyyəsi, Cəhri və Əbrəqunus nahiyyələri ikinci dərəcəli məhsul verən rayon sayılırdı.

Ərzaq vergisi yolu ilə göstərilən 200 min pud taxıl həmin rayonlardan toplanmalı idi (8, v.48).

Bu tədbiri, yəni taxıl tədarükü planını yerinə yetirmək mümkün olmamışdır. Bir tərəfdən ölkədə hökm sürən ağır vəziyyətdən əkinçilikdə olan imkansızlıq, digər tərəfdən quraqlıq nəticəsində taxıl məhsulunun (xüsusən dağ nahiyyələrində) məhv olması ərzaq tədarükü planının yerinə yetirilməsinə imkan vermədi. Məhz bu səbəbdən də ölkədə 1923-24-cü illərdə aclıq yenidən başladı.

Ölkədə aclıq qorxusunu görən Naxçıvan Ölkə İcraiyyə Komitəsi 5 fevral 1924-cü ildə belə bir qərar qəbul edir: “Naxçıvan ölkəsini ac rayon hesab etmək və ... aclıqla əlaqədar olaraq Naxçıvan ölkəsində ərzaq vergisini aclara vermək, buğdanın xarab olması dərəcəsini yoxlamaq üçün komissiya təşkil etməyi davam etdirmək” (10, v.2).

Ölkənin iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, sovet hökuməti aclığa qarşı bütün tədbirləri görərək kənd təsərrüfatının inkişafını diqqət mərkəzində tuturdu.

Kənd təsərrüfatı bərpa edilmədikcə aclığı, səfaləti aradan qaldırmaq mümkün deyildi. Bu münasibətlə Naxçıvan İnqilab Komitəsi Xalq Torpaq komissarı Əli Eyvazov başda olmaqla Azərbaycan inqilab komitəsinə xüsusi heyətdən ibarət nümayəndəliklə ölkədə, xüsusən Şərur və Ordubad qəzalarında tükləri ürpədəcək (ot, ağac kökü, pişik, uşaq əti, gön qırıntıları və s. iyrənc şeylər yemək) aclıq barədə məruzə göndərdi.

Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov Naxçıvan aclarına 1,5 milyard manat pul, xeyli miqdarda parça, medikament göndərərək Naxçıvan İnqilab Komitəsinə təklif etmişdir ki, ölkədə komissiya vasitəsilə aclığın dərəcəsini müəyyən edib, Azərbaycan inqilab komitəsinə xəbər verilsin.

Naxçıvan Ölkə Partiya Komitəsi və Xalq Komissarlar Şurası 28 yanvar 1922-ci ildə (10 sentyabr 1921-ci ildən inqilab komitəsi XKŞ-na çevrilir) Nərimanov yoldaşın teleqramına baxıb “Naxçıvan SSR aclarına kömək barədə” komissiya təşkil etmişlər (9, v.40). Bununla bərabər, qəza icraiyyə komitələrinə, partiya müvəkkillərinə, həmkarlar ittifaqı bürosuna, təhcizat şöbələrinə tapşırılırdı ki, aclığın dərəcəsini müəyyən etmək üçün komissiyaların işində fəal iştirak edib hər cür köməklik göstərsinlər.

Aclara yardım və payızlıq əkin kampaniyasını başa çatdırmaq üçün Naxçıvan SSR XKŞ-sı 50 min manatlıq qızıl fondu ilə 500 pud neft, mazut, 40.000 pud duz alıb əhaliyə paylamağı, Şərur qəzasına 8.900 pud, Ordubad qəzasına 3.500 pud, Naxçıvan qəzasına 8.700 pud taxıl buraxılmasını qərara aldı. Bundan başqa, 1922-ci ilin yanvar ayında Şərur qəzasının iqtisadiyyatında çox mühüm yer tutan sabiq Şəngirey (bəzi mənbələrdə Şahingirey) malikanəsinin bərpası Şərur qəza icraiyyə komitəsinə tapşırıldı.

Azərbaycan K(b)P Naxçıvan Ölkə Partiya Komitəsi gələcək aclıq dəhşətlərinə qarşı tədbir məqsədilə 23 sentyabr 1923-cü ildə ölkə torpaq şöbəsinin toxum fondu, maldarlıq və otlaq məsələlərini müzakirə edərək rayonlara qısa və uzun müddətli borc toxum verilməsini ölkə torpaq şöbəsinə və kənd təsərrüfatı kooperasiya mərkəzinə-Keybirliyinə tapşırdı.

Ölkə, qəza və nahiyyə torpaq şöbələrinə tapşırılırdı ki, toxum fondunun bölüşdürülməsində sinfi siyasətə ciddi riayət edilsin. Göstərişdə deyilirdi ki, hər bir yoxsul kəndli təsərrüfatına 2 puddan 5 pudadək borc toxum buraxılsın.

Məlumdur ki, dövlət gəlirləri ölkənin iqtisadi varidatları və sərvətləri ilə bağlıdır. Buna görə vahid kənd təsərrüfatı ərzaq vergiləri ölkədə məhsul bolluğu yaradılması ilə əlaqədar idi. Məhz belə bir bolluq yaratmaq və əhalini aclıqdan qurtarmaq üçün kəndlilərə borc toxum buraxılması yolu ilə kifayətlənmək olmazdı. Digər üsul və vasitələrdən də istifadə etmək məqsədəuyğun olardı.

Bir tərəfdən ölkənin dağılması, digər tərəfdən əksinqilabçı ünsürlərin taxıl tədarükü sahəsində törətdikləri süni narazılıqlar nəticəsində kənardan 280 min pud taxıl gətirilməsinə ehtiyac vardı. Bu vəziyyəti yalnız kənd təsərrüfatını kooperativləşdirmə və ona dövlət maliyyə yardımı yolu ilə aradan qaldırmaq mümkün ola bilərdi. Kənd təsərrüfatını inkişaf etdirmək və yeni iqtisadi siyasət şəraitində ortabab və yoxsul kəndliləri qolçomaqların istismarından qurtarmaq üçün kooperativləşmənin çox böyük əhəmiyyəti var idi.

Yuxarıda deyildiyi kimi, ölkədə aclığı aradan qaldırmaq və kənd təsərrüfatını bərpa etmək üçün yeganə yol kənd təsərüfatının kooperativləşdirilməsi və dövlət maliyyə yardımı vasitəsilə mövcud çətinliyi aradan qaldırmaq idi. Bütün ölkədə olduğu kimi, Naxçıvanda da yeni iqtisadi siyasətə keçməklə kənd təsərrüfatında müəyyən irəliləyiş və sabitlik yaranmışdır (6, s.375). Zəhmətkeşləri kollektiv əməyə alışdırmaq, gələcək kollektiv təsərrüfatın təşkili məqsədilə inqilab komitəsi ilk dəfə olaraq torpaq əmək kommunası təşkil etmişdir.

Yeni iqtisadi siyasət milli iqtisadiyyatın bərpası ilə, xüsusi sahibkarlığın tətbiqinə və bazar münasibətlərinin canlandırılmasına yönəlmişdi. YİS-in əsas məzmunu bazarın istifadəsi və müxtəlif mülkiyyət formaları, güzəştlər şəklində xarici kapitalın cəlb edilməsi və pul islahatlarının aparılması (1922-1924) idi. Nəticədə rubl tədavül olunan valyutaya çevrildi.

Beləliklə, Sovet dövründə yeni iqtisadi münasibətlərə keçid V.İ.Leninin 15 mart 1921-ci il tarixli «Ərzaq sapalağının ərzaq vergisi ilə əvəz edilməsi haqqında» məruzəsindən sonra başlandı. Yeni iqtisadi siyasət dövründə mülkiyyətin müxtəlif formaları mövcud idi. Həmin illərdə dövlət kapitalı əsasında fəaliyyət göstərən səhmdar cəmiyyət tipli milliləşdirilmiş müəssisələrin təşkilinə səy göstərilsə də, cəhdlər müvəffəqiyyətlə nəticələnmədi.

Yeni iqtisadi siyasətin ilk dövrlərində Naxçıvan bölgəsində müəyyən uğurlar əldə edilmişdi. Suvarma və əkinəyararlı torpaq sahələri genişləndirmiş, toxum fondu və kəndlərdə aqronom məntəqələri şəbəkələri yaradılmağa başlanmış, kənd təsərrüfatına verilən kredit artırılmışdı. Müəyyən qədər ərzaq vergisi əldə edilmiş, əkin sahələrinin artmasında dönüş yaradılmışdır. Kəndli qalan məhsulunun tam sahibi olmaqla onu bazarda satmaq imkanı əldə etmişdi. Bunlarla yanaşı, fəhlələrlə kəndlilərin iqtisadi əlaqəsinin inkişafı üçün əlverişli zəmin hazırlanmışdı. Maddi maraqlandırma prinsiplərinin tətbiqi əməyin ödənilməsi formalarına əhəmiyyətli dəyişikliklər etməyə imkan vermiş, bunun da nəticəsində əmək haqqı pul şəkli almağa başlamışdı. Bolşevik hakimiyyətinin sosial-iqtisadi siyasət sahəsində yol verdiyi yanlışlıqlar və buraxdığı səhvlər Naxçıvana da ciddi təsir etmişdir. Yuxarıda sadalanan uğurlara baxmayaraq, milli-müstəmləkəçilik siyasətinin gücləndirilməsi və sosialist yenidənqurmasının fəlakətli tədbirlərindən biri olan zorakı kollektivləşdirmə-fərdi kəndli təsərrüfatlarının kollektiv təsərrüfatlara cəlb edilməsi nəticəsində bölgənin kənd təsərrüfatına ciddi zərər vuruldu. Bütün bunlar Naxçıvan regionunun sosial-siyasi həyatına da təsirsiz ötüşmürdü.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: Yeddi clddə, VI cild. Bakı: Elm, 516 s.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA): f.417, siy.1, iş 9
3. ARPİİSSA: f.95, siy.1, iş 7
4. Lenin V. Əsərlərinin tam külliyyatı, cild 32
5. Məmmmədov N., Əhmədova İ. Yeni iqtisadi siyasət dövründə iqtisadi münasibətlər və sosial siyasət (1921-1925-ci illər). Tarix və onun problemləri, №1, 2019, s.47-51
6. Naxçıvan tarixi: Üç clddə, II cild. Naxçıvan: Əcəmi NPB, 2014, s.412-423
7. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA), f.40, siy.1, iş 7
8. NMRDA, f.40, siy.1, iş 21
9. NMRDA, f.63, siy., iş 3
10. NMRDA, f.379, siy.7, iş 696
11. Səlimov M. Azərbaycan Kommunist Partiyası yeni iqtisadi siyasətə keçid dövründə. Bakı: Azərnəşr, 1959, 123 s.

12. Декреты Азревкома (1920-1921 гг.) Баку: Азернешр, 1988, 519 стр.
13. Коллективизация сельского хозяйства в Азербайджане. Сборник документов и материалов, в 3-х томах, т. I (1927-1929 годы). Баку: Издательства «Элм», 1982, 323 стр.

## SUMMARY

**Yashar Rahimov**

## NAKHCHIVAN IN THE PERIOD OF THE NEW ECONOMIC POLICY (1921-1925)

As you know, in March 1921, the RK (b) P X Congress decided to move to a new economic policy (NEP). From then on, along with other Soviet republics, the transition from the policy of "military communism" to the new economic policy (NEP) began in practice in the Azerbaijan SSR and in Nakhchivan, which is an integral part of it. As in other parts of the country, in the Nakhchivan region, the remnants of food stalks were abolished, the natural food tax was introduced, trade independence was allowed, local characteristics were taken into account, and so on. The implementation of the NEP in Nakhchivan aroused the interest of the villagers to increase agricultural production and enabled them to use their products as they wished. In other words, significant changes have taken place in the field of food policy in the region since then.

In 1922-1924, in order to eradicate poverty and hunger in the region, a food tax was introduced instead of a food stalk, and the use of the new economic policy method was expanded. Irrigation and arable lands have been increased, a seed fund and a network of agronomist stations have been established in the villages, and loans to agriculture have been increased. A certain amount of food tax has been obtained, and a turning point has been created in the increase of arable lands.

***Key words:*** *new economic policy (NEP), Nakhchivan, food tax, land, peasant, agriculture, farming, collectivization*

## РЕЗЮМЕ

**Яшар Рагимов**

## НАХЧЫВАН В ПЕРИОД НОВОЙ ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ (1921-1925 г.)

Как известно, в марте 1921 г. Сьезд РК (б) П X принял решение перейти к новой экономической политике (НЭП). С тех пор, наряду с другими советскими республиками, переход от политики «военного коммунизма» к новой экономической политике (НЭП) начался на практике в Азербайджанской ССР и в Нахчыване, который является ее неотъемлемой частью. Как и в других частях страны, в Нахчыванской области были отменены остатки продовольственных стеблей, введен налог на натуральные продукты питания, разрешена торговая независимость, приняты во внимание местные особенности и так далее. Внедрение НЭП в Нахчыване вызвало интерес жителей села к увеличению сельскохозяйственного производства и позволило им использовать свою продукцию так, как они хотели. Другими словами, с тех пор произошли значительные изменения в области продовольственной политики в регионе.

В 1922-1924 годах,чтобы искоренить бедность и голод в регионе, вместо продовольственного стебля был введен налог на продукты питания, и было расширено использование нового метода экономической политики. Увеличены ирригационные и пахотные земли, в деревнях создан посевной фонд и сеть агрономических станций, увеличено кредитование сельского хозяйства. Определенная сумма налога на продукты питания была получена, и поворотный момент был создан в увеличении пахотных земель.

***Ключевые слова:*** *новая экономическая политика (НЭП), Нахчыван, продовольственный налог, земля, крестьянин, сельское хозяйство, фермерство, коллективизация*

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev*
***Məqalə daxil olmuşdur:*** *01 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 19-24
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 19-24
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 19-24

**SEHRAN SƏFƏROV**
*AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutu*
*sehran.safarov@mail.ru*

**UOT: 327-027.21**

# XIX ƏSR-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BÖYÜK BRİTANİYANIN CƏNUBİ QAFQAZDA VƏ MƏRKƏZİ ASİYADA MARAQLARI OLAN RUSİYA VƏ İRAN İLƏ MÜNASİBƏTLƏRİ

*Məqalədə Böyük Britaniyanın Cənubi Qafqaz və Mərkəzi Asiyadakı milli maraqlarından, o cümlədən region dövlətləri Rusiya, İran və Türkiyə ilə olan münasibətlərindən bəhs olunur. Böyük Britaniyanın həmin dövr üçün Çin, Hindistan, Əfqanıstan və İrandakı nüfuzunun yüksəlməsi, Cənubi Qafqazda milli maraqlarının artması, İran və Osmanlı imperiyalarına qarşı işğalçılıq müharibələri və Çar Rusiyası ilə hegemonluq uğrunda mübarizəsi məqalədə əhatəli şəkildə tədqiq və təhlil olunmuşdur.*

***Açar sözlər:*** *geosiyasi, Cənubi Qafqaz, hərbi-strateji, iqtisadi-siyasi, işğalçılıq siyasəti, hərbi ittifaq, hərbi qüvvə, milli maraq, neft amili, beynəlxalq güclər, Xəzər regionu*

XIX əsrin sonu - XX əsrin əvvəllərində Cənubi Qafqazda və Mərkəzi Asiyada daha da qızğın şəkil alan İngiltərə və Rusiya geosiyasi rəqabətinin əsas göstəricilərini, o dövr üçün mövcud olmuş Böyük Britaniya münasibətlərində nəzərdən keçirmədən təhlil etmək mümkün deyildir.

Artıq XIX əsrin 60-cı illərindən başlayaraq, Qafqazın Rusiya tərəfindən bütünlüklə istila olunması, Britaniya-Rusiya geosiyasi qarşıdurmasını Mərkəzi Asiya, Əfqanıstan və İran istiqamətinə doğru genişlədi. XIX əsrin 70-80-ci illərində baş verən hadisələr Mərkəzi Asiyada iki gücün, Rusiya ilə Britaniyanın toqquşmasına səbəb oldu. Bu iki dövlətin strateji hədəfləri hərbi qüdrətlərini nümayiş etdirmək məqsədilə artıq istila olunmuş ölkələrdə hakimiyyətlərini möhkəmləndirməkdən və vacib ticarət kommunikasiya magistrallarına nəzarət etməkdən ibarət idi. Bu qarşıdurmanın mərkəzində isə hələlik o dövrdə Əfqanıstan adını almayan bölgə dayanırdı.

Rusiya ilə İngiltərənin Əfqanıstan və İrandakı rəqabəti Mərkəzi Asiyada rus-ingilis qarşıdurmaları ilə sıx əlaqədə idi. Bu böyük Şərq ölkəsi İngiltərə üçün vacib strateji əhəmiyyətə malik olmuşdur. Bu nöqteyi-nəzərdən ilk olaraq Cənubi Azərbaycan, daha sonra isə Xorasan Böyük Britaniyanın diqqət mərkəzinə düşdü [7, s.284].

Hərbi-strateji nöqteyi-nəzərdən İranın ən zəngin, əhali cəhətdən daha sıx bölgəsi olan Azərbaycan əyalətləri Qafqazdan rus qoşunları üçün asanlıqla əldə olunan qənimət kimi görsənsə də, İran körfəzinin sahili Britaniya hərbi dəniz qüvvələrinin nəzarəti altında idi.

XIX əsrin sonunda siyasi cəhətdən süqut edən Qacar İranı Rusiya və İngiltərənin bölgədəki fəallığının artırılmasına şərait yaratdı. Britaniyanın İrandakı maraqları Şərqi-Hind topraqlarının hakimi C.N.Kerzonun fikrincə, üç kateqoriyaya ayrılırdı: *-iqtisadi, -siyasi, -strateji*

İngiltərə üçün hər üçü mühüm əhəmiyyət kəsb etsə də, XX əsrin əvvəllərində sonuncu iki kateqoriya ön plana çıxamağa başladı. Kerzonun fikrincə, Rusiya həm coğrafi, həm də tarixi baxımdan Şimali İrana böyük üstünlük verirdi. Britaniya isə, əsasən, öz səylərini ölkənin mərkəzi və cənub hissələrinə yönəltməyə məcbur idi.

XX əsrin əvvəllərində kəskin sosial-siyasi böhran ilə qaşılaşan İranın sonradan zəifləməsi bu ölkədə ingilis-rus rəğbətini daha da kəskinləşdirdi. Rusların İrana soxulması ilə bağlı real təhükə yarandı və bu da təbii olaraq İngiltərəni narahat etməyə bilməzdi. Rus qoşunlarının şimaldan Təbrizə və ya Məşhədə doğru hərəkət edəcəkləri təqdirdə ingilislər Əfqanıstanın, Belucistanın və Sistanın sərhədləri boyu, eləcə də, İran körfəzində strateji baxımdan vacib olan nəzarəti həyata keçirməyi planlaşdırırdılar. İngiltərənin elçisi Ç.Xardinq əsaslı olaraq hesab edirdi ki, "rusların məqsədi Hindistanın sərhədlərinə çıxmaq imkanını qazanmaq üçün Sistanın cənubuna doğru soxulmaqdan ibarətdir" [3, s.312].

Lakin Rusiya kimi İngiltərə də həmin dövrdə biri Uzaq Şərqdə (Yaponiya ilə), digəri isə Afrikanın cənubunda (I-II Bur) müharibələrə qoşuldular və bu da təbii olaraq bu regionda öz strateji maraqlarının təmin olunması üçün onlara daha fəal hərbi əməliyyatlar keçirmək imkanı vermirdi. Rəqabət, əsasən, diplomatik səviyyədə və hər iki dövlətin məxfi xidmətlərinin İranda hökmranlıq edən Qacar rejiminə güclü təsir göstərmələri naminə çəkişmələr çərçivəsində qaldı.

Çar I Aleksandrın ölümündən sonra Rusiya taxtına oturan I Nikolayı təbrik məqsədilə təcili Petroqrada gedən ingilis elçisi Vellinqton Qacar və Osmanlı dövlətlərinə qarşı aparılacaq müharibələrdə Rusiyaya dəstək verəcəyini açıqladı [7, s.241].

Həmin dövrdə Qafqazda Rusiya-Qacar, Misirdə Osmanlı-İngilis, Balkanlarda isə Rusiya-Osmanlı və İngilis münasibətləri kəskinləşmişdi. Lakin bölgədə yaşanan hadisələr Rusiya ilə İngiltərə arasındakı münasibətlərdə ayrılığa səbəb oldu. Belə ki, I Nikolayın Balkanlarda "panslavyanizm", Mərkəzi və Yaxın Şərqdə isə "xristianlıq" siyasəti Böyük Britaniyanı narahat etdi. 1829-cu ildə Rusiya ilə Osmanlı arasında imzalanan Ədirnə müqaviləsi ilə Anadoludan 90 mindən çox erməni İrəvan xanlığına aid Türk torpaqlarına köçürüldü. Oxşar maddə 1828-ci ildə Qacarlarla imzalanan Türkmənçay müqaviləsində də yer alırdı. Qacar ölkəsinin müxtəlif yerlərində yaşayan 40 minlik erməni Qarabağ xanlığına aid torpaqlara nəql edildilər. Rusiya bunula Cənubi Qafqazda xristian-lardan ibarət bir "bufer zona" yaratmaq niyyətində idi [10, s.62].

İngiltərə Yaxın və Mərkəzi Asiyada Rusiyanın özünün "xristianların hamisi" (müdafiəçisi) elan etməsindən narahat idi. İngiltərənin əsas məqsədi bu bölgədə "mandat bölgələri" yaradaraq öz nüfuzunu gücləndirmək istəyirdi. Bu mənada İngiltərə Qacar və Osmanlı ölkəsindəki ermənilərə özünün yerli dəstəkçiləri gözü ilə baxırdı. Ermənilərin Rusiya nəzarəti altına keçməsi və Cənubi Qafqaza köçürülməsi İngiltərənin bölgədəki planlarını pozmuşdu. Rusiyanın məqsədi ermənilərlə birlikdə süryani, nəsturi, assuri və yunan qruplarını da Qafqaza köçürmək niyyətində idi. Lakin İngiltərə bu prosesin qarşısını müəyyən qədər aldı [19, s.373].

Rusiyanın apardığı işğalçılıq siyasəti bölgədə bəzi yeni ittifaqların yaranmasına şərait yaratdı. Həm Rusiyanın apardığı işğalçılıq, həm də İngiltərənin apardığı ikiüzlü siyasətdən narahat olan Qacar İranı ilə Fransa arasında dostluq münasibətləri təsis olunarkən, İngiltərə ilə Osmanlı bir-birinə yaxınlaşdılar.

Balkanlarda isə Fransa Rusiyaya qarşı İngilis-Osmanlı imperiyası ittifaqının yanında yer aldı. 1853-1856-cı ildə meydana gələn Krım müharibəsində I Nikolay böyük yara aldı və bu məğlubiyyət Rusiyanın işğalçılıq siyasətini bir müddət dayandırdı. Lakin Krım müharibəsində nə Fransa, nə də İngiltərə aktiv rol oynamadılar.

İngiltərə eyni tarixdə Əfqanıstanda Qacar İranı ilə müharibə halında idi. Əfqanıstanda Məhəmməd Yusif Xan və Dost Məhəmməd xan Nəsrəddin şah Qacardan kömək istədiklərində Qacar hökmdarı bölgəyə ordu göndərdi. Belə olan təqdirdə İngiltərə 1853-cü ildə Qacar dövlətinə müharibə elan etdi. 1856-cı ildə İngiltərə donanması Bəsrə körfəzinə soxularaq Haq adasını işğal etdi. Qurudan isə ingilis orduları Buşehir istiqamətindən Şiraza doğru hərəkət etməyə başladı. General Ceymis Qutram-ın rəhbərliyindəki ingilis ordusu 1857-ci ildə Qacar ordusunu məğlub edib Xuzistana girdi. Muhəmmərədən quruya çıxan digər bir ingilis ordusu Əhvaza doğru hərəkət etrməyə başladı. Bəsrə körfəzində isə Oman sultanı Musaqqat ingilislərin təzyiqi ilə Bəndər Abbasa hücum edərək Qacarları arxadan vurdular [13, s.23, 24, 34].

Bundan sonra İngiltərənin qoyduğu şərtləri rədd edən Nəsrəddin şah Fransanın vasitəçiliyi ilə 1857-ci ildə İngiltərə ilə razılığa gəldi. Fransa kralı III Napolion (1852-1870) bu dövrdə gərginləşən İngilis-Qacar münasibətlərindən istifadə edərək bölgədəki mövqeyini yaxşılaşdırması, İngiltərənin yenidən Rusiya ilə yaxınlaşmasına səbəb oldu [17, s.87].

1870-1871-ci illərdə Fransanın Almaniyaya məğlub olması, Almaniya kansleri Otto Fon Bismarkın Balkanlarda və ümumiyyətlə, Avropa qitəsində İngilis təsirini azaltmaq üçün Rusiya ilə apardığı yaxınlaşma siyasəti bölgənin yenidən qarışmasına səbəb oldu. Rusiya Krım müharibəsində itirdiyi haqları geri qazanmaq üçün həm Qafqazda, həm də Balkanlarda Osmanlıya qarşı müharibəyə başladı. 1877-1878-ci illərdə meydana gələn və Ayastefanos müqaviləsi ilə Anadolunun şərqinin işğalı ilə nəticələn bu hadisələr Cənubi Qafqazın ağır günlərinin başlanğıcı oldu. Belə ki, Rusiyanın təsiri ilə Anadoluda sürətlə təşkilatlanmağa başlayan ermənilər Anadolu və Cənubi Qafqazda müsəlman-türkləri hədəf alan siyasi və hərbi təbliğata başladılar. 1878-ci ildə, 1815-ci il Viyana konfransından sonra dünya siyasi münasibət-lərini yenidən tənzim edən Berlin konransında Osmanlı ilə imzalanan müqavilədə ilk dəfə "erməni

məsələsi” beynəlxalq münasibətlər sisteminə daxil edildi. Bu konfransda İngiltərə Anadolu və Qafqaz üçün “güclü bir əl” anlayışını dilə gətirmiş və bununla da özünün bölgədə nəzarət mexanizmini yaratmaq istəyini ortaya qoymaq istəmişdir [9, s.197].

Eyni tarixdə Rusiya İran üzərində təsirini daha da artırmağa başladı. Belə ki, Rusiya üçün İran həm Cənubi Qafqazda, həm də Xəzər regionunda imperiyanın cənub sərhədlərinin təhlükəsizliyinin təmin olunması nöqteyi-nəzərindən vacib strateji əhəmiyyətə malik idi. Həmçinin İran sərhəd mübahisələri əsnasında Türkiyə ilə daima münaqişə aparırdı. XIX əsrin 70-ci illərində Rusiya-Osmanlı münasibətlərinin daha da kəskin şəkil alması ilə Osmanlı imperiyasının timsalında Rusiya İranla olan münasibətlərini daha da canlandırdı. Çünki Rusiya Osmanlıya qarşı müharibə apardığı sırada İranla münasibətlərin kəskinləşməsini istəmirdi. Cənubi Qafqazda əhəmiyyətli hərbi qüvvənin varlığı və bu ölkənin rus bazarından iqtisadi baxımdan asılı olması faktoru Rusiyanın İrana qarşı təsirinin artmasına yardım edirdi. Rusiya 1869-cu ildə İranla əldə etdiyi razılaşmaya əsasən Xəzər dənizində balıq ovçuluğu imtiyazı əldə etdi. Erməni əsilli bir tacir Lianazov həmin imtiyaza əsasən Xəzər dənizi sahillərində balıq ovçuluğu haqqında şəhadətnamə əldə etdi. Lakin daha sonra bu imtiyaz Şilat şirkəti tərəfindən icra olunmağa başladı [8, s.207].

Qacar İranı ilə Rusiya arasında Azərbaycan torpaqlarının bölüşdürülməsinə baxmayaraq iki ölkə arasındakı münasibətlər kəsilməmişdi. İki Azərbaycan arasında mədəni və ticari münasibətlər davam edirdi. Xüsusilə də Bakının sənaye şəhəri olaraq inkişafında sonralar İrandan çoxlu sayda insan işlə bağlı Bakıya köçüb gəlmişdi. Bakı eyni zamanda İran-Rusiya ticarətində böyük rol oynayırdı. Belə ki, İran Rusiyanın Asiya ölkələrinə çıxış qapısı idi. Buna görə də Rusiya İran əlaqələrini canlı tutmaqla İngiltərənin nəzarəti altındakı Hindistan və digər Asiya ölkələri ilə ticari münasibətlərini qorumağa cəhd edirdi. Eyni zamanda Rusiya İrana neft və digər məhsullar sataraq İranda özünə kifayət qədər təsirli bazar yaratmışdı. 1890-1900-cü illər arasında Rusiya-İran ticarətində ana nöqtə Bakı idi. Həmin tarixlərdə Bakıdan İrana neft, metal, şüşə, çini, saxsı qablar, pambıq, parça və taxıl məhsullarının aparılması ilk sırada yer alırdı.

Bakının İran və ingilis Hindistanı ilə ticarətdəki əhəmiyyətinin artmasının digər bir səbəbi isə Bakının Rusiyanın topdansatış anbarına çevrilməsi və buradan gələn malların ucuzluğu idi. Belə ki, dövrün “Kaspi” qəzeti buna diqqət çəkərək yazırdı: “Kiyev, Odessa və başqa şəhərlərdən əhəmiyyətli miqdarda qənd gətirilməsilə əlaqədar olaraq, Bakının topdansatış anbarlarında qəndin qiyməti 20 qəpik azalaraq pudu 6 manat 20 qəpikdən 6 manata enmişdi” [6].

1870-ci ildə Rusiya Odessa-Tiflis-Təbriz yolu ilə Tehran-Ofuski arasında teleqraf xətti çəkmək imtiyazı əldə etdi. Bu imtiyazın şərtlərini həyata keçirmək üçün ruslar İranda “Bank-ı İstikrazi” (Banque d`ecompte de Perse) adı altında bank yaratdılar. 1890-cı ildə bankın işlətmə haqqı Rafloviç və Poliakovun əlində idi. Daha sonra ingilislər İranda “Bank-ı Şahənşahi”ni yaradaraq ona rəqib olmuşdular [18, s.361].

1879-cu ildə Rusiya Qacar İranında daha bir imtiyaz əldə etdi. Buna görə, Rusiya İranın mərkəzi şəhərlərində hərbi müşavirliklər yarada biləcək və İran ordusuna Kazak orduları nizamına görə təlimlər verəcəkdi. Qacar hərbi nazirliyinə bağlı olan rus-kazak komandanları İran ordusunda geniş səlahiyyət sahibi oldular. Kazak komandanlarının bir çoxunun erməni olması, daha sonra bölgədə meydana gələn türklərin qətliamında kazakların təsiri olmasına səbəb olmuşdur. Nəsrəddin şah Avropa səyahətinə çıxarkən Petroqrada gəlmiş və burada çarla imzaladığı müqaviləyə əsasən “Kazakxanə-yi Şahənşahi” adı ilə İranda ordu məktəbi yaradılmış və onun müəllimləri ruslar təyin edilmişdi. Maraqlı cəhətdir ki, “Kazakxanə-yi Şahənşah” Rusiyanın Qafqaz ordu komandanlığına sistemli hesabat verirdi [12, s.301].

1889-cu ildə ruslar Ənzəli və Tehran küçələrinin bərpasını, Culfa-Təbriz dəmiryolları xəttinin çəkilməsini, Xəzər dənizinə tökülən çaylarda gəmiçiliyin inkişafını, banklarda dövlət məmurlarına borc və kredit verilməsi kimi bir sıra imtiyazlar əldə edərək Qacar dövlətini mal cəhətdən öz nəzarətləri altına saldılar [12, s.304].

Əldə olunan bu imtiyazlar Rusiyanın İran, Hindistan, hətta Uzaq Asiyaya qədər uzanan ticarətində Azərbaycanın, xüsusilə də Bakının mərkəzi şəhər olmasına yol açdı. Bu ticarətdə ağ neft başlıca rol oynayırdı. Bakıdan gedən ağ neft başlıca olaraq Astara, Məşədəssər, Ənzəli və Astarabad zavodlarına göndərilirdi. Bakı neftinin İrandakı qiyməti yerli bazarda əldə edilən neftdən 30 qəpik bahalı idi. Bununla bağlı “Kaspi” qəzeti belə yazır: “İndiki vaxtda İranın yerli zavodlarında istehsal edilən bir pud ağ neftin qiyməti İranda 75 qəpiyə satıldığı halda, Bakıdan idxal edilən ağ neftin bir

pudu 1 manat 5 qəpikdən ucuz verilmir” [5].

Bu dövrdə Rusiya ilə İngiltərə arasında gedən başlıca mübarizə Bakı nefti uğrunda idi. İngiltərə bu dövrdə İranda, xüsusilə də cənub bölgələrində ciddi neft axtarışlarına girmiş, lakin istədiyi məqsədə çatmadığında Bakı neftinin dünyadakı yüksəlişinin qarşısını almağa cəhd göstərmişdi. İngilis şirkətlərinin Bakıda inhisarlaşmasının bir səbəbi də bununla bağlı idi. Bakı nefti Rusiya bazarlarında Amerika neftini sıxışdırıb sıradan çıxartdıqdan sonra Avropada da onunla ciddi rəqabətə girdi. İlk illərdə Bakı neftinin Avropaya ixracı çox ləng gedirdi. Belə ki, 1881-ci ildə Rusiyadan Avropa ölkələrinə 130 min pud, 1882-ci ildə 230 min pud neft ixrac edilmişdi [1, s.158].

1883-cü ildə Bakı ilə Batum arasında dəmir yolunun işə düşməsi Bakı neftinin Avropa bazarlarına çıxarılmasında mühüm rol oynadı. Dəmir yolu vasitəsilə Bakıdan Batuma aparılan neft məhsulları oradan dəniz nəqliyyatı ilə Avropanın müxtəlif ölkələrinə daşınırdı [20, s.33].

Bakının Avropa ticarətində böyük gücə çevrilməsi Böyük Britaniya sərmayədarlarını narahat edirdi. Ancaq ingilisləri daha çox narahat edən Bakının ticarət qollarının Hindistana və Uzaq Asiyaya qədər yayılması idi. Belə ki, qeyd edilən illərdə Bombeydə Bakı nefti satılır və birjalarda mühüm yer tuturdu.Uzaq Şərq limanlarına isə 1891-ci ildə Bakıdan 90,5 milyon pud ağ neft getmişdi [14, s.112].

Avropaya idxal edilən neft məhsullarının orta hesabla ildə 76,5 faizi Amerikanın, 23,5 faizi isə Rusiyanın hesabına düşürdü. Asiya bazarına gəldikdə isə burada Rusiya neftinin xüsusi çəkisi daha yüksək idi. Onu göstərmək kifayətdir ki, 1888-1896-cı illərdə Asiya bazarına daxil edilən 382,9 milyon pud neftin 140,6 milyon pudu və ya 37,8 faizi Bakının payına düşürdü.

1872-ci ildə alman əsilli olduğu halda İngiltərə vətəndaşlığını qəbul edən Baron Culius Röter (Julius Reuter) Nəsrəddin şahdan İranda qiymətli mədənlər xaricində digər mədənlərin və neftin axtarışı haqqında imtiyaz əldə etdi. Əldə olunan bu imtiyaz şahın şəxsi həkimi fransız Touluzanı, Lord Kerzonu, Sykesi və digər bütün əcnəbi casusları heyrətləndirmişdi. Belə ki, bu heyrətə səbəb şahın ölkəsinin bütün mədənlərini, yeraltı sərvətini sərmayəsi və bunları çıxartmaq üçün kifayət qədər texniki imkanı olmayan bir şəxsə verməsi olmuşdu [16, s.60].

Rötera verilən bu imtiyaz Rusiyanın şaha güclü təzyiq göstərməsinə səbəb oldu. Beləcə, bölgədə İngiltərə ilə Rusiya arasında münasibətlər yenidən kəskinləşdi. 1872-1889-cu illər arasında gedən kəskin mübahisələrdən sonra Röter 16 illiyinə İranda neft axtarma haqqı əldə etdi. Röter İranda əvvəlcə bir bank (Bank-ı Şahənşahi), sonra da “İran Mədən Şirkəti”ni (The Persian Mining Coporation) təsis etdi. Röter Rusiyanın təzyiqini azaltmaq məqsədilə İngiltərə ilə razılaşıb, İran-İngiltərə ortaq şirkətini də bu imtiyaza daxil etdi. Sərmayəsi 1 milyon fund-sretlinq olan şirkətə daha sonra rus, fransız və Belçika sərmayədarları da daxil edildilər. Beləliklə, bir növü İran nefti üstündə razılaşma əldə edildi [4, s. 252].

İranda qədimdən etibarən neft yataqlarının olduğu məlum idi. Qacar məmurları da bəzi yataqlar haqqında gizli məlumata sahib idilər. Həmin məmurlardan biri Qacar gömrüyündə uzun müddət çalışan erməni əsilli Kitabçı xan İngiltərəyə gedərək gizlicə məlumatları Viliam Noks d'Arsiyə (William Knox d`Arcy) satdı. Arsi 1901-ci ildə Marriot adlı nümayəndəsini Kitapçı xanla birlikdə İrana göndərdi. Qacar dövləti ilə aparılan danışıqlarda İngiltərənin Tehran elçisi Artur Hardinqin köməkliyi ilə Arsi neft axtarışı haqqında bir imtiyaz əldə etdi. Lakin Arsinin fəaliyyətləri Rusiyanın narazılığına səbəb olduğundan Qacar şahı, ingilislərə verilən axtarış şəhadətnaməsinə Azərbaycan, Gilan, Mazandaran, Qorqan və Xorasanın adlarını daxil etmədi. Arsi neft müqabilində hər il İrana 20 min fund-sterliq ödəməyi öhdəlik olaraq öz üzərinə götürdü. İrandakı neft axtarışları üçün isə 600 min fund-sterlinq pul ayırdı. Bundan sonra Qəsri-Şirində ingilislər neft axtarışına başladılar. Axtarışlar nəticəsində 1908-ci ildə Süleymaniyədə neft yataqları tapıldı və beləcə, Xuzistan bölgəsində ingilislər zəngin neft yataqlarının olduğunu kəşf etdilər [12, s. 253].

İranda neft axtarışlarını sürətləndirən İngiltərə əvvəlcə “Sendika-yi İmtiyazat”, 1909-cu ildə isə “İngiltərə və İran Neft Şirkəti”ni (Anglo-Persian Oil Company) quraraq, buraya illik 2 milyon funt-sterling sərmayə qoydu. Beləliklə, İngiltərə bölgədə Bakı neftinə alternativ İran nefti çıxardaraq, sürətlə Asiya bazarındakı neft tələbatını öz nəzarəti altına aldı [11, s.51].

İranda neft yataqlarının tapılması bir anda dünya güclərinin diqqətini bölgəyə çevirdi. Rusiya, İngiltərədən başqa, Almaniya da bölgədə imtiyazlar əldə etmək üçün şah rejiminə təsir etməyə başladı. Rusiya Azərbaycanda da neft yataqlarının olduğunu fikirləşirdi. Bu məqsədlə Cənubi Azərbaycanda, Mazandaran və Xorasanda gizli çalışmalar aparırdı. İkinci Dünya müharibəsi illərində İngiltərənin baş naziri olan Çörçül özünün “Dünya böhranı” adlı kitabında İranda neftin tapılmasının

İngiltərə üçün əhəmiyyətinə diqqət çəkərək, məhz bundan sonra ingilis gəmilərinin kömürdən neftə keçməyə başladığını qeyd edir. Onun sözlərinə görə, bu hadisə eyni zamanda Yaxın və Mərkəzi Şərqi dünya gücləri üçün dünyanın birinci dərəcəli sahib olunması gərəkən coğrafiyasına çevirmişdi [4, s. 254].

Böyük hesabla hərbi – siyasi və iqtisadi baxımdan zəif olan İran hər iki dövlətlər üçün sərfəli idi. Onun bölüşdürülməsi planlarına əsasən bu dövlətin süquta uğraması nəticəsində Rusiya İran körfəzinə sahib olaraq nəhayət ki, Hind okeanına çıxa biləcəkdi. İngiltərə Orta Şərqdə və Mərkəzi Asiyadakı əsas rəqibinin bu cür geosiyasi uğur əldə etməsinə heç cürə yol verə bilməzdi.

1905 – 1911-ci illərdə baş vermiş İran inqilabının Rusiyanın və İngiltərənin müdaxiləsi ilə məğlub olmasından sonra 1913-cü ilin əvvəllində Rus hökuməti şah rejimindən Culfa – Təbriz dəmir yolu xəttinin inşa olunması ilə bağlı konsessiya haqqını əldə etdi. Bu Cənubi Azərbaycanın sonrakı ilhaqı və Urmiya əyalətinin istila olunması, sonradan Şərqi Türkiyəyə hücum etmək üçün hərbi əməliyyatların vacib bazasına çevrilməsi üçün real ilkin şəraiti yaradırdı.

Ümumilikdə isə İranda kəskin Rusiya-İngiltərə rəqabəti Qacar ölkəsinin müstəqilliyinə tamamilə son qoyub müstəmləkəyə çevrilməsi ilə nəticələndi.

1914-cü ilin yayında başlayan Birinci Dünya müharibəsi İngiltərənin diqqətini Şərqdən Qərbə doğru çevirdi və Almaniya ilə sadəcə Avropanın deyil, dünyanın gələcək hegemonluğu üstündə çətin və qanlı bir mübarizəyə başladı. Rusiyanın Antantanın tərəfdaşı olması Cənubi Qafqazda Britaniya siyasətinin və ingilislərlə olan münasibətlərinin sonrakı inkişafında təyin edici oldu.

Azərbaycandakı ingilis–rus maraqlarını təmin edən hərbi-siyasi və geostrateji amillərin arxasında sadəcə, tək neft amilinin olduğunu düşünmək olmaz. Şübhəsiz ki, Bakı neft mədənlərinə sahib olmaq bütün beynəlxalq güclərin xəyalı idi. Lakin neftlə yanaşı, Qafqazın və Xəzər regionunun rolu, bölgənin gələcəyindəki təyin edici coğrafi şərtləri, dini və mədəni faktorlar da Azərbaycana marağı artırırdı. Ümumilikdə, Qafqaz kimi Azərbaycanın da öz güclü iqtisadi potensialı və həddən artıq sərfəli geostrateji vəziyyəti ilə bir çox onilliklər ərzində onu Şərqdə Rusiyanın və İngiltərənin ziddiyyətli qarşılıqlı münasibətlərinin vacib obyektlərindən birinə çevirmişdir. Fevral inqilabı, daha sonra isə baş vermiş Rusiyadakı 1917-ci il oktyabr çevrilişi qitənin praktiki olaraq bütün iri ölkələrini öz orbitinə çəkmişdi.

Beləliklə, 1917-ci ilin payızında İngiltərə, ABŞ və Fransa arasında bağlanan Rusiyaya "yardım" göstərmək prosesində onun fəaliyyətinin məhdudlaşdırılması haqqında razılaşma nəinki Rusiyanın daxili işlərinə geniş müdaxiləni nəzərdə tutmuş, eləcə də, onun nüfuz sahələrini bölüşdürməyə başlamışdır.

İngilis diplomatiyası hərbi əməliyyatların meydandakı vəziyyətindən asılı olmayaraq, Cənubi Qafqazı, Mərkəzi Asiyanı, ələlxsus Bakını və Xəzər neftini heç zaman diqqət mərkəzindən kənarlaşdırmamışdır.

Beləliklə Böyük Britaniyanın Rusiya ilə birgə Cənubi Qafqaz və Mərkəzi Asiyadakı milli maraqları, o cümlədən regionun nüfuzlu imperiyaları olan İran və Osmanlıya qarşı işğalçılıq siyasəti XX əsrin əvvələrində də davam etmişdir. Eyni zamanda Böyük Britaniya Rusiya ilə də rəqabət şəraitində mübarizəsini aparmışdır.

## ƏDƏBİYYAT


1. Ахундов Б.Й. Монополистический капитал в дореволюционной Бакинской нефтяной промышленности. Москва: 1959, с. 295
2. Bayur Yusif Hikmet. Türk İnkılap Tarihi. İstanbul: Maarif, 1940, 198 s.
3. Curzon George Nathaniel. Russia in Central Asia in 1889 and the Anglo Russian Question. London: 1889, 335 p.
4. Karadeniz Yılmaz. İran`da Sömürgecilik Mücadelesi ve Kaçar Hanedanı (1795-1925). İstanbul: Baskı, 2006, 485 s.
5. Kaspi qəzeti, № 14, 18 yanvar 1895
6. Kaspi qəzeti, № 23, 28 yanvar 1895
7. Kazımzadeh F. Russia and Britain in Persia 1864-1914, New Heaven: Yale University Press 1968, 720 p.
8. Kazımzadeh F. The Struggle For Transcaucasia 1917-1921, London: Anglo Caspian Press, 2008, 360 p.

9. Kieser Hans-Lukas, İskalanmış Barış, Doğu Vilayetleri`nde Misyonerlik, Etnik Kimlik və Devlet, 1839-1939, Tərcümə edən- Atilla Dirim, İstanbul: İletişim 2010, 343 s.
10. Kurat Akdes Nimet, Türkiye ve Rusya, Ankara: Kültür ve Turizm Bakanlığı 1990, 480 s.
11. Lambton A.K.S. Landlord and Persian in Persia, New-York: 1969, 490 s.
12. Mehdəvi Əbdürrəzzaqq Huşəng, Tarixi-rəvabıt-i xarici-yi İran, Tehran: 1379 hicri-şəms. 345 s.
13. Mehdiyev M., Beynəlmiləl siyasətdə petrol., Bakı: Azərnəşr, 1994, 295 s.
14. Монополитическийкапитал в нефтяной промышленности России, 1883-1914 гг., Москва-Ленинград 1961, с. 750
15. Musayev M.Ə. XIX əsrin sonlarında Bakı şəhərinin ticarəti. Bakı: Elm, 1972, 194 s.
16. Mustafa Fatih. Pencah Sal neft-i İran. Tehran: 1335 hicri-şəms, 89 s.
17. Mustəvfi Əhməd, Coğrafiya-yi umumi, Tehran 1332 hicri-şəms, cilt I, 190 s.
18. Şemim Əli Əsgər, İran dər dövrə-i səltənət-i Qacar: Tehran, 1379 hicri-şəms, 430 s.
19. Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi haqqında ətraflı məlumat üçün bax. Mahmudov Yaqub və d.müəlliflər: İrəvan xanlığı, Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Azərbaycan, 2010, s. 373-499
20. Фурсенко А.А. Нефтяные тресты и мировая политика. Москва-Ленинград: 1965, с. 496

## SUMMARY

**Sehran Safarov**

### THE RELATIONS OF GREAT BRITAIN WITH RUSSIA AND İRAN WHICH HAD INTERESTS IN THE SOUTH CAUCASUS AND CENTRAL ASIA IN THE 19TH AND EARLY 20TH CENTURIES

The article deals with the UK's national interests in the South Caucasus, including its relations with Russia, Iran, and Turkey, the countries of the region. Again the article investigated and analyzed the rise of Britain's influence in China, India, Afghanistan and Iran, the rise of national interest in the South Caucasus, the invasion wars against Iran and the Osmanli Empire, and the hegemonic struggle against Char Russia.

***Key words:*** *geopolitics, South Caucasus, military-strategic, economic-political, occupation policy, military alliance, military power, national interest, oil factor, international forces, Caspian region*

## РЕЗЮМЕ

**Сехран Сафаров**

### ОТНОШЕНИЯ ВЕЛИКОБРИТАНИИ С РОССИЕЙ КОТОРАЯ ИМЕЕТ ИНТЕРЕСЫ НА ЮЖНОМ КАВКАЗЕ И В ЦЕНТРАЛЬНОЙ АЗИИ В 19 - НАЧАЛЕ 20 ВЕКОВ

В статье рассматриваются национальные интересы Великобритании на Южном Кавказе, в том числе ее отношения с Россией, Ираном и Турцией, странами региона. Еще раз в статья исследовала и проанализировала рост влияния Британии в Китае, Индии, Афганистане и Иране, рост национального интереса к Южному Кавказу, войны вторжения против Ирана и Османлинской империи и гегемонистскую борьбу против царской России.

***Ключевые слова:*** *Геополитика, Южный Кавказ, военно-стратегический, экономико-политический, оккупационная политика, военный союз, военная мощь, национальный интерес, нефтяной фактор, международные силы, Каспийский регион*

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev*
***Məqalə daxil olmuşdur:*** *01 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 25-30
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 25-30
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 25-30

# SOSİAL ELMLƏR VƏ HÜQUQ

**ŞÜKÜR MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 341.24; 341.3**

## BEYNƏLXALQ HUMANİTAR HÜQUQ TARİXDƏ VƏ GÜNÜMÜZDƏ

*Dövrümüzdə insan hüquqları və beynəlxalq humanitar hüquq hər bir ölkədə demokratiyanın əsas meyarlarından biridir. Başqa sözlə deyilərsə, hər bir cəmiyyətdə bu hüquqlara hansı səviyyədə əməl olunması həmin cəmiyyətin demokratiya imicini müəyyən edir. Yüz illər boyu xalqların və dövlətlərin silahlı qarşıdurmaları, bütöv regionları əhatə edən, yüzminlərin və milyonların həyatını məhv edən, insan dramları yaşadan qanlı müharibələr səviyyəsinə qədər yüksəlmişdi.*

***Açar sözlər:*** *İnsan hüquqları, humanitar hüquq, hərbi əsirlər, silahlı münaqişələr, qırmızı xaç*

Beynəlxalq humanitar hüquq-ümumiyyətlə insan hüquqlarının bir hissəsi olub, silahlı münaqişələr zamanı tətbiq olunan, döyüşlərin aparılmasının müəyyən üsullarının və metodlarının tətbiqini qadağan edən və ya məhdudlaşdıran silahlı münaqişə dövründə fərdin hüquqlarının qorunmasına yönəlmiş beynəlxalq-hüquq normalarının məcmusuna deyilir (1, s.200).

Hərbi münaqişələr şəraitində beynəlxalq humanitar hüquq insan hüquqlarının müdafiəsində ən mühüm alətdir. Bu alət müharibə qurbanlarının və mülki əhalinin müdafiəsinin təmin edilməsi, həmçinin humanitar hüququn "ciddi pozuntularına" görə cəzaların labüdlüyünü və lazımi məsuliyyətin müəyyən edilməsini nəzərdə tutur.

Beynəlxalq humanitar hüquq anlayışı professor Jan Pikte tərəfindən hüquqi ədəbiyyata gətirilmişdir.

Beynəlxalq humanitar hüquq ümumiyyətlə müharibələri qadağan etmir. O, humanist mövqelərdən çıxış edərək, səbəblərindən, xarakterindən asılı olmayaraq, artıq başlanmış müharibənin müəyyən çərçivə daxilinə salınmasına səy göstərir. Bu halda iki başlıca məqsəd güdülür:

A) Hərbi əməliyyatların gedişində sıradan çıxmış hərbi qulluqçuları və mülki əhalini müdafiə etmək, onlarla humanist rəftar olunmasını təmin etmək;

B) Lüzumsuz zorakılığın və artıq əzab-əziyyətin qarşısını almaq məqsədilə döyüşlərin aparılmasının müəyyən metod və vasitələrini məhdudlaşdırmaq və ya qadağan etmək;

Beynəlxalq humanitar hüquq yalnız XIX əsrin II yarısından etibarən meydana gəlsə də, onun tarixi kökləri və ayrı-ayrı elementlərinə riayət edilməsi halları tarixin dərinliklərinə gedib çıxır.

Cəmiyyətin qarşı-qarşıya durduğu, dövlətlərin və hüququn meydana gəldiyi qədim zamanlardan etibarən, insanlığın tarixi-silahlı münaqişələr və müharibələr tarixidir. Yüz illər boyu xalqların və dövlətlərin silahlı qarşıdurmaları, bütöv regionları əhatə edən, yüzminlərin və milyonların həyatını məhv edən, insan dramları yaşadan qanlı müharibələr səviyyəsinə qədər yüksəlmişdi. Hərbi əməliyyatlar zamanı münaqişəyə girən tərəflər biri-digərini maksimum dərəcədə zəiflətmək üçün hər şeyi edirdilər: təsərrüfat obyektləri dağıdılıb talan edilir, şəhər və kəndlər xarabazarlığa çevrilirdi. Lakin daha dəhşətlisi olanı bütöv regionların əhalisinin başdan-başa məhv edilməsi, qədim tarixdə hər yerdə, orta çağlarda Şərqdə və Kolumba qədərki Amerikada yüz minlərlə insan qula çevrilib kölə bazarlarında satılması idi. Deportasiyalar, dövlət səviyyəsində tətbiq edilən terror, etnik və dini motivlərdən qaynaqlanan soyqırım əməlləri müharibələr zamanı adi hadisələr idi. Silahlı münaqişələr və müharibələr zamanı nəinki hərbi əsirlərin, habelə sivil əhalinin-qadınların, qocaların və uşaqların həyatı, sağlamlığı heç bir qanun və ya beynəlxalq normalarla qorunmurdu. Ayrı-ayrı istisnalar nəzərə alınmazsa, müasir dövrə qədər müharibələr zamanı qalib tərəf məğlublarla "cəngəllik qanunu"

prinsipi ilə və ya qədim romalıların dediyi "vay məğlubların halına" qaydası ilə rəftar edirdi. Lakin o qaranlıq zamanlarda belə, humanizm və insanlıq naminə ilk addımlar atılmağa başlanmışdı. Məsələn, hələ sivilizasiyadan əvvəlki Yeni Qvineyada yaşayan və müntəzəm olaraq bir-biri ilə vuruşan Papuas tayfaları hərbi əməliyyatlara başlamazdan əvvəl bir qayda olaraq onun vaxtını düşmən tərəfə xəbər verir və qarşı tərəf hazır olmadan müharibəyə başlamırdılar. Düşmənə artıq zərər yetirməmək üçün ox ucluqlarının diş-diş edilməsi qadağan olunmuşdu. Döyüşlər arası 15 gün müddətinə barışıq bağlanırdı ki, bu da yaralılara qayğı göstərilməsi üçün lazım idi. Barışıq elə müqəddəs sayılırdı ki, tərəflər cəbhə xəttinə gözətçilər qoymağı belə lazım bilmirdilər (4, s.11-12).

Tarixi qaynaqlar göstərir ki, sivilizasiyaya qədərki qədim xalqlar müharibələri qanunlar çərçivəsində aparır, qonaqlar (hətta bunlar düşmən tərəfi təmsil etsələr belə), məbəd divarları arxasına sığınanlar toxunulmaz hesab olunurdular.

Təqribən bizim eradan əvvəl II minillikdə bu gün bizim beynəlxalq müqavilələr adlandırdığımız normalar məcmusu yaranmağa başladı. Artıq həmin dövrlərdə qədim Şumerlərdə müharibənin elan edilməsi, barışıq bağlanması, nümayəndələr göndərilməsi və sülh müqaviləsinin imzalanması qabaqcadan nəzərdə tutan prosedur qaydaları müəyyən edilmişdi. Babil çarı Hammurapi özünün məşhur kodeksini belə başlayırdı: "Mən bu qanunları ona görə qoydum ki, güclülər zəifləri incitməyə cəsarət etməsinlər" (6, s.172).

Qədim Misir mədəniyyətində insana qayğı barədə bir sıra ibrətamiz fikirlər diqqəti çəkir. "Əsl şəfqətliliyin yeddi əməli" adlı nəsihətnamədə tövsiyə edilirdi ki, "acı doyurmaq, susuzu içirmək, çılpağı geyindirmək, yolçuya yatmaq yeri vermək, əsiri azad etmək, xəstəni müalicə etmək, öləni dəfn etmək lazımdır" (4, s.13).

E.ə II minilliyə aid bir nəsiətnamədə tövsiyə edilirdi ki, "Öz düşmənini yedirt, qonağın hətta düşmən olsa belə, ona ziyan vermə" (4, s.13).

Qədim xetlərdə müharibələrin aparılmasının olduqca humanist qaydaları mövcud idi. Həmin qaydalar şərəf və ədalət prinsiplərinə əsaslanırdı. Qədim xetlərdə müharibə elan olunmasının və sülh müqaviləsi bağlanmasının qaydalarına dürüst əməl edirdilər. Xetlər, düşmən şəhərləri təslim olarkən bir qayda olaraq əhaliyə heç bir ziyan vurmurdular. Halbuki, qonşuluqdakı assuriyalılar müharibələr zamanı olmazın vəhşiliklərini edirdilər. Bu da məlumdur ki, e.ə.1269-cu ildə misirlilərlə xetlər arasında aparılan müharibə hər iki tərəf üçün ədalətli sülhlə qurtardı və tərəflər arasında mehriban qonşuluq münasibətləri başlandı.

E.ə. I minillikdə Asiyada humanizm və insanpərvərliklə çulğalaşan təlimlər və nümunələr özünü göstərirdi. Buddizm insaları mərhəmətə səsləyir, məhz mərhəmətin insanlar arasında qarşılıqlı anlaşmaya yol açacağına inanırdı. Çin mütəfəkkiri Lao Dszı deyirdi ki, hər kəsin yeganə dəyəri insanlara xidmət etməkdədir. İranda Zərdüşt dözümlü olmağı təbliğ edirdi, Əhəməni hökmdarı I Kir isə onunla şöhrət tapmışdı ki, müharibə apardığı xaldeylərin yaralı əsgərlərini özününkülər kimi müalicə etdirirdi (4, s.14). Həmin zamanlarda meydana çıxan Bibliya təslim olub qaliblərin mərhəmətinə sığınan düşmənləri öldürməyi israillilərə qadağan edirdi. Bibliya habelə yaralılara, qadın, uşaq və qocalara qarşı mərhəmətli olmağı tələb edirdi. Qədim hind yazılı abidələri olan Manu qanunları külliyyatında və Mahabharata dastanında da sıradan çıxarılmış və təslim olan düşmən əsgərlərini öldürməyi qadağan edilirdi (3, s.12). Tələb olunurdu ki, yaralı düşmən əsgərləri müalicə olunduqdan sonra vətənlərinə yola salınsın. Manu qanunları odlu, dişdiş, zəhərli ox uclarının işlədilməsi, müharibədə amansızlıqlar edilməsi qadağan olunur, hərbi əsirlərin saxlanma qaydaları göstərilirdi. Öz düşmənlərinə qarşı olduqca mərdliklə davranan və buna görə də "Alicənab" ləqəbi alan çar Aşoka öz əsgərlərindən tələb edirdi ki, yaralı düşmən əsgərlərinə və yaralılara qulluq edən məbəd xidmətçilərinə qarşı hörmətlə davransınlar.

Homerin "İlliada" poemasında təsvir etdiyi Troya müharibəsində də qayda-qanunlar gözlənilir, barışıqlara, düşmən meyitlərinə hörmətlə yanaşmaq tələb olunurdu. Bir neçə əsr sonra Makedoniyalı İskəndər də məğlublara humanistcəsinə yanaşmış, Daranın ailəsinə hörmət göstərmiş, qadınların ləyaqətinin alçaldılmasına yol verməmişdi. E.ə. III əsrdə Epir çarı Pirr Herakleya yaxınlığında Roma qoşunlarına qalib gələndə, yaralı düşmənlərinə qayğı göstərilməsini əmr etmişdi. Karfagen üzərində diqqətəlayiq qələbələri ilə məşhurlaşan roma sərkərdəsi Emilian Sisipion da yüz il sonra eyni cür

hərəkət etmişdi (4, s.17).

Lakin ayrı-ayrı sərkərdələrin mütəfəkkirlərin və müdriklərin baxışları, ləyaqətli hərəkətləri ilə ümumi reallıq arasında dərin fərqlər mövcud idi. Roma imperiyası dağılana qədər öz düşmənləri ilə, qul və yoxsul üsyanları ilə amansızlıqla rəftar edirdi. Eramızdan əvvəl 185-ci ildə Apuliyada qulların üsyanı yatırılarkən 7000 qul çarmıxa çəkilmişdi. Ondan bir neçə əsr sonra, imperator Feodosi Fessalonikada üsyan zamanı cəmi bir neçə əsgərinin öldürülməsini əsas gətirərək yaşından və cinsindən asılı olmayaraq yenə də təqribən 7000 nəfərin boğazının kəsilməyini əmr etmişdi (4, s.17-18).

Orta əsrlərdə-humanitar hüququn inkişafına digər faktorlar təsir götərirdi. Bu, xristianlıq, islam kimi səmavi dinlər, habelə müxtəlif cəngavərlik kodeksləri idi.

Yəhudi-xristian dinləri təbliğ edirdilər ki, biz hamımız eyni atanın övladlarıyıq. Beləliklə, bütün insanlar qardaş olduğu üçün adamları öldürmək cinayətdir. Xristian dininin bir çox görkəmli təbliğatçıları, müxtəlif monax ordenlərinin və xəstəxana təşkilatlarının rahibləri müharibələr zamanı xəstələrin və yaralıların əzablarını yüngülləşdirmək üçün fədakar mübarizələr aparırdılar.

Orta əsrlərdə müharibələr zamanı humanitar hüquq məsələləri, Almaniyada meydana gəlmiş cəngavər kodekslərində də cücərti halında rast gəlinirdi. Müharibənin qabaqcadan elan edilməsi, ağ bayraqla gələn elçilərə toxunmamaq, bir sıra qadağan olunmuş silah növlərindən istifadə etməmək kimi humanist qaydalar məhz “cəngavər şərəfi” deyilən qaydalardan irəli gəlirdi. 1027-ci ildə Kilsə Qərb dünyasına “İlahi barışıq” təklif etdi. Barışıq, vuruşan tərəflərə şənbə günü axşamdan bazar ertəsi səhərə qədər döyüş əməliyyatları aparmağı qadağan edirdi (4, s.26).

Orta əsrlərdə humanitar hüquq bir çox məsələlərin ədalətli həllinə görə İslama borcludur. “Cihad” cəngavərlik əxlaqına uyğun olaraq aparılırdı. Bu zaman sığınacaq verilir və qonaqpərvərlik qaydalarına riayət olunurdu. Məsələn XIII əsrdə İspaniyadakı Kardova əmirliyində tərtib edilmiş “Viqayat” adlı topluda müharibə aparılmasının qaydaları əks olunmuşdu. Orada hərbi əməliyyatlar zamanı qadınları, uşaqları, qocaları, elçiləri, xəstələri öldürmək, məğlublara xəsarət yetirmək, suyu və ox uclarını zəhərləmək qadağan edilirdi.

Katolik kilsəsinin rəvac verdiyi xaçlı yürüşləri, görünməmiş vəhşiliklərə yol açdı. Qərb mütəfəkkirlərinin və tarixçilərinin özlərinin də etiraf etdikləri kimi, xaçlı yürüşləri iki sivilizasiyanın arasına elə bir nifrət toxumu səpdi ki, bu gün də özünü göstərməkdədir. Beləki, xaçlı qoşunları 1099-cu ildə Yerusəlimi tutarkən bütün əhalini qırdılar. Hadisələrin şahidləri göstərirlər ki, qədim Solomon məbədində o qədər müsəlman qırılmışdı ki, meyitlər qan gölündə üzürdülər. Bunun əksinə, 88 il sonra Misir hökmdarı Səlahəddin Əyyubi Yerusəlimə girəndə bir nəfər sakini də öldürmədi və onun əsgərləri heç kəslə qəddar rəftar etmədilər. Hökmdarın xüsusi patrulları nəzarət edirdilər ki, xristian əhali incidilməsin. Döyüşlərdən sonra Səlahəddin varlı əsirləri pulla, yoxsulları isə pulsuz azad etdi. Səlahəddin xaçlı ordusunun həkimlərinə icazə vermişdi ki, gəlib həmvətənlərini müalicə etsinlər, sonra isə sərbəst olaraq öz düşərgələrinə qayıtsınlar.

Bundan az sonra xaçlılar sədaqət və ədalət bayrağı altında Konstantinopoldakı yüzminlərlə xristianı qarət etdilər və qətlə yetirdilər. Avropalı zadəganları qətlə və soyğunlara təhrik edən Papa onları “cəngavər şərəfi” məsuliyyətindən azad etmişdi.

Orta əsrlərdə Qərbdə heç qaliblərin də taleyi qibtə olunası deyildi. Əsgərlərin həyatı kimsəni maraqlandırmırdı. Yaralı əsgər mərhəmətə ümid edə bilməzdi, hətta monastr xəstəxanaları belə çox vaxt onların üzünə bağlı olurdu. Ordularda tibbi xidmət yoxdu. Yaralı düşmən əsgərlərini isə sadəcə olaraq öldürürdülər. Əsir düşən şəhər qarnizonları da məhv edilirdi. Qadınların və uşaqların taleyi isə qaliblərin insafına qalırdı.

Yeni dövrdə-XIV əsrin sonlarından etibarən odlu silahın meydana çıxması ilə hərb tarixində kəskin çevriliş dövrü başlandı. Feodal ara müharibələrinə son qoyuldu, mərkəzləşdirilmiş dövlətlər yarandı. Hərbi əsirlərə qayğı göstərilməyə başladılar. Tədricən formalaşan orduların tibbi xidməti yaralıları döyüş meydanından çıxarıb onlara tibbi yardım göstərməyə başladılar.

XVI əsrdən etibarən qarşı-qarşıya duran orduların komandanlığı arasında humanitar hüquq sahəsində ilk müqavilə və sazişlər meydana çıxmağa başladı. Həmin müqavilə və sazişlərdə qadınlara və yaralılara hörmətlə yanaşılması, yaralıların şəxsiyyətinə hörmət edilməsi nəzərdə tutulurdu. XIV Lüdovikin və II Fridrixin məlum hərbi islahatlarından sonra Avropanın silahlı qüvvələri nizami

ordulara çevrildi. Müharibə aparan professional ordular bir-birinə ehtiramla yanaşmağa başlayırdılar. Ordu rəhbərlikləri çox vaxt sağlam düşüncə və mülayimlik nümayiş etdirirdilər. Bu qəbildən olan ən diqqətəlayiq sənəd 1785-ci ildə Böyük Fridrixlə Bencamin Franklin arasında bağlanan saziş idi. Orada qeyd olunurdu: “Müqaviləyə girən tərəflər bütün dünya qarşısında öz üzərlərinə qarşılıqlı öhdəlik götürürdülər ki, tərəflər arasında hərbi konfiliktlər olursa, dinc əhali blokadaya alınmamalı, hərbi əsirlər onları saxlayan tərəfin öz əsgərləri kimi yedirdilməli, etibarlı şəxslər onlara baş çəkib vəziyyətlərini yüngülləşdirə bilmək hüququnda olmalıdırlar”.

1747-ci ildə Fontenua yaxınlığında döyüş ərəfəsində fransız kralı XV Lüdovikdən soruşanda ki, yaralı düşmənlə necə davranmaq lazımdır, o cavab vermişdi: “Bizim özümüzünkülərlə olduğu kimi, yaralılar düşmən deyillər” Həmin döyüş ərəfəsində yaralıların müalicəsi üçün 4000 çarpayı hazırlanmış, döyüş meydanından yaralıları yığışdırıb Hospitallara daşımaq üçün 1200 araba göndərilmişdi. Hospitallarda yaralılara qulluq etmək üçün ixtisaslı tibb işçiləri və kifayət qədər sarğı materialları hazırlanmışdı. Bir neçə saat ərzində 3790 fransız əsgəri və 2368 düşmən əsgəri Hospitallara gətrildi ki, onlardan da yalnız 583 nəfəri keçən üç həftə ərzində öldü (4, s.31-32).

1762-ci ildə görkəmli fransız mütəfəkkiri Jan-Jak Russo bu sahədəki ictimai fikri bu cür ifadə edirdi: “Müharibə heç bir halda insanlar arasında münasibət deyil, dövlətlər arasında münasibətlərdir. Fərdlər isə təsadüfən, həm də adi insan kimi yox, hətta vətəndaş kimi də yox, əsgər kimi düşmənə çevrilirlər… silahı yerə qoyan kimi onlar yenidən adi adamlara çevrilirlər. Onlara aman verilməlidir” (3, s.13).

Russo beynəlxalq humanitar hüququn əsas prinsipini belə ifadə edirdi: “Müharibənin məqsədi xalqın məhv edilməsi yox, düşmənin silahlı qüvvələri üzərində qələbə çalmaqdır. Lakin düşmən əsgərlərinə qarşı güc də onlar müqavimət göstərməyi dayandırdıqları vaxta qədər tətbiq edilə bilər. Silahı yerə qoymuş və ya yaralandığına görə bunu etməyə məcbur olmuş hər hansı əsgər daha düşmən deyildir” (3, s.13).

Lakin dahi mütəfəkkirin bu humanist ideyaları az sonra-Fransa burjua inqilabı zamanı bir kənara atıldı. Bütün insanlara azadlıq və qardaşlıq vəd edən inqilab görünməmiş miqyasda terrora və kütləvi vəhşiliklərə yol açdı. İnqilabı ordunun generalı Vesterman Vandeya üsyanını yatırdıqdan sonra bütün “qiyamçıları”-kişiləri, qadınları, uşaqları ölümə məhkum etdi. Müharibələr konkret məqsədlər üçün yox, ideyalar naminə aparılmağa başlandı. Digər bir general Napoleon Bonopart özünün bütün hərb dühasına baxmayaraq, humanitar prinsipləri sanki tamam unutmuşdu. O, hələ Misir kampaniyası zamanı Yaffa şəhər qarnizonunun əsir alınmış 4000 türk əsgərini öldürmək barədə soyuqqanlılıqla sərəncam vermişdi. Halbuki, türk əsgərləri həyatlarının saxlanması şərtilə silahı yerə qoymuşdular.

Napoleonun apardığı işğalçılıq müharibələri hərbi əsirlərin və yaralıların əsl faciəsi oldu. İmperatoru yaralı əsgərlər yox, qarşıya qoyduğu məqsədlər maraqlandırırdı. Buna görə də, orduda ölüm faizi olduqca yüksək, yaralıların əzab-əziyyətləri sadəcə olaraq dözülməz idi. Təkcə fransız ordusunun Rusiyadan geri çəkilməsinin faciələrini xatırlamaq kifayətdi. 1812-ci il fransız ordularının Rusiyadan geri çəkilməsi insan taleyinə biganəliyin nümunəsi idi.

1854-cü ildə Krım müharibəsi başlayanda 300 minlik fransız-ingilis ekspedisiya korpusunda ümumiyyətlə tibbi xidmət yox dərəcəsində idi. Bu qədər ordunun 83 min nəfəri baxımsızlıq nəticəsində xəstəliklərdən öldü. 1859-cu ildə baş verən məşhur Solferino döyüşündə hər iki tərəfdən həlak olan 39 min əsgərin təqribən 30 mini eyni səbəbdən ölmüşdülər.

Məhz bu hadisədən sonra Avropanın çox görkəmli ictimai-siyasi xadimləri olan Anri Dyunan, Qustav Muanye, Frensis Liber, general Dyufur və b. tərəfindən beynəlxalq humanitar hüququn inkişafında yeni mərhələ başlanıldı. Onların səyləri ilə 1863-cü ildə Beynəlxalq Qırmızı Xaç Komitəsinin əsası qoyuldu. 22 avqust 1864-cü il tarixli Cenevrə konvensiyası qəbul olundu. Konvensiya döyüş meydanında yaralıların vəziyyətini yaxşılaşdırmağı nəzərdə tuturdu. Bu müasir humanitar hüququn meydana gəlməsinin başlanğıcı oldu.

1863-cü ilin aprelində vətəndaş müharibəsi alovlarının bürüdüyü Amerika Birləşmiş Ştatlarında Liber məcəlləsi meydana çıxdı. Məcəllə prezident Avraam Linkoln tərəfindən “ABŞ səhra orduları üçün təlimatlar” seriyasından 100 saylı əmr kimi çap edilib qoşunlara göndərilmişdi. Liber

Məcəlləsində Beynəlxalq humanitar hüququn iki əsas norması-mülki şəxslərin müdafiəsi və hərbi əsirlərlə layiqli rəftar prinsipləri əks olunmuşdu.

XIX əsrin II yarısı, XX əsrin əvvəllərində bu sahədə daha bir sıra addımlar atıldı:

1868-ci ilin dekabrında Sankt-Peterburqda partlayıcı və yandırıcı güllələrin istifadəsinin ləğv edilməsi haqqında bəyannamə qəbul olundu.

1899-cu il Haaqa konvensiyası humanitar hüquq sahəsində mühüm addımlar oldu.

1899-cu ilin iyulunda asanlıqla dönə bilən və yastılanan güllələrin istifadə olunmaması haqqında Haaqa bəyannaməsi imzalandı.

1907-ci ilin oktyabrında quru müharibəsinin qanun və adətləri haqqında IV Haaqa Konvensiyası imzalandı.

Lakin bu sahədə əldə edilən irəliləyişlər II Dünya müharibəsi illərində on milyonlarla insanı əhatə edən humanitar fəlakətin qarşısını ala bilmədi. Günahsız və dinc insanları, hərbi əsirləri kütləvi surətdə, həm də ən vəhşi üsullarla və amansız işgəncələrlə məhv edən alman faşistləri və yapon militaristləri, öz əməlləri ilə orta əsr inkivizatorlarından heç nə ilə fərqlənmirdilər. Ona görə də müharibədən sonra beynəlxalq hüquqa əsasən, müharibələr və silahlı münaqişələr zamanı beynəlxalq konvensiyaları pozan vəzifəli şəxslər hərbi cinayətkarlar hesab olundular. Bu prinsip əsasında alman və yapon hərbi caniləri beynəlxalq tribunallar tərəfindən cəzalandılar.

II Dünya müharibəsindən sonra demokratik qüvvələrin və bütövlükdə mütərəqqi bəşəriyyətin gərgin səyləri nəticəsində 1949-cu ildə humanitar hüquqa dair dörd Cenevrə konvensiyası və 1977-ci ildə onlara əlavə olunmuş protokolları, habelə bu qəbildən olan digər konfrans qətnamələri və sənədləri əsasında müasir insan hüquqları hüququ formalaşdı. Bu tarixi prosesdə 1968-ci ilin mayında Tehranda keçirilmiş Birləşmiş Millətlər Təşkilatının insan hüquqları üzrə Beynəlxalq Konfransını xüsusilə qeyd etmək lazımdır. Konfransda insan hüquqları üzrə qəbul edilmiş 23 saylı "Silahlı münaqişələr zamanı insan hüquqlarına hörmət" qətnaməsi xüsusilə əhəmiyyətli idi.

Lakin II Dünya müharibəsindən sonra başlanan "soyuq müharibə" dövrü, SSRİ-nin dağılmasından sonra beynəlxalq meydanda qüvvələr nisbətinin dəyişməsi, dünya sosializm sisteminin çökməsi nəticəsində humanitar hüquq məsələləri arxa plana keçdi. Ön plana isə böyük dövlətlərin geosiyasi maraqları çıxdı. Beynəlxalq humanitar hüququ qorumağa borclu olan, onun qarantı hesab olunan dövlətlər özləri həmin hüququ kobud surətdə pozmağa başladılar. İşğal edilmiş ərəb torpaqlarında İsrail hərbiçiləri, Vyetnam, İraq, Əfqanıstanda hərbi əməliyyatlar aparan amerikan orduları, Çeçenistanda "qayda-qanun" yaradan rus əsgərləri, keçmiş Yuqoslaviya ərazisində fəaliyyət göstərən serb hərbi birləşmələri, nəhayət Dağlıq Qarabağın erməni separatçıları tərəfindən törədilənlər heç bir humanitar hüquqa sığmayıb yalnız "Cəngəllik Qanunu"na müvafiq gəlirdi.

1988-1994-cü illərdə aparılan hərbi əməliyyatların gedişində işğal edilmiş Azərbaycan torpaqlarında terror və deportasiya siyasəti yeridən, dinc əhaliyə qanlı divan tutan, hərbi əsirləri, qocaları, uşaqları və qadınları kütləvi surətdə məhv edən, Xocalı soyqırımını törədən ermənilər heç bir hüquqla hesablaşmadıqlarını göstərdilər.

Günümüzdə Dağlıq Qarabağda davam edən humanitar fəlakətə, Suriya torpaqlarında bitib-tükənməyən insanlıq dramına göz yuman, qaçqınlar üçün öz sərhədlərini bağlayan Qərbin "insan hüquqları müdafiəçiləri", "seçkiləri müşahidə edir", "siyasi məhbus problemləri", "jurnalist hüquqlarının pozulması" məsələlərini araşdırırlar. Bütün bunlar isə keçmişdə olduğu kimi, günümüzdə də Beynəlxalq humanitar hüquq sahəsində çox problemlərin mövcudluğunu göstərir.

## ƏDƏBİYYAT


1. Hüseynov L. Beynəlxalq hüquq. Bakı: "Hüquq ədəbiyyatı", 2002
2. Luiza Dosvald-Bek, Vite Silven. Beynəlxalq humanitar hüquq və insan hüquqları hüququ. Bakı: BOXK, 2007
3. Hans-Peter-Qasser. Beynəlxalq humanitar hüquq. Bakı: BOXK, 2000
4. Жан Пикте. Развитие и принципы международного гуманитарного Права. Москва: МККК, 2000
5. Авдиев В. История древнего востока. Москва: Высшая школа, 1970
6. Хрестоматияпо истории древнего мира. Москва: Учпедгиз, 1950

## SUMMARY

**Shukur Mammadov**

**INTERNATIONAL HUMANITARIAN LAW IN HISTORY AND TODAY**

Although the first principles of international human rights law and humanitarian law emerged thousands of years ago, they have only recently become an independent field of law. As a result of centuries of unjust wars, occupation and colonialism policy, human rights have been ignored, and acts of deportation, terrorism and genocide have been carried out at the level of state policy. Individual examples of humanity, compassion and mercy have not changed the situation. Only in the new and most recent period have practical steps been taken in the field of international humanitarian law. For these steps to be effective today, the major powers must abandon the policy of double standards for the sake of their geopolitical interests, and put an end to the humanitarian catastrophe in Syria and Nagorno-Karabakh.


***Key words:*** *human rights, humanitarian law, prisoners of war, armed conflicts, the red cross*


## РЕЗЮМЕ

**Шукюр Мамедов**

**МЕЖДУНАРОДНОЕ ГУМАНИТАРНОЕ ПРАВО В ИСТОРИИ И СОВРЕМЕННОСТИ**

Международное право прав человека-хотя первые принципы гуманитарного права были озвучены тысячи лет назад, только в наши дни оно стало самостоятельной отраслью права. В результате многовековой политики несправедливых войн, оккупации и колонизации права человека игнорировались, а депортации, террор и геноцид осуществлялись на уровне государственной политики. Отдельные примеры человечности, сострадания и сострадания также не изменили ситуацию. Только в новое и новейшее время были предприняты практические шаги в области международного гуманитарного права. для того, чтобы эти шаги имели эффект в наши дни, необходимо, чтобы крупные государства во имя своих геополитических интересов отказались от политики двойных стандартов, чтобы положить конец гуманитарной катастрофе в Сирии, Нагорном Карабахе.


***Ключевые слова:*** *права человека, гуманитарное право, военнопленные, вооруженные конфликты, красный крест*

---

***Məqalə daxil olmuşdur:*** *01 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 31-35
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 31-35
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 31-35

**NURLAN İSMAYILOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 347.918:347.94/95**

# AZƏRBAYCAN RESPUBLİKASINDA MƏHKƏMƏ HAKİMİYYƏTİ VƏ ONUN HƏYATA KEÇİRİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

*1995-ci ildə müstəqil Azərbaycan Respublikasında ümumxalq səsverməsi yolu ilə dövlətin ən mühüm atributlarından olan ilk konstitusiya qəbul edilmişdir. Konstitusiyada hüquqi dövlətin malik olduğu əsaslar öz əksini tapmışdır. Bu əsaslar qanunun aliliyi, hamının qanun qarşısında bərabərliyi və hakimiyyətin bölgüsüdür. İdarəetmə sistemində həm qanunverici, həm icra, həm də məhkəmə hakimiyyəti dövlətin və dövlətçiliyin strateji məqsədinin reallaşmasına xidmət etməlidir.*

*Qanunvericilik hakimiyyətini həyata keçirən Azərbaycan Respublikasının Milli Məclisi qanunlar qəbul etməklə dövlətin və cəmiyyətin fəaliyyətinin nizamlanması üçün hüquqi əsaslar yaradır. İcra hakimiyyəti isə cəmiyyəti idarə etməklə yanaşı, eyni zamanda, bütün hüquqi və fiziki şəxslər tərəfindən qanunların və digər normativ-hüquqi aktların icrasına nəzarət edir. Lakin, cəmiyyət mürəkkəb bir sosial qurumdur və insanların davranışı prosesində müxtəlif xarakterli hüquqpozmalar baş verir. Bu hüquqpozmaların bir çoxu icra hakimiyyəti orqanları tərəfindən inzibati qaydada nizamlansa da, bəzi mürəkkəb hüquqpozmaların və mübahisələrin həll edilməsi xüsusi səlahiyyətlərə malik olan orqanlar tərəfindən mümkündür. Belə məsələlərin həlli isə yalnız məhkəmə hakimiyyətinə mənsub olan məhkəmələr tərəfindən həyata keçirilə bilər.*

***Açar sözlər:*** *konstitusiya, milli məclis, məhkəmə, yurisdiksiya, cinayət, hakim, sədr, məhkəmə-hüquq şurası, apellyasiya, kassasiya*

Məhkəmə hakimiyyəti cəmiyyəti ayrı-ayrı şəxslərin və təşkilatların hüquqa zidd davranışından müdafiə etmək, vətəndaşların hüquq və azadlıqlarını mühafizə etmək, hakimiyyətin digər qanadlarının Konstitusiyaya uyğunluğunu, onların hərəkət və qərarlarının qanuniliyini təmin edən fəaliyyətlərinə nəzarət etmək üçün təsis edilmişdir. Məhkəmə hakimiyyəti cəmiyyətdə yaranan münaqişələri həll etmək üçün lazımdır.

Məhkəmə hakimiyyətinin buna yaxın təriflərində isə məhkəmə hakimiyyəti dedikdə, hüquqi sahədə konstitusiya, mülki, cinayət, iqtisadi və kommersiya məhkəmə icraatı qaydasında həyata keçirilən sosial münaqişələrin həllini başa düşürlər. Bu baxışlarda məhkəmə hakimiyyətinin funksiyalarına aşağıdakıları aid edirlər: ədalət mühakiməsinin həyata keçirilməsi və yurisdiksiya yoxlaması. Bunlar, əsasən, uğurlu təriflərdir. Lakin nəzərə almaq lazımdır ki, məhkəmə hakimiyyətinin funksiyaları həm də onun məqsədləri kimi ifadə edilə bilər. Sosial münaqişələrin həlli həmişə hüquqların bərpası ilə əlaqədar deyildir. Məhkəmə hakimiyyətinin realizə forması yalnız ədalət mühakiməsi hesab olunmur. Bu hakimiyyət özünü həm məhkəmə təcrübəsinə müəyyən istiqamət verən AR Ali Məhkəməsi Plenumunun qərarları şəklində, həm hüquqi mübahisənin olmadığı halda hüquqi əhəmiyyət kəsb edən faktların məhkəmə tərəfindən müəyyənləşdirilməsi şəklində, eləcə də digər münasibətlərdə göstərir.

Beləliklə, təhlillər əsasında belə nəticəyə gəlmək olar ki, məhkəmə hakimiyyətinin funksiyası (məqsədi, vəzifəsi) - sosial-hüquqi münaqişələrin həll edilməsi və konstitusiya, mülki, inzibati-iqtisadi və cinayət məhkəmə icraatı formasında ədalət mühakiməsini həyata keçirmək yolu ilə hüquqi faktların müəyyənləşdirilməsidir.

Məhkəmə ümumbəşəri dəyərləri - şəxsiyyətin həyatı, sağlamlığı, şərəfi, ləyaqəti, sosial-iqtisadi, siyasi və digər hüquqlarını müdafiə edir. Məhz ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində ardıcıl olaraq məhkəmə müdafiəsinə görə məhkəməyə müraciət etmək imkanı, təqsirsizlik prezumpsiyası, təqsirləndirilən şəxsin müdafiə hüququ, şəxsiyyətin toxunulmazlığı və vətəndaşların şəxsi həyat toxunulmazlığı kimi mühüm hüquqi prinsiplər realizə edilməlidir.

Məhkəmə cinayətkarlıqla, digər hüquqpozmalarla mübarizə metodlarının qanuniliyinə sosial nəzarəti həyata keçirir, vətəndaşları özbaşınalıqdan və qanunsuzluqdan müdafiə edir. Eyni zamanda cinayətkarlıqla effektiv mübarizəni məhkəməsiz təsəvvür etmək qeyri-mümkündür.

Məhkəmə hakimiyyəti-dövlət hakimiyyətinin müstəqil qanadıdır, dövlət və vətəndaşlar, vətəndaşların özləri, hüquqi şəxslər arasındakı sosial münaqişələri qanun əsasında həll etmək, qanunların konstitusiyaya uyğunluğuna nəzarət etmək, vətəndaşların hüquqlarını onların icra hakimiyyəti orqanları və vəzifəli şəxslərlə qarşılıqlı münasibətlərdə müdafiə etmək, cinayətlərin təhqiqatı və əməliyyat-axtarış fəaliyyəti aparılarkən vətəndaşların hüquqlarına hörmət edilməsinə nəzarət etmək, ən mühüm hüquqi faktları və halları müəyyənləşdirmək üçün yaradılmışdır.

Demokratik dövlətdə dövlət hakimiyyətinin vacib prinsipi olan - hakimiyyətin bir-birindən asılı olmayan üç sərbəst şaxəyə bölünmə prinsipi Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin 3-cü və 4-cü hissələrində öz əksini tapmışdır (1, s.5-6):

*"III. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:*

*- Qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;*

*- İcra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;*

*- Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.*

*IV. Bu Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər ".*

Göstərilən bu müddəalar əsas verir ki, məhkəmə hakimiyyəti dövlət hakimiyyətinin bütövlükdə bir təzahür forması hesab edilsin. Ona görə də məhkəmə hakimiyyəti anlayışı ümumi hakimiyyət anlayışından, o cümlədən dövlət hakimiyyəti anlayışından törəmədir.

Beləliklə, **məhkəmə hakimiyyətinin** - dövlət hakimiyyətinin bir qanadının olması konstitusiya ilə müəyyən edilmişdir.

Məhkəmə hakimiyyətinin hakimiyyətin digər qanadları ilə qarşılıqlı əlaqəsi tarazlıq yaratma əsasında həyata keçirilir.

Qanunvericilik hakimiyyəti (AR MM) məhkəmələr üçün normativ-hüquqi baza yaratmaqla onlara təsir edirlər. AR MM məhkəmə sisteminin təşkilini əhatə edir və məhkəmələrin fəaliyyət qaydasını müəyyən edir. Bundan başqa, qanunvericilik hakimiyyəti məhkəmə sisteminin formalaşmasında, habelə hakimlərin təyinində iştirak edir: AR Konstitusiya Məhkəməsinin hakimlərini, AR Ali Məhkəməsinin və apellyasiya məhkəmələrinin hakimlərini AR Prezidentinin təqdimatı ilə AR MM təyin edir; AR Konstitusiya Məhkəməsi, AR Ali Məhkəməsi və AR Apellyasiya məhkəmələri hakimlərinin vəzifədən kənarlaşdırılması haqqında qərar AR MM-də 83 səs çoxluğu ilə qəbul edilir, digər hakimlərin işdən kənarlaşdırılması haqqında qərar AR MM-də 63 səs çoxluğu ilə qəbul edilir (1, s. 49).

İcra hakimiyyəti orqanları hakim korpusunun yaradılmasında iştirak edirlər. Ölkə prezidenti (icra hakimiyyəti ona mənsubdur) AR Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə əsasən, Məhkəmə-Hüquq Şurasının təklifini nəzərə almaqla Azərbaycan Respublikası ərazisində müxtəlif növ məhkəmələrin yaradılması, hakimlərin təyin edilməsi barədə müvafiq fərman və ya sərəncam imzalayır (1, s. 42). İcra hakimiyyəti orqanları məhkəmələrin fəaliyyəti və onların qəbul etdiyi qərarların icrası üçün lazımi şərait yaradır: AR Ədliyyə Nazirliyi sisteminə daxil olan icra məmurları məhkəmələrdə qaydanı təmin edir; Ədliyyə Nazirliyinin nümayəndələri hakim vəzifəsini tutmağa iddialı olan şəxslərdən ixtisas imtahanlarını qəbul edən imtahan komissiyasının tərkibinə daxil olurlar; Ədliyyə naziri MHŞ-yə rəhbərlik edir; Ədliyyə Nazirliyi nəzarət altında olan şəxslərin mühafizəsini və məhkəməyə müşayiət edilməsini təşkil edir; Azərbaycan vətəndaşlarının Avropa Məhkəməsinə şikayət etməsi ilə əlaqədar materialları və rəyləri təqdim edir.

Beləliklə, göstərilənləri ümumiləşdirərək məhkəmə hakimiyyətinin səlahiyyətlərinə aşağıdakıları aid etmək olar:

1) konstitusiya nəzarəti;

2) ədalət mühakiməsi;

3) dövlət orqanlarının və vəzifəli şəxslərin qərarlarından və hərəkətlərindən şikayət verildikdə, onların qanunauyğun və əsaslı olmasına nəzarət;

4) hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən qanunların icrasına nəzarət;

5) vətəndaşların hüquqlarının məhdudlaşdırılması ilə əlaqədar müvafiq hərəkətlərin aparılması;

6) məhkəmə qərarlarının (hökmlərin və s.) və bəzi digər orqanların qərarlarının icra edilməsi;

7) məhkəmələrin səlahiyyətinə aid olan inzibati xətalar haqqında işlərə baxılması və həll olunması;
8) məhkəmə təcrübəsinə aid məsələlər üzrə qüvvədə olan qanunvericiliyin izah edilməsi;
9) məhkəmələr korpusunun formalaşmasında iştirak etmək və s.

Bu səlahiyyətlər arasında əsas yeri ədalət mühakiməsi və konstitusiya nəzarəti tutsa da, digər səlahiyyətlər də az sosial əhəmiyyət kəsb etmir. Ona görə də göstərilən səlahiyyətlərin heç birini məhkəmə hakimiyyəti ilə eyniləşdirmək və bir-birilə bərabərləşdirmək olmaz.

**Azərbaycan Respublikasının məhkəmə sistemi və məhkəmə instansiyaları**

**Məhkəmə sistemi** dedikdə, öz səlahiyyətlərinə və qarşılarında qoyulmuş vəzifə və məqsədlərə uyğun olaraq vahid demokratik prinsiplər əsasında qurulmuş və fəaliyyət göstərən, məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə həyata keçirən bütün məhkəmələrin məcmusu başa düşülür.

Məhkəmə hakimiyyəti sisteminə daxil olan orqanlar ümumi şəkildə Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin 2-ci hissəsində öz əksini tapmışdır: "Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər".

Bütün bu məhkəmələri iki bloka bölmək olar: ***birinci bloka*** konstitusiya nəzarətini həyata keçirən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, ***ikinci bloka*** isə ədalət mühakiməsini həyata keçirən bütün digər məhkəmələr daxildirlər.

Ədalət mühakiməsini həyata keçirən məhkəmələrin sistemi "Məhkəmələr və hakimlər haqqında" Qanunun 19-cu maddəsində öz əksini tapmışdır (2, s.4).

Azərbaycan Respublikasıda ədalət mühakiməsini Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan aşağıdakı məhkəmələr həyata keçirirlər:

1) rayon (şəhər) məhkəmələri;
2) Ağır cinayətlər məhkəmələri;
3) Naxçıvan Muxtar Respublikasının ağır cinayətlər məhkəməsi;
4) Hərbi məhkəmələr;
5) İnzibati məhkəmələr;
6) Kommersiya məhkəmələri;
7) Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi;
8) Apellyasiya məhkəmələri;
9) Azərbaycan Respublikasının Ali Məhkəməsi (bundan sonra Ali Məhkəmə).

Azərbaycan Respublikasının məhkəmə sistemi daxilində qanunla müəyyən edilmiş qaydada digər məhkəmələr də yaradıla bilər.

***Ədalət mühakiməsini həyata keçirən məhkəmələri öz növbəsində aşağıdakı kimi qruplaşdırmaq olar:***

I. Cinayət mühakimə icraatını həyata keçirən məhkəmələr;
II. İnzibati və kommersiya məhkəmələri;

**Birinci qrupa** aşağıda göstərilən məhkəmələr aiddir:

1) rayon (şəhər) məhkəmələri;
2) hərbi məhkəmələr;
3) Ağır cinayətlər məhkəmələri;
4) Naxçıvan Muxtar Respublikasının ağır cinayətlər məhkəməsi;
5) Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi;
6) apellyasiya məhkəmələri;
7) Azərbaycan Respublikasının Ali Məhkəməsi.

**İkinci qrupa** isə aşağıdakı məhkəmələr aiddir:

1) inzibati məhkəmələr;
2) kommersiya məhkəmələri;
3) apellyasiya məhkəmələrinin inzibati kollegiyası;
4) apellyasiya məhkəmələrinin kommersiya kollegiyası;
5) Naxçıvan MR Ali Məhkəməsinin inzibati kollegiyası;
6) Naxçıvan MR Ali Məhkəməsinin kommersiya kollegiyası;
7) AR Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyası;
8) AR Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyası.

Bütün bu məhkəmələr səlahiyyətləri dairəsində müəyyən məhkəmə instansiyalarına bölünürlər. Latınca "**instansiya**" sözünün mənası mərhələ, dərəcə deməkdir (5, s.29).

*Məhkəmə instansiyası* dedikdə, məhkəmədə işlərə baxılması (işin mahiyyəti üzrə qərarın qəbul edilməsi və ya belə qərarın qanuniliyinin və əsaslılığının yoxlanılması) ilə əlaqədar bu və ya digər məhkəmə səlahiyyətlərini yerinə yetirən məhkəmə və ya onun struktur bölməsi başa düşülür.

*Məhkəmələr instansiya əlamətlərinə görə birinci, apellyasiya və kassasiya instansiya məhkəmələrinə bölünür.*

Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş hallarda və qaydada Azərbaycan Respublikası məhkəmələrində işlərə kollegial və hakim tərəfindən təkbaşına: birinci instansiya məhkəməsində işlərə təkbaşına və ya üç hakimdən ibarət tərkibdə, yaxud andlı iclasçılardan ibarət tərkibdə; apellyasiya və kassasiya instansiyası məhkəməsində üç və ya daha çox hakimdən ibarət tərkibdə baxılır.

Məhkəmələr baxılmış işlər üzrə Azərbaycan Respublikası adından qətnamələr, hökmlər, qərardadlar və qərarlar (bundan sonra - qərarlar) çıxarırlar.

Kassasiya və apellyasiya instansiya məhkəmələrinin bütün qərarları qəbul olunduğu gündən bir aydan gec olmayaraq dərc edilir və elektron daşıyıcılarda yayılır. Bu qərarlarla birlikdə aşağı instansiya məhkəmələrinin ləğv edilmiş və ya dəyişdirilmiş qərarları da dərc edilməlidir.

Məhkəmə işlərinə ilk dəfə baxılaraq mahiyyəti üzrə qərar qəbul etmək səlahiyyəti verilmiş məhkəmə ***birinci instansiya məhkəməsi*** adlanır. Yalnız bundan sonra qanunvericilikdə nəzərdə tutulmuş hallarda digər instansiya məhkəmələrində işə baxıla bilər.

Birinci instansiya məhkəməsində işə baxılması cinayət işi üzrə təqsirli şəxsin məhkum edilməsi və ya təqsirsiz şəxsə bəraət verilməsi və mülki iş üzrə iddianın təmin və ya rədd edilməsi məqsədilə mahiyyəti üzrə işin həll edilməsidir.

Birinci instansiya məhkəmələri məhkəmə iclasında sübutları bilavasitə tədqiq edərək mülki və cinayət işlərinə mahiyyəti üzrə baxır və mülki işlər üzrə qətnamə, cinayət işləri üzrə isə hökm çıxarırlar (yəni məhkəmə qərarları qəbul edirlər).

Cinayət işi üzrə işə birinci instansiya məhkəməsində baxılması - hər hansı şəxsə qarşı irəli sürülmüş ittihama baxılaraq, mahiyyəti üzrə hökm və ya digər yekun qərarın çıxarılmasıdır, yəni cinayətin törədilməsində şəxsin təqsirli və ya təqsirsiz bilinməsi, təqsirli şəxslərə konkret cinayət cəzasının tətbiq edilib-edilməməsidir. Mülki işlər üzrə isə, bu, bir qayda olaraq, verilmiş iddianın sübut edilib-edilməməsi və baş verə biləcək hüquqi nəticələr barədə məsələlərin həllidir.

**Apellyasiya (***Latınca "apellyasiya" sözünün mənası "müraciət etmək" deməkdir)* **instansiya məhkəməsi** birinci instansiya məhkəməsinin qanuni qüvvəyə minməmiş hökmündən və ya digər qərarından verilmiş şikayət və ya protestlərə baxmaq səlahiyyətinə malik olan məhkəmədir (AR CPM, m.7.0.11) (4, s.9).

**Kassasiya** *(Latınca "kassasiya" sözünün mənası "ləğv etmək" deməkdir)* **instansiya məhkəməsi** qanunvericiliklə müəyyən edilmiş qaydada işlər üzrə apellyasiya instansiyası məhkəməsinin qanuni qüvvəyə minmiş hökmündən və ya digər qərarından verilmiş şikayət, protest, yaxud təqdimatlara baxmaq səlahiyyətinə malik olan məhkəmədir (CPM, m. 7.0.12) (4, s.8).

Kassasiya instansiya məhkəməsi işlərə baxarkən əvvəllər qəbul edilmiş qərarları ya baxılmamış saxlayır (yəni qərarı dəyişdirmir), yaxud qərarı dəyişdirərək yeni hökm və ya qərar çıxarır, yaxud da hökmü və ya digər qərarı ləğv edərək yenidən baxılması üçün geriyə göndərir.

Müasir dövrdə məhkəmə fəaliyyəti dövlətin konstitusiya quruluşunun əsaslarının, fiziki və hüquqi şəxslərin hüquqlarının və maraqlarının müdafiəsinin təmin edilməsinə yönəldilmişdir. Məhkəmə hakimiyyəti əsas tarazlaşdırıcı mexanizm kimi dövlət hakimiyyəti sistemində qanunvericilik və icra hakimiyyətləri ilə birlikdə dövlətin ali məqsədi olan insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunmasında mühüm rol oynayır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası, Yeni tedaksiyada, Bakı: Hüquq yayin evi, 2017, 92 s.
2. Azərbaycan Respublikasının “Məhkəmələr və hakimlər haqqında” Qanunu, 10.06.1997, 32 s.
3. Konstitusiya Məhkəməsi haqqında Azərbaycan Respublikasının Qanunu, 23 dekbar 2003, 21 s.
4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı: “Hüquq” Nəşriyyatı, 2005, 737 s.
5. Qəfərov M., Eyvazov H. Hüquq-mühafizə orqanları. Dərslik. Bakı: 2017, 464 s.

6. Ədalət mühakiməsinin rəsmi emblemi haqqında Azərbaycan Respublikasının qanunu, 22 iyun 1999-cu il
7. Vakant hakim vəzifələrinə hakim olmayan namizədlərin seçilməsi qaydalarının təsdiq edilməsi barədə Məhkəmə-Hüquq Şurasının qərarı, 11 mart 2005-ci il
8. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 24 dekabr 2002-ci il

**SUMMARY**

**Nurlan Ismayilov**

**JUDICIAL POWER IN THE REPUBLIC OF AZERBAIJAN AND PECULIARITIES OF ITS IMPLEMENTATION**

In 1995, the first Constitution, which is one of the most important attributes of the state, was adopted by popular vote in the independent Republic of Azerbaijan. The Constitution contains the principles of the legal state. These foundations contain the principles of supremacy of the law, equality before the law, and the the separation of power.

Both the legislative, executive, and judicial branches should serve the realization of the strategic goal of the state and statehood in the government system. The Assembly of the Republic of Azerbaijan, which carries out legislative power, creates legal basis for the regulation of the activities of the state and society by adopting laws. The executive power not only manages the society, but also controls the execution of laws and other normative-legal acts by all legal entities and individuals.

However, society is a complex social institution, and in the process of people's behavior, various types of offenses occur. Although many of these offences are administratively regulated by the executive authorities, the resolution of some complex offenses and disputes is possible by bodies with special powers.The solution of such issues can only be carried out by the courts belonging to the judicial authorities.

***Key words:*** *Constitution, Milli Majlis, court, jurisdiction, crime, judge, chairman, judicial-law council, appeal, cassation*

**РЕЗЮМЕ**

**Нурлан Исмаилов**

**СУДЕБНАЯ ВЛАСТЬ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ И ОСОБЕННОСТИ ЕГО РЕАЛИЗАЦИИ**

В 1995 году в независимой Азербайджанской республике путем всенародного голосования была принята первая Конституция, являющаяся одним из важнейших атрибутов государства. В Конституции отражены основы, которыми обладает правовое государство. Этими основами являются верховенство закона, равенство всех перед законом и разделение властей. В системе управления как законодательная, исполнительная, так и судебная власть должны служить реализации стратегической цели государства и государственности.

Осуществляя законодательную власть, Меджлис Азербайджанской Республики, принимая законы, создает правовые основы для регулирования деятельности государства и общества. Исполнительная же власть не только управляет обществом, но и контролирует исполнение законов и других нормативно-правовых актов всеми юридическими и физическими лицами. Однако общество представляет собой сложную социальную структуру, и в процессе поведения людей происходят правонарушения различного характера. Хотя многие из этих правонарушений административно регулируются органами исполнительной власти, разрешение некоторых сложных правонарушений и споров возможно органами, наделенными специальными полномочиями. А решение таких вопросов может осуществляться только судами, принадлежащими к судебной власти.

***Ключевые слова:*** *Конституция, Милли Меджлис, суд, юрисдикция, преступление, судья, председатель, судебно-правовой совет, апелляция, кассация*

---

***Məqaləni çapa təqdim etdi:*** *Hüquq üzrə fəlsəfə doktoru, dosent Qəhrəman Behbudov*
***Məqalə daxil olmuşdur:*** *03 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 dekabr 2020-ci il*

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 36-38**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 36-38**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 36-38**

**FİRUZƏ QULİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*firuzaguliyeva97@gmail.com*

**UOT: 349.3**

# SOSİAL İŞ ÜZRƏ TƏDQİQATLARIN SOSİAL HƏYAT PROBLEMLƏRİNİN HƏLLİNDƏ ROLU

*Məqalədə sosial siyasətin məqsədyönlü şəkildə reallaşdırılması və sosial iş üzrə xidmətləri həyata keçirən sosial işçilərin öz vəzifələrini effektiv yerinə yetirilməsinin təmin edilməsi məqsədilə aparılan sosial tədqiqatlarının nəticələrinin təcrübə kimi istifadə olunmasının sosial həyat problemlərinin həllindəki rolu əsaslandırılır. Eyni zamanda sosial tədqiqatların aparılması və bu tədqiqatların elmi və humanist əsaslara dayanmasının zəruriliyinə diqqət çəkilir.*

***Açar sözlər**: sosial siyasət, sosial iş, sosial işçi, tədqiqat metodları, sosial problemlər*

Sosial iş cəmiyyətdə çətin həyat vəziyyətinə düşmüş fərdə, ailəyə, qrupa yardım və dəstək vermək məqsədilə məqsədyönlü fəaliyyət kimi başa düşülməlidir.

Sosial işin əsas məqsədi - normal sosial fəaliyyət üçün fərdin, ailənin, cəmiyyətin imkan və bacarıqlarının rifahı üçün narahatlıqdır. Beləliklə, "sosial iş" anlayışı ümumilikdə sosial sahədəki elmi biliklərin müəyyən bir sahəsini, şəxsiyyətini və cəmiyyətdəki problemlərini və çətin həyat şəraitində əhaliyə sosial yardım və dəstək vermək məsələlərini daha da gücləndirir (1-12,14).

Cəmiyyətin mənəvi yüksəlişi ilk növbədə insanların həyat şəraitinin və həyat tərzinin yüksəlişi ilə şərtlənən bir prosesdir. Əxlaq nöqteyi-nəzərindən sosial hərəkətlərin mənəvi və hümanist meyarlarla qiymətləndirilməsi o deməkdir ki, əxlaqi tələblərin subyekti kimi çıxış edən insanın inkişafı və bərpası üçün münbit mənəvi və psixoloji şərait və stimulların yaradılması lazımdır. Müasir dövrdə də yaşamaq hüququ, humanizm, vicdan, ədalət, ləyaqət, vəzifə və s. kimi ümumbəşəri dəyərlərlə öz əhəmiyyətini artırır.

Dəyərlər bir insanın mənəvi dünyasının əsasını təşkil edir, hisslərini, düşüncələrini birləşdirir, sabit bir bütöv hala gətirir və şəxsiyyətin formalaşmasında, ictimai fəaliyyətinin təzahüründə, cəmiyyətdə sosial münasibətlərin formalaşmasında həlledici rol oynayır (2).

Sosial siyasəti, əsasən, sosial işçilər həyata keçirir. Sosial iş bir peşəkar fəaliyyət növü kimi XIX əsrdə formalaşmağa başlamışdır. İlk dəfə 1898-ci ildə Kolumbiya Universitetində sosial iş üzrə sinif olub. İngiltərədə də sosial iş demək olar ki, ABŞ-la eyni zamanda yaranmışdır.

Sosial işçi olmaq çox çətin və eyni zamanda şərəfli bir peşədir. Sosial işçilər daha çox çətin həyat şəraitində olan insanlarla işləyərkən vəziyyətindən asılı olaraq, qarşılarına konkret məqsəd qoyur və fəaliyyətlərini buna çatmaq istiqamətində qururlar. Çətin həyat şəraitində olan insanların problemlərindən asılı olmayaraq, sosial işçilərin qarşılarına qoyduqları məqsədlər sosial işin ümumi məqsədlərinə xidmət etməkdən irəli gəlməlidir. Ümumi məqsəd isə insanlara kömək etməkdir (3).

İnsanlar sosial həyatda baş verən hadisə və proseslərin səbəb, mahiyyət və xarakterini öyrənməkdə maraqlıdırlar. Bu hadisə və proseslərin onların həyatında nə kimi rol oynayacağını, cəmiyyətdəki problemlərin necə həll olunacağının həqiqətini öyrənmək və dəyərləndirmək istərlər. Məhz sosial tədqiqatlar baş verən hadisə və proseslərin əsl mahiyyətini açar, bu hadisələrin müsbət və mənfi təsirlərini araşdırmaqla, hadisələrin inkişafını müsbət təsirlər istiqamətinə yönəltmək imkanı yarada bilər. Aparılan sosial tədqiqatlar baş verə biləcək mənfi təsirlərihabil araşdırmaqla onların təsirini azalda, hətta yox edə bilər. Sosial tədqiqatlar sosial problemlərin öyrənilməsi yolu ilə bu problemlərin əmələ gəlmə səbəblərini tapmağa və aradan qaldırmağa xidmət edir. Sosial tədqiqatlar həm də sosial tələbatların müəyyənləşdirilməsi və bu tələbatın təminat mexanizmini konkretləşdirmək imkanı yaradır. Bu məqsədlər daxilində çətin həyat şəraitində olan insanlara, onların öz potensiallarını və imkanlarını dərk etmələrinə və bu mənbələr hesabına şərait və mühiti onların xeyrinə dəyişməkdən ibarətdir. Bütün bu sosial məqsədlərə nail olmaq məhz düzgün istiqamətə yönələn sosial tədqiqatların nəticələrinə istinad edilməklə əldə oluna bilər. Bütün bunlar

sosial tədqiqtların vacibliyinin əsas səbəblərindəndir. Əvvəla, bu tədqiqatlar sosial işçilərə öz işlərində daha məqsədyönlü olmağa, daha aydın addımlar atmağa kömək edir. Sosial tədqiqatın təmin etdiyi informasiya sosial işçilərə hər hansı spesifik problem zamanı hansı müdaxilə metodunun və texnikanın daha çox işə yaradığını müəyyən etməyə imkan yaratmış olar. Əgər klientlə iş onun ehtiyaclarına uyğun şəkildə araşdırılıb və qiymətləndirilibsə, sosial işçi klientə həqiqətən kömək etdiyini (və ya əskinə) müəyyən edə bilir.

İkincisi, bu tədqiqatlar vasitəsi ilə toplanmış məlumatlar sosial işdə ətraflı bilik və informasiya bazası yaratmağa kömək edir. Bu bilik bazası, bütün konseptləri ayırd edir və ümumiləşdirir, nəzəri əsaslandırılmalar üçün sübut, dəlil toplayır, təcrübə metodlarının effektivliyini müəyyən edir (4- 474).

Sosial tədqiqatın əsas mövzusu cəmiyyətdə fərqli mövqe tutan, onun inkişafında qeyri-bərabər iştirak edərək, həyat səviyyəsinin keyfiyyətinə, gəlir mənbələrinin miqdarına və quruluşuna görə fərqlənən insan qrupları, kollektivlər, fərdlər arasındakı münasibətlər və qarşılıqlı münasibətlərdir.

Sosial tədqiqatlar nəticəsində əldə edilən təcrübələrin sosial xidmətin sosial-siyasi fəaliyyətin əməli olaraq təşkilində aşağıdakı mühüm əhəmiyyətlər kəsb edir:

-Sosial işçinin peşəkar funksiyalarının realizəsi ilə bağlı vəzifələrinin konkret ifadəsi və həlli üçün elmi metodlardan istifadə edilməsi bacarığı;

-İdarəetmə qərarlarını tapmaq və qəbul etmək bacarığı;

- Pedoqoji fəaliyyətin əsaslarına yiyələnmək;

...İnsanlarda mənəvi və cismani, bioloji və sosial əsasların qarşılıqlı münasibətlərini, insanın təbiətə və təbiətdəki mövcudluğunda ziddiyətlərə və böhrana münasibətinin mənasının başa düşülməsi ilə səciyyələndirilməlidir (5-9,11,12).

Sosial tədqiqatların, əsasən, 4 məqsədi olur:

➢ Araşdırmaq və kəşf etmək; -Bu məqsəd, əsasən hər hansı bir mövzunu ətraflı öyrənmək, yəni əslində kəşf etməkdir. Tədqiqatçı maraqlandığı sahə üzrə yeni biliklər əldə etməyə çalışanda qarşısına çıxan tədqiq olunmamış, yaxud az tədqiq olunmuş problemi sosial cəhətdən əsaslandırmaq, lazım gələndə məhz kəşf etmək məqsədini zərurətə çevrilir.

➢ Təsvir etmək: -Bu məqsəd özündə hadisə və proseslərin yaratdığı vəziyyətlərin təsvirini verməyə imkan verir. Tədqiqatçı müşahidə etdiyi sosial hadisə və prosesin təsvirini müvafiq quruma çatdırır. Çünki elmi müşahidələr əsasında yaradılan təsvirlər sərrast və dəqiq olur ki, bu da tədqiqatçıya məqsədləri istiqamətindəki fəaliyyətini düzgün müəyyənləşdirməyə şərait yaradır.

➢ İzah etmək: -Bu məqsəd, əsasən, sosial hadisə və prosesləri və bunlarla əlaqədar yaranan vəziyyətləri izah etməklə bağlıdır. Tədqiqatçı izah prosesini elə aparmalıdır ki, təsvir prosesi arasındakı uyğunsuzluq çaşqınlıq yaratmasın.

➢ Qiymətləndirmə; -sırada sonuncu olan bu məqsəd sosial iş kontekstində sosial proqram və xidmətlərin müdaxilə metodlarının qiymətləndirilməsinə xidmət edir. Əslində bu digər 3 məqsədini də özündə birləşdirir.

Lakin yadda saxlamaq lazımdır ki, sosial tədqiqatlar heç də həmişə bu 4 məqsədi ehtiva etməyə bilər. Elə tədqiqatlar var ki, onlar bu məqsədlərdən əlavə başqa komponentlərlə bağlı ola bilərlər.

Sosial tədqiqatçının əsas məqsədi bu və ya digər sosial problemin səbəbini və aradan qaldırılması yollarını tapmaqdır. Sosial işçilər arqumetlərinin möhkəmliyinə əmin olmaq üçün güclü faktlara əsaslanmalıdırlar ki, bu faktlarda məhz dərin tədqiqalar sayəsində əldə edilə bilər. Sosial tədqiqatın əsasında iki prinsipial xassə durur:

➢ Qayda və prinsiplərə uyğun peşəkar tərtibat;

➢ Sosial siyasətə, sosial iş təcrübəsinə və ya hadisələrə təsir etmə (6-295).

Sosial tədqiqatlar, əsasən, təcrübəyə əsaslandıqları üçün bu tədqiqatların məzmunu "sübuta əsaslanan təcrübə metodu" adlanır. Bu metod sosial problemlərin həlli zamanı ən yaxşı dəlillərin qərəzsiz və məqsədə müvafiq istifadəsini nəzərdə tutur. Real təcrübə zamanı sübuta əsaslanmış metoddan istifadə edən sosial işçilər əsl tənqidi mühakimə ilə məşğul olurlar. Hansısa bir keyslə əlaqədar onlar kliyentin və ya səlahiyyətli orqanın verdiyi məlumatı olduğu kimi qəbul etmək əvəzinə məlumatın doğruluğunu sübut etmək üçün araşdırma aparırlar. Bu onlara mövcud adət-ənənəni və şaxələri kor-koranə qəbul etmək əvəzinə, ən yaxşı elmi dəliləri tapmağa fərdlərə, ailələrə və qruplara müvafiq müdaxilə üsulunu aşkar etməyə kömək edir (7-4).

XX əsrin sonları XXI əsrin əvvəllərində artıq müstəqil Azərbaycan Respublikasında sosial iş geniş vüsət aldı və sosial işçilər xidmətə başladı. Ölkədə sosial təyinatlı infrastruktur layihələrin həyata keçirilməsi sosial siyasətin prioritet istiqamətini təşkil edir. Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin vurğuladığı kimi sosial layihələr icra edilir... Bu sahəyə də böyük diqqət göstərilir və bizim investisiya portfelimiz, sosial layihələrə xərclənən vəsait kifayət qədər böyükdür".

Azərbaycanda böyük sosial layihələr həyata keçirilmiş, sosial təminata və sosial qayğıya ehtiyacı olan əhali təbəqəsi daim diqqət mərkəzində saxlanılmışdır. Hazırda Azərbaycanda 116 min ailə, 400 mindən artıq insan sosial yardım alır, orta hesabla hər ailəyə 150 manat sosial yardım göstərilir. 621 min nəfərə müxtəlif növ müavinətlərin, o cümlədən 60 min nəfərə Azərbaycan Prezidentinin təqaüdlərinin verilməsi, 846 min nəfərin əmək haqqının artırılması təmin edlib. Bu artımlar ümumilikdə 3 milyon 123 nəfəri, yaxud respublika əhalisinin 31,55 faizini əhatə edir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdindəki "Mənzil evi" Sosial Müəssisəsində dövlət uşaq müəssisələrinin valideyin himayəsindən məhrum olmuş məzunlarından ibarət 240 nəfər yaşayır. 1165 əlilliyi olan şəxsin reabilitasiyası və istirahəti təşkil olunub.

Sosial Müdafiə Fondunun tabeliyindəki sosial xidmət müəssisələrində 1075 nəfər tam dövlət təminatında olub, 11025 nəfər tənha ahıl və əlil şəxsə evlərində mənzil-məişət xidməti göstırilmişdir, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial sifarişləri üzrə icra olunan layihələr əsasında 4100 nəfər uşağa və ahılların ailələrinə sosial xidmətlər göstərmişdir (8).

Azərbaycan Respublikasında indiki şəraitdə dövlətin həyata keçirdiyi sosial siyasət əhalinin sosial xidmətlərə olan ehtiyacının ödənilməsinə, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsinə xidmət edir.

## ƏDƏBİYYAT

1. *Payne, M.*İctimai iş: Müasir nəzəriyyə / M. Payne. - M., 2007
2. Sosial iş nəzəriyyəsi: Dərs vəsaiti / Ed. E. I. Xolostova, L. I. Kononova, M. V. Vdovina. M., 2012.)
3. Rəcəbli H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Bakı: MBM, 2012
4. Margaret Alston and Wendy Bowles 1998,Washington D.C.
5. Sosial işin əsasları/Müntəxabat/ I hissə Bakı: BDU, - 2006
6. Earl Babbie, Basics of Social Research, 2008,
7. Allen Rubin and Earl Babbie, Research methods of Social work, 2007 https://books.google.az /books/about/Research_Methods_for_Social_Work.html?id=xUlfMaY4RskC&redir_esc=y
8. Kaspi.az/sosial-problemlərin-həlli-əsas-prioritet-kimi

## SUMMARY

**Firuza Guliyeva**

## THE ROLE OF RESEARCHES ON SOCIAL WORK IN SOLVING SOCIAL LIFE PROBLEMS

The article substantiates the role of the use of the results of social research as a solution to the problems of social life in order to ensure the targeted implementation of social policy and the effective performance of their duties by social workers providing social work services. At the same time, attention is drawn to the need to conduct social research and to base it on scientific and humanistic foundations.

***Key words:*** *social policy, social work, social worker, research methods, social problems*

## РЕЗЮМЕ

**Фируза Гулиева**

## РОЛЬ ИССЛЕДОВАТЕЛЕЙ ПО СОЦИАЛЬНОЙ РАБОТЕ В РЕШЕНИИ ПРОБЛЕМ СОЦИАЛЬНОЙ ЖИЗНИ

В статье обосноуется роль использования результатов социальных исследований в качестве практики в решении проблем социальной жизни в целях целенаправленной реализации социальной политики и обеспечения эффективного выполнения социальных работников, осуществляющих услуги по социальной работе своих обязанностей.

В тоже время обоснуется внимание на методику проведения социальных исследований и необходимости опираться на научные и гумманистическое основы этих исследований.

***Ключевые слова:*** *социальная политика, социальная работа, метод исследования, социальные проблемы*

***Məqaləni çapa təqdim etdi:*** *Fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:*** *03 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *11 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 39-44
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 39-44
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 39-44

**KAMRAN VƏLİZADƏ**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 321 (091); 34(091)**

# HÜQUQİ DÖVLƏT QURUCULUĞU PROSESİ VƏ SİYASİ AKSİOLOGİYA

*Siyasi aksiologiya hüquqi dövlətin siyasi mədəniyyət və dəyərlər sistemində əsas yer tutur. Hüquqi dövlətdə siyasi aksiologiya hüquq və konstitusiya ilə qarşılıqlı əlaqədə olur. Bunu əsas götürən müəllif siyasi aksiologiyanın əsas tədqiqat obyektinin siyasi dəyərlər sistemi olduğunu irəli sürmüş və qeyd etmişdir ki, ayrı-ayrı insanların siyasi şüuru hüquqi dövlətin siyasi mədəniyyətində dəyərlər və anti dəyərlər sistemini qəbul edir və müəyyənləşdirir.*

*Müəllif haqlı olaraq bu nəticəyə gəlmişdir ki, bu gün cəmiyyətdə hüquqi dövlət orqanlarının siyasi hüquqi institut kimi formalaşmasının, humanistləşməsinin əsasında konstitusiya hüquqi nəzəriyyəsinin aksioloji fundamenti, o cümlədən siyasi aksioloji prinsiplər, aksioloji yanaşma konsepsiyası və aksioloji modelləşdirmə metodologiyası durur. Azərbaycan dövlətinin əsas məqsədi öz vətəndaşlarının ali siyasi dəyərlərini-hüquq və azadlıqlarını qorumaqdır. Ölkədə dinindən, dilindən, milliyyətindən, siyasi əqidəsindən asılı olmayaraq bütün vətəndaşların həyatları, sağlamlıqları, ictimai və ekoloji təhlükəsizlikləri, asayişləri müdafiə olunur. Ümumbəşəri və milli siyasi aksioloji pinsiplər Azərbaycan hüquqi dövlətində vəhdət təşkil edir.*

*Siyasi aksiologiya müxtəlif yönümlü dəyərlər sistemi kimi Azərbaycan dövlətçiliyində qanunun aliliyinin, sosial ədalətin, təhlükəsizliyin, azadlığın, inamın, insanların hüquqi və qanuni maraqlarının müdafiəsində əsas rol oynayır.*

***Açar sözlər:*** *siyasi həyat, sistem strukturu, dövlət, mənafə, funksiya, şəxsiyyət*

Müstəqillik əldə edən Azərbaycan Respublikası hüquqi dövlət quruculuğu prosesinə başladı. İdeya kimi qədim dünyada yaransa da, "hüquqi dövlət" termini XIX əsrdə Almaniyada meydana gəlmişdir. Hüquqi dövlətin "mahiyyəti konstitusiyası və inzibati hakimiyyət orqanlarının hüquqa tabe olması və onların üzərində hüquqi nəzarətin olmasıdır. Hüquqi dövlət anlayışı dövlətlə bütün sosial birliklərin, o cümlədən ayrı-ayrı fərdlərin hüquqa hörmət etdiyini və ona münasibətdə bərabər vəziyyətdə olduğunu göstərir" [4, 178].

Azərbaycanda milli hüquqi dövlət quruculuğu gedişində qanunun aliliyi, vətəndaşların hüquq və azadlıqlarının müdafiə olunması təmin edildi, dövlət hakimiyyəti hakimiyyətin bölgüsü prinsipinə uyğun olaraq həyata keçirildi, konstitusiya məhkəməsi yaradıldı, prezident və konstitusiya nəzarəti formalaşdı, vətəndaşların siyasi mədəniyyəti yüksəldi.

Siyasi aksiologiya hüquqi dövlətin siyasi mədəniyyət və dəyərlər sistemində əsas yer tutur. Hüquq dövlətdə siyasi aksiologiya, hüquqi və konstitusiya ilə qarşılıqlı əlaqədə mövcud olur. Siyasi aksiologiyanın əsas tədqiqat obyekti hüquqi dövlətdə siyasi dəyərlər sistemidir. Buraya baza siyasi dəyərləri-təhlükəsizlik, ədalətlilik, azadlıq və s. dəyərlər daxildir. Ayrı-ayrı insanların, sosium və ya bütövlükdə millətlərin siyasi şüuru hüquqi dövlətin siyasi mədəniyyətində dəyərlər və antidəyərlər sistemini qəbul edir və müəyyənləşdirir. Siyasi dəyərlər ümumi rifah, həqiqət, düzlük, insan ləyaqəti kimi etik kateqori-yalarla sıx əlaqədardır. Siyasi fəlsəfi aspektdən dəyərləri təhlil etdikdə aşağıdakı dəyər antinomiyalarına təsadüf etmək olar: nizam, qayda və xaos (anarxiya); azadlıq və köləlik; vətəndaşlıq və təbəəlik; legitimlik və özbaşınalıq; ədalətlilik və ədalətsizlik; bərabərhüquqluq və hüquq bərabərsizliyi; siyasi bütövlük və siyasi parçalanma; qorunub-saxlanma (konservasiya) və dəyişiklik (islahat, inqilab) kimi.

Rusiya aksioloqu B.A.Starostin əksər fəlsəfi dəyər tədqiqatçılarının fikirlərini ifadə edərək yazır ki, "hər bir dəyər iki formada özünü göstərir: "mənfi" forma (antidəyər) ayrıca və müstəqil

fəaliyyət göstərə bilər... və müharibə, nifrət və qisas şübhəsiz ki, dəyərlər aləmində "antidəyər" də olsa, öz rolunu oynayır" [5, 11].

Hüquqi dövlətə konseptual yanaşma siyasi mədəniyyətin formalaşmasında Qərb siyasi aksioloji elementlərinin zəruriliyini tələb edir. Totalitar və avtoritar rejimlərdən fərqli olaraq, demokratik hüquqi dövlətlərdə siyasi aksioloji norma və dəyərlər liberal mənəviyyat və ideologiya çərçivəsində yaranır. Bu isə "bərabərlik üzərində azadlıq dəyərlərinə üstünlük verilməsi, qanun qarşısında bərabərliyin, iqtisadi liberalizmin bərqərar olması, mərkəzləşmiş mütləq dövlətin rolunun minumum səviyyəyə endirilməsi, dövlət hakimiyyətinin vətəndaş cəmiyyətinin nəzarəti altına keçməsi, hakimiyyət bölgüsünün reallaşması, mərkəzləşmiş siyasi hakimiyyətin aradan qaldırılması, dövlət və cəmiyyət maraqlarının nizamlanması" [6, 5-6] deməkdir.

Transformasiyaya uğramış cəmiyyətlərdə siyasi aksiologiya sahəsində əsas vəzifə hüquqi dövlət və vətəndaş cəmiyyətinə qarşı olan dəyərlərin məhdudlaşdırılmasıdır. Bu funksiyalara aşağıdakıları aid etmək olar: hakimiyyət, vətəndaş cəmiyyəti və müxalifət arasındakı siyasi münasibətlərin tənzimlənməsi; demokratik və vətəndaş siyasi dəyərlərin yayılması; dünya və milli siyasi mədəniyyət nümunələrinin gerçəkləşdirilməsi.

Müstəqillik dövründən, xüsusilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlişindən sonra hüquqi dövlət quruculuğu yolu ilə gedən ölkəmizdə siyasi aksioloji prinsiplər reallaşmağa başladı. Ulu öndər Azərbaycanın strateji dövlət quruculuğu yolunu belə müəyyənləşdirirdi: "Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir" [1,30]. Görkəmli dövlət xadimi hüquqi dövlət quruculuğu prosesində demokratik siyasi aksiologiyadan, milli və beynəlxalq təcrübədən istifadə etməyi tövsiyə edirdi. Hüquqi, demokratik, dünyəvi dövlət quran Azərbaycan Respublikası bu prosesi gerçəkləşdirmək üçün siyasi-hüquqi normativ bazanın yaradılmasına, demokratik siyasi aksioloji prinsipləri reallaşdırmağa başladı. Ölkəmizdə demokratiyanın siyasi aksioloji mövqeyinə gəldikdə burada həqiqi xalq hakimiyyətinin bərqərar olmasını, siyasi dəyərlərə, institutlara, münasibətlərə, ideyalara, ənənəvi Qərb, klassik liberalizm və milli xüsusiyyətlərə əsaslanan cəmiyyətin siyasi özünütəşkilinin həyata keçirilməsini xüsusi qeyd etmək lazımdır. Hüquqi dövlətin yaranması vətəndaşların azadlığının ictimai-siyasi həyatda reallaşması, hamının qanun qarşısında bərabərliyinin təmin olunması, siyasi aksioloji prinsiplər, liberal dəyərlərin həyata keçməsi ilə özünü göstərdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə jurnalistlərinə verdiyi müsahibədə siyasi aksiologiyaya əsaslanan hüquqi dövlət quruculuğu yolu ilə gedən ölkəmizdə siyasi dəyərlərin rolunu yüksək qiymətləndirir: "Azərbaycanda qanunun aliliyi başlıca şərtdir. Biz hüquqi dövlət qururuq və qanun hamı üçün qanun olmalıdır. İstər o, adi vətəndaş olsun, nazir olsun. Yaxud da siyasətçi olsun. Ona görə bütün bu məsələlərə həmin prizmadan yanaşmaq lazımdır. Gələcəkdə də əgər kimsə Azərbaycanda qanuna zidd hərəkətlər edərsə, şübhəsiz ki, bunun da qarşısı alınacaqdır. Qanun hamı üçün eyni olmalıdır" [3, 85]. Bununla da Azərbaycanda hüquqi dövlət quruculuğu prosesində siyasi dəyərlərin, hüquqi, konstitusiya dəyərlərinin mühüm əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılır.

Azərbaycan dövlətinin əsas məqsədi öz vətəndaşlarının ali siyasi dəyərlərini-hüquq və azadlıqlarını qorumaqdır. Ölkədə dinindən, dilindən, milliyyətindən, siyasi əqidəsindən asılı olmayaraq bütün vətəndaşların həyatları, sağlamlıqları, ictimai və ekoloji təhlükəsizlikləri, asayişləri müdafiə olunur. Ümumbəşəri və milli siyasi aksioloji pinsiplər Azərbaycan hüquqi dövlətində vəhdət təşkil edir. Əsas ümumbəşəri siyasi aksioloji prinsiplərin aşağıdakılardan ibarət olduğu göstərilir: "cəmiyyətin demokatik təşkili, iqtisadi, siyasi və ideoloji pluralizmə əsaslanan sosial hüquqi dövlət, hüquq və hüquqi dövlətin dəyərləri, şəxsiyyətin və kollektivin hüquqları, azadlıqları və vəzifələri, hüquq bərabərliyi prinsipləri, dövlət və cəmiyyətin qarşılıqlı məsuliyyəti, xüsusi mülkiyyətə və sahibkarlıq fəaliyyətinə əsaslanan cəmiyyətdə sosial funksiya yerinə yetirən sosial yönümlü iqtisadiyyat, cəmiyyətin və bütün üzvlərinin və hər bir insanın fəallığını artıran yarış-müsabiqəlilik (rəqabət, ideologiyaların yarısı və s.), ümumxalq məqsədinə nail olmaq üçün əhalinin müxtəlif təbəqələrinin sosial məsuliyyəti və sosial həmrəyliyi və s. [7,16]. Burada xüsusi aktuallıq tələb edən ümumbəşəri siyasi aksioloji prinsiplərin bəşəriyyətin ictimai həyatında və hüquqi dövlət quruculuğu prosesində oynadığı mühüm roldan bəhs edilir. Bu prinsiplər bütün bəşəriyyət üçün ona görə əhəmiyyətlidir ki, ümumi maraqları ifadə edir,

milli, siyasi, dini mənsubiyyətindən asılı olmayaraq bütün insanları birləşdirir.

Azərbaycanın hüquqi dövlətində baza dəyərləri iyerarxiyasında ailə dəyərləri də üstünlük təşkil edir. Aksioloji prinsiplərin əsasını təşkil edən, "Bəşəriyyətin sosial orqanizminin əsas tərkib hissəsi olan ailə minilliklərlə maddi və mənəvi dəyərləri, ənənələri mənsub olduqları millətlərin mədəniyyətini nəsildən-nəsilə ötürərək yaşadıbdır" (7, 96). Müəllif ailə dəyərlərinin tənəzzülə uğramasını cəmiyyətdə, hüquqi dövlətdə baş verən siyasi aksioloji prinsiplərin deqradasiyası ilə əlaqələndirir.

Professor İ.Məmmədzadə Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesində üstünlük təşkil edən siyasi aksioloji prinsiplər və dəyərlərin bir-birindən fərqləndiyi bir neçə ailə modelinin mövcudluğunu göstərir: "Kiçik şəhər ailəsi, islam yönlü ailə, böyük ailəyə həsr olunmuş tədqiqatlar aparılmalıdır. Müasir şəraitdə ənənəvi ailə dəyərlərinin nə olduğunu dərk etmək lazımdır. Və onların hər biri üzrə ailədə zorakılığı və tolerantlıq, azadlıq və məsuliyyət və s. məlumatlar əldə edilməlidir" (8, 22). Müəllif haqlı olaraq müxtəlif ailə modelləri ilə ayrı-ayrı siyasi aksioloji prinsiplərin təsirinin fərqli olduğunu göstərir.

Vətəndaş cəmiyyəti və hüquqi dövlətin formalaşması prosesində vətəndaş şüuru və ənənəvi siyasi aksioloji prinsiplər əsas yer tutur. Hüquqi dövlətlərin gec təşəkkül tapdığı ölkələrdə ənənəvi dəyərlər güclü olur. Azərbaycan tədqiqatçısı D.Müslimzadə belə qənatdədir ki, "iqtisadiyyatda, siyasətdə liberal islahatlar vətəndaş dəyərlərinin (və siyasi aksioloji prinsiplərin) hökmranlığına gətirib çıxaracaq. Bizim fikrimizcə, iqtisadi və siyasi islahatların nə qədər mühüm olmasına baxmayaraq, prioritet və dominant kimi vətəndaş milli dəyərlərinin tərtib edilməsi zəruridir" (9, 80). Müəllif siyasi aksioloji prinsiplərin aşılanmasını hüquqi dövlətdə əsas yer tutduğunu qeyd edir. Ənənəvi sistemdə müxtəlif ailə modeli "bəzi xüsusiyyətlər mənimsəyir, hərçənd bütövlükdə ən azı müsəlman şərqində bu yeganə norma daha cəlbedicidir. Aydındır ki, bir neçə modelin mövcudluğu azadlığın çoxalmasına kömək edir, lakin azadlıq özbaşınalıq kimi deyil, mənəvi norma kimi, yəni məsuliyyətli və adət-ənənələrlə və ya fərd tərəfindən məhdudlaşdırılan azadlıq olmalıdır" (10,76-77). Müəllif haqlı olaraq ailə dəyərlərinə də, hüquqi dövlətin siyasi aksioloji prinsiplərinin təsir etdiyini göstərir, eyni zamanda Azərbaycan şəraitində bazar iqtisadiyyyatı amilinin də təsir etdiyini qeyd edir.

Ailə dəyərlərinin formalaşmasına təsir göstərən amillər sırasında üç qrupu fərqləndirmək olar: 1. Ailənin inkişafında ümumdünya tendensiyası; 2. Bazar iqtisadiyyatı şəraitində Azərbaycan üçün xarekterik amillər; 3. Müxtəlif yaş qrupları üçün spesifik amillər. Ailənin inkişafında ümumdünya tendensiyası müasir dövrdə individualizmin adi hala çevrilməsində, eqoizmin artmasında, şəxsi maraqların ailə maraqlarından üstün tutulmasında, müxtəlif növ ailə davranışlarına qarşı tolerantlıqda özünü göstərir. Azərbaycan üçün bazar iqtisadiyyatı şəraitində xarekterik olan amillər sırasında əhalinin əksər hissəsinin sosial-iqtisadi vəziyyəti; ailə siyasətinin amilləri; sosial-mədəni amillər; insanın şəxsi xüsusiyyətləri əsas yer tutur" (7, 99). Beləliklə, hüquqi dövlətdə ailə institutuna xas baza dəyərləri, spesifik dəyərlər, iqtisadi və qeyri-iqtisadi dəyərlər fəaliyyət göstərir, siyasi aksioloji prinsiplər onlara ciddi təsir edir.

Azərbaycan Konstitusiyasında təsbit olunmuş hüquqi, unitar, dünyəvi dövlət quruculuğu ilə yanaşı ümumbəşəri siyasi aksioloji prinsiplər: azadlıq, sülh, əmin-amanlıq, humanizm, bərabərlik, ədalətlilik və dözümlülük də elan edilmişdir. Azərbaycanın Milli Təhlükəsizlik konsepsiyasına görə ümumbəşəri dəyərlər və milli mənəvi ənənələr azərbaycançılıq ideologiyasında əks olunmuşdur ki, burada əsas baza siyasi-mənəvi aksioloji prinsiplər millətin birliyi, sosial ədalət, mənəviyyatdır .

Azərbaycan Respublikasının yaradılmasında dünyanın demokratik dövlətlərinin təcrübəsindən, qabaqcıl siyasi aksioloji prinsiplərdən istifadə edilməsinə də xüsusi əhəmiyyət verilir. Ümummilli lider Heydər Əliyev göstərirdi ki, biz demokratik, hüquqi, dünyəvi dövlət qurmaq üçün inkişaf etmiş Qərb ölkələrinin dövlət quruculuğu, demokratik prinsiplərinin bərqərar olması sahəsində əldə etdiyi nailiyyətlərdən istifadə edirik və edəcəyik (2, 409). Ona görə də Azərbaycan Konstitusiyasında siyasi aksioloji prinsiplərin əks olunmasının əhəmiyyəti və zərurəti göstərilir. Konstitusiya Məhkəməsi və konstitusiya nəzarəti hüquqi dövlətin yaranmasına və siyasi aksioloji prinsiplərin reallaşmasına, hüquqi-iqtisadi, siyasi və sosial stabilliyin, sülhün, əmin-amanlığın və təhlükəsizliyin təmin edilməsinə təsir edir .

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, konstitusiya dəyərləri cəmiyyətdə ictimai münasibətlərə təsir edir. "Konstitusiya dəyərləri hüquqi dövlətin əsasında duran ölkənin dövlət-hüquqi inkişafını müəyyən edən son dərəcə ümumiləşmiş əsas prinsiplərdir (məqsədlər və qaydalardır), (11, 13). Bununla da aydın olur ki, siyasi aksioloji prinsipləri ifadə edən konstitusiya

dəyərlərinə uyğun olaraq vətəndaş cəmiyyəti və hüquqi dövlətin hüquqi dəyərlər sistemi formalaşır. Eyni zamanda hüquqi tətbiq və norma yaradıcı fəaliyyət reallaşır və təsdiq olunur. Konstitusiya dəyərləri icra hakimiyyəti sahəsində xüsusi əhəmiyyət kəsb edir .

Azərbaycanda yaradılan milli hüquqi dövlət prosesində əsas siyasi aksioloji prinsiplərdən biri olan sosial ədalətin reallaşması mexanizmi Konstitusiya Məhkəməsi vasitəsilə yerinə yetirilir. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Konstitusiya dəyərlərinin və digər siyasi aksioloji prinsiplərin balanslaşdırılmasını təmin edərək insanların və vətəndaşların hüquq və azadlıqlarını qoruyur, demokratik sosial hüquqi dövlət, hüququn aliliyi, ədalət və bərabərlik, parlemantarizm və konstitusion iqtisadiyyatın reallaşmasını müdafiə edir .

Bu gün cəmiyyətdə hüquqi dövlət orqanlarının siyasi-hüquqi institut kimi formalşmasının humanistləşməsinin əsasında aksioloji fundament, o cümlədən siyasi aksioloji prinsiplər, aksioloji yanaşma konsepsiyası və aksioloji modelləşdirmə metodologiyası durur. Bu prosesdə əsas siyasi aksioloji prinsiplər aşağıdakılardır: sivilizasion-mədəni şərtlənmə prinsipi; milli özünüidentiklik; tolerantlıq prinsipi; siyasi-hüquqi sosial məsuliyyətlə həmrəylik prinsipi; açıqlıq, aşkarlıq prinsipi; federal-regional inkişafın ahəndarlığı prinsipi" [12]. Burada siyasi aksioloji prinsiplərin kompleks xarakter daşıdığını bir-birilə qarşlıqlı əlaqədə və qarşılıqlı asılılıqda olduğunu nəzərdə saxalmaq lazımdır. Bu siyasi aksioloji prinsiplərin reallaşması hüquqi dövlətin formalaşmasına aksioloji yanaşma konsepsiyası çərçivəsində həyata keçirilir. Bu konsepsiya insana, cəmiyyətə və hüquqi dövlətdə humanist baxışlar sistemini əks etdirir. Hüquqi dövlətə humanist baxışları siyasi aksioloji konsepsiyası sivilizasion-mədəni etnomilli, milli dövlətçilik, siyasi hüquqi müxtəlifliyin qəbul edilməsini əks etdirir. Hüquqi dövlət quruculuğu prosesində siyasi aksioloji modellərin metodologiyası şəxsi inkişaf və hüquqi dövlət orqanlarının formalaşması konteksində ümumbəşəri, etnomilli, sivilizasion-mədəni, sosial ümummillik və birlik səviyyələrində reallaşır.

Ümumbəşəri səviyyədə daxili və xarici qarşılıqlı təsir demokratizm, ümumi və regional inkişafın ahəngdarlığı, etno-milli və sivilizasion-mədəni səviyyədə milli özünüidentiklik, sivilizasion-mədəni şərtlənmə və tolerantlıq, sosial ümumilik və birlik səviyyəsində dialoqluq, qarşılıqlı siyasi-hüquqi sosial məsuliyyət kimi siyasi aksioloji prinsiplər əsasında həyata keçirilir. Hüquqi dövlətin formalaşması humanistləşməsi aşağıdakı meyarlarla ifadə olunur: insanın həyatı mövqeyi, siyasi fəallığı və siyasi potensiyasının formalaşması; siyasi-hüquqi münasibətlərin subyekti kimi öz siyasi idealları, ideyaları, seçimləri vasitəsilə öz insanlığını qoruması; fəaliyyətin ümumbəşəri, etnososial sivilizasion-mədəni dəyərlərə yönəlmiş siyasi-hüquqi strategiyasının reallığı; hüquqi dövlət orqanlarının siyasi aksioloji yönümü əsasında yeniləşməsi reallığı.

Rusiyalı tədqiqatçı V.P.Barışkov aksiologiyanın formalarını fərqləndirir: ümumi aksiologiya, aksiologiya fəlsəfi biliyin sahəsi kimi, şəxsiyyətin varlığının aksiologiyası, personalist aksiologiya, hakimiyyət aksiologiyası (və siyasi aksiologiya). O yazır: son bölmədə (hakimiyyətin aksiologiyası) aksiologiyanın konkret, siyasi sahəsinin nəzərdən keçirilməsi zamanı ümumi nəzəriyyənin metodoloji imkanları reallaşır" [13, 65]. Müasir dövrdə siyasi reallığın və hüquqi dövlət idarəçiliyinin axtarışına dair siyasi aksioloji yanaşmalar xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanın ictimai-siyasi həyatının tədqiqinə siyasi aksioloji yanaşmanın dəqiqləşdirilməsi də mühüm əhəmiyyət kəsb edir: "Vətəndaşlıq haqqında ənənəvi təsəvvürlər hüquqi dövlətlə vətəndaş arasında qarşılıqlı münasibətləri əks etdirir. Lakin vətəndaşlıq hər şeydən əvvəl insanlararası və ümumi dəyər münasibətləri kontekstində anlaşılır. O, vətəndaşın ideal keyfiyyətlərinin məcmusu kimi çıxış edir və müxtəlif səviyyələrdə (şəxsiyyətlərarası, ictimai) şəxsiyyətin ictimai həyatda məsuliyyətlə iştirak etməsini konkretləşdirir" [14]. Şübhəsiz ki, müəllif haqlı olaraq qeyd edir ki, ictimai qarşılıqlı təsir prosesində ictimai problemlərin həlli və hüquqi dövlətin təşəkkülü, ümumi siyasi aksiologiya formalaşdırır və məqsədyönlü fəaliyyətə şərait yaradır. İ.Məmmədzadə dövlətləşdirilmiş siyasi aksiologiyanın mənfi cəhətlərindən bəhs edərək yazır: "Etatilləşdirilmiş (dövlətləşdirilmiş) dəyərlər insan həyatını, taleyini heç bir nəzarət olmadan həll etməklə, hüquqsuzun müqavimət göstərməsini istisna etməklə, siyasi hakimiyyətin mütləqləşməsi cəhdlərini doğruldur. Uzun müddət demokratik dəyərlərin, milli-mənəvi ənənələrin pozulması nəticəsində yalnız bir "borcu hakimiyyətə tabe olmaq "borcunu, onun qaydaları ilə təsdiq edilənləri tanıyan insan yaranmışdır. Axırıncıya "nəyin bahasına olursa olsun və "yeganə məqsəddən ötrü-cəmiyyət üzərində sonsuz hakimiyyəti əldə etmək üçün nail olunurdu. Bu cür əxlaq cəmiyyətin lümpenləşməsinə, deklassiv dünyanın etik normalarının möhkəmlənməsinə, messianlıq ruhunun, rəhbərliyə inam, özgəfikirliyə və özgə fikirlərə qarşı dözümsüzlük, insanın təbiətilə hesablaşma-

maq kimi halların yayılmasına xidmət edir. Belə "əxlaq xeyir və şərin primitiv kontrast sxemini insanın fəaliyyətinin müxtəlif sferalarına, ilk növbədə siyasətə tətbiq edirdi. Bu "əxlaq azad özünüməhdudlaşdırmanın əvəzinə dövlət kollektivizminin yer almasına, insani hakimiyyəti bir alət kimi istehlakçı mövqedən çıxış etməyə sövq edirdi. Məhz belə əxlaq paterpalist hakimiyyətin ilahiləşməsinə kömək edirdi. Aydın məsələdir ki, bu cür əxlaqi, daha doğrusu, mənəvi yadlaşmanı tezliklə aradan qaldırmaq asan məsələ deyil. Bu çatışmazlığın düzəlməsi, ictimai mənəviyyatın ideologiya və hakimiyyətdən emansipasiya edilməsi yuxarılar tərəfindən nəzərdə tutulmuş qrafik üzrə həyata keçirilmir. Səbəblərin dərk edilməsi və müvafiq qaydaların sadəcə tənqid edilməsi kifayət deyil. Mənəvi yadlaşmanın həqiqətən aradan qaldırılması cəmiyyətin tədricən təmizlənməsi istiqamətində getməli, əxlaqda azadlığın rolunun başa düşülməsi, özgələşmədə qarşıdurma ənənələrinin bərpa edilməsi əxlaqa və hakimiyyətə verilən qiymətlərin bölünməsi kimi başa düşülməlidir" [6, 19]. Bununla müəllif siyasi aksiologiyanın demokratikləşdirilməsindən, etatiləşdirilmiş dəyərlərin tənqidindən, mənəvi yadlaşmadan bəhs edir ki, bu da müasirlik baxımından əhəmiyyət daşıyır.

Bu gün əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanın hüquqi dövlət quruculuğu, onun siyasi davamçısı dövlət başçısı İlham Əliyev tərəfindən inkişaf etdirilərək siyasi aksioloji prinsiplərin təsiri ilə güclü modernləşmiş dövlətə çevrilmişdir: "Azərbaycan Respublikasının modernləşmə kursu ölkənin müasir dövlətə çevrilməsini aydın şəkildə təsbit edir: o, iqtisadi cəhətdən inkişaf edir, siyasi cəhətdən demokratik və milli ənənələrə əsaslanır " [25, 176].

Beləliklə, hüquqi dövlət quruculuğu prosesində siyasi aksioloji prinsiplər mühüm yer tutur. Siyasi aksiologiya milli, mənəvi aksiologiya ilə qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə olub demokratik, unitar, hüquqi Azərbaycan dövlətində əsas amil kimi çıxış edir. Siyasi aksiologiya müxtəlif yönümlü dəyərlər sistemi kimi Azərbaycan dövlətçiliyində qanunun aliliyinin, sosial ədalətin, təhlükəsizliyin, azadlğın, inamın, insanların hüquqi və qanuni maraqlarının müdafiəsində əsas rol oynayır.

Siyasi aksiologiyanın əsası konstitusiya dəyərləri Konstitusiyada əks olunmuş,onun formaları və institutlarında təsbit olunmuş, hüquqi dövlət prosesində həlledici əhəmiyyət kəsb etmişdir.

Aksiologiya üç tərkib hissədən ümumi, şəxsi, siyasi aksiologiyadan ibaərətdir. Siyasi aksiologiya hakimiyyət aksiologiyası məhz hüquqi dövlət quruculuğu prosesinə təsir edən amildir. Hüquqi dövlətə təsir edən siyasi aksiologiyanın liberal-demokratik, radikal-demokratik, normativ və volyuntarist konsepsiyaları mövcuddur.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. Müsətqillik yolu. Seçilmiş fikirlər. Bakı,1997, s.30
2. Heydər Əliyev. Müstəqillik yollarında.III kitab. Bakı,1997, s. 409
3. İlham Əliyev: Azərbaycanda qanunun aliliyi başlıca şərtdir. //Dirçəliş-XXI əsr, 2005, Xüsusi buraxılış, s.85
4. Şirəliyev B.İ. Abbasov F.F. Politologiya. Bakı: Bilik, 1993, s.178 (240 s.)
5. Старостии Б.А. Ценности и ценностный мир: уцеб.по собие по аксиологии. Москва: Компания Спутник, 2002, с.11. (152 с).
6. Məmmədzadə İ. Siyasi etika. Bakı: "İnam" Plüralizm Mərkəzi, 1997, s.5-6. (18 s.)
7. Ağayeva Z. Mənəvi dəyərlər və sosial-siyasi Gerçəklik, s.96
8. Məmmədzadə İ.Müasir Azərbaycan ailəsinin fəlsəfi təhlili. //Adət-ənənələrimiz və müasirlik baxımından bir dəyər olaraq ailə Konfrans materialları. Bakı, 2011, (s. 19-22)
9. Müslimzadə D. Etik-sosioloji tədqiqatlat nöqteyi-nəzərinə vətəndaş şüuru və ənənəvi dəyərlər. //Adət-ənənələrimiz və müasirlik baxımından..ailə s.80 (s.78-80)
10. Мамед-заде И. Опыт интерыретации морали. Баку: Муаллим, 2006, с.76-77
11. Снежко О. Правовая природа конститиционных ценностей современной России// Сравнителъные конститиционное обозрение, 2015, №2, с.13. (с.13-18)
12. Гуманизамия перядка формирования государст венныч органов м ее аксиологическия начала.//https^//lawbook.online/dosudarstvf-prava-teoriya/dimanizatiya-poruadka-formio, amiya-71861/html. 21.05.2015/
13. Барыщков. В.П. Аксиология. Учебное поособие. Саратов: Издателский цеттр «Наука», 2009, (65 с).

14. Волкова А.В. Политико-аксиологицеский подход как стратегия анализа публичной политика.//https^//www/sword.com.uat.index.php/ru/legal-and-political-science-///political-culture-and-ideology-411/10963-411-1020/
15. Məmmədzadə İ. Bir daha fəlsəfə haqqında müasir yanaşmalar. Təmayüllər. Perspektivlər. Bakı. Təknur, 2012, s.176 (212)

## SUMMARY

**Kamran Valizada**

## THE PROCESS OF LEGAL STATE BUILDING AND POLITICAL AXIOLOGY

Political axiology is central to the political culture and values of the legal state. In the legal state, political axiology interacts with law and constitution. The author takingthis fact as a basis notes that a system of political values is the main object of research ofpolitical axiology and considers that the political consciousness of certain people recognizes and defines a system of values and anti-values in the political culture of the legal state.

The author rightly concludes that today axiological foundation of constitutional legal theory, including political axiological principles, axiological approach concept and axiological modeling methodologyforms the basis of formation and humanization of legal state bodies in the society as a political legal institution.

***Key words***: *political life, system structure, state, interest , function, personality*

## РЕЗЮМЕ

**Камран Велизаде**

## ПРОЦЕСС ПРАВОВОГО ГОСУДАРСТВЕННОГО СТРОИТЕЛЬСТВА И ПОЛИТИЧЕСКАЯ АКСИОЛОГИЯ

Политическая аксиология занимает центральное место в политической культуре и системе ценностей правового государства. В правовом государстве политическая аксиология взаимодействует с законом и конституцией. Автор обосновал это тем, что основным объектом исследования политической аксиологии является система политических ценностей, отметив, что политическое сознание определенных людей признает и определяет систему ценностей и анти-ценностей в политической культуре правового государства.

Автор справедливо делает вывод о том, что сегодня в обществе на основе формирования и гуманизации правовых государственных органов как политико-правового института лежит аксиологический фундамент конституционно-правовой теории, включая политические аксиологические принципы, концепцию аксиологического подхода и методологию аксиологического моделирования.

***Ключевые слова***: *политическая жизнь, структура системы, государство, интерес, функция, личность*

---

***Məqaləni çapa təqdim etdi:*** *Fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:*** *03 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *11 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 45-49
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 45-49
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 45-49

**ASİF ABDULLAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*asif.abdullayev@hotmail.com*

**UOT: 341.2; 341.231.14**

# İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏLƏRİN MÜQAYİSƏLİ TƏHLİLİ

*İnsan resursları bütün müəssisə və təşkilatların özəyini təşkil edir. Fəaliyyət istiqaməti və quruluş prinsiplərindən asılı olmayaraq, təşkilatlar məhz insan faktoruna görə böyüyür və davamlı inkişaf edir. "İnsan resurslarinin idarə olunması" çoxaspektli sahə olub, spesifik qurumlarda nəzərdə tutulan hədəflərə çatmaq üçün sistematik olaraq insana yönəlmiş idarəetmə tədbirlər planının tərtib edilməsidir. Bu məqalədə bu tədbirlər planının dünya təcrübələrində müxtəlif yanaşmalı konsepsiyaları nəzərdən keçirilir. Ənənəvi və institusional parametrlər daxil olmaqla öz spesifik xüsusiyyətləri ilə öz növbəsində İRİO modeli formalaşdırmış bəzi inkişaf etmiş ölkələrin bu fəaliyyət istiqamətindəki nəaliyyətlərinin araşdırmalı analiz və uyğun tətbiqetmə prosesi ilə istehsal, xidmət və digər struktur qurumlar səviyyəsində inteqrasiyası qənaətbəxş nəticə əldə edilməsi üçün prioritetdir.*

***Açar sözlər:*** *İdarəetmə, İnsan resursları, Çevik insan resursları, beynəlxalq insan resursları, institusional, neo-institusional, determinist, formalist, universalist.*

İdarəetmə təcrübələrində əsas amil kimi çıxış edən yaş və bilik göstəriciləri korporativ iqtisadiyyatda kəskin dəyişikliklər yaratdı və formalaşdırdı. Təşkilatlar indi dinamik, qeyri-müəyyən, dəyişən və mürəkkəb mühitdə çətin rəqabətlərlə üzləşməyə məruz qalırlar. Rəqabət üstünlüyü əldə etmək, hətta yaşamaq üçün firmalar ətraf mühitə uyğunlaşma və reaksiya vermək qabiliyyətindən, yeni fikirlərin və məhsulların çevikliyindən və tətbiqetmə qabiliyyətlərindən çox asılıdırlar. Yəni yaradıcı və yenilikçi strategiya istiqaməti ilə fəaliyyət göstərən şirkətlərdə təşəbbüskar və innovativ düşüncəli və qabiliyyətli kadrlar hazırlanmalı və yerləşdirilməlidir. İşçilərin yenilikçi və təşəbbüskar davranmağa nəyin səbəb olduğu və müəssisələrin bu fəaliyyəti necə və hansı üsullarla formalaşdıra biləcəyi arzuolunan fəaliyyətin reallaşmasında vacib məsələdir [2]. İR sistemləri və tədbirlər kompleksi işçiləri rəqabətqabiliyyətliliyi təmin etmək üçün lazımlı töhfələr verməyə təşviq edən fəaliyyət kimi qiymətləndirilir. Sosial mübadilə nəzəriyyəsi baxımından işəgötürən və işçi arasında mübadilənin keyfiyyətini və növünü anlamaq işçilərin fəaliyyətini başa düşmək üçün açardır [1].

İnsan resursları rəhbərləri tərəfindən inanılan effektli fəaliyyət istiqaməti sahələrindən biri yenilikləri effektiv şəkildə dəstəkləmək üçün iş strategiyalarına əsaslı şəkildə yer verilməsidir. İnsan resurslarının idarəedilməsində tədqiqat marağı yaratmağa başlayan, başqa bir inkişaf etməkdə olan sahə çevik insan resurslarının idarə olunmasıdır. Çünki firmalar həm daxili, həm də xarici mühitdə dəyişkən, qeyri-müəyyən və müxtəlif tələblərə cavab verməyə və uyğunlaşmağa hazırlıqlı olmalıdır. Aktiv İnsan resursları idarəetməsi dəyişən ətraf mühit şərtlərinə görə işçilərin xüsusiyyətlərini, bacarıq və qabiliyyətlərini, xüsusiyyət və davranışlarını formalaşdırdığı üçün elastik idarəetmənin çox vacib bir tərəfi kimi qəbul olunur. Çevik İnsan Resurslarının İdarə Olunması (ÇİRİO) işçi bacarığı, motivasiya, qabiliyyət və imkanların artırılmasına yönəldildiyi üçün fəaliyyətdə yenilikçi iş davranışını stimullaşdırır. (Puikene, 2016). ÇİRİO işçilərə bilik, qabiliyyət və bacarıqlarının bütün potensialından istifadə edərək öz qabiliyyətlərini arzuolunan formada göstərməyə və nəticələrini yenilikçi fikirlər şəklində təqdim etməyə imkan verir. [2]. Bu sahənin yaranması və inkişafı qlobal sferada müxtəlif istiqamətlərdə özünü büruzə verir, müəssisə və kadr münasibətlərində müxtəlif ünsiyyət və fəaliyyət modelləri meydana gəlir. Artıq hər bir inkişaf etmiş ölkənin özünə aid İRİO modeli formalaşmış və inkişaf etməkdə davam edir.

Şimali Amerika modeli olaraq qəbul edilən ABŞ və Kanadadakı insan resurslarının idarə-edilməsi son 30 ildə ciddi dəyişikliklərə məruz qalmışdır. 80-ci illərdən başlayaraq, Şimali Amerika müəssisələrində diqqət yerli kadr potensialından dünyəvi kadr ehtiyyatlarına keçməyə başladı. İRİO Şimali Amerika modelinin əsas hədəfi təkmilləşdirilmiş performans göstəricilərinin nəzərdə tutulmasıdır. "Jeffery Schippman"-ın düşüncəsiylə desək: "Bəlkə də strateji bir iş modelinin edə biləcəyi ən faydalı şey, müştərinin (müəssisənin) problemləri haqqında düşünmək üçün öz anlayışını və düşüncə dairəsini inkişaf etdirməkdir" fikri bu mənada yerinə düşər [1]. İstənilən təşkilatda əmək haqqı ödəmə sistemi eyni əmək üçün rəqabət aparan digər təşkilatların ödəmə təcrübələrini nəzərə almalıdır və bu səbəbdən İR mütəxəssisləri rəqiblərin əmək haqqı tətbiqetmələrini daim diqqət mərkəzində saxlamalı olurlar. Eynilə, bir təşkilatda kadrların işə qəbulu, işçi heyətinin yerləşdirilməsi və inkişafı üçün planlaşdırılması xarici əmək bazarındakı tələb və təklifdən qaynaqlandığı üçün İR mütəxəssislərinin ənənəvi roluna əmək bazarı şərtlərinin izlənməsi daxildir.

Tədqiqatçılar İR-nin müəyyən bir elementinin bütün İRİO sistemınə mütləq təsirini iddia edərək İRİO təcrübəsi 'paketlərini' nəzərdən keçirmişlər. Yəni İRİO təcrübələrinin bir-biri ilə uyğun şəkildə fəaliyyət göstərəcəyi qəbul edilmişdir. MacDuffie tərəfindən qeyd edildiyi kimi, "bir İR paketi və ya sistemi əsas iş funksiyalarından bir-birini tamamlayan təcrübə paketləri ilə birləşdirilməlidir". Düzgün uyğunlaşdırıldıqda, birlikdə bir neçə tətbiq bir-birini gücləndirə bilər; uyğun olmayan zaman isə bir-birlərinə qarşı ola bilər və performansa müdaxilə edə bilərlər [1].

Son illərdə Şimali Amerika İR mütəxəssisləri performans ölçməsini, performans rəyi və performansa əsaslanan mükafatlandırma və qiymətləndirmə funksiyalı təcrübələrə istinad etmək üçün Performans İdarəçiliyi terminini qəbul etdi. Burada müzakirə ediləcək çox sayda tendensiya olmasına baxmayaraq, Şimali Amerika perspektivini xarakterizə edən iki spesifik məsələyə, yəni çoxpilləli performans qiymətləndirməsinin və fəaliyyətə əsaslanan əmək haqqının geniş mənimsənilməsinə diqqət yetirilir [1]. İnsan resurslarının idarə edilməsində başlıca məqsəd onların potensialından və yaradıcı imkanlarından maksimum istifadə edilməsidir. Geniş mənada insan resurslarının idarə edilməsi sənayecə inkişaf etmiş ölkələrdə, xüsusilə Amerikada və Yaponiyada menecerlərin hazırlanması zamanı onların tədris planlarında aşağıdakı məsələlərə böyük əhəmiyyət verilir:

1. Firma və şirkətlərin konkret strategiyasına uyğun gələn işçi heyətinə tələbatın müəyyən edilməsi;
2. Əmək bazarının qiymətləndirilməsi və məşğuliyyət amillərinin təhlili;
3. Əməkdaşların karyerasının planlaşdırılması, onların inkişaf imkanları;
4. Fəaliyyətin motivləşdirilməsi sisteminin hazırlanması;
5. Əmək məhsuldarlığının idarə edilməsi;
6. Əmək gəlirlərinin, firmadaxili əmək və istehlak ölçüsünün tənzimlənməsi;
7. Firmadaxili fəal sosial siyasətin aparılması;
8. Yaradıcı işin, o cümlədən texniki yaradıcılığın stimullaşdırılması;
9. Qabaqcıl əmək üsullarının tətbiqi;
10. Heyətin peşə-ixtisas hazırlığı;
11. Münaqişələrin yumşaldılması və idarə edilməsi;
12. Sosial-psixoloji mühitin yaradılması [4].

Amerika və Avropada Beynəlxalq İRİO (BİRİO) fəaliyyət istiqaməti son 30 il ərzində əhəmiyyətli şəkildə inkişaf etmişdir. İqtisadiyyatın qloballaşması nəticəsində bir çox firma regional deyil, ümumdünya sferasında rəqabət aparır. Bu şirkətlərinin əksəriyyəti üçün beynəlmiləlləşmə prosesi yavaş-yavaş yerli bazadan beynəlxalq miqyasda genişlənmə prosesinə üstünlük verilməsilə həyata keçirilmişdir. İdeal olaraq bu yanaşma, yeni bir məkanda şirkətin yaradılması üçün böyük bir sərmayə qoymadan əvvəl, yeni bir yerdə necə işləməyini öyrənməyə imkan verir [1]. Beynəlxalq ittifaqların iki ümumi növü: beynəlxalq satınalma və birləşmələr və beynəlxalq müştərək-şərikli müəssisələrdir. Beynəlxalq satınalma və birləşmələr bazarda şirkətlərin sayını azaltmaq meylinə sahib olsa da, beynəlxalq müştərək müəssisələr, ümumiyyətlə, bazarda şirkətlərin sayını artırır. Hər iki halda maliyyələr azaldıla və profisitlər artırıla bilər, bazara giriş sürəti artırıla və risklər idarə oluna bilər. Avropa ölkələrinin hüquqi, sosial və siyasi mühiti İRİO prinsiplərinin dəyişməz tətbiqini məhdudlaşdırır. Əsasən, "iş sistemləri" yanaşması kimi etiketlənmiş Avropa neo-institusionalist

məktəbi bu mühitdəki (fərqli kapitalizmlər), xüsusən də milli mənsubiyyət səviyyəsində fərqlərin daha sistematik bir şəkildə təhlil edilməsini tələb edir. Müəyyən bir iqtisadiyyatın institusional çərçivəsindən asılı olaraq, xüsusi bir milli biznes sistemi inkişaf edir. İR təcrübələrinin Şimali Amerikanın neo-institusional yanaşmaları, əsasən, təşkilatların oxşar gözləntilərə necə uyğunlaşdıqlarını izah edən sahələrə yönəldilir və nəticədə oxşar idarəetmə təcrübələri meydana gəlir. Avropadakı İR milli-mənəvi dəyərlər və bunun təşkilati təcrübə üçün nəticələri barədə daha çox araşdırmalı yanaşmaya üstünlük verir.

Tarixi Alman sənaye əlaqələri idarə heyəti səviyyəsindəki kadr təyinetmə və yerləşdirməsi ilə bilinsə də, son iyirmi ildə iş yerində birlikdə qərarvermə və təyinetmə getdikcə daha üstün hal almışdır. Əgər işçilər istəsələr beş və ya daha çox işçisi olan şirkətlərdə iş məclisləri yaradıla bilər və bu, alman şirkətlərinin böyük əksəriyyəti tərəfindən istifadə olunur (Bertelsmann Foundation /Hans-Böckler Foundation 1998; Weber / Kabst 2000). İş şurasını təşkil edən işçi nümayəndələri işçilər tərəfindən seçilir və iş şurası İR məsələləri ilə bağlı geniş hüquqlara malikdir. Bir çox İR məsələləri və qərarları iş məclisinin razılığı olmadan həyata keçirilə bilməz [5].

İRİO-nun Avropa təcrübələrinə müraciət etdiyimiz zaman burada, əsasən, 2 perspektivin araşdırılması və tətbiqini aydın şəkildə müşahidə edə bilərik: Universalist və Mədəni bazaya əsaslanan.

Universalist yanaşma daha çox determinist və formalist olduğu və milli - mədəni amilləri kifayət qədər nəzərə almadığı üçün tədqiqatçılar tərəfindən tənqid edilir. Universalist perspektiv texnologiyanın inkişafının bütün sənayeləşmiş cəmiyyətlərdə oxşar iqtisadi, siyasi, sosial və təşkilati aspektlərin inkişafına səbəb olacağı düşüncəyə əsaslanır. Bu yanaşma Avropada böyüyən daxili rəqabəti, artan işsizliyi, yaşlanan işçi qüvvəsini nəzərə alaraq daha elastik idarəetmə sistemi, çeviklik və məhsuldarlıq göstəricilərini ön plana çəkən İRİO modeli formalaşdırmağı qərara alır “(Kerret al. 1960)”. Universalist arqumentə əsasən bütün dünyada təşkilatlar idarə olunmalıdır. Onların menecerləri səmərəlilik, böyümə və artan texnoloji inkişaf kimi anlayışları əsas götürsələr bu funksiyalarını dünyanın başqa yerlərində fəaliyyət göstərən müəssisələrdə də təsirli olacağı düşünülür. “Hickson / Pugh (1995)” [6].

Universalistlərdən fərqli olaraq, mədəniyyətə əsaslanan bir perspektivə sahib olan müşahidəçilər, mədəniyyətin insan resursları təcrübələrində əhəmiyyətli dəyişikliklərlə nəticələnəcəyini düşünürlər. Bu sahədə tədqiqatçılar və əsas sayılan ədəbiyyatlar mədəniyyət və milli-etik faktorların vacib göstəricilər olduğunu göstərir. Beləliklə, idarəetmə prinsipləri və üsulları mədəniyyətə bağlı olduğundan, adoptasiya və uyğunlaşma prinsipləri nəzərə alınmadan bu üsul və qaydalar başqa etik-mədəni əsaslara malik ölkələrə köçürülə bilməz [6]. Tədqiqatçılar və müşahidəçilər tərəfindən Fransa və Almaniyada uyğun istehsal müəssisələrinin müqayisəsi zamanı firma səviyyəsində işin təşkili ilə milli qurumlar arasında müvafiq bir əlaqə müəyyən edilmişdir. Məsələn, Fransız menecerlərlə müqayisədə Almanların daha yüksək texniki bilik və bacarıqlara sahib olduqları və daha mürəkkəb tapşırıqları yerinə yetirmələri nəticəsinə gəlinmişdir. Fransa və Almaniyadakı təhsil və peşə təhsili sistemlərindəki fərqlər nəticənin əsas izahıdır.

Müqayisə və tədqiq edilərək uğurlu nəticələr əldə edilmə potensialına sahib, dünya idarəetmə tarixinə və təcrübəsinə öz töhfəsini verən İRİO modellərindən biri də Yapon idarəetməsidir. Yapon şirkət və müəssisələri, əsasən, müştəri və yüksək keyfiyyət yönümlüdür. Səmərəli iş prosesinin təşkili yapon idarəetməsində böyük rol oynayır. Yapon mədəniyyətinin qədim və mürəkkəbliyi, bu zəngin ənənələrin İRİO təcrübələrinə tətbiqi bu modelin formalaşmasında özünü göstərmişdir. Yapon İRİO-nın bəzi əsas xüsusiyyətləri arasında ömür boyu işləmək, iş stajına əsaslanan əmək haqqı, təşviqat və təşəbbüskarlıq xüsusiyyətləri daxildir. Digər diqqətəlayiq parametrlər arasında müəyyən keyfiyyət idarəetmə sistemi, səs birliyi ilə qərar qəbulu, işçilərin şirkətə sədaqəti və s. göstərmək mümkündür.

Ənənəvi olaraq yapon şirkətləri yeniyetmə məzunları işə götürür və bütöv karyeraları üçün şirkətdə işlə təmin edirlər. Ömür boyu məşğulluq işçilərdə sadiqlik hissi yaratdığına görə şirkət faydalanır və bu da işçilərin fəaliyyətində stimul yaranmasına səbəb olur. İşçilər həmçinin şirkətin bütün sahələrində davamlı təhsil alaraq çoxyönlü işçi halına gətirilir, bir sıra bacarıqlar və karyerası boyu şirkətə töhfə verə biləcək qabiliyyətlər əldə edir. Ömür boyu məşğulluq həm də şirkətin dövriyyə nisbətinin azalmasına gətirib çıxarır ki, bu da ixtisaslı kadrın şirkət daxilində saxlanılması deməkdir.

İyerarxik ehtiram və ağsaqqallara hörmət yapon mədəniyyəti və dininin əsasını təşkil edən fəlsəfə-Konfutsiçiliyin əsas elementlərindəndir. Bu paradiqma yaponiya İRİO-nun təcrübəyə əsaslanan əmək haqqı və təşviqat praktikasında əks olunur. İşçilər bir şirkətdə zaman keçdikcə bilik və təcrübə qazandıqları üçün struktur yüksəliş və maaş artımı kimi yeni imkanlar qazanırlar. Bu sistemin faydası şirkətdə müəyyən müddət ərzində ixtisaslı kadr nümunəsinə çevrilmiş işçilər üçün karyera inkişafına və maaş artımlarına zəmanət verməkdir.

*Müəssisə həmkarlar ittifaqları* demək olar ki, hər bir yapon şirkətində mövcuddur və işçilərlə rəhbərlik arasında vasitəçi rolunu oynayır. Bu isə hər iki tərəfə bələdçi qismində, mədəni dəyərlər çərçivəsində problemə yanaşılması və vaxtında işçilər və rəhbərliyin ortaq mənafeyi rəhbər tutularaq həll edilməsidir. Hazırda Azərbaycanda insan resursları idarəetməsinin funksiyaları son dövrlərdə xarici təcrübələrə əsaslanmaqla, xüsusilə özəl firmalarda, qismən isə dövlət sektorunda uğurla yerinə yetirilməkdədir. Bunlara baxmayaraq, bu sahənin inkişafına daim ehtiyac duyulur.

## ƏDƏBİYYAT

1. HRM practice and scholarship: a North American perspective Susan E. Jackson, Randall S. Schuler, David Lepak and Ibraiz Tarique
2. Flexible Human Resource Management And Firm Innovativeness: Ali Javed, Muhammad Anas, Muhammad Abbas, Atif İjaz Khan
3. US HRM and the EU Social Policy: A Case Study of the Works Council Directive - Beverly Springer. American Graduate School of International Management
4. Insan Resurslarının İdarə Edilməsi: Tofiq Quliyev
5. The International Review of Management Studies: Richard Croucher, Cranfield University, UK, Rüdiger Kabst, University of Giessen, Germany, Rita Kellermann, Rotterdam School of M., Netherlands, Wenzel Matiaske, University of Flensburg, Germany.
6. A Comparison of Human Resource Management Practices in Austria, Germany and Sweden: Michael Muller, Niklas Lundblad, Wolfgang Mayrhofer, Magnus Söderström
7. Human resource management practices in Japan : Meagan Powell

## SUMMARY

**Asif Abdullayev**

## INTERNATIONAL HUMAN RESOURCES MANAGEMENT COMPARATIVE ANALYSIS OF EXPERIENCES

The core of all organizations and enterprises is man. Organizations grow, develop and survive because of the human factor, regardless of the direction of activity and structural principles. As a multi-faceted field, Human Resource Management is the development of a systematic person-centered management action plan to achieve the goals set in specific institutions. This article will discuss the different approaches to this action plan in world practice. Integration of the achievements of some developed countries, which in turn formed the HRM model with their specific features, including traditional and institutional parameters, at the level of production, services and other structural units with the process of research analysis and appropriate implementation to achieve satisfactory results is the priority.

***Key words:*** *management, human resources, flexible human resources, international human resources, institutional, neo-institutional, deterministic, formalist, universalist*

## РЕЗЮМЕ

**Asif Abdullayev**

## МЕЖДУНАРОДНОЕ УПРАВЛЕНИЕ ЛЮДСКИМИ РЕСУРСАМИ СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ОПЫТА

Ядро всех организаций и предприятий - это человек. Организации растут, развиваются и выживают благодаря человеческому фактору, независимо от направления деятельности и структурных принципов. Как многогранная область, управление человеческими ресурсами - это разработка систематического плана действий в области управления, ориентированного на человека, для достижения целей, установленных в конкретных учреждениях. В этой статье будут рассмотрены различные подходы к этому плану действий в мировой практике. Интеграция достижений некоторых развитых стран, которые, в свою очередь, сформировали модель IRIO с их специфическими характеристиками, включая традиционные и институциональные параметры, на уровне производства, услуг и других структурных единиц, с процессом исследовательского анализа и соответствующей реализации для достижения удовлетворительного результаты - приоритет.


***Ключевые слова:*** *управление, человеческие ресурсы, гибкие человеческие ресурсы, международные человеческие ресурсы, институциональные, неоинституциональные, детер-ми-нистские, формалистские, универсалистские*

---

***Məqaləni çapa təqdim etdi:*** *Fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:*** *03 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *11 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 50-54
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 50-54
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 50-54

**GÜNEL MƏLİKLİ**
*AMEA-nın Fəlsəfə İnstitutu*

**UOT: 355/359**

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ İNKİŞAF SİSTEMİNDƏ HƏRBİ VƏ SƏRHƏD TƏHLÜKƏSİZLİYİ PROBLEMİ

*Azərbaycan Respublikasında hərbi sahənin və sərhəd təhlükəsizliyinin gücləndirilməsində ümummilli liderimiz – Heydər Əliyevin və onun kursunu sədaqətlə və yaradıcı şəkildə həyata keçirən cənab prezident İlham Əliyevin xidmətləri çox mühüm tarixi-ictimai əhəmiyyətə malikdir. Azərbaycan Respublikası işğalçı dövlətin-Ermənistanın hərbi təcavüzünə məruz qaldığından yaranmış mürəkkəb şəraitdə Milli Ordu quruculuğu müstəqilliyin qorunmasının əsas amillərindən birinə çevrilibdir. Dövlətimizin hərbi sahəyə dair işləyib hazırladığı və gerçəkləşdirdiyi siyasət kifayət qədər geniş və əhatəli olub, çoxaspektli xarakter daşıyır. Hər bir ölkənin sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi onun davamlı inkişafının, uğurlu beynəlxalq əməkdaşlığının zəruri şərtidir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ölkəyə rəhbərlik etməyə başladığı ilk vaxtlardan Ulu Öndər Heydər Əliyevin milli sərhəd siyasətini uğurla davam etdirərək sərhədçiləri və sərhəd qoşunlarını daim dövlət qayğısı ilə əhatə edir. Hər bir Azərbaycan vətəndaşı ümummilli liderimizin və onun yaradıcı davamçısı cənab prezident İlham Əliyevin hərbi sahəyə dair fenomenal siyasətinin bütün məqamlarına azərbaycançılıq mövqeyindən yanaşmağa ciddi səy göstərməlidir.*

***Açar sözlər**: hərbi sahə, daxili hərbi təhdidlər, ordu quruculuğu, milli inkişaf, silahlı qüvvələr, Ali baş komandan, müdafiə qabiliyyəti, sərhəd strategiyası, sərhəd təhlükəsizliyi, silahlı qüvvələr, milli inkişaf, kütləvi qırğın silahları*

Azərbaycan Respublikasının milli inkişaf sistemində hərbi sahə və sərhəd təhlükəsizliyi sahəsi mühüm rola malikdir. Hərbi sahə digər sahələrlə sıx bağlı olsa da, onun özünəməxsus özəllikləri də mövcuddur.

Ümummilli liderimiz Heydər Əliyev Kremldən uzaqlaşdırılandan sonra Azərbaycana qayıdanda ölkə çox ağır bir durumda idi. O, sonralar həmin günləri belə xatırlayır: “Eşidəndə ki, mənim doğma vətənim, mənim doğma torpağım dağılır, uzun müddət bu vətənin, ölkənin inkişafına xidmət etmiş bir adam kimi mən bilirəm ki, biz burada nələr etmişik və bu, dağılır, şübhəsiz ki, özümü qurban verməli oldum və gəldim, məsuliyyəti öz üzərimə götürdüm” ( 3, s.3).

Heydər Əliyev diqqəti ona yönəldirdi ki, respublikanın müdafiəsini təşkil etməyə məsul olan şəxslər Vətənin müdafiəsinə hazır olan insanları təşkilatlandırmalı, mövcud hərbi kadrlardan istifadə etməklə onlara hərb işini öyrətməli və sonra da onları təlimatlandıraraq torpaqların müdafiəsinə göndərməli idi. “... O da ola bilərdi ki, Azərbaycanın həmin vətənpərvər övladlarını səfərbər edərək yaranmış milli zabit kadrları potensialından səmərəli istifadə edib, hərbi hissələrin komandirlərini onlardan təyin edib, beləliklə də, tezliklə müstəqil Azərbaycan Ordusu yaradılaydı. Əgər belə olsaydı, Azərbaycan bu məğlubiyyətlərlə rastlaşmazdı. Ölkəmizin bu torpaqları işğal olunmazdı” (7, s.132).

Tarixi prosesləri araşdırdıqca bir daha aydın olur ki, Heydər Əliyevin 1993-cü ilin 15 iyununda Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı bizi milli müstəqilliyimizi itirmək təhlükəsindən xilas etdi. Bununla da, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Azərbaycanın dövlət müstəqilliyi hər cür daxili və xarici təhdidlərdən qurtuldu. Çağdaş Azərbaycan tarixinin həqiqi müstəqillik mərhələsi başlandı (4, s.2).

Həqiqi müstəqillik mərhələsində Heydər Əliyev hərbi sahəni daim diqqətdə saxlayırdı. O,

çalışırdı ki, əhalinin müxtəlif qrupları bu mərhələnin nə dərəcədə məsuliyyətli olmasını aydın təsəvvür etsinlər. Hərbi sahənin qüdrətli olması üçün xalqın sıx birləşməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətli xarakterikstikasını bir vətəndaş kimi düzgün dərk etməsi, öz quruculuq səylərini gücləndirməsi olduqca əhəmiyyətlidir.

Dahi lider Heydər Əliyev müstəqilliyimizi gücləndirmək səylərinin fəal təşkilatçısı olaraq tez-tez cəbhə bölgələrinə gedir, döyüşən ordunun şəxsi heyəti ilə söhbətlər aparır, başlıca problemlərin müəyyənləşdirilməsi və aradan qaldırılması istiqamətində tədbirlər görürdü. O, ön cəbhə ilə arxa cəbhənin əlaqələndirilməsini, xalqın gücünün, iradəsinin müdafiə istiqamətinin dərinləşdirilməsini daim diqqətdə saxlayırdı. Heydər Əliyevin real şəraiti obyektiv qiymətləndirmək bacarığı öz təsirini göstərir və fəaliyyətin nəticəli olmasına kömək edirdi. O, tam əmin idi ki, ərazilərin qorunması və inkişaf etdirilməsi üçün Azərbaycan xalqının yetərli səviyyədə potensialı imkanları vardır. Bu imkanları üzə çıxarmaq azdır, onları səfərbər etmək, istiqamətləndirmək lazımdır.

Azərbaycan Respublikasının hərbi sahədə milli təhlükəsizliyinin təmin olunması Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş real və potensial təhdidlərdən müdafiə sahəsində tədbirlər kompleksinin həyata keçirilməsi və milli maraqların hərbi və digər vasitələrlə qorunması qabiliyyətinin təmin edilməsidir.

Ermənistanın öz himayədarlarına arxalanaraq Azərbaycan üçün ciddi təhdid yaratması, real faktdır. Belə ki, XX əsrin sonlarından başlayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində səkkiz milyon əhalinin bir milyondan çoxu qaçqın və məcburi köçkün olmuşdur. Ermənistan tərəfindən 1988-ci ildən yürüdülən işğalçı planın nəticəsində bütün qanunlar, insan hüquqları kobud şəkildə pozulmuşdur. Qaçqın və məcburi köçkünlər ölkənin 69 şəhər və rayonunda müvəqqəti məskunlaşmış, 700 min nəfər məcburi köçkün isə 1600-dan çox sıx məskunlaşma obyektində yerləşmişlər (2, s.77).

Yeri gəlmişkən qeyd edək ki, xarici hərbi təhdidlərə Azərbaycanın 20% ərazisinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılması; qonşu dövlətlər tərəfindən ona qarşı əsassız ərazi iddialarının irəli sürülməsi; ölkənin daxili siyasi və sosial-iqtisadi vəziyyətinin gərginləşdi-rilməsinə, sabitliyin pozulmasına yönəldilmiş separatçı və dini-ekstremist hərəkətlər; dövlət sərhədinin hərbi birləşmələr və silahlı dəstələr tərəfindən pozulması, sərhəd mübahisələrinin kəskinləşməsi; digər dövlətlər tərəfindən ölkə ərazisinə göndərmək üçün qanunsuz silahlı qrupların və terrorçuların hazırlanması; dövlət sərhədlərinin və ərazi sularının bilavasitə yaxınlığında hərbi bazaların yaradılması, qoşun qruplaşmalarının cəmləşdirilməsi, silahların artırılması və digər hərbi iştirakın gücləndirilməsi; ölkənin daxili işlərinə hər hansı mümkün kənar hərbi müdaxilə; qonşu ölkələrin dövlətlərarası münaqişələrdə iştirakı; müxtəlif xarici dairələrin təsiri altında nüvə və digər kütləvi qırğın silahlı növlərinin yayılması və s. daxildir (2, s.76, 77).

Dövlət hərbi təhlükəsizlik məsələsində ilk növbədə özünün yaratdığı və inkişaf etdirdiyi Orduya arxalanır. Təsadüfi deyildir ki, Heydər Əliyev 1994-cü il yanvar ayının 24-də cəbhəyə hazırlaşan hərbi hissələrin yola salınma mərasimində əsgər və zabitlərə belə müraciət etmişdir: "Mən sizə, əziz zabitlər, əsgərlər, məhz sizə arxalanıram, sizə güvənirəm və əminəm ki, siz də sizin kimi minlərlə Azərbaycan əsgəri, zabiti və bir nəfər tək ayağa qalxıb Azərbaycanın ərazi bütövlüyünü müdafiə edəcəklər. İnanıram ki, siz gedib cəbhədəki qəhrəman döyüşçülərimizin sıralarına qoşulacaq, işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi üçün hünər, qəhrəmanlıq göstərəcəksiniz" (7, s. 436).

Həmçinin hər bir ölkənin sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi onun davamlı inkişafının, uğurlu beynəlxalq əməkdaşlığının zəruri şərtidir. Təsadüfi deyildir ki, müasir dünyamızda milli dövlətlər öz milli təhlükəsizliyinin möhkəmləndirilməsinin bütün komponentlərinə, o cümlədən sərhədlərinin təhlükəsizliyinə xüsusi önəm verir, sərhəd xidmətinin optimal təşkili istiqamətində fəal iş aparır. Sərhədlərin təhlükəsizliyi kifayət qədər mürəkkəb, ciddi problemdir. Bu problemin həllinə müxtəlif amillər təsir göstərir: dövlətin sosial-iqtisadi və hərbi baxımdan inkişaf səviyyəsi, ölkənin coğrafi vəziyyəti, sərhədlərin uzunluğu, həmsərhəd dövlətin, yaxud dövlətlərin bu məsələyə necə yanaşması, transsərhəd təhdidlərin miqyası və strukturu, sərhəd təhlükəsizliyinə məsul silahlı strukturların peşəkarlığı və s. bu qəbildəndir. Sərhədlərin təhlükəsizliyinə təsir göstərən amillər bir sistem kimi götürülməli, onun elementlərinin qarşılıqlı əlaqə və təsiri daim nəzərə alınmalıdır.

Ümummilli liderimiz Heydər Əliyev dövlət sərhəddinin təhlükəsizliyinin təmin olunmasını daim diqqət mərkəzində saxlayırdı: "Azərbaycana giriş-çıxış yerləri çox etibarlı qorunmalıdır. Sərhəd dəstələri bizim gömrük təşkilatı ilə, polislə sıx əməkdaşlıq etməli və hamısı birlikdə müstəqil dövlətin

sərhədlərini layiqli qorumalıdır. Bu da Milli Təhlükəsizlik Nazirliyinin əsas vəzifələrindən biridir”.

Ümummilli liderimiz Heydər Əliyev sərhəd təhlükəsizliyinin dövlət üçün çox əhəmiyyətli məsələ olduğunu nəzərə çarpdırırdı: “Sərhəd hər bir ölkənin müstəqilliyini, suverenliyini təsdiq edən amillərdən biridir. Beynəlxalq hüquq normaları, millətlərarası, dövlətlərarası əlaqələr, hər bir ölkənin suverenliyi, toxunulmazlığı, ərazi bütövlüyü prinsipi – bunların hamısı ölkələrin sərhədləri ilə əlaqədardır. Hər bir ölkənin sərhədinin toxunulmazlığı həm ölkə üçün, həm də beynəlxalq hüquq normaları üçün əsas prinsiplərdən biridir” (6, s.8).

Heydər Əliyev öz çıxışlarında ordu quruculuğunu özəllikləri olan çox mürəkkəb proses kimi qiymətləndirir və belə hesab edirdi ki, bu proses bir sıra zəruri prinsiplərə əsaslanmalıdır. Onun nitqlərində öz əksini tapan prinsiplərin məzmun baxımından araşdırılması sübut edir ki, Heydər Əliyev məsələyə yüksək professionallıqla yanaşır. O, qarşıya qoyulan məqsədlərə, vəzifələrə, dövlətçilik təfəkkürü ilə yanaşır, prinsipləri şərtləndirən məqamlara xüsusi diqqət yetirir. Həmin prinsiplər sırasında bunları qeyd etmək olar: ordu quruculuğuna dövlət rəhbərliyinin müntəzəmliyi və təkmilləşdirilməsi; bu prosesin daimi və keyfiyyətli təchizata əsaslanması; orduya çağırışda peşəkarlığın gücləndirilməsi; ordu quruculuğunda mənəvi-psixoloji amillərə konkret cavabdehlik və məsuliyyət məsələlərinə ciddi diqqət yetirilməsi və s. Müstəqilliyin əldə edilməsi ilə əlaqədar yaranmış yeni şəraitdə Xəzəryanı dövlətlərin dəniz sərhədləri məsələsində də müəyyən problemlər ortaya çıxmışdı. Azərbaycanın qonşularla dəniz sərhədlərinin orta xəttinin müəyyənləşdirilməsində İran və Türkmənistanla razılaşmanın olmaması ciddi çətinliklər doğururdu. Həm İran, həm də Türkmənistan tərəfindən reallığa, Azərbaycanın təhlükəsizlik maraqlarına zidd olan bəyanatlar səslənir, tarixi həqiqətlər nəzərə alınmırdı. Azərbaycanın və digər Xəzəryanı dövlətlərin səyləri getdikcə atrırması, nəhayət, konkret nəticə verdi. Xəzərin hüquqi statusunda tam aydınlıq yarandı, bu dənizin möhkəm sülh və əməkdaşlıq məkanına çevrilməsi istiqamətində ciddi addımlar atıldı. Bu, regionda sabitlik, təhlükəsizlik, əməkdaşlıq baxımından çox mühüm nailiyyət kimi dəyərləndirilməlidir.

Araşdırmalar göstərir ki, ötən əsrdə 80-ci illərin sonu-90-cı illərin əvvələrində bütövlükdə ölkəmizin milli təhlükəsizliyinin, o cümlədən sərhədlərinin təhlükəsizliyinin təmin edilməsində kifayət qədər ağrılı, ciddi problemlər mövcud idi. Əvvəlcə Naxçıvan Muxtar Respublikasında işləyən, sonra xalqın təkidli tələbləri ilə respublikanın rəhbərliyinə dəvət olunan ümummilli liderimiz Heydər Əliyev real vəziyyəti yaxşı bildiyindən dərhal zəruri tədbirləri həyata keçirməyə başladı. Həmin tədbirlər bütöv bir sistem təşkil edir. Bu sistemdə milli təhlükəsizliyin, sabitliyin və inkişafın strategiyası, o cümlədən sərhədlərin təhlükəsizliyi strategiyası özünəməxsus yer tutur.

Milli Sərhəd Qoşunlarının formalaşdığı 1993-2002-ci illərdə dövlət sərhədlərinin mühafizəsinin təşkili sahəsində Heydər Əliyev 30 oktyabr 1996-cı il, 16 dekabr 1996-cı il, 19 avqust 2001-ci il, 6 mart 2002-ci il, 6 fevral 2003-cü il tarixlərdə sərhədçilərlə görüşlərdə qəbul etdiyi qərarlar sərhəd mühafizəsinin inkişafında xüsusi əhəmiyyət daşımışdır. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi sərhəd təhlükəsizliyi strategiyasının nə qədər uzaqgörənliklə və dəqiqliklə hesablandığı zaman keçdikcə daha aydın görünür. Əgər müstəqliyimizin ilk illərində Azərbaycan sərhədçiləri çadırlarda, uyğunlaşdırılmış binalarda yerləşərək Vətənimizin hüdudlarını yalnız fiziki imkanlar hesabına mühafizə edirdilərsə, ixtisaslı kadrların, lazımi texnika, vasitə və avandanlıqların çatışmazlığı çox ciddi problemlər yaradırdısa, indi ölkəmizin sərhəd mühafizəsi tamamilə fərqli bir səviyyəyə qaldırmışdır. İndi Vətənimizin hüdudları boyunca müasir tələblərə tam cavab verən, lazımi kommunikasiyalara malik sərhəd məntəqəsi kompleksləri tikilmiş, ölkəmizdə yüksək maddi-texniki bazaya malik güclü sərhəd infratrukturu yaradılmışdır. Azərbaycan Respubliksının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz bütün istiqamətlərdə sürətlə inkişaf etdikcə, iqtisadiyyatımız gücləndikcə, hərbi qüdrətimiz də artır. Yeni iqtisadi imkanlar ölkəmizin sərhəd mühafizəsinin qarşısında yeni perspektivlər açır, daha məsuliyyətli vəzifələr qoyur. Dövlətimizin təhlükəsizliyinin sərhədlərimizdə tam şəkildə təmin olunması, sərhəd təhlükəsizliyinin daha yüksək səviyyəyə qaldırılması kimi hədəflərə nail olmaq üçün hazırda modernləşmə, mükəmməlləşmə prosesləri uğurla davam etdirilir. Ölkəmizin iqtisadi qüdrətinin artımı sərhəd mühafizəsi sistemində daha ciddi, daha mükəmməl texnikanın, avadanlıq və silahların tətbiqinə imkanlar yaradır (6, s.212).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli Liderimiz Heydər Əliyevin sərhədlərin toxunulmazlığı ilə bağlı siyasəti uğurla davam etdirir, bu sahədə təkmilləşmə istiqamətində ciddi nailiyyətləri artırır. O, sərhədlərimizin keşiyində dayanan şəxslərin daim dövlət qayğısı ilə əhatə edir. Bu işdə Prezidentin sərhəd mühafizəçiləri ilə görüşlərinin ictimai əhəmiyyəti,

mənası xüsusi qeyd olunmalıdır. Təsadüfü deyildir ki, yüzlərlə zabit və əsgər müxtəlif dövlət təltiflərinə layiq görülmüşdür. Hazırda Dövlət Sərhəd Xidməti mütəşəkkil, yüksək intizama, döyüş hazırlığına malik olub, ən müxtəlif tapşırıqları yerinə yetirməyə qadirdir. Sərhəddə çalışanların ən müxtəlif texnika, avadanlıq və s. ilə təminatında çox ciddi irəliləyişlər reallıqdır. Bir nümunəyə müraciət edək. Helikopterlər S-8 və S-13 idarə olunmayan raket kompleksləri, QŞ-23 qoşalülələli pulemyot və "Şturm" və "Ataka" tipli idarə olunan raketlərlə təchiz edilib. Helikopterlərdə hazırda dünyada mövcud olan ən müasir sistem quraşdırılmışdır ki, bunun köməyi ilə istənilən hava şəraitində 360 dərəcə altında bütün hədəfləri müşahidə etmək və zərərsizləşdirmək mümkündür (6, s.213).

2015-ci ilin sonlarında isə Azərbaycanda artıq 1000-dən artıq hərbi təyinatlı məhsul istehsal olunurdu və İlham Əliyev bunu hərbi quruculuq sahəsində həyata keçirilən siyasətin uğuru kimi dəyərləndirirdi. İlham Əliyev onu da əlavə edirdi ki, ordunun ehtiyaclarının respublika daxilində daha geniş şəkildə ödənilməsi üçün lazımi işlər gələcəkdə də görüləcəkdir və bununla bağlı o, respublika alimlərini də bu işdə daha fəal iştirak etməyə çağırırdı. 2016-cı il sentyabr ayının 27-30-da keçirilən ADEX-2016 müdafiə sərgisində Azərbaycanda istehsalı yeni mənimsənilən müasir silah və hərbi texnika da nümayiş etdirildi və respublika Prezidenti də bu hərbi texnika ilə yaxından tanış oldu (7, s.649).

İndi Azərbaycan Ordusunun ixtiyarında ən müasir döyüş sistemləri mövcuddur ki, bu da ordunun döyüş qabiliyyətini xeyli artırmışdır. O cümlədən 152 mm-lik "Msta-C", 120mm-lik "Vena" özüyeriyən artilleriya qurğuları, 120 mm-lik "Sani" minaatan kompleksi, 220 mm-lik TOS-IA reaktiv qurğuları, 122 mm-lik T-122 "Sakariya", 300 mm-lik T- "Qasırğa", 300 mm-lik "Smerç" yaylım atəşli reaktiv artilleriya sistemləri, "Maşina-M" markalı özüyeriyən artilleriya divizionunun atəşi avtomatik idarəetmə kompleksi, PRTMK-1 radopelenqasiya meteroloji kompleksi, "Mersedes-Benz" avtomobilinin şassisi üzərində yığılmış 120 mm-lik "CORDOM-M3" markalı özüyeriyən minaatan sistemləri, yeni növ döyüş sursatları, müxtəlif təyinatlı təmir və komanda-müşahidə maşınları, T-72, T-72M1, müasir T-90S tankaları, BMP-3, BTR-82 zirehli texnikaları, BTS-4, BTS-5 markalı dartıcılar, səyyar təmir emalatxanaları, ən müasir hərbi təyyarələr və vertolyotlar, hava hücumundan müdafiə sistemləri, Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin istehsalı olan 60, 82 və 120 mm-lik minaatanlar, müxtəlif növ atıcı silahlar, elektro-optik, termal, gecə nişangahları, müşahidə sistemləri və s. silah və texnikalar Azərbaycan Ordusunun döyüş və müdafiə imkanlarını yeni bir səviyyəyə qaldırmışdır (7, s. 661, 662).

Sərhədlərimizin təhlükəsizliyini təmin etmək istiqamətində fəal iş aparılması milli təhlükəsizliyə özünəməxsus töhfə verir. Şübhəsiz, Azərbaycan ərazi bütövlüyünün tezliklə beynəlxalq hüquq normaları əsasında öz həllini tapması, respublikamızın beynəlxalq birlik tərəfindən tanınan sərhədlərinin təhlükəsizliyinin birmənalı təmin olunması üçün diplomatik səylər davam etdirilir.

Prezident İlham əliyevin qeyd etdiyi kimi, "Bizim işimiz haqq işidir. Biz heç bir başqa ölkənin torpağını zəbt etməmişik, heç bir başqa ölkənin torpağında bizim gözümüz yoxdur, baxmayaraq ki, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaranıbdır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Bu, həmişə belə olub, bu gün də belədir. Sadəcə, müvəqqəti olaraq işğal altına düşübdür. Ancaq bu işğal çox çəkə bilməz. Mən tam əminəm ki, Azərbaycanın ərazi bütövlüyü istənilən yolla bərpa ediləcəkdir. Bunu etmək üçün biz daha da güclü olmalıyıq. Azərbaycanda bütün sahələrdə aparılan islahatlar, ölkəmizin inkişafı, bölgədəki mövqelərinin möhkəmləndirilməsi nəticəsində istədiyimizə nail ola biləcəyik" (1, s.47).

## ƏDƏBİYYAT

1. Dövlətçiliyin, milli maraqların və təhlükəsizliyin Qarantı. Bakı: "Şərq-Qərb" Nəşriyyat evi, 2015
2. Məlikli G. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyində sosial siyasətin yeri və rolu. Bakı: 2018, "İndiqo" poliqrafiya şirkəti
3. Məlikli G. Heydər Əliyev-müstəqil Azərbaycanın qurucusu. Səs qəzeti//3 oktyabr 2012-ci il
4. Məlikli G. Həqiqi müstəqilliyimizin banisi. Azərbaycan qəzeti// 2 may 2010-cu il
5. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət, B:, Şərq-Qərb, 2002
6. Sərhədlərin Təhlükəsizliyinin Təminatçısı. Dövlət Sərhəd Xidməti, 2015, 37
7. Süleymanov M. Azərbaycanda Ali Baş Komandanlıq İnstitutunun Heydər Əliyev mərhələsi. Bakı: Elm və təhsil, 2018

## SUMMARY

**Gunel Melikli**

## PROBLEMS OF MILITARY AND BORDER SECURITY IN THE SYSTEM OF NATIONAL DEVELOPMENT OF THE REPUBLIC OF AZERBAIJAN

The course of the National Leader - Heydar Aliyev and his successor to President Ilham Aliyev, who faithfully and creatively pursues his course, are of great historical and social importance for strengthening military and border security in the Republic of Azerbaijan. In the difficult conditions arising from the military aggression of Armenia, the Azerbaijan National Army has become one of the key factors in maintaining its independence. The policy developed and implemented by our state in the military sphere is quite broad and comprehensive and is multifaceted. Ensuring the security of the borders of each country is a prerequisite for its sustainable development and successful international cooperation. The President of the Republic of Azerbaijan, the Supreme Commander-in-Chief of the Armed Forces, Mr. Ilham Aliyev, from the very beginning of his presidency continued the national border policy of the great leader Heydar Aliyev and always surrounded the border guards and border troops with special attention. Every citizen of Azerbaijan must make every effort to approach all aspects of the phenomenological policy of the National Leader and his creative successor to President Ilham Aliyev from the position of Azerbaijanis.


***Key words****: military field, internal military threats, army building, national development, armed forces, supreme commander, defense capability, border strategy, border security, armed forces, national development, weapons of mass destruction*


## РЕЗЮМЕ

**Гюнель Меликли**

## ПРОБЛЕМЫ ВОЕННОЙ И ПОГРАНИЧОЙ БЕЗОПАСНОСТИ В СИСТЕМЕ НАЦИОНАЛЬНОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Курс Общенационального лидера - Гейдара Алиева и его преемтика Президента Ильхама Алиева, который верно и творчески проводит его курс, имеют большое историческое и социальное значение для укрепления военной и пограничной безопасности в Азербайджанской Республике. В сложных условиях, возникших в результате военной агрессии Армении, Азербайджанская Национальная армия стала одним из ключевых факторов сохранения своей независимости. Политика, разработанная и осуществляемая нашим государством в военной сфере, является достаточно широкой и всеобъемлющей и носит многоплановый характер. Обеспечение безопасности границ каждой страны является предпосылкой к ее устойчивому развитию и успешному международному сотрудничеству. Президент Азербайджанской Республики, Верховный главнокомандующий Вооруженными Силами г-н Ильхам Алиев, с самого начала своего президентства продолжал национальную пограничную политику великого лидера Гейдара Алиева и всегда окружал пограничников и пограничные войска особым вниманием. Каждый гражданин Азербайджана должен приложить все усилия, чтобы с позиции азербайджанцев подходить ко всем аспектам феноменологической политики Общенационального лидера и его творческого преемника Президента Ильхама Алиева.


***Ключевые слова:*** *военная область, внутренние военные угрозы, армейское строительство, национальное развитие, вооруженные силы, верховный главнокомандующий, обороноспособность, пограничная стратегия, безопасность границ, вооруженные силы, национальное развитие, оружие массового уничтожения*

---

***Məqaləni çapa təqdim etdi:*** *tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov*
***Məqalə daxil olmuşdur:*** *03 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *11 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 55-60
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 55-60
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 55-60

**KÖNÜL QƏHRƏMANOVA**
*Bakı Dövlət Universiteti*

**UOT: 101.1**

# RUH ANLAYIŞININ ŞÜUR KATEQORİYASINA DOĞRU İNKİŞAF DİNAMİKASI

*Məqalədə göstərilir ki, ruh obyektiv mövcud olan materianın əksi olub, subyektiv xarakter daşıyır. Buna uyğun olaraq, materiya maddi, ruh isə qeyri-maddidir və maddi obyektlər tərəfindən idarə olunur. Ruh şüura doğru hərəkətdə, dəyişmə və təkmilləşmə prosesində olan sistemi əks etdirir. Ruhun inkişafının yüksək pilləsi insan şüurudur və onun vasitəsilə bəşəriyyət dünyanı dərk edir. Ruh anlayışından şüur kateqoriyasına doğru inkişafın tədqiqi fəlsəfə elminin əsas problemlərindən biridir. Fəlsəfə təbiətşünaslıq elmlərinə əsaslanaraq ruh və şüurun qarşılıqlı münasibətlərini araşdırır. Məlum olduğu kimi, ruh öz təzahür xüsusiyyətlərinin dərk olunmasıdır. Şüur kateqoriyasının formalaşmasında bir mərhələ olan ruh anlayışı özünün spesik cəhətlərilə fərqlənir.*

***Açar sözlər:*** *ruh, obyektiv, subyektiv, materiya, maddi, qeyri-maddi, şüur, dəyişmə, təkmilləşmə, fəlsəfə, dərk olunma, kateqoriya*

Ruh anlayışı əslində şüurun, cəmiyyətin və mədəniyyətin ideal təbiətinə malik bütün qeyri-maddi prosesləri özündə birləşdirir. Elmi idrakda iki hadisə maddi, ideal (və yaxud, mənəvi, ruhi) olan bir-birilə qarşılıqlı vəhdət təşkil edir. Şüur özündə maddi və mənəvi olanı, ruhu əks etdirir. Mənəvilikdə mənəvi mədəniyyət, ruhi həyat və milli özünəməxsusluq əsas yer tutur. Bu zaman “ruh” və “mənəvilik” bir-birilə yaxın anlayışlar kimi çıxış edirlər. Şüurun təbii, bioloji əsası insan psixikası ilə sıx bağlıdır. İnsanın ruhi həyatı onun psixikasında təzahür edir. Ruhi və mənəvi həyat eyni məna kəsb etmir. İnsan ruhunun sirləri dünya filosoflarının diqqətini qədim dövrlərdən cəlb etmişdir. Onların əskəriyyətində ruh və bədən problemi hərtərəfli araşdırılmışdır. İnsanın şüuru onun bədənindən, maddi varlığından ayrılmazdır. Şüur fəlsəfə elmində fizioloji və metafizik aspektdən tədqiq olunur. “Ruh”, “ideya”, “şüur” anlayışları qarşılıqlı əlaqədə olan kateqoriyalardır. A.F. Losev yazır ki, antik dövrdə “ruh” termini olmasa da, “mütləq ruh”u öyrənirdilər” [6].

Ruh şüurun bütün funksiyalarının məcmusunu özündə əks etdirir. O, insanın şüurlü yönümünün vasitəsi kimi çıxış edir. Fəlsəfədə ruh probleminə faktiki olaraq şüur problemi kimi yanaşılır. Fəlsəfə tarixində ruh anlayışından şüur kateqoriyasına doğru inkişaf problemini ən fundamental şəkildə tədqiq edən görkəmli alman filosofu G.V.F.Hegel olmuşdur. Onun 1807-ci ildə nəşr etdirdiyi “Ruhun fenomonologiyası” əsəri şüurun dialektik pillələri, o cümlədən ruh və şüurun qarşılıqlı münasibətlərinin araşdırılmasına həsr olunmuşdur. Ruha özündərkə predmetə, malik həqiqi şüur substansiyası, mütləq azadlıq və mənəvi fenomen kimi təsəvvürlərdə və abstraksiyalarda əks olunan hadisə kimi baxan Hegel yazır: “Həqiqi gerçəklik yalnız sistem kimidir və ya yeni dövrün və onun dininin anlayışı olan ən ali anlayış – mütləq ruh tərəfindən bəyan edilmiş təsəvvürlərdə ifadə olunmuş substansiya mahiyyətcə subyektdir. Yalnız ruhi olan gerçəkdir; O, mahiyyətdə müəyyən edilmiş kimi çıxış edir, o, özü üçün varlıqdır və ya özünün varlığından kənar, dəyişməz daxilən özüdür və yaxud o, özündə və özü üçün olandır” [4, 19] Ruha daim hərəkətdə, dəyişmədə, inkişafda olan fenomen kimi baxan Hegel onun kəmiyyətcə artdığını, keyfiyyətcə sıçrayışda olduğunu, yeni formalar üçün yetişdiyini diqətə çatdırır. Ruhu mənəvi substansiya hesab edən filosof onu mənəvi olan və özü haqqında bilik, deməli predmetin keyfiyyətində özü üçün olmalı olan kimi səciyyələndirir.

Məlum olduğu kimi, ruhun istiqamətini şüur müəyyən edir, eyni zamanda idrakı da şüur istiqamətləndirir. Bu mənada mənəvi şüur bəşəriyyətin mövcudluğunun meyarı kimi çıxış edir. Bəşər tarixinin ilkin mərhələlərində ruh şüurdan ayrılmamışdı. Fəlsəfə tarixində uzun müddət ruhun

təbiətini və yaradılmasını tədqiq edən pnevmatologiya (yunanca "pneuma" – "ruh", "can" deməkdir) elmi də mövcud olmuşdur [19]. Hegel yazırdı ki, ruhun özünü inkişaf səviyyəsində dərk etməsi özü bir elmdir.

Ruh fəlsəfəsi Hegelin fəlsəfi sisteminin ali formasıdır. Ruhun özgələşmiş formasından özünə qayıdan "mütləq ideya"nın ən yüksək zirvəsi "mütləq ruh"dur. Ruh subyektiv, obyektiv və mütləq bölümlərdən ibarətdir. Hegel ruh və bədənin vəhdətdə olduğunu göstərirdi. Hegelə görə "şüurun və mənlik şüurunun düşüncədə yaranan vəhdəti, praktiki və nəzəri fəaliyyətin vəhdəti olan ruh ümumdünya tarixini yaradır. Ruhun varlığının əsas xüsusiyyəti idrak üçün fəaliyyətdə olmasıdır. Bu fəaliyyət zamanı o, özündə təbii və hissi olan hər bir şeyi ortadan qaldırır, dərk etmə prosesində özünə qədər yüksəlir. Mütləq olan hər bir şeyin ən yüksək, ən ali forması ruhdur. Hegel ruh anlayışının izahını verdikdən sonra "Təbii ruh"un izahını verməyə başlayır. Subyektiv ruhun üç forması olduğunu söyləyərək, buraya təbii ruh, şüur və ruh anlayışlarını aid edir. Təbii ruhun əsas fərqləndirici xüsusiyyəti onun cismanilikdə irqi fərqlər kimi ortaya çıxmasıdır. Elə antropologiyanın izahı da buradan başlayır. Hegel antropologiyanın izahına astrologiyanın inkarı ilə başlayır, planetlərin və ulduzların canlıların fəaliyyətinə heç bir təsir göstərə bilmədiyini sübut etməyə çalışır. İnsan ruhu özünü təbiətə hökmran bir qüvvə kimi göstərməli, astronomik və kosmik dəyişikliklərə əhəmiyyət verməməlidir [17]. Hegel "təbii ruh"la "yerli ruh"ların, "fərdi ruh"un qarşılıqlı münasibətlərini, irqlərin, xalqların, insanların özünəməxsus xüsusiyyətlərini ətraflı araşdırır. Hegeldə subyektiv ruha antropologiya, fenomonologiya, psixologiyanı, obyektiv ruha – hüquq, əxlaq və mənəviyyatı, mütləq ruha – incəsənət, din və fəlsəfəni daxil edir. Alman mütəfəkkiri "praktik ruh"dan da bəhs etmişdir.

Hegelin fikrincə, "obyektiv ruh" – ruhun öz subyektivliyindən çıxaraq, azadlığın xarici reallığını dərk etməsi və onu obyektivləşdirməsidir.

Ruhun obyektivliyi öz hüququna daxil olduqdan sonra obyektiv ruh sferası siyasi-hüquqi gerçəkliyə çevrilir.

Hegel hüquq anlayışını üç nöqteyi - nəzərdən şərh etmişdir:

1) Hüquq azadlıq kimi – hüquq ideyası.

2) Azadlığın müəyyən forması və pilləsi kimi – xüsusi hüquq.

3) Pozitiv hüquq – burada hüquq artıq qanun kimi çıxış edir.

Bunlardan əlavə, Hegel hüquq anlayışının da üç pillədən keçdiyini vurğulayırdı:

1) Abstrakt hüquq.

2) Əxlaq.

3) Mənəviyyat.[1, 70-71]

Mənəviyyatla hüququn qarşılıqlı münasibətlərini göstərən, obyektiv ruha daxili, xarici dövlət hüququ və ümumdünya tarixini aid edən Hegel tarixi prosesin obyektiv qanunauyğunluqlarının aşkar edilməsinə xüsusi önəm verirdi.

Mütləq ruha daxil olan komponenləti şərh edən Hegel onun "dünya zəkası", "dünya ruhu" ilə qarşılıqlı münasibətlərini də ətraflı araşdırmışdır.

Məlum olduğu kimi, şüur ideya və ruhla qarşılıqlı əlaqədədir. Hər bir şüurlu insan üçün ideya ətraf aləmin özü də məqsəd və perspektivlərin, praktiki dəyişikliklərin dərk olunmasının təcəssüm formasıdır. İdraka tətbiq etdikdə ideyalar təsəvvürlər, anlayışlar və nəzəriyyələr şəklində mövcud olur. "İdeya müxtəlif vəzifələri yerinə yetirən fəlsəfi kateqoriyadır. Birincisi ideya ağlın qavradığı həqiqi mövcud olanı ifadə edir (Demokrit, Platon, Aristotel); ikincisi ideya İlahi ruha məxsus olanların ilkin obrazlarını ifadə edir (Allah hər şeyi öz ideyasına uyğun olaraq yaradır); nəhayət, üçüncüsü, ideyalar insan idrakının üsuludur" [19]. Deməli, müasir sosial fəlsəfə elmi qarşısında duran əsas vəzifə ideyanın ruha və şüura münasibətini müəyyən etməkdir. Burada ideyaların mənşəyi, onların idraki dəyərləri, obyektiv aləmə münasibəti, obyektiv aləmin subyektiv obrazı kimi fəlsəfi anlayış olan ideal anlayışının insan fəaliyyətində və şüurunda inikası problemləri də araşdırılır. Qeyd etmək lazımdır ki, ideal anlayışı ictimai, mənəvi-ruhi və tarixi fəaliyyət hadisəsi kimi də anlaşılır. Bu fenomen insan həytında mühüm rol oynamaqla yanaşı, onun şüurunun formalaşmasında və dərketmə prosesində həlledici amillərdən biri kimi çıxış edir. Şüurun xüsusiyyətlərindən biri gerçəkliyin, real aləmin ideal qavranılmasıdır. Şüur yüksək təşəkküllü materiyaya xas olduğundan o, həm də ideal

xarakterə malikdir. Şüur fəlsəfənin və digər elmlərin əsas anlayışlarından biri olub özündə beynin hissi, məntiqi, iradi və emosional proseslərinin məcmusunu əks etdirir.

Qərb tədqiqatçısı Ket Solomon ruh haqqında qanunun çoxdan mövcud olduğunu, onun insan şüurunun səviyyələrində uyğun müxtəlif metodlar və adlar adı altında məlum olduğunu göstərir; "Yoqa, buddizm, kabbala, okulizm, teosofiya, antroposofiya və fəlsəfə ruh haqqında elmin ayrı-ayrı hissələridir" [8,8]. K.Solomon bütün elmlərdə olduğu kimi ruh haqqında elmin əsasında da faktların durduğunu təbii elmlərdən fərqli olaraq, bu elmdə faktların hiss orqanlarının köməyilə dərk olunduğunu qeyd edir. Azad seçim, şüur, mövcudluq və mütləq ruhun qarşılıqlı münasibətlərinə toxunan K.Solomon mütləq ruhun mütləq azad seçimə malik olduğunu diqqətə çatdıraraq yazır: "...Əslində mütləq ruh yalnız özünü dərk edə bilər, çünki o, ən yüksək şüurla və şüur –mənlə özünü dərk edə bilər" [8,11]. Bununla da o, sübut edir ki, mütləq ruh ən ali biliklə əldə olunası hər şey deməkdir. Azad seçimi iradədən ayrılmaz hesab edən müəllif onun təzahürünün mütləq ruh vasitəsilə seçim etmək demək olduğuna işarə edir və göstərir ki, şüur və ruh da bir-birindən ayrılmazdır. Çünki insanın şüuruna mütləq azad iradəyə malik olan mütləq ruh nüfuz edir.

Ruh problemi uzun əsrlər boyu fəlsəfə elmini ciddi düşündürmüşdür. İnsan orqanizimində maddi və mənəvinin, bədən və ruhun, fiziki və psixi olanın, ruh, "şüur" və "mənəvilik" anlayışlarının qarşılıqlı münasibətlərinə dair araşdırmalar bəzi hallarda disskusiyalara da səbəb olmuşdur. Bir çox filosoflar ruhun reallığını inkar etməyə cəhd edirlər. Materialist filosoflar ruhun bütün xüsusiyyətlərini – zəkanı, azadlığı və fəallığı materiyaya müncər edirlər. Spirutalist fəlsəfi istiqamət ruhun reallığını müdafiə edir, ruha təbii aləmin cinsləri arasında xüsusi keyfiyyətə malik reallıq, substansiya kimi yanaşırlar. Bəzi filosoflar ruha obyektiv aləmin ierarxiyasında ən yüksək pillə kimi baxırlar, digərləri onun reallığını obyektivliyilə eyniləşdirirlər. Ruhun reallığının əleyhdarları onu yalnız insanın subyektiv ruhi vəziyyəti hesab edir, ruhu subyektivliklə eyniləşdirir, bir başqaları onu obyektiv varlıq kimi dəyərləndirirlər. Rusiya filosofu M.Berdyayev ruhu zamandan və məkandan kənar edərək onun varlıq deyil, varlığın mənası, varlığın həqiqəti, bütöv zəka olduğunu iddia edərək yazır: "Ruh eyni zamanda həm transendent, həm də immanentdir..... Ruh şüurla eyni deyildir, lakin ruh vasitəsilə şüur qurulur və ruh vasitəsilə şüurun hüdudlarını keçmək olur və fövqəlşüura keçid baş verir" [2,47]. N.Berdyayevin ruh haqqında fərqli baxışları üzə çıxır. O, ruhda ali azad dünyaya sıçrayışı, hər cür utilitarlıqdan yüksəkdə duran keyfiyyəti görür.

N.Berdyayev ruhun istiqamətinin şüurun strukturunu, onun isə öz növbəsində idrakı müəyyən etdiyini diqqətə çatdırır. "İdrak mənəvi həyatın, ruhun fəallığıdır. Fəlsəfənin həyatdan asılılığı hər şeydən az olaraq relyativizmi müəyyənləşdirir. Ruhun və həyatın özündə idrakdan doğan keyfiyyət yaranır. Ruhun keyfiyyəti təbiətdən asılı deyildir. İdrak dinamikdir, onun öz taleyi, öz dövrü və inkişaf mərhələləri vardır. Bizim naturalist metafizika və naturalist ilahiyyat adlandırdıqlarımız dini dünyagörüşün ifadəsi, idrakın taleyində daxili mərhələlərdən biri, ruhun istiqamətlərindəndir" [18]. N.Berdyayev naturalist metafizikanın və naturalist ilahiyyatın idrakın taleyində və dini həyatında zəruri mərhələ təşkil etdiyini göstərir. Bu halda ruh yaradıcı mahiyyət kəsb edir, substansial kimi çıxış edir. Naturalist metafizika şüurun strukturunda ruhun məlum istiqamətində varlığı bir çox tərəflərini əks etdirir. O, ruha azadlıq kimi, dərinlikdə, daxildə olan fenomen kimi baxır. Bu halda ruh mənəvi həyatın, tarixi həyatın əsasını təşkil edir.

Ruh probleminə və insanın daxili aləminə diqət yetirən rusiyalı alimlərdən biri S.L.Frank ruhun sərbəstliyindən bəhs edərək yazır: "İnsan ruhunu sındırmaq olar, zahirən onun üzərində hökmranlıq etmək olar, lakin onun daşıyıcısı şüurlu şəkildə razı olsa belə, daxilən onu əsir etmək olmaz" [9, 401]. Bununla da müəllif ruhun azadlığının zərurət olduğunu bir daha diqqətə çatdırır.

Qərb tədqiqatçısı K.Yunq S.L.Frankdan fərqli olaraq, ruhun fərqli əlamətlərini göstərir: "Ruhun fərqli xüsusiyyətləri aşağıdakılardır: ona birincisi, spontan hərəkət və fəaliyyət prinsipi; ikincisi, hissi qavrayışından asılı olmayaraq obrazların kortəbii mənimsənilməsi üsulu; üçüncüsü, bu obrazlardan müstəqil manipulyasiya edilməsi xasdır" [15, 294]. K.Yunq ruhu rasional fikrin və ya intellektin – iradənin, yaddaşın, təxəyyülün, yaradıcı qüvvənin, ideal cəhdlərini və motivasiyaların məcmusu [15,291-292] kimi səciyyələndirir. Beləliklə, K.Yunq ruhu şüurun sistemində tədqiq edir. Ruha psikaxanizm formalarından biri kimi baxan müəllif onun dini anlaşılmasını tam inkar etmir. Lakin

bütövlükdə mütəfəkkir ruhun elmi konsepsiyasını işləyib hazırlamağa müvəffəq olmuşdur.

K.Q.Yunqun təliminə bənzər ruh haqqında konsepsiyanı D.Santyana irəli sürmüşdür. Ruha şüurluluq kimi yanaşan D.Santyana yazır: “Ruhun başqa adları şüur, diqqət, hiss və fikirdir” [16, 569]. Ruhu şüurun sistemində onun tərkib hissəsi kimi araşdıran K.Yunqdan fərqli olaraq D.Santyana ruhu şüurla eyniləşdirir.

Ruh haqqında B.Petersonun fikirləri bir qədər fərqlidir. Alim ruhun tək olmadığını onun “yol yoldaşı”nın insan olduğunu diqqətə çatdırır: “İnsanın ruha müraciət imkanları eyni zamanda ruhun özünün yeganə varlıq imkanıdır. Çünki ruh insanın gözlərilə dünyaya və özünə baxır” [7, 35]. Bununla da müəllif ruhun insanla ayrılmaz bağlı olduğunu göstərir.

Ruh anlayışının tədqiqi ilə dini antropologiya və fenomonologiyanın nümayəndələri də məşğul olmuşlar. Maks Şeler də ruhu insanın əsas xüsusiyyəti hesab edərək birincisi, o göstərir ki, dünyaya münasibətdə öz fəallığını ifadə edir: ruh dünyaya sinkretik qavrayışların eksatik həyacanların əsası deyildir, o, özünü dünyanın hüdudlarınadək genişləndirməkdə iddiası olan başlanğıcdır.

İkincisi, Şeler fəaliyyətdə olan ruhu predmetliyinə görə fərqləndirir. Onun fikrincə, insan üçün bu predmetlik özünüdərk, özünücəmləşdirmə, özünə hakim olma (iradə), özünüidarəetmə sayəsində mümkün olur. Bu isə insanın sağ qala bilmək tələbatından çox, dərk olunan və yaradılan predmetlik aləmində özünü təsdiqləməsi, özünü ifadə etməsi və özünü reallaşdırması ilə əlaqədar olur.

Şelerin qeyd etdiyi üçüncü məqam ruh və həyatın azadlığında, spontanlığında təzahür edən prinsipial əksliyidir [14, 152-165]. Buradan aydın olur ki, ruh spontan fəal, açıq, insanın mənəvi təbiətinin əsasını təşkil edən fenomendir.

Fəlsəfi ədəbiyyatda əsasında “ruh” anlayışının durduğu mənəvi-ruhlik anlayışı da araşdırılmışdır. Araşdırmalardan aydın olur ki, bu anlayış fərdin varlıq forması olub insan həyatı ilə əlaqədardır. “Bu zaman “mənəvilik”də başlıca olan – insanın mahiyyəti, onun həyatının mənası və idealları ilə əlaqədar olanlar açılmamış qalır” [12, 15]. Beləliklə, ruh, mənəvilik insan varlığı ilə bağlı anlayışlar kimi təqdim edilir.

Bəzi alimlər mənəviliyi (ruhiliyi) insanın mənəvi münasibətlər kompleksində özünə münasibətilə əlaqələndirirlər. Bu baxımdan L.P.Buyeva ruhiliyə daha dərindən və hərtərəfli yanaşaraq göstərir ki, mənəvilik (ruhilik) rasionallığa nisbətən məzmunca daha geniş və zəngindir. Mənəvilik, ruhiliyi şəxsiyyətin aləminin hissi-iradi öyrənilməsi və həyəcan mədəniyyəti kimi müəyyən etmək qeyri-mümkündür [5,4].

E.Fromm da bu cür mənəvi-ruhilik konsepsiyasını bir qədər də inkişaf etdirmişdir. Alimin fikrincə, “ənənəvi-ruhilik onunla bağlıdır ki, şəxsiyyət yalnız onun fizioloji yaşamasına imkan verən maddi tələbatlarla deyil, həm də incəlik, sevinc, məhəbbət kimi tələbatlarla təmin olunur” [10, 322]. Bir sözlə, ruh, ruhilik və şüur qarşılıqlı əlaqədə olan beynin fizioloji prosesləri və insanın daxili mənəvi aləmilə bağlı olan fenomenlərdir. Mənəvilik, ruhilik ruhun fərdin həyati fəaliyyətində fəal iştirakı nəticəsində yaranır. İnsanın mənəviliyi, ruhiliyi özündə etiqadı, əqidəni, dəyər yönümlü sistemini, dini və mənəvi sərvətləri əks etdirir.

Müasir alman filosofu N.Qartman “yeni ontologiya” noqteyi-nəzərdən özünün ruh konsepsiyasını irəli sürmüşdür. Onun konsepsiyasına görə, “dünya dörd təbəqədən ibarətdir. Həmin təbəqələrə fiziki-maddi, üzvi-canlı, canlı, tarixi-ruhi təbəqəlıər aiddir. Hər bir təbəqənin öz qanunları və prinsipləri vardır...Burada fərdin şüurunau mwncər edilməyən mənəvi həyat başlayır ki, o da varlığın öz qatını, tarixən şərtlənmiş ruhun qatını təşkil edir [3, 323]. Qartman obyektiv ruha dili, hüququ, mənəviyyatı, əxlaqı, dini, incəsənəti və texnikanı aid edir və bildirir ki, onlarda aktlar və şüur olmur. “ Yalnız cəmiyyətdə və obyektiv ruh daxilində olarsa şəxsiyyət mənəviyyatlı və məsuliyyətli varlıq ola bilər [3, 323]. N.Qartmanın mədəni-antropoloji nöqteyi-nəzəri Hegelin obyektiv ruh konsepsiyasına yaxındır.

Müasir Qərb filosofu M. Haydeggerin ruh haqqında xüsusi konsepsiyası olmasa da, bu barədə onun da özünəməxsus mövqeyi vardır. Haydegger Hegelin fəlsəfəsini “ruhun metafizikası” [11, 180] kimi dəyərləndirərək onun insan varlığının mahiyyətini üzə cıxartmaq üçün kifayət etmədiyini göstərir. Müəllif qeyd edir ki, ruhu maddi olan əksliyi onun mənfiliyi üçün kifayət etmir. Məhz ruh müdrikliyin hərəkətverici qüvvəsi kimi çıxış edir. Onun substansional mahiyyəti də məhz bundadır.

Lakin bunu Haydegger özünün nöqteyi-nəzəri kimi deyil, xristianlığın ideyası kimi təqdim edir. Haydegger Dekartdan bəri geniş yayilmış "ruh özünüdərketmədir" fikrini qəbul etmir, öz mülahizələrini təbiiliklə əlaqələndirir. İnsanda ruhi xüsusiyyətlərin konkret meydana çıxarılması xüsusi növ tələbatların (dərk etmək, düşünmək, dəyişdirmək) qabiliyyətlərin (özünüdərketmə, iradə, təfəkkür simvolları və s.) və elementlərin (ideyalar, dəyərlər, ideyalar) xüsusi növlərində təzahür edən mənəvi təbiətin mövcudluğunu təmin edir [13,45]. O, insanın varlığa münasibətində ruhun dərk olunmasını təsdiq edir, ruhun klassik ideyasını yeni yönümdən nəzərədən keçirir.

Beləliklə, ruh anlayışından şüur kateqoriyasına doğru elmi axtarışlar fəlsəfə elminin əsas problemlərindən biri olmuşdur. Fəlsəfə təbiətşünaslıq elmlərinin biologiya, fiziologiya və psixologiyanın nəticələrinə əsaslanaraq özünün bütün tarixi boyu şüur probleminin tədqiqi ilə məşğul olmuşdur. Məlum olduğu kimi, ruh öz təzahür xüsusiyyətlərinin fəallığının, spontanlığının, açıqlığının, qeyri-təbiiliyinin dərk olunmasıdır. Göründüyü kimi, şüur kateqoriyasının formalaşmasında bir mərhələ olan ruh, ruhilik, mənəvilik fərdi və sosial varlığın spesifik üsulu və keyfiyyət növüdür.

## ƏDƏBİYYAT


1. Həsənov R. Georç Vilhelm Fridrix Hegelin ruh fəlsəfəsi. Bakı: Təknur, 2011, 172 s.
2. Бердяев Н. Дух и реальность. Москва: Public Domain, 2009, 291 с.
3. Гартман Н. Старая и новая онтология // Историко-философский ежегодник. Москва: 1989, №8, с. 319-328
4. Гегель Г.В.Ф. Феноменология духа. Серия «Памятники философской мысли». Москва: Наука, 2000, 495 с.
5. Духовность, художественное творчество, нравственность (Материалы круглого стола) // Вопросы философии, 1986, №2, (с. 3-7)
6. Лосев А.Ф. История античной эстетики: В 2-х книгах. Москва: Минск,1992, 364с.
7. Петерсон Б. Человек и духовность. Рига, 1990, 270 с.
8. Соломон К. Дух и сознание. Санкт-Петербург: Деметра, 2012, 288 с.
9. Франк С.Л. Сочинение. Москва: Мысль, 1990, 460 с.
10. Фромм Э. Психоанализ и этика. Москва: Наука, 1993, 380 с.
11. Хайдеггер М. Время и бытия. Статьи и выступления: Пер. с нем. М.: Республика, 1993, 447 с.
12. Хапчаев И.А. К вопросу о дуче, душе и духовности личности. //Философия, скупология, культурология. 2014, М.3, с. 13-17
13. Хафизова Н.А. Духовная природа человека от духа к духовности //Вестник ПНИПУ (Пермский Национальный Исследовательский Политический Университет). Культура. История. Философия. Права: 2012, №6 (42), с. 38-45
14. Шелер М. Положение человека в космосе // Шелер М. Избранные произведения. Москва: Гнозис, 1994, (с. 152-165)
15. Юнг К.Г. Душа и миф. Москва-Киев: Порть-Роял-Совершенство, 1997, 352 с.
16. Sdantyana G. Realicm of baing. Nyu-York: 1959, 670 p.
17. Həsənov R. G.V.F.Hengelin fəlsəfəsində antropologiya problemi.//https://nezermedia.az/maraqli /7328-gvfhegelin-felsegesinde-antropologiya-problemi.html. 10.12.2015
18. Бердяев Н. Философия свободного духа. //httpsI//www.litres.ru/nikolay-berdyayev /filosofiya-svobodnoqo-duha/chitat-onlayn/page-2
19. Дух и сознание. https://www.e-reading. life/chapter. Php /103872/ 48/ Shevchuk_-_Filosofiya_konspekt_lekciii.html 05.10.2019

**SUMMARY**

**Konul Gahramanova**

**DYNAMICS OF THE DEVELOPMENT OF THE CONCEPT OF SPIRIT TOWARDS THE CATEGORY OF CONSCIOUSNESS**

The article states that the spirit is the opposite of objectively existing matter and has a subjective character. Accordingly, the matter is material, and the spirit is non-material and it is controlled by material objects. The spirit reflects a system that is in motion towards consciousness, in the process of change and improvement. The higher stage of the development of the spirit is the human consciousness, through which mankind perceives the world. One of the main problems of philosophical science is the study of development from the concept of spirit to the category of consciousness. Philosophy studies the interaction of spirit and consciousness, based on the science of Natural Sciences. As it is known, the spirit is the awareness of the properties of its own manifestation. The concept of the spirit, which is a stage in the formation of the category of consciousness, is distinguished by its specific features.

***Key words:*** *spirit, subjective, matter, material, intangible,consciousness, change, improvement, philosophy, understanding, conception, category*

**РЕЗЮМЕ**

**Кенуль Гахраманова**

**ДИНАМИКА РАЗВИТИЯ КОНЦЕПЦИИ ДУХА К КАТЕГОРИИ СОЗНАНИЯ**

В статье показано, что душа является отражением объективно существующей материи и носит субъективный характер. Соответственно, материя материальна, а дух нематериален и управляется материальными объектами. Душа отражает систему, которая находится в движении к сознанию, в процессе изменения и совершенствования. Высшей ступенью развития души является человеческое сознание, и через него человечество познает мир. Исследование развития от понятия души к категории сознания является одной из основных проблем философской науки. Философия исследует взаимоотношения души и сознания на основе естественных наук. Как известно, душа-это осознание свойств собственного проявления. Понятие души, являющееся этапом в формировании категории сознания, отличается своей спецификой.

***Ключевые слова:*** *дух, объективный, субъективный, материя, материальный, нематериальный, сознание, изменение, улучшение, философия, понимание, категория*

***Məqaləni çapa təqdim etdi:*** *Fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:*** *03 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *11 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 61-65
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 61-65
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 61-65

**HABİL MƏMMƏDOV**
**NAİLƏ MƏMMƏDOVA**
*Bakı Slavyan Universiteti*
*mammadofa@gmail.com*

**UOT: 327**

# "HUMANİTAR MÜDAXİLƏ" ANLAYIŞININ MAHİYYƏTİ VƏ BEYNƏLXALQ SİYASİ-HÜQUQİ ASPEKTLƏRİ

*Azərbaycanda ara-sıra müraciət edilməsinə baxmayaraq, xaricdə "humanitar müdaxilə" məsələsi siyasi elmlərin mühüm tədqiqat obyekti və predmeti kimi diqqəti cəlb edir. Hal-hazırda beynəlxalq aləmdə beynəlxalq hüququn və beynəlxalq münasibətlərin ən aktual məsələsi kimi gündəmi zəbt etdiyini, dinamikliyinə görə bu gün humanitar müdaxilə problemi ilə bağlı bir çox məsələnin tam öyrənilmədiyini söyləməklə məqalənin elmi-siyasi əhəmiyyətini və aktuallıq kəsb etdiyini qeyd edə bilərik.*

***Açar sözlər:*** *Beynəlxalq münasibətlər,"humanitar müdaxilə", siyasi-hüquqi aspektlər, BMT, ABŞ, insan hüquqları, dövlət suverenliyi*

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, "humanitar müdaxilələr" ("humanitarian interventions") anlayışının formalaşması beynəlxalq hüquqda "humanitar fəlakət" ("humanitarian catastrophe") anlayışının yaranması ilə sıx bağlıdır [6, s.190]. 1990-cı illərin əvvəllərinə kimi "humanitar fəlakət" termininin hamı tərəfindən qəbul edilmiş tərifi mövcud deyildi [9, s.92]. 17 iyun 1992-ci ildə BMT-nin Baş katibi Butros Qali "Sülh üçün gündəlik" hesabatında "humanitar fəlakətləri" insan hüquqlarının kütləvi şəkildə pozulması kimi təsvir etdi [4].

**Humanitar müdaxilə** - yerli əhalini humanitar fəlakətdən qurtarmaq və ya soyqırımın qarşısını almaq üçün xarici və ya ölkə daxilindəki hər hansı bir qüvvəyə qarşı hərbi gücdən istifadə edilməsidir.

Humanitar müdaxilə müxtəlif dövlətlər arasındakı münasibətlərin təməl prinsiplərinə güclü təsir göstərməyə imkan verən bir vasitədir. Bu fenomenə beynəlxalq münasibətlər sisteminin qlobal xüsusiyyətləri kontekstində nəzər salınması çox vacibdir. Bu mənada müasir beynəlxalq münasibətlərdə ABŞ-ın humanitar müdaxilə siyasətinin aktuallığı elmi əhəmiyyəti diqqəti cəlb edir. Bu, eyni zamanda, qloballaşma prosesi, milli və qlobal təhlükəsizlik problemi, ABŞ-ın dünya səhnəsində öz təsirini artırmaq istəyi ilə bağlıdır.

**"Humanitar müdaxilə"nin öyrənilməsi dərəcəsi.** Humanitar müdaxilələr fenomeninin öyrənilməsi prosesində, BMT Təhlükəsizlik Şurasının (TŞ) qətnamələri, BMT Nizamnaməsində təsbit olunmuş beynəlxalq hüququn ayrı-ayrı müddəaları və normaları, habelə NATO-nun və ABŞ-ın ayrılıqda humanitar müdaxilələri həyata keçirməsinə imkan verən digər hüquqi baza mötəbər hüquqi-siyasi qaynaq hesab olunur.

Humanitar müdaxilələr probleminin bəzi elementləri xarici alimlər tərəfindən nəzərdən keçirilmişdir. Bunlar arasında ilk növbədə bu sahədə aparılan fundamental işlərdən danışmaq lazımdır. Məsələn, F.K. Ebyu "Humanitar müdaxilələrin doktrinası və praktikasının təkamülü" əsərində, həmçinin S.N.Makfarleynin "Müasir dünya siyasətində müdaxilə" kitabında "humanitar müdaxilə" doktrinasının tarixi əsaslarını və təkamülünü araşdırmışlar.

D.J.Şeffer dövlətlərin praktikası əsasında aşağıdakı hərbi müdaxilənin kateqoriyalarını müəyyənləşdirmişdi:

1) dini və ya etnik azlıqların müdafiəsi məqsədilə müdaxilə;

2) amansızlığa yol açan təcavüzün dayandırılması və ya insan haqlarının pozulmasına yol verməmək məqsədilə müdaxilə;

3) ölkə xaricində olan vətəndaşlarını, habelə risk altında olan digər şəxsləri xilas etmək və ya qorumaq üçün bir müdaxilə;

4) “digər" son "xilasetmə əməliyyatları” [14, s.253-293].

Tədqiqatçılar humanitar müdaxilə praktikası kontekstində iki anlayış - insan hüquqları və dövlət suverenliyi arasındakı əlaqə probleminə diqqət yetirirlər. Bu alimlər həm də geniş tarixi sənədlərə əsaslanırlar. Məsələn, J.Holsqrif və R.Keoxanın əsərləri, o cümlədən müştərək yazdıqları “Humanitar müdaxilə: etik, leqal və siyasi dilemmalar” kitabı, humanitar müdaxilələrin dünya siyasətindəki roluna həsr edilmişdir. Bu kitabda müəlliflər humanitar müdaxilələrin tarixi, etik və siyasi xarakterli aspektlərinə xüsusi diqqət yetirirlər [8]. Həmçinin A.Kriyeg [11], A.Orford [13], T.Botham [3], F.Klos [10] və R.Veys [15] əsərlərində inkişaf etməkdə olan dünya nizamında humanitar müdaxilələrin rolunu, insan hüququ və dövlət suverenliyi ilə bağlı məsələləri, humanitar müdaxilələrin hüquqi-siyasi aspektlərini araşdırmışlar.

Rusiya müəllifləri də humanitar müdaxilə məsələsinə müraciət etmişlər. O cümlədən N.V.Modinin [12] (“Müasir beynəlxalq münasibətlərdə humanitar müdaxilə” adlı dissertasiya), O.O.Xoxlışevanın [16] (“Dünya reallığı və sülhməramlılıq illüziyası” kitabı) və digərlərinin əsərlərini xüsusilə qeyd etmək olar. Rusiyalı müəlliflər müasir mərhələdə sülhməramlılıq prosesinin normativ-hüquqi bazasını araşdıraraq, humanitar müdaxilələrin beynəlxalq hüquq normalarına uyğunluğuna daha çox diqqət yetirirlər. M.S.Çernoudovaya görə, 1990-cı illərdən bu günə qədər NATO “dünya jandarma” siyasətini həyata keçirmək üçün ABŞ-ın bir aləti olaraq qalmışdır. Buna baxmayaraq, NATO-nun humanitar müdaxilələrinin demək olar ki, heç biri dövlətlərin daxili münaqişələrini həll etməyə kömək etmədi və əksər hallarda daha da ağır nəticələrə səbəb oldu.ABŞ qeyri-humanitar məqsədlər üçün humanitar müdaxilələrdən açıq şəkildə istifadə edir və eyni zamanda BMT Nizamnaməsində təsbit olunmuş beynəlxalq hüquq prinsiplərini kobud şəkildə pozur. ABŞ-ın aktiv hərbi müdaxiləsi, rəsmi müdaxilənin əsl səbəbləri olaraq elan edilən humanitar məqsədlərdən daha çox milli maraqların doktrinasının reallaşdırılmasıdır [17, s.23].

Türkiyə tədqiqatçılarından H.Duran [5, s.88-92], Ö.Hancılar [7, s.97-124] və digərlərinin əsərlərində də humanitar müdaxilə anlayışının meydana gəlməsinin tarixindən, siyasi-hüquqi aspektindən, kateqoriyalarından, tərəfdarları və qarşı olanlardan ətraflı bəhs etmiş, insan haqları və suverenlik prizmasından şərh etmişlər.

Müasir formada “humanitar müdaxilə” anlayışı və konsepsiyası Fransada ortaya çıxmışdır. 1971-ci ildə qurulmuş “Médecins sans Frontières”, yaxud “Sərhədsiz həkimlər” adlı təşkilat və onun təsisçilərindən biri olan Bernard Kuşner humanitar müdaxilə ideyasını irəli sürdü. Başqa sözlə desək, dövlət digər bir suveren dövlətin tərkibində kütləvi insan hüquqları pozulduqda, soyqırım, ekoloji fəlakət və s. baş verdikdə, sonuncunun razılığı olmadan onun daxili işlərinə müdaxilə edə bilər. O dövrdəki konsepsiya beynəlxalq hüquq baxımından olduqca mübahisəli idi. 1987-ci ildə beynəlxalq hüquq üzrə professorlar Mario Betatti və B.Kuşner “Le Devoir d'Ingerence” (“Müdaxilə öhdəliyi”) əsərini yazdılar. Bu tədqiqatda hər hansı bir humanitar fəlakət halında suveren dövlətlərin daxili işlərinə müdaxilə etmək öhdəliyi əsaslandırılırdı [2].

Artıq növbəti müdaxilənin zəruriliyini əsaslandırarkən bu tədqiqat işlərinə istinad etməyə başladılar. Məsələn, BMT-nin Baş katibi Kofi Annan 1998-ci ildə çıxışında Bernard Kuşnerin işinə xüsusi istinad edərək Bosniya və Ruandaya müdaxiləyə haqq qazandırdı [1]. 1990-cı illərin əvvəllərində Körfəz müharibəsindən sonra avropalılar gördülər ki, Avropa öz dəyərlərini “humanizm” bayrağı altında dünyanın istənilən bölgəsində yaya və insan hüquqlarına “riayət etməyə” məcbur edə bilər. Ancaq Ruandadakı müharibə və Bosniyadakı münaqişə bu konsepsiyanın hər zaman işə yaramadığını göstərdi.

Humanitar müdaxilə, ikinci dünya müharibəsindən sonra önəm qazanan və bu gün çox diqqət çəkən bir mövzudur. Hüquqi baxımdan 1944-cü ildə Avropa Parlamenti bu məsələyə dair bir tərif verdi. BMT Təhlükəsizlik Şurası 1965-ci ildə Birləşmiş Millətlər Təşkilatının Cənubi Rodeziya Konvensiyasının 39-cu maddəsinə uyğun olaraq, beynəlxalq sülh və insan haqlarının pozulmasını müəyyən edərək, humanitar müdaxilə məsələsini gündəmə gətirdi və 1970-ci illərdən etibarən ilk humanitar müdaxilələrini etdi.

Əslində bu konsepsiya ilk dəfə XIX əsrdə böyük dövlətlərin xarici ölkələrdəki vətəndaşlarını və ya dini azlıqları qorumaq məqsədi ilə təşkil etdiyi hərbi əməliyyatları əsaslandırmaq üçün istifadə edildi. Fransanın Livandakı xristian azlığının hüquqlarını qorumaq adı ilə gerçəkləşdirdiyi müdaxilə bunun ilk nümunəsidir. Bir dövlətin yalnız öz vətəndaşlarını və onların hüquqlarını qorumaq üçün həyata keçirdiyi hərbi və buna bənzər hərəkətlər təcrübi olaraq qəbul edilsə də, Soyuq Müharibədən sonra bu ifadənin tətbiqi çərçivəsi tədricən genişlənmişdir.

“Humanitar fəlakətlər”in qarşısını almaq üçün “humanitar aksiyalar” (“humanitarian actions”)

hələ 1970-ci illərdə başlamışdı. 1971-ci ildə Hindistan Şərqi Pakistanda (Banqladeşdə), 1978-ci ildə Vyetnamda - Kambocada, 1979-cu ildə Tanzaniyada - Uqanda "sülhməramlı missiya" həyata keçirdi. ABŞ 1992-ci ildə BMT qüvvələri ilə birlikdə Somalidə "humanitar aksiya" keçirdi.

Bu konsepsiyanı dar mənada belə izah etmək olar ki, bu, bir dövlətin başqa bir dövlətə qarşı insan hüquqlarının geniş miqyasda pozulmasının qarşısını almaq üçün güc tətbiq etməsidir. Geniş mənada isə humanitar müdaxilə anlayışı ilk növbədə bir və ya daha çox dövlətin, başqa bir dövlətin insanlarının bir hissəsini və ya hamısını soyqırımdan və ya insan hüquqlarının pozulmasından qorumaq üçün silahlı müdaxilələri başa düşülür. Bir ölkədə insan haqlarının ciddi pozuntularını aradan qaldırmaq və mülki şəxsləri qorumaq məqsədi ilə digər dövlət və ya dövlətlərin, beynəlxalq təşkilatların güc tətbiq etmək və ya güc tətbiq etmə hədəsi ilə etdiyi müdaxilələrə humanitar müdaxilə deyilir. Burada bir dövlətin öz vətəndaşlarını qorumaq və ya qurtarmaq məqsədi ilə etdiyi müdaxilələr bu təriflə əhatə olunmur. Dövlətlər və ya beynəlxalq təşkilatlar müdaxilə edərkən "suverenliyə təhdid" problemi yaranır. Dövlətlər və təşkilatlar "qanuni özünümüdafiə" daxilində müdaxilə etsələr də, müdaxilə "bir dövlətin daxili işlərinə qarışmamaq, siyasi müstəqilliyini təhdid etməmək, ərazi bütövlüyünü pozmamaq" prinsiplərinə riayət etməklə həyata keçirilməlidir. Bu mənada dövlətlər və müxtəlif beynəlxalq təşkilatlar hərbi müdaxilələrdən başqa açıq qınama, diplomatik münasibətləri kəsmə və iqtisadi sanksiya tətbiq etmə metodlarından istifadə edərək müdaxilə edirlər. Əlbəttə ki, bunlar daha çox birinci mərhələdə edilir.

Humanitar müdaxilə beynəlxalq hüquqda davamlı şəkildə müzakirə olunan bir anlayışdır. Ümumiyyətlə, humanitar müdaxiləni beynəlxalq hüquqa zidd hesab edənlərə və humanitar müdaxilə fenomeninin tərəfdarı olanlara ayıra bilərik. Bu üzdən beynəlxalq münasibətlərdə müəyyən bir standartın olmaması, müdaxilənin formalaşması üçün şərtlərin qeyri-səhihliyinə və hər bir ölkənin milli maraqları ilə müəyyənləşdirilməsinə səbəb olmaqdadır. BMT Təhlükəsizlik Şurası üzvlərinin qəbul etdiyi qərarlarda beynəlxalq birliyin vicdanlı qənaətlərini və gözləntilərini, Təhlükəsizlik Şurası üzvlərinin siyasi maraqlarını nə qədər əks etdirməsi məsələsi həm düşündürücü, həm də cavabını gözləyən açıq sualdır. Humanitar müdaxilə ilə bağlı iki fikir var; humanitar müdaxiləni müdafiə edənlər və humanitar müdaxilənin əleyhinə olanlar. Humanitar müdaxiləni müdafiə edənlərə görə, müdaxilənin əvvəlcə beynəlxalq birlik üçün qanuni və hüquqi baza yaradar daxili məsələlərə qarışmadan, nəyin daxili məsələ olduğu, nəyin beynəlxalq müdaxiləni zəruri etməsi diqqətlə seçilməlidir. Humanitar müdaxiləyə qarşı olanlar isə müdaxilənin beynəlxalq hüquqa zidd olduğunu bildirirlər. Ziddiyyət üçün əsas BMT-nin saziş və konvensiyalarındakı "güc tətbiq etmə" qaydaları ilə əlaqədardır. Üçüncü dünya dövlətlərinin beynəlxalq hüquq üzrə mütəxəssisləri, yazarları humanitar müdaxilənin beynəlxalq hüquqda yer tutmadığı qənaətindədirlər.

Humanitar müdaxilənin məqsədi beynəlxalq sistemdə sabitliyi təmin etmək, beynəlxalq həmrəyliyi artırmaq və təhlükəsizlik və əmin-amanlığı təmin etməkdir. Ancaq bu qədər yaxşı niyyətli və beynəlxalq birliyin xeyrinə olan məqsədlərinə baxmayaraq, bir çox humanitar müdaxilənin iddia edilən amaclara paralel olmaması və bu məsələdə heç bir real müvəffəqiyyətin əldə edilməməsi belə müdaxilələrin güclü dövlətlərin maraqlarına xidmət etdiyini göstərir. Bunu sübut etmək üçün Kosovo, Haiti, Ruanda kimi misalları göstərməklə çox uzağa getmək lazım deyil. Liviyaya müdaxiləni çox gecikdirməyən təşkilatlar və dövlətlər Suriyaya müdaxilə etmək üçün gerçək cəhd göstərmədi və tamaşaçı olaraq qaldı. Humanitar müdaxilə ilə bağlı qərar verənlərin, verilən qərarlarda nə qədər beynəlxalq ictimaiyyətin qənaətləri və gözləntilərini nəzərdə saxladıqları, nə qədər də öz siyasi maraqlarını güddükləri araşdırılmalıdır.

Liviyaya müdaxilə və Suriyadakı vətəndaş müharibəsi, beynəlxalq hüququn bu cür güc tətbiqinə icazə verib-verməməsi mənasında, humanitar müdaxiləni önəmli mübahisə mövzusuna çevirmişdir. BMT qurulandan sonra baş verən müdaxilələrin güc tətbiq edilməsinə qoyulan qadağa üçün humanitar təməldə bir istisna yaradıb-yaratmadığı barədə mübahisələr beynəlxalq hüquqda bir cavab tapa bilməmişdir. 1990-cı illərdə humanitar müdaxilələr dövlətlərin təcrübələri və doktrinaları çərçivəsində yenidən nəzərdən keçirildi. Bu yanaşmaların, güc tətbiq edilməsinin qadağan olunması və istisnalarını müəyyən edən qaydalara uyğun olduğunu söyləmək olmaz. Liviyaya müdaxilə bu vəziyyətin vacib bir göstəricisidir. Suriyada davam edən vətəndaş müharibəsi, humanitar müdaxilədən başqa da yolların axtarılmasının gərəkliyini gündəmə gətirməkdədir.

**Nəticə.** Beləliklə, aşağıdakı nəticələrə gəlmək olar. Soyuq müharibədən sonra beynəlxalq münasibətlərdə həqiqətən qlobal dəyişikliklər baş verdi. Təəssüf ki, beynəlxalq ictimaiyyət hər zaman onlara

operativ və adekvat cavab verməkdən uzaqdır. Dövlət daxilində münaqişələrin gərginləşməsi - çox ciddi problemdir, hansı ki, BMT həmişə onun öhdəsindən gələ bilmir. Bu, dünya güclərini humanitar müdaxiləni həyata keçirmənin məqsədəuyğunluğu ilə bağlı ikili standartlar prinsipi əsasında qərar qəbul etməsinə səbəb olur. XX əsrin son onilliklərində və XXI əsrin əvvəllərində dəyişən beynəlxalq münasibətlər sistemində, müxtəlif dövlətlər BMT-nin himayəsi altında münaqişələrin həlli üçün getdikcə humanitar müdaxilələrdən tez-tez istifadə edirlər. Kütləvi şəkildə insan hüquqlarının pozulması və ya hökümətlərin səhlənkarlığı müasir dünyada münasibətlər sisteminin açıq olması səbəbindən və qloballaşma prosesi sayəsində beynəlxalq ictimaiyyətin diqqətindən yayınmaya bilmir və beynəlxalq müdaxiləyə ehtiyac yaranır.

Bununla belə, yerli və xarici müəlliflərin əsərlərində bu mövzunun kifayət qədər dərindən işlənməsinə baxmayaraq, hələ də humanitar müdaxilənin vahid, əsaslandırılmış tərifi mövcud deyildir. Müasir beynəlxalq münasibətlərdə humanitar müdaxilə insan hüquqlarının bir növ dilemması hesab olunur, dövlətlərin suverenliyinə riayət edilməsi və daxili işlərə qarışmamaq prinsipinə hörmətlə yanaşılması tələb olunur. Eyni zamanda, müasir dövrdə münaqişələr o qədər kəskindir ki, beynəlxalq ictimaiyyət onlara reaksiya verməyə bilməz və belə olan halda insan hüquqlarına hörmət prinsipi önə çıxır. Mürəkkəb daxili münaqişələrdə insan hüquqlarının qorunması zərurəti, müasir beynəlxalq münasibətlərin strukturunda humanitar müdaxilənin rolunun xüsusiyyətlərini də müəyyənləşdirir. ABŞ-da humanitar müdaxilə problemləri qızğın müzakirələrə səbəb olur. Müasir beynəlxalq münasibətlər sistemində humanitar müdaxilələr probleminin həlli zərurət kəsb edir, əks halda onlar bir dövlət üçün deyil, bütövlükdə dünya üçün problem və fəlakətlərə çevrilə bilər.

Beləliklə, bu fenomenin tərəfdarları və eyni zamanda ona qarşı birmənalı çıxanlar vardır. Bu mənada bir sıra dövlətlərin bəzi hərəkətlərinin ziddiyyətli xarakteri, hansı ki, onlar bunu humanitar müdaxilə adlandırırlar, sual doğurur: doğrudanmı, bu, mülki şəxslərin təhlükəsizliyinin qorunmasına və insan hüquqlarına hörmət edilməsinə yönəldilmişdir, yoxsa dövlətlərin öz ambisiyaları və maraqlarını reallaşdırmaq üçün bir vasitədir?

## ƏDƏBİYYAT


1. Аннан К. Размышления о проблеме вмешательства. Лекция по случаю 35-го ежегодного собрания «Дитчли Фаундейшн», Дитчли Парк, Соединенное Королевство, 26 июня 1998 г. // http://www.un.org/russian/basic/sg/interven1.htm
2. Bettati M, Kouchner B. Le devoir d'intelligence: peut-on les laisser mourir? Paris, Denoel publishers, 1987
3. Botham T. Humanitarian Intervention: Legal and Political Aspects. N. Y., 1999
4. Гали Б.Б. Доклад «Повестка дня для мира». 17 июня 1992 г. URL: http://www.un.org/
5. Duran H. Yeni Bir Müdahale Şekli "İnsani Müdahale". Süleyman Demirel Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 2001. Cilt 6, Sayı 1, s.88-92
6. Gibbs D.N. First Do No Harm: Humanitarian Intervention and the Destruction of Yugoslavia. Vanderbilt University N. Press, 2009. 203 p.
7. Hansılar Ö. Uluslararası Hukukta İnsanî Müdahale. Çankaya University Journal of Law, 7/2 (fiubat 2011), ss.97-124
8. Holzgrefe J. L., Keohane Robert O. Humanitarian Intervention: Ethical, Legal and Political Dilemmas. Cambridge University Press, 2003. 370 p.
9. Jokic A. Lessons of Kosovo: the dangers of humanitarian intervention. New York, 2003. 184 p.
10. Klose. F. The Emergence of Humanitarian Intervention: Ideas and Practice from the Nineteenth Century to the Present. Cambridge, 2016
11. Krieg A. Motivations for Humanitarian intervention: Theoretical and Empirical Considerations. Dordrecht, 2013
12. Модин Н.В. Гуманитарная интервенция в современных международных отношениях: Дисс.…канд. полит. наук. М. 2009, 159 с.
13. Orford A. Reading Humanitarian Intervention: Human Rights and the Use of Force in International Law. Cambridge, 2003
14. Scheffer D.J. Towards Modern Doctrine or Humanitarian Intervention. The University of Toledo Law Review, 1992. P. 253-293

15. Weiss Rh. G. Humanitarian Intervention. New York, 2016
16. Хохлышева О. О. Мир данности и иллюзии миротворчества. Н. Новгород, 1996
17. Черноудова, М.С. Правовые проблемы мирного регулирования международных конфликтов в рамках международных организаций./ Черноудова, М.С. - М., 2006, с.23

## SUMMARY

**Habil Mammadov**
**Naila Mammadova**

## THE NATURE AND INTERNATIONAL POLITICAL AND LEGAL ASPECTS OF THE CONCEPT OF "HUMANITARAL INTERVENTION"

The article explains the essence of the concept of "humanitarian intervention", focuses on some literature on the study of "humanitarian intervention", explores the theoretical and methodological, international political and legal aspects of the concept of humanitarian intervention. According to his supporters, humanitarian intervention is aimed at protecting the security of civilians and respecting human rights, while opponents argue that it is a means for great powers to realize their ambitions and interests. The authors compare the arguments of proponents and opponents of "humanitarian intervention" and conclude that in the modern system of international relations there is a need to address the problem of humanitarian intervention, otherwise they can become problems and disasters not for one state but for the world as a whole.

***Key words:*** *İnternational relations, "humanitarian intervention", political and legal aspects, UN, USA, human rights, state sovereignty*

## РЕЗЮМЕ

**Габиль Мамедов**
**Наиля Мамедова**

## СУЩНОСТЬ И МЕЖДУНАРОДНЫЕ ПОЛИТИЧЕСКИЕ - ПРАВОВЫЕ АСПЕКТЫ ПОНЯТИЯ « ГУМАНИТАРНОГО ВМЕШАТЕЛЬСТВА»

В статье разъясняется сущность понятия «гуманитарная интервенция», делается акцент на некоторых литературных источниках по изучению «гуманитарной интервенции», исследуются теоретические и методологические, международно-политические и правовые аспекты концепции гуманитарной интервенции. По словам его сторонников, гуманитарная интервенция направлена на защиту безопасности гражданских лиц и уважение прав человека, а по словам его оппонентов, это средство для великих держав реализовать свои амбиции и интересы. Авторы сравнивают аргументы сторонников и противников «гуманитарной интервенции» и делают вывод, что в современной системе международных отношений существует необходимость решения проблемы гуманитарной интервенции, иначе они могут стать проблемами и катастрофами не для одного государства, а для мира в целом.

***Ключевые слова:*** *Международные отношения, "гуманитарная интервенция", политические и правовые аспекты, ООН, США, права человека, государственный суверенитет*

---

***Məqaləni çapa təqdim etdi:*** *Hüquq üzrə fəlsəfə doktoru, dosent Qəhrəman Behbudov*
***Məqalə daxil olmuşdur:*** *03 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *11 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 66-70
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 66-70
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 66-70

**ŞƏFƏQ ƏHMƏDOVA**
*AMEA Fəlsəfə İnstitutu*
*shafag.ahmadova@gmail.com*

**UOT: 32(091) (4/9)**

# CƏNUBİ QAFQAZDA SİYASİ MÜNAQİŞƏLƏR VƏ İNFORMASİYA

*Məqalədə problemin ümumi nəzəri və konseptual əsasları nəzərdən keçirilir. Cəmiyyətdə cərəyan edən ictimai-siyasi proseslərdə siyasi münaqişələrin yeri və rolu barədə mülahizələr irəli sürülür. Müasir dünyada siyasi münaqişələrin xüsusiyyətləri qeyd olunur. Göstərilir ki, münaqişələrin təhlili, eləcə də onların həlli yollarının axtarışı hərtərəfli, sistemli xarakter daşımalıdır. Əsas diqqət Cənubi Qafqazdakı siyasi münaqişələrin gedişatının tarixi kökləri və siyasi aspektlərinə yetirilməsi zərurəti vurğulanır. Gürcü-Osetin və Gürcü-Abxaz münaqişələrinin gedişinin ümumi və xüsusi tərəflərin və cəhətlərin müəyyənləşdirilməsi ilə əlaqəli məsələlər ortalığa qoyulur. Münaqişəli vəziyyətin inkişafında həm çar Rusiya, həm də Sovet Rusiyası dövründə onların bölgənin tarixi inkişafına təsiri xüsusiyyətləri araşdırılır. Burada dünya siyasi qüvvələrinin qlobal maraqlarının burada ayrı-ayrı bölgələrin milli maraqlarına zidd olması vurğulanır. Cənubi Qafqazdakı münaqişələrin həlli imkanları nəzərdən keçirilir. Dünyadakı siyasi vəziyyət sabit deyil. Buna görə də problemlərin həlli işində yeni aspektlərin formalaşması zərurəti vurğulanır. Göstərilir ki, ölkələrin suverenliyini və tarixən formalaşmış dövlət sərhədlərini qorumaq məqsədilə beynəlxalq hüquqi aktlar əsasında lazımi tədbirlər həyata keçirilməlidir.*

***Açar sözlər**: Gürcü-Osetin və Gürcü-Abxaz münaqişələri, informasiya təminatı, Cənubi Qafqaz, beynəlxalq siyasi qüvvələr, beynəlxalq hüquq*

**Giriş**. Cənubi Qafqazın müasir mərhələsi bir çox mənalarda olduqca çətin və ziddiyyətli bir dövrdür. Dağlıq Qarabağ münaqişəsi ilə yanaşı, burada daha iki, etnik zəmində yaranan və hələ də öz həllini tapmayan siyasi münaqişələr dondurulmuş vəziyyətdə mövcuddur: Cənubi Osetiyada və Abxaziyadakı münaqişələr. Cənubi Qafqaz burada yaşayan əhalinin müxtəlifliyinə, sıxlığına görə analoqu olmayan bir coğrafi ərazidir. Üstəlik coğrafi mövqenin də əlverişli olması buraya olan siyasi maraqlarının artmasına səbəb olmuşdur.

Qeyd etmək lazımdır ki, Cənubi Qafqaz ərazisindəki digər münaqişələr, o cümlədən Gürcüstan-Abxaz münaqişəsi təxminən eyni ssenariyə əsasən inkişaf etmişdir. Çar Rusiyasının əvvəllər Gürcüstandakı bəzi etnik qruplara münasibətdə qərəzli siyasəti, həm Gürcüstan hakimiyyətinin, həm də Rusiyanın hərəkətləri səbəbindən gərginliyin sonradan artması münaqişəyə səbəb oldu. Münaqişənin iştirakçıları gürcü və abxaz etnik qruplarıdır. Münaqişə Abxaziya ərazisində uzun tarixi bir dövrdə, həm Gürcüstanın, həm də Abxaziyanın əraziləri çar Rusiyasının protektoratı altına keçdikdə inkişaf etdi. Hal-hazırda münaqişə dondurulub. Abxaziya Rusiyanın himayəsinə keçib.

Tərəflərin mövqeləri barışmaz xarakter daşıyır. Hadisələrin inkişafına fövqəldövlətlərin, ilk növbədə regionda maraqları olanların qarşıdurması təsir edir, bu yenə ABŞ, Rusiya, İrandır. Acar bu görüşdən hər hansı bir fayda görsə yenidən Gürcüstana qayıda bilər. Məsələn, bu, Gürcüstanın təklif edə biləcəyi daha əlverişli inkişaf şərtləri ilə əlaqəli ola bilər. Bölgədə sosial, iqtisadi və siyasi qarşılıqlı faydalı əlaqələrin qurulması mümkündür, lakin bunun üçün Abxaziyanın suverenliyi tanınmalı və bu iki siyasət obyekti arasında əlaqələrin yeni bir modeli yaradılmalıdır.

Gürcüstan-Cənubi Osetiya münaqişəsinə gəlincə, burada çar Rusiyasının Gürcüstandakı bəzi etnik qruplara münasibətdə qərəzli siyasətini nəzərə almaq lazımdır. Bundan sonra həm Gürcüstan hakimiyyətinin, həm də Rusiyanın hərəkətləri ilə bağlı gərginliyin daha da artması baş verdi. Dini

zəmində bölünən Şimali Osetiyanın tarixi taleyi də nəzərə alınmalıdır. İştirakçılar gürcü və osetin etnik qruplarıdır. Münaqişənin ərazisi – Osetiyadır. Münaqişə həm Gürcüstanın, həm də Abxaziyanın əraziləri çar Rusiyasının protektoratı altına keçdiyi dövrdə inkişaf etdi. Cənubi Osetiya da əslində Rusiyanın himayəsindədir. Münasibətlər barışmazdır.

**Əsas hissə**. Hadisələrin inkişafına fövqəldövlətlərin, ilk növbədə regionda maraqları olan ABŞ, Rusiya, İranın qarşıdurması təsir edir. Cənubi Osetiya, eyni zamanda, Gürcüstanla münasibətlərin qurulmasından bəhrələnməyə çalışarkən, Rusiya və ABŞ kimi böyük güclər arasındakı ziddiyyətlərdən faydalanmağa çalışacaqdır. Şimali və Cənubi Osetiyanın birləşməsi və yeni bir müstəqil dövlətin yaradılması bölgədə və dünyada ölkələr arasında bərabərhüquqlu tərəfdaşlıq qurulmasına kömək edəcəkdir.

Tədqiqatçıların vurğuladıqları kimi, "mövqelərin yaxınlaşmasına ciddi maneə Rusiyanın Cənubi Osetiya və Abxaziyadakı münaqişələrdən istifadə edərək 1990-cı illərin əvvəllərindən bəri gürcü cəmiyyətində yaranan Gürcüstanın işlərinə zərərli və məqsədyönlü müdaxiləsidir" [2]. Ekspertlər qeyd edirlər ki, "münaqişənin mənşəyi, onun gələcək inkişaf perspektivləri və nəticələri, əsasən, Qafqaz bölgəsində bir çox oyunçunun apardığı siyasətlə müəyyən edilir" [1, s.5].

Məlumdur ki, Gürcüstan-Abxaziya münaqişəsi "Rusiya Federasiyasının keçmiş SSRİ respublikasının və keçmiş Müstəqil Dövlətlər Birliyinin üzvü olan silahlı qüvvələrinə qarşı geniş miqyaslı hərbi əməliyyatlar apardığı ilk münaqişə olmuşdur. Bu tərkibdə Gürcüstan silahlı qüvvələrinə dəstək olan NATO / ABŞ ilə Rusiya Federasiyası arasında qarşıdurma elementi var idi. Rusiya Federasiyası Silahlı Qüvvələri ilk dəfə olaraq Gürcüstan ordusu, yəni müasir silahlarla və yüksək texnologiyalarla təchiz olunmuş bir düşmənlə birbaşa qarşıdurmaya girdi. Rusiya Federasiyası Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT), Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və Müstəqil Dövlətlər Birliyi (MDB) tərəfdaşlarının onun hərəkətlərini dəstəkləmək istəməməsi ilə qarşılaşdı" [3]. Münaqişənin dərsləri Rusiya silahlı qüvvələrinin güclü və zəif tərəflərini təhlil etmək, hərbi əməliyyatların planlaşdırılması və nəzarəti, habelə ordunun müasir silahlarla yenidən təchiz olunması üçün ciddi bir stimul oldu. Eyni fikri Gürcü-Osetin münaqişəsi haqqında da demək olar.

Rusiya Federasiyası şəxsində vasitəçilərin iştirakı bu münaqişənin təcrübəsində özünəməxsus şəkildə həyata keçdi. Münaqişə tərəflərindən birinə, yəni Gürcüstana gəldikdə isə, bir çox tədqiqatçı bunu itirən tərəf hesab edir: "Bir çox ekspertlər Gürcüstanı "itirən tərəf" kimi qəbul edir. Silahlı münaqişə nəticəsində Gürcüstanın siyasi vəziyyətinin pisləşdiyinə əmindirlər. O, hərbi əməliyyatlara başladı və müharibəni uduzdu. Digər ölkələrin ciddi köməyinə baxmayaraq, deyilən vəzifənin öhdəsindən gəlmədi. Münaqişədən, o cümlədən uduzulmuş müharibədən sonra Gürcüstandakı daxili siyasi vəziyyət daha da gərginləşdi. Bir tərəfdən, Gürcüstan Cənubi Osetiyanı geri qaytarmaq imkanından tamamilə məhrum oldu, digər tərəfdən bu münaqişədən siyasi, hərbi və iqtisadi yardım almaq üçün, habelə prezident ətrafında əhalinin müvəqqəti birləşməsi üçün məharətlə istifadə etdi. Bu kontekstdə nəticə mütəxəssislər tərəfindən "qismən itki, qismən qazanc" kimi qəbul olunur" [3].

Nəticədə, Qafqaz geosiyasəti bir tərəfdən Moskvanı, digər tərəfdən Vaşinqtonu və ABŞ müttəfiqlərini bir-birinə qarşı qoyan mövzu olaraq qalır. Rusiya rəhbərliyi rəsmi olaraq Abxaziya və Cənubi Osetiyanı yeni müstəqil dövlətlər hesab edirsə, Amerika siyasi elitası və Avropa liderləri "Gürcüstanın ərazi bütövlüyünə" riayət etməkdə israr edirlər. Eyni zamanda, ABŞ və bəzi AB ölkələri, eləcə də rəsmi Tiflis Abxaziya və Cənubi Osetiyaya münasibətdə "işğal olunmuş ərazilər" kimi ifadədən istifadə edirlər [4].

Bəzi tədqiqatçılar burada adicə etnik mental təsəvvürlərin rolunu qabardır, göstərirlər ki, gürcü xalqı böyük dövlət xülyası ilə yaşadığına görə nəticədə həmin xülyanın dağılmasına şahid oldular: "Cənubi Osetiya etnik status təsəvvürləri və qənaətləri 1922-ci ilin aprelində Cənubi Osetiya Muxtar Vilayətini yaratmaq təcrübəsinin təsiri altında formalaşdı. Gürcü etno-status fikirlərinin əsasını qədimliklə, qüdrəti ilə, etnik-mədəni identiklik və vahidlik (unitarizm) ilə səciyyələnən "ideal vətən" – "Böyük Gürcüstan" obrazı təşkil edir. Nəticədə Cənubi Osetiyanın statusu ilə bağlı müxtəlif yanaşmalardan irəli gələn gürcü-osetin münaqişəsinin əsası qoyuldu. İki ölkənin milli-dövlət müqəddəratına Şimali Qafqazda hakim olan ölkələrlə (müasir tarixdə bunlar Rusiya İmperiyası, SSRİ və Rusiya Federasiyası) münasibətlər qurma prosesində yaranan siyasi istiqamətlər də təsir etdi" [7, s.72]. Burada Rusiyanın xüsusi rolu göstərilsə də, tədqiqatçı həm də xalqların mental təsəvvürlərinin əhəmiyyətini vurğulayır.

Göründüyü kimi, burada kifayət qədər məlumatlar sistemləşdirilib tədqiqata cəlb olunmamış-

dır. Gürcüstan dövlətinin də münaqişəyə cəlb olunması prosesinin tarixi, hüquqi-siyasi və sosial-iqtisadi kökləri var. Bunu nəzərə almaqla beynəlxalq hüquqi prinsiplər əsasında məsələni həll etmək mümkün olacaqdır.

Məlum olduğu kimi, "Rusiya Federasiyası və Gürcüstan prezidentləri Vladimir Putin və Eduard Şevardnadzenin 2003-cü ilin mart ayında Soçidə görüşü konstruktiv sülh prosesinə qayıtmaq cəhdi idi. Soçi görüşünün nəticələrindən sonra üç işçi qrupunun yaradılmasını nəzərdə tutan sazişlər imzalandı: qaçqınların geri qaytarılması (əvvəlcə Qali rayonuna), Abxaziya ərazisindən keçən Soçi-Tiflis dəmir yolu xəttinin bərpası və İnquri Su Elektrik Stansiyasının yenilənməsi. Lakin 2004-cü ildən başlayan Rusiya-Gürcüstan münasibətlərinin pisləşməsi (Cənubi Osetiyadakı münaqişənin yenidən gündəmə gəlməsi) bu razılaşmaların həyata keçirilməsini qeyri-mümkün etdi. 2006-cı ilin iyul ayında Abxaziyadakı qarşıdurmanı "sərbəstləşdirmək" cəhdi (Gürcüstan Daxili İşlər Nazirliyinin bölmələrini Kodorinin yuxarı hissəsinə göndərmək və orada gürcüyönlü idarəetmə yaratmaq) 2008-ci ildə hərbi ssenariyə qayıdışı hazırlayaraq bu məqsədləri puç etdi" [6].

Nəticədə, "bu gün əsas gürcü-abxaz formatı (keçmiş Sovet respublikası ilə SSRİ-nin vahid dövlətinin süqutu fonunda muxtariyyət arasındakı münaqişə) ilə yanaşı, bu münaqişənin ən azı daha iki ölçüyə sahib olduğunu söyləyə bilərik. Birincisi, bu, 2008-ci ilin avqustunda açıq hərbi qarşıdurmaya (qondarma "beşgünlük müharibə") çevrilmiş Gürcüstan və Rusiya arasındakı dövlətlərarası münaqişədir. Bu günə qədər bu iki dövlət arasında diplomatik münasibətlər yoxdur. Gürcüstanın "İşğal olunmuş ərazilər haqqında" Qanununa əsasən (Maddə 2), "Abxaziya Muxtar Respublikası" Rusiya Federasiyası tərəfindən "qanunsuz işğala" məruz qalan bölgə hesab olunur. "Abxaziya Muxtar Respublikası" hökuməti Gürcüstanın yeganə qanuni hakimiyyət orqanı kimi tanıdığı Gürcüstan ərazisində fəaliyyət göstərir [5].

Ziddiyyətlərin kəskinləşməsi səbəblər sırasında dini mübahisələr də müəyyən rol oynayır. Eyni zamanda tədqiqatçılar dini pərdə arxasında əslində dövlətlərin siyasi maraqlarının durduğunu qeyd edirlər: "Bəzi ölkələr üçün din uzunmüddətli məqsədlərə nail olmaq üçün bir vasitədir" [8, s.107]. Burada xatırlatmaq olar ki, Ermənistan-Azərbaycan münaqişəsində erməni kilsəsinin rolu nə qədər böyük olmuşdur, indi də Eçmiadzin ictimai rəyin formalaşmasında, milli mentallığın formalaşmasında, həm də real separatçı addımların atılmasında nə qədər səy göstərir.

Həm də qeyd etmək lazımdır ki, Cənubi Qafqazdakı münaqişələrin həllində vasitəçilərin əməyi ən müxtəlif şəkildə ifadə olunur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində vasitəçi rolunu danışıqlar aparmaq, atəşkəs rejiminə nəzarət etmək və münaqişənin həlli üçün bir model tapmaq üçün birgə səy göstərən beynəlxalq təşkilatlar oynayırsa, gürcü-abxaz və gürcü-osetin münaqişələrində bu rolu Rusiya öz üzərinə götürmüşdür. Üstəlik, ABŞ müəyyən dərəcədə Gürcüstana problemin həllində müəyyən yardım göstərən başqa bir vasitəçi kimi çıxış edir.

Ekspertlər haqlı olaraq qeyd edirlər ki, "Abxaziya və Cənubi Osetiya rəhbərliyi də Tbilisi ilə münasibətlərin normallaşdırılmasında maraqlıdır. Birincisi, Rusiya ilə Gürcüstan, Gürcüstan və Abxaziya, Gürcüstan və Cənubi Osetiya arasındakı münasibətlərin hazırkı vəziyyəti sülhü qorumaq üçün möhkəm hüquqi bazanın yaradılmasına mane olur. İkincisi, Gürcüstanın Abxaziya və xüsusən Cənubi Osetiya əhalisi qeyri-müəyyən hüquqi statusa və sərhədi keçmə rejiminə görə əziyyət çəkir və bu, iki yeni müstəqil dövlətin cəmiyyətlərinin birləşdirilməsində və onlarda sabit demokratik siyasi rejimlərin qurulmasında çətinliklərdən biridir. Üçüncüsü, praktiki cəhətdən hər iki respublika Gürcüstanla münasibətlərdəki gərginlik və qeyri-müəyyənlik onların tranzit potensialının geniş yayılmasına maneə törətməsindən böyük ziyana düşür" [2].

Ümumilikdə "Sovet İttifaqı ərazisində cərəyan edən səkkiz silahlı münaqişədən altısı məhz Cənubi Qafqaz ərazisində yaranmışdır. Tanınmamış dörd respublikanın üçü burada yaradılmışdır. Qafqazda postsovet məkanının bütün geosiyasi arxitekturası, yəni keçmiş Sovet İttifaqı respublikaları arasında ərazinin toxunulmazlığı prinsipi tamamilə pozulmuşdur [5].

Hal-hazırda Rusiya ilə Gürcüstan arasında, Azərbaycanla Ermənistan arasında diplomatik münasibətlər mövcud deyil. Maddi və insan itkilərini bərpa etmək mümkün deyil. Baş verən hadisələr təkcə indiki deyil, həm də əvvəlki nəsil insanların, rəhbərləri, dövlət başçılarının elədiyi səhvlərin nəticəsidir. Yaranmış vəziyyət vacib bir siyasi məsələ olaraq öz həllini gözləyir.

Cənubi Qafqazdakı siyasi münaqişələr bu ərazidə bəşər sivilizasiyasının yaranması, dövlətçiliyin, etnik qrupların və xalqların formalaşması, onların inkişafı, miqrasiyası və coğrafi yerləşmə ilə əlaqəli geosiyasi vəziyyətlə əlaqələndirilir. Əlverişli coğrafi mövqe, təbii və insan resurslarından öz

məqsədləri üçün istifadə etmək niyyəti ilə bura böyük insan kütlələrinin axınına səbəb oldu. Hazırda bu bölgənin ərazisində yaşayan xalqların etnogenezi müxtəlif qəbilələrin və xalqların qarışmasının rəngarəng və mürəkkəb mənzərəsini təşkil edir. Bunu dilin, adət və ənənələrin tərkibi, antropoloji göstəricilər və hər bir insanın genetik kodla müəyyənlişdirmək olar.

Bu bölgənin hazırkı inkişaf vəziyyəti, qloballaşma, qarşılıqlı asılılıq və birlik proseslərinə baxmayaraq, heç də beynəlxalq hüquq normaları baxımından qənaətbəxş deyil. İnkişafı totalitar xarakter daşıyan böyük bir ölkənin dağılması, Rusiya imperiyası daxilindəki əvvəlki tarixi inkişaf, bu ərazini qısa müddətə işğal edən Türkiyə və İran kimi qonşu ölkələrin siyasi zəifləməsi nəticəsində millətlərarası münasibətlərdə böyük narazılığın və gərginliyin əmələ gəlməsinə səbəb oldu. Əsasən, qərəzli xarakter daşıyan bu və ya digər bir qərarın qəbul edilməsi, problemi düzgün istiqamətdə həll etmək imkanını xeyli azaltdı.

Deyə bilərik ki, Gürcüstan-Abxaziya və Gürcüstan-Osetiya münaqişələri fövqəldövlətlərin sərhəd təhlükəsizliyini təmin etmək üçün siyasi maraqlarını təmin etmək, habelə bir ölkənin milli təbii sərvətlərindən faydalanmaq istəyi ilə bağlıdır.

Vəziyyətin həllində çətinlik həm də tarixi və ya digər əsası olmayan bu və ya digər tərəfin iddiaları ilə əlaqədardır. Bu Ermənistanın qondarma "Böyük Ermənistan" dövlətinə qayıtmaq, Azərbaycan əhalisinin əsrlər boyu yaşadığı əraziyə iddialarına da aiddir. Qonşu ölkələrin müəyyən qüvvələrinin dəstəyindən istifadə edərək Ermənistan davamlı olaraq "tarixi" hüquqlarını bəyan edərək ərazilərini genişləndirməyə çalışır. SSRİ-nin dağılması Ermənistana bölgədəki öz maraqları olan diaspor və digər qüvvələrə arxalanaraq ekspansionist səylərini genişləndirməyə imkan verdi.

Vəziyyəti birbaşa həm Zaqafqaziya, həm qonşu ölkələr arasındakı münasibətlərdəki böhranın aradan qaldırılması üçün lazımi səyləri göstərməli olan beynəlxalq təşkilatların bütün açıqlamalarına baxmayaraq, problemin həlli hələ də uzaq bir xülya olaraq qalır. Görülən işlər beynəlxalq hüquqi bazanı dəstəkləmək və sülh yolu ilə həll etmək tövsiyələri ilə başa çatır. Eyni zamanda, bölgə ölkələri öz dövlətlərinin maraqlarına uyğun bir siyasəti həyata keçirirlər.

Bu vəziyyətdə fövqəldövlətlərin maraqları balansından daha səmərəli istifadə etmək və məqsədlərinə nail olmaq lazımdır. Dünya birliyi sülhə can atır, amma bu dünyaya nəyin bahasına başa gəldiyi ilə maraqlanmır. Günahsız insanların tökülən qanına, qarət və ərazilərin ələ keçirilməsinə əsaslanan sülh uzun və davamlı ola bilməz.

## ƏDƏBİYYAT


1. Вооруженный конфликт в Южной Осетии и его последствия / Институт стратегических оценок и анализа. М.: Красная звезда, 2009. 160 с.
2. Сушенцов А. Этнополитические конфликты в Грузии и позиция России//http://regional-dialogue.com/
3. Егорова Е.М. Результаты и репутационные последствия конфликта в Южной Осетии в августе 2008 г. в концептуальной модели российских экспертов // http://www.socreklama.ru
4. Маркедонов С. Конфликты на Кавказе: советская прелюдия // http://www.nlobooks.ru
5. История грузино-осетинского конфликта: короткая и кровопролитная война // http://iratta.com/
6. Орхан Джемаль. Война. Хроника пяти дней. М.: Амфора, 2008. – 224 с.
7. Санакоев И.Б. Этнический конфликт идентичностей в контексте национального самоопределения (на примере Южной Осетии И Грузии) // Вестник Московского университета. Серия 12. Политические науки, 2014, № 2, с.72-79
8. Чедия Б. Конфессиональные конфликты в Грузии как латентные межгосударственные разногласия // Кавказ и глобализация, 2012, Том 6, выпуск 4, с.101-118

## SUMMARY

**Shafag Akhmedova**

## POLITICAL CONFLICTS IN THE SOUTH CAUCASUS AND INFORMATION

The article discusses the general theoretical and conceptual foundations of the problem. Opinions are expressed about the place and role of political conflicts in modern socio-political processes in society. The features of political conflicts in the modern world are noted. It is argued that the analysis of conflicts, as well as the search for solutions should be comprehensive and systemic. The emphasis is on the historical roots and political aspects of political conflicts in the South Caucasus. Issues related to the identification of general and specific aspects of the Georgian-Ossetian and Georgian-Abkhaz conflicts are being raised. In the development of the conflict, the influence of both tsarist and Soviet Russia on the historical development of the region is studied. It is emphasized that the global interests of world political forces contradict the national interests of individual regions. The possibilities of resolving conflicts in the South Caucasus are examined. The political situation in the world is constantly changing. Therefore, the need to formulate new aspects in solving problems is emphasized. It is argued that in order to protect the sovereignty of countries and historically established state borders, work is necessary on the basis of international legal acts.

***Key words**: Georgian-Ossetian and Georgian-Abkhaz conflicts, information support, South Caucasus, international political forces, international law*

## РЕЗЮМЕ

**Шафаг Ахмедова**

## ПОЛИТИЧЕСКИЕ КОНФЛИКТЫ НА ЮЖНОМ КАВКАЗЕ И ИНФОРМАЦИЯ

В статье рассматриваются общетеоретические и концептуальные основы проблемы. Высказывается мнение о месте и роли политических конфликтов в современных общественно-политических процессах в обществе. Отмечены особенности политических конфликтов в современном мире. Утверждается, что анализ конфликтов, а также поиск решений должны быть комплексными и системными. Акцент делается на исторических корнях и политических аспектах политических конфликтов на Южном Кавказе. Поднимаются вопросы, связанные с выявлением общих и специфических аспектов грузино-осетинского и грузино-абхазского конфликтов. В развитии конфликта изучается влияние как царской, так и советской России на историческое развитие региона. Подчеркивается, что глобальные интересы мировых политических сил противоречат национальным интересам отдельных регионов. Рассматриваются возможности разрешения конфликтов на Южном Кавказе. Политическая ситуация в мире постоянно меняется. Поэтому подчеркивается необходимость формирования новых аспектов в решении проблем. Утверждается, что для защиты суверенитета стран и исторически сложившихся государственных границ необходима работа на основе международно-правовых актов.

***Ключевые слова**: грузино-осетинский и грузино-абхазский конфликты, информационное обеспечение, Южный Кавказ, международные политические силы, международное право*

---

***Məqaləni çapa təqdim etdi:** tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov*
***Məqalə daxil olmuşdur:** 03 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:** 11 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 71-76
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 71-76
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 71-76

**MƏMMƏD ÇIRAQLI**
*Bakı Dövlət Universiteti*
*chiraglimammad@gmail.com*

**UOT: 341.7**

# DİPLOMATİK MÜDAFİƏ XARİCİ İNVESTİSİYALARIN QORUNMASININ ƏSAS BEYNƏLXALQ HÜQUQİ VASİTƏLƏRİNDƏN BİRİ KİMİ

*Məqalədə xarici investisiyaların qorunmasını təmin etməyə yönəlmiş vasitələrdən biri kimi diplomatik müdafiənin əsas elementləri nəzərdən keçirilir. Müəllif diplomatik müdafiənin tarixi inkişafı, Beynəlxalq Ədalət Məhkəməsi də daxil olmaqla müxtəlif beynəlxalq məhkəmələr və arbitraj məhkəmələri çərçivəsində diplomatik müdafiənin praktiki tətbiqi kontekstində diplomatik müdafiə institutunu araşdırmışdır. Dövlət tərəfindən fiziki və hüquqi şəxslər üçün diplomatik müdafiənin həyata keçirilməsinin müxtəlif aspektlərini təhlil edən əhəmiyyətli doktrinal tədqiqatlar təqdim edilmişdir.*

***Açar sözlər***: *beynəlxalq hüquq, beynəlxalq investisiya, diplomatik müdafiə, Beynəlxalq Ədalət Məhkəməsi, transmilli şirkətlər*

Dövlətin digər dövlətlərin hakimiyyət orqanlarına münasibətdə və ümumiyyətlə, beynəlxalq münasibətlərdə üstünlüyü və müstəqilliyində ifadə olunan dövlət suverenliyi prinsipi, dövlətlərə digər dövlətlərin ərazilərində öz vətəndaşları və milli hüquqi şəxsləri üçün diplomatik qoruma hüququ verir. Beynəlxalq Hüquq Komissiyasının diplomatik qoruma maddələrinin layihəsinin 1-ci maddəsinə uyğun olaraq, "diplomatik qoruma dövlət məsuliyyətinin implementasiyası məqsədilə bir dövlət tərəfindən diplomatik vasitələr və ya digər sülh yolu ilə həlletmə vasitələrinin istifadə edilməsi ilə digər dövləti həmin dövlətin beynəlxalq hüquqa zidd hərəkətləri nəticəsində birinci dövlətin vətəndaşı olan və ya o dövlətin milli fiziki və ya hüquqi şəxsinəvurulan zərər üçün məsuliyyətə cəlb etməsindən ibarətdir" [8]. Eyni zamanda, qeyd etmək lazımdır ki, diplomatik qoruma dövlətin hüququ yox, onun milli fiziki və hüquqi şəxslər qarşısında birbaşa vəzifəsidir, bu istiqamətdə atılan addımların özü dövlət tərəfindən öz vətəndaşlarının başqa bir dövlətin ərazisində pozulmuş hüquqlarını bərpa etmək üçün həyata keçirilən prosedurdur.

Diplomatik qoruma institutu tarixi bir kontekstə malikdir və beynəlxalq hüquqa artıq 18-ci əsrdə məlum idi, çünki 1758-ci ildə İsveçrəli vəkil E.Wattel diplomatik qorumanın təməl prinsipini belə formalaşdırmışdır: "Kim bir dövlətin vətəndaşına zərər yetirirsə, dolayı yolla həmin vətəndaşı müdafiə etməli olan dövlətə də zərər yetirmiş olur" [10, 141]. O, qeyd etmişdir ki, suveren dövlət başqa bir dövlətin onun vətəndaşına vurduğu ziyana görə cavabdeh olmasını təmin etməli, bu dövləti zərərin əvəzini ödəməyə məcbur etməlidir, əks halda vətəndaş cəmiyyətin əsas sərvəti - təhlükəsizliyindən istifadə edə bilməyəcəkdir. Beynəlxalq münasibətlər kontekstində diplomatik müdafiə ənənəvi olaraq dövlətin müstəsna hüququ kimi qəbul edilir, çünki bir vətəndaşa (fiziki və ya hüquqi şəxs olmasından asılı olmayaraq) vurulan ziyan dövlətin özünə ziyan hesab olunur. Bu, Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Hüquq Komissiyasının diplomatik qoruma haqqında maddələr layihəsinin hazırlanmasına dair hesabatında da əks olunan ümumi bir yanaşmadır [16, 37].

İlk diplomatik qoruma qaydaları, Latın Amerikası əyalətlərində ABŞ vətəndaşlarına zərər verilməsi kontekstində hazırlanmışdır. Amerika Birləşmiş Ştatları əcnəbilərə və onların mülklərinə münasibətdə tənzimləmə qaydalarının eksterritorial (yani xarici qüvvəyə malik olma) olmasını təmin etmək üçün çalışmışdır. Amerika Birləşmiş Ştatları, xarici vətəndaşlarla rəftarın ümumi qaydalarını müəyyənləşdirən beynəlxalq minimum standartı müdafiə edirdi. ABŞ tərəfindən təklif olunan beynəlxalq minimum standart xarici investor üçün əlverişli və böyük ölçüdə ABŞ daxili qanun standartlarına əsaslanan bir qayda idi [12, 223]. ABŞ daxili qanunvericiliyinin bir çox aktının

eksterritorial xarakter daşıması diqqət çəkir. Bu hüquqi mexanizm, ABŞ-ın milli hüquqi şəxsləri olan transmilli şirkətlərin sayı baxımından ABŞ-ın dünyada ön sıralarda qalmasına imkan yaradır.

Müasir zamanda diplomatik qorumanın tətbiqi bu fenomenin ortaya çıxdığı dövrdən fərqlənir. Artıq diplomatik qoruma iki formada ola bilər: birincisi, ənənəvi metodlara uyğun olaraq və ya barışıq kimi daha mürəkkəb metodlara uyğun olaraq həyata keçirilən diplomatik fəaliyyətlər, ikincisi, məhkəmələrə və ya arbitraja müraciət vasitəsilə beynəlxalq məhkəmə fəaliyyəti. Diplomatik qorumanın həyata keçirilməsi üçün vasitə seçimi, əlbəttə ki, beynəlxalq məhkəməyə və ya arbitraja müraciət qaydaları nəzərə alınmaqla dövlətlərin ixtiyarına verilir. Hüquqi şəxslərlə əlaqəli beynəlxalq təcrübənin həcmini qiymətləndirmək üçün bu məqam nəzərə alınmalıdır.

İyirminci əsr bütün dünya iqtisadiyyatının qloballaşmasının başlanğıcı olmuşdur. Bu proseslər keçən əsrin ortalarından bəri Avropada geniş vüsət almışdır. İqtisadi inteqrasiya siyasi inteqrasiyaya çevrildi və uzun illər üçün Avropa qitəsindəki vəziyyəti dəyişdirdi. Bu gün bütün dünyada iqtisadi qloballaşma prosesi gedir. Dövlətlərin özləri, fiziki və hüquqi şəxsləri iqtisadi fəaliyyətin müxtəlif sahələrində bir-biri ilə fəal şəkildə qarşılıqlı əlaqədə olurlar. Bu, müasir iqtisadiyyatda investisiya münasibətlərinin inkişafına və intensivləşməsinə və beynəlxalq investisiya münasibətlərinin hüquqi tənzimlənməsinin gücləndirilməsinə təsir göstərir.

Beynəlxalq investisiya münasibətləri kontekstində diplomatik qoruma institutu yeni bir məna qazanmışdır. Görünən budur ki, diplomatik müdafiə beynəlxalq investisiya mübahisələrinin həlli vasitələrindən birinə çevrilib.

Beynəlxalq investisiya kapitalın bir dövlətdən digərinə köçürülməsini əhatə edir. Bu, başqa bir dövlətin ərazisində iştirakını təmin etmək üçün fiziki və ya hüquqi şəxslər tərəfindən birbaşa pul və ya əmlakın köçürülməsini əhatə edən birbaşa investisiyalar şəklində və ya xarici emitentlərin qiymətli kağızlarının ixtisaslaşdırılmış birja bazarlarında alınması yolu ilə həyata keçirilən portfel investisiyaları şəklində edilə bilər. Bu iki forma bir-birindən bir neçə cəhətdən fərqlənir, lakin hər ikisi də sərmayə alan dövlətdə (alıcı dövlət) xarici bir elementin mövcudluğunu təmin edir [1, 27].

Bu investisiya növləri arasındakı fərq aşağıdakılara əsaslanır: portfel investisiyalarına sahib olan investor, pay sahibliyindən ayrı olaraq idarə olunur və nəzarətdə olur. Xarici investor qiymətli kağızlarla bağlı bir müəssisənin idarə olunmasında birbaşa iştirak etməyə can atmır - əsas məqsədi bu qiymətli kağızların qiymətindəki artımdan sürətli mənfəət əldə etməkdir. Xarici bir investor, qısa müddət ərzində ona maksimum qazanc gətirəcək bir portfel qurmağa çalışır. Portfel investisiyası olan bir investor bütün növ riskləri üzərinə götürməlidir; eyni məsələ birbaşa investisiyaya tətbiq edilə bilməz, çünki bu tip investisiya uzunmüddətli hədəflərə malikdir və ümumiyyətlə, ən yaxşı zəmanət və qorunma əldə edir. Birbaşa investisiyalar həm ev sahibi ölkənin milli qanunvericiliyinin dəstəyinə, həm də öz milli ölkələrinin diplomatik müdafiəsinə malik ola bilər.

Bir qayda olaraq, birbaşa və portfel investisiyaları risk baxımından fərqlənir. Portfel investoru, qiymətli kağızlarını satmasına və sonra başqalarını almasına kömək edəcək sadə bir alqı-satqı müqaviləsi bağlayaraq investisiyalarını ləğv edə bilər. Birbaşa investisiyalar, ümumiyyətlə, orta və uzunmüddətli dövr üçün nəzərdə tutulduğu qədər asanlıqla ləğv edilə bilməz. Portfel investisiyaları investor tərəfindən daimi nəzarət və idarəetmə tələb etmir, eyni zamanda sərmayəçi tərəfindən düzgün idarə olunmadan və ev sahibliyi etdiyi ölkədə iştirakı olmadan birbaşa investisiyalar sərfəli ola bilməz.

Birbaşa investisiyanın spesifik bir xüsusiyyəti olaraq, transmilli şirkətlərin (TMK) fəaliyyətində populyarlığını qeyd etmək olar. Portfel investisiyaları birbaşa investisiyaların verdiyi iqtisadi və siyasi təsir baxımından eyni üstünlükləri təmin etmir, buna görə də TMK-lər tərəfindən praktikada geniş istifadə olunur və başqa bir ölkədə iqtisadi fəaliyyətlərinin əsas formasıdır.

Beynəlxalq xarakterli investisiyalar həyata keçirmək üçün möhkəm zəmin tələb edir, çünki sərmayəçinin fiziki və ya hüquqi şəxs olmasından asılı olmayaraq, yeganə məqsədi mənfəət əldə etməkdir (beynəlxalq investisiyanın milli dövlət tərəfindən bir növ xarici ekspansiyaya çevrilməsi halları istisna olmaqla). Hər şeydən əvvəl, investorun mənfəət əldə etməsinin təmin edilməsi investisiyaya münasibətdə lazım olan təhlükəsizliyə əsaslanır. Təhlükəsizlik meyarları alıcı dövlətdəki siyasi vəziyyət, milliləşdirmə və əmlakın müsadirə edilməsindən qorunma, mənfəətin geri qaytarılması mümkünlüyü və digərləri daxil olmaqla fərqli cəhətlərə malikdir.

Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Hüquq Komissiyası tərəfindən dövlətlərin beynəlxalq hüquqa zidd hərəkətlərə görə məsuliyyətinə dair layihə məqalələrinin hazırlanması,

şübhəsiz ki, investisiya qoruma müqaviləsinin pozulması səbəbindən bir dövlət tərəfindən yarana biləcək məsuliyyətin beynəlxalq hüquq tərəfindən tənzimlənən beynəlxalq məsuliyyət olduğu tezisinin lehinə əlavə bir arqumentdir [9]. Bu cür davamlı təcrübədən və bu mövzuda böyük ölçüdə razılaşdırılmış doktrinanın əksinə olaraq, bəzi müəlliflər bu sənədin kodifikasiya etmək istədiyi qaydaların yalnız "klassik" dövlətlərarası münasibətlər kontekstində olacağını əsas götürərək beynəlxalq iqtisadi hüquq sahəsinə daxil olma ehtimalı ilə ciddi şəkildə mübahisə edirlər. Düzdür, layihə maddələrinin 33-cü maddəsinin 1-ci bəndi, dövlətin məsuliyyətinin bir şəxs tərəfindən sorğu edilə biləcəyi hallar istisna olmaqla, bu tip münasibətlərin əhatə dairəsini müəyyənləşdirmək üçün nəzərdə tutulub. Bununla birlikdə, bu müddəa, hər şeydən əvvəl, Komissiyanın 60-cı illərdən bəri beynəlxalq cəmiyyətdə qızğın mübahisələrə səbəb olan şəxslərin beynəlxalq statusu probleminin qarşısını almağa yönəlmiş qərəzini əks etdirir. Daha sonra qeyd edilmişdir ki, Komissiyanın işi birbaşa olaraq qarışıq məhkəmələrdə və ya dolayı yolla - diplomatik qoruma yolu ilə qərar qəbul etməli olan beynəlxalq məhkəmə və arbitrajların geniş təcrübəsidir [11]. Çorzov fabriki [7] işi üzrə Daimi Beynəlxalq Ədalət Məhkəməsinin (7) məhkəmə qərarı beynəlxalq məsuliyyətə dair ənənəvi hüququn əsas qərarlarından biri olduğu üçün və burada bir şəxsin bir dövlətin beynəlxalq öhdəliklərini pozması ilə qarşılaşdığı bir vəziyyəti izah etdiyi səbəbi ilə diqqətəlayiqdir. Bu halda, Məhkəmə, Dövlətin belə bir “transmilli” kontekstdə məsuliyyətinin, məzmununun müəyyənləşdirilməsi və nəticələrinin göstərilməsi də daxil olmaqla beynəlxalq hüququn norma və prinsipləri ilə uyğun olduğunu təsdiqlədi. İnvestisiyaların qorunması haqqında müqavilələrinin məqsədi budur: sərmayəçilərə mənşə dövlətin diplomatik müdafiəsinin bu günə qədər birbaşa və dolayısı ilə "öz adlarına" ev sahibliyi edən dövlətin beynəlxalq məsuliyyətini tətbiq etmələrinə imkan verərək onlara müvafiq şəraitin yaradılması. Bu sənədlərin investorlara faktiki olaraq bu cür səlahiyyətlər vermə dərəcəsinin müəyyənləşdirilməsinə gəldikdə, hər bir halda bu müqavilələrin müvafiq müddəalarına istinad etmək məqsədəuyğundur ki, bu da əlbəttə ki, müəyyən şərtlər qoyaraq və ya bunun nəticələrini məhdudlaşdıraraq fəaliyyət qabiliyyətini tənzimləyə və ya məhdudlaşdıra bilər.

Müqayisələr mütləq aparılmalıdır, çünki dövlətin investisiya sahəsindəki məsuliyyətinə gəlincə, beynəlxalq hüquq investorların mənşə ölkələri tərəfindən diplomatik müdafiənin həyata keçirilməsindən yaranan uzun bir sıra dövlətlərarası arbitrajlar yolu ilə inkişaf etdirilmişdir. Bu, əsasən, beynəlxalq adət hüququnun bir hissəsi olduğu halda, müqaviləyə əsaslanan arbitraj üçün uyğundurmu?

Bu sahədəki tədqiqatçılardan biri Z. Douglas bildirmişdir ki, "investisiya mübahisələrinin arbitraj üçün bir investisiya müqaviləsi rejimi [...], beynəlxalq və ya millətlərarası mübahisələrin özəl həll forması olaraq kifayət qədər rasionallaşdırıla bilməz." Həqiqətən, ev sahibliyi edən dövlətlə investor arasında mübahisə həmişə sonuncunun şəxsi mənafeləri ilə əlaqəli olduğundan, bu tip mübahisələrə tətbiq olunan qanun yalnız dövlətlərarası arbitrajda olduğu kimi beynəlxalq hüquq normaları deyil, yalnız beynəlxalq hüququn və daxili hüququn “hibridi” ola bilər. Bu ümumi konsensusdan belə çıxır ki, diplomatik müdafiənin həyata keçirilməsi nəticəsində qurulmuş dövlətlərarası arbitraj məhkəmə prosesi çərçivəsində müəyyən edilmiş investisiya sahəsindəki dövlət məsuliyyətinə dair ənənəvi qaydalar, investisiya qoruma müqavilələri çərçivəsində görülən tədbirlərə şamil edilməyəcəkdir. Beynəlxalq Hüquq Komissiyasının işinin əsas götürüldüyü adi qaydalar dövlətlərarası münasibətlərə aiddir və qarışıq olmayan və ya bu xarakterli mübahisələr doktrinasında olmadığı kimi, bir şəxslə dövlət arasındakı diaqonal münasibətlər, təbiətinə görə beynəlxalq hüquq çərçivəsindən kənara çıxmış münasibətlər təşkil edir [ 15, 179].

İnvestisiya münasibətləri praktikası göstərir ki, kapital qoyuluşlarının həyata keçirilməsi dövlətlərlə başqa bir dövlətin vətəndaşları (fiziki və ya hüquqi şəxslər) arasında münasibətlərin yaranmasına səbəb olur. Dövlətlər, əsasən, başqa bir iştirakçı dövlətin ərazisinə investisiya qoyan fiziki və hüquqi şəxslərin qorunmasını və təhlükəsizliyini təmin etmək üçün ikitərəfli investisiya müqavilələrini (İİM) imzalayırlar. Beynəlxalq müqavilə qaydaları, investorlar üçün mümkün olan qorunma sahələrini genişləndirir. Bu, hər hansı bir İİM-in əsas məqsədi - investorlara hüquqlarını pozmadan iqtisadi fəaliyyətlərini başqa bir dövlətin ərazilərində apara bilməsini və qoruma təmin etməkdir. Məsələ burasındadır ki, "diaqonal münasibət" adlandırıla bilən bu cür münasibətlər beynəlxalq hüquqla necə tənzimlənə bilər, çünki iştirak edən tərəflərdən biri beynəlxalq hüququn subyekti olmayan fiziki və ya hüquqi şəxsdir.

Bu vəziyyətdə, diplomatik qoruma institutu ön plana çıxır və onun əsas məqsədi dövlətlərin öz

vətəndaşlarını qorumalarına kömək etməkdir.

Bununla yanaşı, investisiyaların qorunmasına dair beynəlxalq adət hüququnun ən böyük çatışmazlıqlarından biri icra mexanizminin olmamasıdır. Maraqlı olan sərmayəçilərə ev sahibliyi edən ölkə ilə bağlı beynəlxalq səviyyədə məhkəməyə müraciət etmək hüququ vermək əvəzinə onların üzərinə əvvəlcə inkişaf etməkdə olan ölkələrdə təsirli bir vasitə olmayan ev sahibliyi edən ölkənin məhkəmələrinə müraciət etmək öhdəliyi qoyuldu və yalnız bundan sonra beynəlxalq məhkəməyə müraciət etmək hüququ müəyyən edildi. Daha sonra mənşə ölkəsi beynəlxalq məhkəmə səviyyəsində, məsələn, beynəlxalq məhkəmədə və ya arbitrajda qəbul edən dövləti mühakimə edərək, investorun hüquqlarını pozduğu barədə beynəlxalq hüquq səviyyəsində iddia irəli sürə bilər. "Klassik" beynəlxalq hüquq üçün əsas fikir xarici investorların hüquqlarının pozulmasının mənşə dövlətin hüquqlarının pozulmasını təşkil etməsi idi. Əslində, Beynəlxalq Ədalət Məhkəməsi vaxtaşırı investisiyaların qorunması məsələləri ilə məşğul olmaq məcburiyyətində qaldı; bundan əlavə beynəlxalq səviyyədə xüsusi məhkəmələr yaradıldı. Bununla birlikdə, investorun mənşə ölkəsindən diplomatik qoruma almaq üçün qeyd-şərtsiz bir hüququ yox idi və bu baxımdan sonuncunun mülahizəsindən tamamilə asılı idi.

Fiziki şəxslərin qorunması ilə əlaqədar olaraq, qeyd etmək lazımdır ki, adət qanunlarına uyğun olaraq, dövlətlər vətəndaşlıq vermə şərtlərini öz milli qanunvericiliyi əsasında müəyyən edə bilərlər. Eyni zamanda, xarici dövlətlər bu qanunu yalnız beynəlxalq hüquqa, beynəlxalq ənənəvi hüquqa və vətəndaşlıqla əlaqəli qanunun ümumi prinsiplərinə zidd olmadığı təqdirdə tanıya bilər.

Eyni zamanda, beynəlxalq hüquq dövlətlərin diplomatik müdafiəsini məhdudlaşdırır. Dövlətlər yalnız dövlətlə vətəndaş arasında həqiqi bir əlaqə (sıx əlaqə) olduqda diplomatik qoruma tətbiq edə bilərlər. Nottebom işi üzrə Beynəlxalq Ədalət Məhkəməsinin qərarı [13] bu baxımdan göstəricidir. Bu, Lixtenşteyn ilə Qvatemala arasında 1955-ci ildə Beynəlxalq Ədalət Məhkəməsində baxılan bir işdir. Məhkəmə Qvatemaladan onun Lixtenşteyn vətəndaşı olan Notteboma qarşı qanunsuz hərəkətlərinə görə təzminat ödənilməsini tələb etdi. Lakin Beynəlxalq Ədalət Məhkəməsi bu hərəkəti nəzərdən keçirməyə imtina etdi və Lixtenşteyn vətəndaşlığının Nottebom tərəfindən yalnız onunla dövlət arasında həqiqi bir əlaqə olmadan hüquqi statusunu dəyişdirmək üçün alması ilə əlaqələndirdi. Məhkəmə, bunun milli qanunla nəzərdə tutulmuş tamamilə müstəsna bir hüquq olduğuna işarə edərək, vətəndaşlıq qazanma proseduru və mexanizmlərini nəzərə almaqdan imtina etdi. Bu yanaşma klassik hala gəldi və bəzi beynəlxalq investisiya müqavilələrində istifadə edildi. Məsələn, Almaniya ilə İsrail arasındakı İİM, "İsrail vətəndaşı" ifadəsinin "dövlətin ərazisində daimi yaşayan İsrail vətəndaşı" kimitəfsir edilmişdir.

Bir fərdin birdən çox vətəndaşı olduğu halda nə cür prosedur həyata keçirilməlidir? Bu vəziyyətdə, faktiki əlaqə prinsipinə görə, diplomatik qorunma hüququ, şəxsin ən yaxın əlaqələri olan dövlətə aiddir. Ancaq beynəlxalq adət hüququ və beynəlxalq təcrübə əksər hallarda bu ölkələrdən hər hansı birinin diplomatik müdafiəsini həyata keçirməsinə imkan verir.

Beləliklə, bu gün diplomatik qoruma, xarici dövlət tərəfindən xarici və ya şəxsi hüquqları qanunsuz olaraq pozulmuş bir şəxs tərəfindən istifadə edilə bilən beynəlxalq hüququn yeganə aləti deyil. İİM-lər əcnəbilər üçün investisiya qorumasını təmin edir və insan hüquqları müqavilələri, fərdi insan haqları pozuntuları üçün vasitələr təklif edir. Bununla birlikdə, diplomatik qoruma, dövlətlərin vətəndaşlarına xaricdə ədalətli davranmalarını təmin etmək üçün istifadə etdiyi beynəlxalq hüquq mexanizmi olaraq qalır. Üstəlik, zəngin inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrin daxili işlərinə qarışmaq üçün istifadə etdikləri bir prosedur kimi nüfuzunu böyük ölçüdə itirdi. İnkişaf etməkdə olan ölkələrin xaricdəki əcnəbiləri qorumaq üçün beynəlxalq hüququn bu mexanizmindən istifadə etməkdən çəkinməmələri buna dəlalət edir.

Hüquqi şəxslərin diplomatik müdafiəsinin həyata keçirilməsi ilə əlaqədar olaraq, sahibkarlıq subyektlərinin səhmdar cəmiyyətləri şəklində inkişafı və xarici investisiyaların artan rolunun hüquqi şəxslərə tətbiq edilə bilən diplomatik qorunma imkanlarına səbəb olması diqqət çəkir.

Bu cəhət, Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən “Barselona Traction” işində nəzərdən keçirildi [5]. “Barcelona Traction, Light and Power Co.” 1911-ci ildə Torontoda (Kanada) qeydiyyatdan keçmişdir. Törəmə müəssisələr İspaniyada iş görmək üçün yaradılmışdır. Birinci Dünya Müharibəsi bitdikdən sonra Belçikalı fiziki və hüquqi şəxslər şirkətin səhmdarları oldular. Lakin 1931-1939-cu illərdə baş verən İspaniya Vətəndaş Müharibəsi şirkəti iflasa sürüklədi. İspan səhmdarları, Kanada şirkətinə qarşı İspaniya bələdiyyə məhkəməsinə iflas iddiası açdılar. Məhkəmə

iddianı təmin etdi. Bundan sonra, Beynəlxalq Ədalət Məhkəməsi Belçikanın “Barcelona Traction” Belçika payçılarının hüquqlarını qorumaq üçün etdiyi hərəkətlərə nəzər saldı. Belçika nümayəndələri, İspaniya səlahiyyətlilərinin şirkətə qarşı hərəkətlərinin Belçika səhmdarlarına ciddi ziyan vurduğunu iddia etdilər. Beynəlxalq Ədalət Məhkəməsi, 5 Fevral 1970-ci il tarixli qərarı ilə iddianı geri çevirərək, "Səhmdarlara diplomatik qoruma nəzəriyyəsinin tətbiq edilməsi, müxtəlif dövlətlərin eyni vaxtda etirazlarına səbəb ola biləcəyini və bunun beynəlxalq iqtisadi münasibətlərdə qeyri-sabit şərtlərin yaradılmasına səbəb ola biləcəyini" bildirdi. Bu səbəbdən də Məhkəmə Belçika iddiası üçün heç bir əsas olmadığını bildirdi [6].

Məsələ burasındadır ki, böyük transmilli şirkətlərin səhmdarları müxtəlif dövlətlərin vətəndaşları ola bilərlər. Hər bir dövlət tərəfindən diplomatik müdafiənin həyata keçirilməsi mübahisəli ola bilər. Beynəlxalq Məhkəmə “Barcelona Traction” işi üzrə qərarında, beynəlxalq hüququn, ümumiyyətlə, tanınmış aliliyinə uyğun olaraq, diplomatik qorumanın " hüquqi şəxsin yalnız bir milli dövləti tərəfindən" həyata keçirilə biləcəyini vurğuladı

Ancaq bu yanaşma bizə bir hüquqi şəxsin milliyyətinin necə təyin edilməsi barədə heç nə demir. Bir hüquqi şəxsin vətəndaşlığını müəyyənləşdirmək beynəlxalq hüquqi şəxsiyyətə malik olmadığını təsdiq etmək üçün zəruridir. Beynəlxalq Məhkəmə “Zərərin ödənilməsi” işində [14], “beynəlxalq hüquq və öhdəliklər əldə etmək bacarığı ilə yanaşı, beynəlxalq tələb göndərməklə öz hüquqlarını həyata keçirmə qabiliyyəti” ilə xarakterizə olunan beynəlxalq hüququn subyektini müəyyənləşdirmişdir. Hüquqi şəxslər milli qanunlar çərçivəsində hüquq və öhdəliklərə sahib ola bilirlər, buna görə beynəlxalq hüququn subyektləri ola bilməzlər.

Diplomatik qoruma, əsasən, dövlətin adından beynəlxalq xarakterli ticarət işləri ilə məşğul olmayan vətəndaşların müdafiəsini əhatə edir. Digər vəzifəli şəxslər beynəlxalq hüququn fərqli qaydaları və qanunları ilə qorunur. Burada Diplomatik Münasibətlər üzrə 1961-ci il Vyana Konvensiyasına və Konsulluq əlaqələri haqqında 1963-cü il Vyana Konvensiyasına müraciət edə bilərik. Eyni zamanda, diplomatlar və konsullar birbaşa funksiyalarından kənar fəaliyyətlərlə əlaqədar zərər görürlərsə, diplomatik qoruma qaydalarına və qanunlarına tabedirlər. Bu kimi hallar akkreditə olunmuş bir dövlətin ərazisindəki bir vəzifəli şəxsə məxsus əmlakın kompensasiya edilmədən alınması nəticəsində ortaya çıxa bilər. Beynəlxalq Ədalət Məhkəməsinin təcrübəsindən də göründüyü kimi, diplomatik müdafiənin həyata keçirilməsinə zəmin yaradan əsas amil zərər çəkmiş şəxslə (fiziki və ya hüquqi) onun vətəndaşı olduğu dövlət arasındakı əlaqədir.

Diplomatik qoruma xaricdə olarkən hüquqları pozulmuş əcnəbilər üçün vacib bir vasitə olaraq qalır. Beynəlxalq Ədalət Məhkəməsinin Diallo işində qeyd etdiyi kimi (paraqraf 88), diplomatik qorumanın rolu investisiya mübahisələri ilə əlaqədar olaraq "bir qədər zəiflədi" [2] və insan hüquqları konvensiyalarında əcnəbilərin hüquqlarının pozulmasına görə məsuliyyət daşıyan hökumətlərə qarşı şikayətlərin verilməsi üçün beynəlxalq mexanizmlər təmin edilir. İmperativ normaların pozulması nəticəsində xarici dövlətin ərazisində vətəndaşlara vurulan ziyan nəticəsində onlar üçün diplomatik qoruma hüququnu təbliğ eməməklə, Beynəlxalq Hüquq üzrə Komissiya artıq diplomatik qorumanın aktuallığını artırmaq üçün bir fürsəti əldən vermiş ola bilər [3].

## ƏDƏBİYYAT

1. Международное право по защите и поощрению иностранных инвестиций/Д.К. Лабин. – М.: ВолтерсКлувер, 2008
2. Alberto Alvarez-Jimenez, Foreign Investors, Diplomatic Protection and the International Court of Justice's Decision on Preliminary Objections in the Diallo Case, 33 N.C. J. Int'l L. & Com. Reg. 437 (2007)
3. ARTICLES ON DIPLOMATIC PROTECTION By John DugardProfessor of International Law, Department of Public Law, Faculty of Law, Leiden University Historical Context. United Nations Audiovisual Library of International Law.
4. A/RES/60/1. 2005 World Summit Outcome. Resolution adopted by the General Assembly on 16 September 2005
5. Barcelona Traction, Lights and Power Co. case. Belgium v. Spain. 1970 ICJ Rep 4
6. Barcelona Traction, Second Phase, Judgement, at pp.33-34, para. 38
7. Case concerning the factory at Chorzów, PCIJ, 1927
8. Draft Articles on Diplomatic Protection of the ILC, 2006, Art. 1

9. Draft Articles on Responsibility of States for Internationally Wrongful Acts, 2001
10. E. Vattel, The Law of Nations, or the Principles of Natural Law, Classics of International Law, Book II, Chapter VI at 136 (ed. C. Fenwich transl. 1916)
11. Leben Charles. La responsabilitéinternationale de l'Étatsur le fondement des traités de promotion et de protection des investissements. In: Annuairefrançais de droit international, volume 50, 2004. pp. 683-714
12. M. Sornarajah, The International Law on Foreign Investment, Third Edition, Cambridge University Press, 2010
13. Nottebohm case. Liechtenstein v. Guatemala. 1955 ICJ Rep. 4
14. Reparations For Injuries Suffered in the Service of the United Nations Advisory Opinion, ICJ Rep 1949
15. V.Z.DOUGLAS, «The Hybrid Foundations of Investment Treaty Arbitration», BYBIL, 2003, pp.151-289
16. Yearbook of the International Law Commission, 2006, vol. II, Part Two


## SUMMARY

**Mammad Chiragli**

## DIPLOMATIC PROTECTION AS ONE OF THE MAIN INTERNATIONAL LEGAL MEANS OF PROTECTING FOREIGN INVESTMENTS

The article exmines the key elements of diplomatic protection as one of the means of protecting foreign investment. The author studied the institution of diplomatic protection in the context of its historical development and practical application of various courts and arbitration tribunals, including the International Court of Justice. Significant doctrinal studies which analyzed various aspects of diplomatic protection by the state of its civilians and individuals were presented.

***Key words:*** *international law, international investments, diplomatic protection, International Court of Justice, transnational corporation*

## РЕЗЮМЕ

**Мамед Чыраглы**

## ДИПЛОМАТИЧЕСКАЯ ЗАЩИТА КАК ОДНО ИЗ ОСНОВНЫХ МЕЖДУНАРОДНО-ПРАВОВЫХ СРЕДСТВ ЗАЩИТЫ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ

В статье рассматриваются ключевые элементы дипломатической защиты как одного из средств защиты иностранных инвестиций. Автор исследовал институт дипломатической защиты в контексте его исторического развития и практического применения в различных судах и арбитражах, в том числе в Международном суде ООН. Были представлены важные доктринальные исследования, в которых анализировались различные аспекты дипломатической защиты государством его физических и юридических лиц.

***Ключевые слова:*** *международное право, международные инвестиции, дипломатическая защита, Международный Суд, транснациональная корпорация*

---

***Məqaləni çapa təqdim etdi:*** *Hüquq üzrə fəlsəfə doktoru, dosent Qəhrəman Behbudov*
***Məqalə daxil olmuşdur:*** *03 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 77-83
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 77-83
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 77-83

**AQŞİN MƏMMƏDZADƏ**
*Bakı Dövlət Universiteti*

**UOT: 341.1**

# BEYNƏLXALQ TƏŞKİLATLAR MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN AKTORU KİMİ

*Məqalədə müasir beynəlxalq münasibətlərdə beynəlxalq təşkilatların rolu araşdırılmışdır. Göstərilmişdir ki, müasir dünyada beynəlxalq münasibətlər sistemində əsas rolu milli dövlətlər oynasa da, beynəlxalq təşkilatların rolu da kifayət qədərdir. Hazırda müxtəlif sferaları əhatə edən çoxsaylı beynəlxalq təşkilatlar mürəkkəb bir sistem təşkil etməklə qlobal proseslərdə özünəməxsus rol oynayırlar.*

*Məqalədə beynəlxalq təşkilatların yaranması və beynəlxalq münasibətlərin aktoruna çevrilməsi prosesinin xüsusiyyətləri təhlil edilmişdir. Qeyd olunmuşdur ki, müasir beynəlxalq təşkilatların yaranması və dövlətlərarası münasibətlərdə nisbətən daha aktiv rol oynamağa başlaması Versal sistemi ilə əlaqədardır. Hazırda mərhələdə isə beynəlxalq təşkilatlar təkmilləşmiş, institusional baxımdan formalaşmış, əməkdaşlığın yeni formalarını müəyyəşdirərək xeyli dərəcədə yeni xüsusiyyətlər əxz etmişdir. Odur ki, hazırda beynəlxalq təşkilatlar müasir dünyada baş verən ictimai-siyasi, iqtisadi və mədəni proseslərdə, dövlətlərarası münasibətlərin inkişafı və möhkəmlənməsində mühüm rol oynayırlar. Beynəlxalq təşkilatların beynəlxalq münasibətlər sistemində rolu II Dünya müharibəsindən sonrakı dövrdə xüsusilə artmışdır.*

*Məqalədə beynəlxalq təşkilatlarda islahatların aparılması məsələlərinə də yer verilir. Qeyd olunur ki, beynəlxalq münasibətlərin reallıqları, bəzi güclü dövlətlərin beynəlxalq təşkilatlara öz maraqlarını diqtə etməsi beynəlxalq təşkilatlarda ciddi struktur dəyişiklikləri aparmaq zərurəti yaradır. Hazırkı beynəlxalq münasibətlərdə beynəlxalq qeyri-hökumət təşkilatlarının artan nüfuzu və bunun nəticələri də araşdırılmışdır.*

***Açar sözlər:*** *Beynəlxalq münasibətlər, beynəlxalq hökumətlərarası təşkilatlar, beynəlxalq münasibətlərin aktorları, BMT, beynəlxalq qeyri-hökumət təşkilatları*

Müasir beynəlxalq münasibətlərin əsas iştirakçıları-aktorları arasında beynəlxalq təşkilatlar mühüm rol oynayır. Məlum olduğu kimi, beynəlxalq münasibətlərin aktorları dedikdə, əsasən, dövlət, beynəlxalq hökumətlərarası təşkilatlarlar və beynəlxalq qeyri-hökumət təşkilatları nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, müasir dünyada beynəlxalq münasibətlər sistemində əsas rolu milli dövlətlər oynasa da, beynəlxalq təşkilatların rolu da kifayət qədərdir. Hazırda müxtəlif sferaları əhatə edən çoxsaylı beynəlxalq təşkilatlar mürəkkəb bir sistem təşkil etməklə qlobal proseslərdə özünəməxsus rol oynayırlar. Beynəlxalq təşkilatların beynəlxalq münasibətlərdə oynadığı rol tarixən formalaşmış və bir sıra müxtəlif tarixi mərhələlərdən keçmişdir. Bu gün beynəlxalq təşkilatlar dövlətlərarası qarşılıqlı əlaqələrin və əməkdaşlığın formalaşmasında ciddi faktora çevrilmişdir.

Məlum olduğu kimi, müasir beynəlxalq münasibətlər öz mürəkkəbliyi ilə seçilir. Dünyanın böyük dövlətləri hər zaman öz hegemonluqlarını qoruyub saxlamağa çalışmışlar. Beynəlxalq təşkilatlar isə bir deyil, çoxsaylı dövlətlərin, xalqların maraqlarının müdafiəçisi olduğu üçün onların beynəlxalq münasibətlərdəki rolunun artması müsbət tendensiya hesab olunur. Lakin bir sıra hallarda beynəlxalq təşkilatlar da aparıcı dövlətlərin maraqlarının reallaşdırılması alətinə çevrilir. Bu mənada, hazırkı beynəlxalq münasibətlərdə beynəlxalq təşkilatların rolunun təhlili və araşdırılması mühüm aktuallığa malikdir.

**Beynəlxalq təşkilatların yaranması və beynəlxalq münasibətlərin aktoruna çevrilməsi prosesinin xüsusiyyətləri.** Beynəlxalq təşkilatların meydana çıxması tarixi hələ eramızdan əvvələ aid edilir. Belə ki, e.ə. IV əsrdə qədim Yunanıstanda şəhər-dövlətlər olan polislərin yaratdığı birliklər, həmçinin tayfalar və şəhərlərin təşkil etdiyi ittifaqlar beynəlxalq təşkilatların rüşeymləri olaraq qəbul edilir.

Beynəlxalq təşkilatların formalaşması prosesində Vestfal sülhü və müqaviləsinin vacib əhəmiyyəti olmuşdur. Belə ki, məlum olduğu kimi, Avropada yaranan yeni dövlətlər və digər hüquqi subyektlər arasında ilk beynəlxalq hüquq və istinad sistemi Vestfal sülhü ilə formalaşmışdır. Vestfal sülh müqaviləsi hər bir dövlətə öz ərazisi çərçivəsində tam hakimiyyətə malik olmaq hüququ verir, eyni zamanda öz daxili və xarici siyasətini müstəqil şəkildə müəyyənləşdirmək imkanı yaradırdı.

Vestfal sisteminin gətirdiyi yeniliklərdən biri də ondan ibarət idi ki, hər bir dövlət başqa dövlətlərlə əlaqələrini sərbəst surətdə müəyyən edə bilirdi.

Yeni beynəlxalq münasibətlər sistemi dövlətlərə öz aralarında iqtisadi, siyasi, mədəni əlaqə və münasibətlər yaratmağa, beləliklə də, beynəlxalq münasibətlərin əməkdaşlığa söykənən sisteminin formalaşması və inkişafına şərait yaradırdı.

Müasir beynəlxalq təşkilatların yaranması və dövlətlərarası münasibətlərdə nisbətən daha aktiv rol oynamağa başlaması Versal sistemi ilə əlaqədardır. Versal sistemi iştirakçılarının 1921-1922-ci illərdə ABŞ Prezidenti Vilsonun təşəbbüsü ilə Vaşinqtonda toplaşaraq 44 dövlətin razılığı ilə "Millətlər Liqası" yaratması və bilavasitə Versal sisteminin şərtlərinə nəzarət üçün bu hökumətlərarası quruma müəyyən səlahiyyətlər verməsi beynəlxalq münasibətlər sistemində yenilik olmaqla, dünyada həmin dövr üçün ən böyük beynəlxalq təşkilatın meydana çıxması demək idi.

"Millətlər liqası" Nizamnaməyə, Baş Assambleyaya, Baş katib və Katibliyi malik olmaqla mühüm funksiyaları yerinə yetirmək vəzifəsini üzərinə götürürdü. Qurumun ABŞ, İngiltərə, Fransa, İtaliya və Yaponiyanın daxil olduğu daimi üzvləri seçilmişdi.

"Millətlər Liqası" üzvü olan dövlətlər dünyada sülhün və təhlükəsizliyin qorunması, dövlətlərin ərazilərinə kənar müdaxilələrin yolverilməzliyi, özgə ərazisini işğal etmək istəyən dövlətlərə qarşı sanksiyaların tətbiq edilməsi, mübahisəli məsələlərin danışıqlar yolu ilə aradan qaldırılması, qarşılıqlı-faydalı əməkdaşlığın yaradılması və s. kimi müasir dövr üçün də səciyyəvi olan beynəlxalq hüquq normalarını ilk dəfə 1921-22-ci illərdə Vaşinqton konfransında yaratmışlar [8].

Həmin dövrdə Millətlər Liqasının meydana çıxması beynəlxalq münasibətlər üçün unikal hadisə idi. Dövlətlər tarixdə ilk dəfə qarşılıqlı münasibətlərini nizamlamaq üçün belə bir qlobal əhəmiyyətli təşkilat yarada bilmişdilər. Hansı ki, həmin təşkilat mübahisələrin həllində hüquq prinsiplərinə istinad edilməsini əsas tutur, dövlətlərarası əməkdaşlığın ümumi çərçivəsini müəyyənləşdirirdi.

Lakin beynəlxalq münasibətlərin xarakteri, dövlətlərin iddiaları, Birinci dünya müharibəsinin nəticələrinin bəziləri tərəfindən qəbul edilməməsi və s. səbəblər Millətlər Liqasının fəaliyyətinə mane olur, quruma beynəlxalq münasibətləri tənzimləmək imkanı vermirdi. Beləliklə də, Millətlər Liqası növbəti Dünya müharibəsinin qarşısını ala bilmədi.

II Dünya müharibəsinin sona çatmasına bir neçə gün qalmış dünyanın 50 ölkəsini təmsil edən xarici işlər nazirləri ABŞ-ın San-Fransisko şəhərinə toplaşaraq müharibədən sonra dövlət və xalqların kollektiv təhlükəsizlik məsələlərinin, dövlətlərarası ziddiyyətlərin və əməkdaşlığın, müharibədən sonrakı sərhədlərin, sosial-iqtisadi problemlərin kompleks müzakirəsinə başladılar. 1945-ci il iyun ayının 26-da çox gərgin müzakirə və diskussiyalardan sonra konfrans iştirakçıları Birləşmiş Millətlər Təşkilatı adlanan beynəlxalq qurumun yaranmasını bəyan etdilər və onun Nizamnaməsini imzaladılar.

BMT-nin Nizamnaməsinin imzalanması beynəlxalq münasibətlər sisteminin yaranması və inkişafı tarixində yeni mərhələnin başlanğıcı oldu. Beynəlxalq münasibətlər tarixində ilk dəfə məhz BMT Nizamnaməsində xalqların bərabərliyi, öz müqəddəratını təyin etməsi, dövlətlərin daxili işinə müdaxilənin yolverilməzliyi, münaqişəli məsələlərin dinc yolla həlli və s. prinsiplər öz əksini tapmışdır.

Nizamnamədə BMT-nin məqsədi, bu təşkilatın hüquqları, qarşısında duran vəzifələr və onların icra mexanizmi əks olunmuşdu [10].

BMT-nin məqsədlərinə beynəlxalq sülh və təhlükəsizliyin qorunması, ölkələr arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi, iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həlli istiqamətində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi və insan hüquqları və əsas azadlıqlara hörmətin təşviq edilməsi daxildir.

BMT-nin prinsiplərinə üzv dövlətlərin suveren bərabərliyi, BMT Nizamnaməsinə əsasən götürülmüş öhdəliklərin üzv dövlətlər tərəfindən vicdanla yerinə yetirilməsi, beynəlxalq mübahisələrin sülh yolu ilə həlli, dövlətlərin ərazi bütövlüyü və ya siyasi müstəqilliyinə qarşı və BMT-nin məqsədlərinə zidd

olan hər hansı bir şəkildə güclə hədələməmə və ya güc tətbiq etməmə, Nizamnaməyə əsasən BMT tərəfindən aparılan fəaliyyətə üzv dövlətlər tərəfindən dəstəyin göstərilməsi, təşkilata üzv olmayan dövlətlər tərəfindən BMT prinsiplərinə riayət olunma, üzv dövlətlərin daxili işlərinə müdaxilə etməmə daxildir.

BMT-nin əsas orqanları Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Ədalət Məhkəməsi və Katiblikdir [11].

Müasir dövrdə beynəlxalq təşkilatlar təkmilləşmiş, institusional baxımdan formalaşmış, əməkdaşlığın yeni formalarını müəyyəşdirərək xeyli dərəcədə yeni xüsusiyyətlər əxz etmişdir. Odur ki, hazırda beynəlxalq təşkilatlar müasir dünyada baş verən ictimai-siyasi, iqtisadi və mədəni proseslərdə, dövlətlərarası münasibətlərin inkişafı və möhkəmlənməsində mühüm rol oynayırlar. Beynəlxalq təşkilatların yaranması və fəaliyyət istiqamətlərində baş verən dəyişikliklər və yenilikər tarixi gerçəkliyin tələblərindən irəli gəlir və beynəlxalq səviyyədə qlobal məsələlərin, dövlətlərarası münasibətlərin tənzimlənməsinə əsaslı şəkildə təsir göstərirlər.

**Beynəlxalq təşkilatların beynəlxalq münasibətlərin aktorları arasında yeri və rolu.** Əksər nəzəri cərəyanlar beynəlxalq münasibətlərin tipik aktorları kimi dövlətlərlə yanaşı, beynəlxalq təşkilatların da rolunu qabardır. Beynəlxalq münasibətlər üzrə tədqiqatçı M.Kaplan beynəlxalq münasibətlərin aktorlarının üç növünü fərqləndirməyi təklif edir. Bunlar milli, transmilli və universal aktorlar kimi təsnif edilir. Milli aktorlara, əsasən, suveren dövlət aid edilir. Transmilli aktorlar isə regional beynəlxalq təşkilatları ehtiva edir. Universal aktorlar dedikdə isə ümumdünya təşkilatları nəzərdə tutulur ki, buna da nümunə kimi BMT misal çəkilir.

M.Kaplandan başqa, beynəlxalq münasibətlərin aktorlarına digər müəlliflərin də yanaşmaları mövcuddur. Məsələn, M.Merl hesab edir ki, beynəlxalq siyasi proseslərin tipik aktorları rolunda dövlətlər, transmilli qüvvələr və beynəlxalq təşkilatlar çıxış edir.

Transmillətçilik məktəbinin nümayəndələri isə beynəlxalq təşkilatların xarici siyasət sahəsinə yeni keyfiyyət gətirdiyini bildirərək, onların qlobal problemlərin həllinə də mühüm təsir göstərdiyini qeyd edir. Liberal institusionalizm cərəyanının tərəfdarları isə beynəlxalq təşkilatların onlara üzv olan dövlətlərin maraqlarını əks etdirdiyini və bu sahədəki qarşılıqlı münasibətləri tənzimlədiyini qeyd edir.

Qeyd olunan fikirlərin təhlili göstərir ki, beynəlxalq münasibətlərin əsas aktorları dedikdə dövlətlər və beynəlxalq təşkilatlar nəzərdə tutulur. Beynəlxalq münasibətlər sistemindəki digər iştirakçıların aktorlar kimi qəbul edilməsi mübahisəli olaraq qalır.

Digər mühüm mübahisəli məqam ondan ibarətdir ki, məhz hansı növ aktorlar daha üstün mövqeyə malikdir. Yəni başlıca rol dövlətlərə, yoxsa beynəlxalq təşkilatlara verilməlidir? Siyasi realizm cərayanının nümayəndələri beynəlxalq münasibətlərdə dövlətin daha üstün rol oynadğını, yəni ən vacib aktor kimi dövlətin mövqeyini müdafiə edirlər [4, s. 118].

Beynəlxalq münasibətlərin əsas iştirakçısının-aktorunun dövlət hesab olunması təsadüfi deyildir. Belə ki, adətən beynəlxalq münasibətlər dövlətlərin xarici siyasətinə uyğun olaraq formalaşır. Dövlət beynəlxaql münasibətlərin aktorlarından olan beynəlxalq təşkilatların da bir növ, əsasını təşkil edir, onların fəaliyyətini yön verir. Bu, bir daha onu göstərir ki, beynəlxalq münasibətlərin ən əsas aktoru dövlətdir. Dünyanın ən böyük beynəlxalq təşkilatı olan BMT-də 200-dək dövlət təmsil olunur.

Beynəlxalq təşkilatların beynəlxalq münasibətlər sistemində rolu II Dünya müharibəsindən sonrakı dövrdə xüsusilə artmışdır. Təsadüfi deyidir ki, bugün 400-dən çox beynəlxalq təşkilat fəaliyyət göstərir. Təşkilatların fəaliyyət göstərməsi mütəmadi olaraq konfransların çağırılmasını, qəbul olunmuş qərarların həyata keçirilməsi, daimi aparatın yaradılmasını tələb edir. Əgər əvvəllər bu aparatda çalışanların sayı az olurdusa, təbii ki, dövrün tələbatına uyğun olaraq bu gün daha çoxdur. Əlbəttə ki, həm beynəlxalq təşkilatların, həm də onlarda çalışanların sayının artması müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsi və qarşılıqlı asılılığın artması ilə əlaqədardır. Beynəlxalq təşkilatların hüquq və öhdəlikləri üzv dövlətin hüquq və öhdəliklərindən fərqlidir, buna görə də hökumətlərarası təşkilatlar beynəlxalq hüququn müstəqil subyektidir.

Millətüstü institutların qərarları üzv dövlətləri əgər tam qane etməsə belə, yerinə yetirilmə mütləq olmalıdır. Belə qərarlar bu gün hələ ki, Avropa Birliyi çərçivəsində verilir.

Beləliklə, beynəlxalq təşkilatlara tərif verək; Beynəlxalq təşkilat - beynəlxalq müqavilə əsasında yaradılmış, daimi fəaliyyət göstərən orqanları olan, beynəlxalq hüquqi subyektliyi olan, müəyyən məqsədi yerinə yetirmək üçün beynəlxalq hüquqa uyğun olaraq təsis olunmuş suveren dövlətlər birliyidir. Beynəlxalq təşkilatlar nizamlayıcı, nəzarət, daxili və xarici operativ funksiyalar həyata keçirirlər. Hər bir təşkitlatın mahiyyəti hər şeydən əvvəl onun fəaliyyətində, onun funksiyaları-

nın həyata keçirilməsində üzə çıxır. Beynəlxalq təşkilatların bir sıra fərqli xüsusiyyətləri var:

- suveren dövlətlərin iştirakı;
- BT-ın müqavilə əsası;
- məqsədlərin özünəməxsusluğu;
- daimi fəaliyyət göstərən orqanlarının olması;
- beynəlxalq hüquqi subyektlik keyfiyyətinin olması;
- beynəlxalq hüquqa uyğun olması;

Mütəxəssislər BHT-nin müxtəlif təsnifatını verirlər. Daha uğurlu təsnifat belədir:

1.Təşkilatın hüquqi təbiətinə görə (üzvlük prinsipləri);
2. Təşkilatın fəaliyyət masştabına görə (coğrafi prinsip);
3. Təşkilatın fəaliyyət predmetinə görə (funksional prinsip).

Bu göstəricilərinə görə beynəlxalq təşkilatların aşağıdakı növlərini qeyd edə bilərik:
Beynəlxalq universal təşkilatlar – məqsəd və fəaliyyət predmeti bütün üzv dövlətlər üçün ümumi maraq kəsb edən təşkilatlar (BMT, ÜST, ÜTT, və s.).

Beynəlxalq regional, subregional təşkilatlar. İstənilən məsələ ilə bağlı bir regionda yerləşmiş dövlətlərdən təşkil olunur.

Fəaliyyət dairəsinə görə təşkilatlar – siyasi (BMT, ATƏT); hərbi-siyasi (NATO); iqtisadi (BVF, Bİ və BB); sosial (BST, BƏT), mədəni-humanitar (YUNESKO); elmi-texniki (Beynəlxalq Telekommunikasiya İttifaqı) ayırırlar [9].

Qeyd etmək lazımdır ki, bu bölgülərin hər biri nisbi xarakter daşıyır. Yəni hər hansı bir təşkilat bu və ya başqa sinfə eynilə aid edilə bilər.

Almaniya Federal İnstitutunun siyasi təhlükəsizlik üzrə tədqiqatçısı Şrepler Xans Albert son iki yüz ildə beynəlxalq təşkilatların aşağıdakı tiplərinin inkişaf etdiyini qeyd edir:

1. beynəlxalq kommunikasiya vasitələrini tənzimləyən və xüsusi texniki tapşırıqlarla məşğul olan inzibati müəssisələr;
2. beynəlxalq mübahisələr üzrə qərar çıxaran və araşdıran, yaxud onda iştirak edən tərəfləri barışdıran mexanizm;
3. iqtisadi sahədə, əsasən, ya qlobal və ya regional sahədə kollektiv təhlükəsizliyi təmin edən, bir çox məsələlər üzrə əməkdaşlığın inkişafına kömək edən ümumi xarakterli beynəlxalq təşkilatlar.

E.Haas, L.Lindberq, O.Yanq və D.Puçala kimi qlobalistlərin fikrincə, nəqliyyat, informasiya və kommunikasiya sahəsindəki müasir inkişaf meyilləri vətəndaşların rifahının və təhlükəsizliyinin təmin edilməsinin əsas vasitəsi kimi dövlətin əhəmiyyətini azaltmışdır. Müasir dövrün reallıqları göstərir ki, bir çox problemlər hətta ən böyük dövlətlər üçün “milli həll” variantına malik olmur. Yəni bu problemlərin aradan qaldırılması yalnız ayrı-ayrı dövlətlərin inhisarında ola bilməz. Artıq elə kəskin problemlər özlərini büruzə verir ki, onların həlli üçün dövlətlərdən birlik, sıx əməkdaşlıq tələb olunur. Belə problemlər sırasına humanitar böhranların dəf edilməsini, beynəlxalq terrorizmə qarşı mübarizəni və s. aid etmək olar. Bu problemlər ümumbəşəri xarakter kəsb edir və onların səmərəli şəkildə dəf edilməsi ən mütəlif dövlətlərin birgə fəaliyyəti ilə mümkündür. Bu dövlətlər səylərini koordinasiya etmək üçün beynəlxalq təşkilatlarda birləşməlidirlər. Belə təşkilatlardan, əsasən, BMT və ATƏT-i göstərmək olar. Bu da onu deməyə əsas verir ki, konkret dövlətlər ayrılıqda beynəlxalq münasibətlərinə yön vermək imkanına sahib deyillər. Əsasən, onların təmsil olunduqları təşkilatlar dünya siyasətinin istiqamətini və inkişaf tendensiyasını müəyyən edirlər. Həqiqətən də beynəlxalq siyasi proseslərin təhlili göstərir ki, bütövlükdə dünya siyasətinin mərkəzində aparıcı beynəlxalq təşkilatlar dayanır.

BMT və ATƏT-in beynəlxalq siyasi proseslərə əsas töhfəsi ondan ibarət olmuşdur ki, onlar dövlətlərin beynəlxalq hüquqi normalar çərçivəsində fəaliyyət göstərmələrini, nisbətən də olsa, təmin edə bilmişlər. Qlobalistlərin fikrincə, bütün bunlar daha səmərəli idarə olunan dünya düzninin formalaşmasına, təhlükəsizlik problemlərinin gücləndirilməsinə xidmət edir [5, s. 41].

Müasir beynəlxalq münasibətlərin reallıqları, bəzi güclü dövlətlərin beynəlxalq təşkilatlara öz maraqlarını diqtə etməsi beynəlxalq təşkilatlarda ciddi struktur dəyişiklikləri aparmaq zərurəti yaradır. İslahatlara ehtiyacı olan beynəlxalq təşkilatlardan ən ilki dünyanın ən böyük təşkilatı olan BMT-dir. Məsələn, BMT-nin Təhlükəsizlik Şurasının hər hansı bir məsələ barədə qətnamə qəbul etdikdən sonra uzun müddət sülhməramlı əməliyyatların həyata keçirilməməsi BMT-nin nüfuzunu azaldan əsas səbəbdir. Bu onunla izah edilir ki, Təhlükəsizlik Şurasının daimi ordusu, ehtiyat korpusu

yoxdur və belə qüvvələri ancaq vacib olduqda axtarmağa başlayır. Rusiya tədqiqatçısı A.D.Boqaturov Təhlükəsizlik Şurasının güc sanksiyası barədə istənilən qərarının həyata keçirilməsi üçün BMT-nin xüsusi silahlı qüvvələrinin olması zəruriliyini göstərir [6].

Təhlükə və dəyişikliklər üzrə yüksək səviyyəli qrupun məruzəsində Baş Məclisin gündəlikdə olan məsələləri həll etməyə qadir olmadığı, bu qurumun qətnamələrinin əksəriyyətinin təkrar xarakter daşıdığı, aydın olmadığı və həyata keçirilmədiyi, orada yalnız müasir təhlükələrə, daha kiçik məsələlərə baxıldığı göstərildi [3].

Baş Məclisin qərar və qətnamələrinin tövsiyə xarakteri daşıması, Təhlükəsizlik Şurasının 5 daimi üzvünün bütün əsas orqanlarda iştirak edərək qəbul edilən qərarlara, irəli sürülən təşəbbüslərə təsir göstərməsi Baş Məclisin, eyni zamanda dövlətlərin suverenlik hüquqlarını məhdudlaşdırır. Daha optimal variant isə, ayrı-ayrı orqanlarda müzakirə edilən məsələlərin yenidən Baş Məclisə gətirilərək, 3/2 səs çoxluğu ilə onlar barəsində qərar və qətnamələrin qəbul edilməsi BMT-də təmsil olunan dövlətlərin suveren hüquq prinsiplərinin birdaha təsdiq edilməsinə imkan verər.

Beynəlxalq münasibətlərdə beynəlxalq qeyri-hökumət təşkilatlarının da mühüm rolu vardır.

Beynəlxalq Qeyri-Hökumət Təşkilatları (BQHT) uzunmüddətli inkişaf yolu keçmişlər. Hələ XIX əsrdən etibarən Beynəlxalq Qırmızı Xaç Komitəsi tipli humanitar təşkilatların yaranması və beynəlxalq münasibətlər sahəsinə təsiri özünü göstərməyə başlamışdır. XX əsrdə isə BQHT-lər beynəlxalq münasibətlərdə tədricən iştirak etməyə və dövlətlərarası əməkdaşlığın formalaşmasına, bəşəriyyəti narahat edən qlobal problemlərin həllinə təsir göstərməyə başlayır. Ümumiyyətlə, XX əsrdə BQHT-lər xarakterindən asılı olmayaraq, istər sayca, istərsə də strukturlaşma baxımından böyük inkişaf yolu keçmişlər [1].

Bir sıra elmi cərəyanlara görə, beynəlxalq münasibətlərdə beynəlxalq qeyri-hökumət təşkilatları daha aktiv rol alaraq, hətta dövləti sıxışdırmaqdadırlar. Transionalizm cərəyanına görə, müxtəlif beynəlxalq qeyri-hökumət təşkilatları arasında əlaqələrin sıxlaşması beynəlxalq münasibətlərdə dövlətin rolunu xeyli zəiflədir. Beynəlxalq siyasi proseslərin digər iştirakçılarından fərqli olaraq, beynəlxalq qeyri-hökumət təşkilatları qeyri-ərazi birlikləridir.

Bundan başqa, beynəlxalq qeyri-hökumət təşkilatlarının üzvləri suveren dövlətlərdən ibarət olmur. Beynəlxalq qeyri-hökumət təşkilatlarının məqsədi və tərkibi beynəlxalq xarakterli olur. Həmçinin beynəlxalq qeyri-hökumət təşkilatlarının fəaliyyətində könüllük prinsipi önə çəkilir.

Müasir siyasi elmdə beynəlxalq qeyri-hökumət təşkilatları bir neçə terminlə ifadə olunur. Belə ki, bəzən onları "suverenlik xaricində aktorlar", "transmilli qvvələr", "transmilli təşkilatlar" və s. kimi ifadə edirlər [2, s. 22].

Beynəlxalq qeyri-hökumət təşkilatları fəaliyyət istiqamətlərinə, strukturlarına, məqsədlərinə və s. fərqlənirlər. Digər tərəfdən beynəlxalq qeyri-hökumət təşkilatları hakimiyyət resurslarına malik olmurlar. Onların təsisçisi dövlət olmur. Bu təşkilatlar, adətən, peşəkar ayrı-ayrı seqmentləri təmsil edən qurumlar tərəfindən yaradılır. Onların qəbul etdikləri qərarlar dövətlər üçün hüquqi qüvvəyə malik olmur. Bununla belə, beynəlxalq münasibətlərdə beynəlxalq qeyri-hökumət təşkilatlarının rolu getdikcə artır və bu da dövlətlərə təsirsiz ötüşmür.

Xüsusilə də əsas fəaliyyət istiqamətləri insan hüquqlarının qorunması, ekoloji problemlərin həlli və humanitar məsələlərlə bağlı olan beynəlxalq qeyri-hökumət təşkilatları suveren dövlətlərin daxili işlərinə qarışmaq "hüququ" qazanmışlar [7].

**Nəticə.** Müasir dövrdə beynəlxalq təşkilatlar təkmilləşmiş, institusional baxımdan formalaşmış, əməkdaşlığın yeni formalarını müəyyəşdirərək xeyli dərəcədə yeni xüsusiyyətlər əxz etmişdir. Odur ki, hazırda beynəlxalq təşkilatlar müasir dünyada baş verən ictimai-siyasi, iqtisadi və mədəni proseslərdə, dövlətlərarası münasibətlərin inkişafı və möhkəmlənməsində mühüm rol oynayırlar. Beynəlxalq təşkilatların yaranması və fəaliyyət istiqamətlərində baş verən dəyişikliklər və yenilikər tarixi gerçəkliyin tələblərindən irəli gəlir və beynəlxalq səviyyədə qlobal məsələlərin, dövlətlərarası münasibətlərin tənzimlənməsinə əsaslı şəkildə təsir göstərirlər.

Müasir beynəlxalq təşkilatların yaranması və dövlətlərarası münasibətlərdə nisbətən daha aktiv rol oynamağa başlaması Versal sistemi ilə əlaqədardır.

Beynəlxalq təşkilatların beynəlxalq münasibətlər sistemində rolu II Dünya müharibəsindən sonrakı dövrdə xüsusilə artmışdır. Təsadüfi deyildir ki, bu gün yüzlərlə beynəlxalq təşkilat fəaliyyət göstərir.

Müasir beynəlxalq münasibətlərin reallıqları, bəzi güclü dövlətlərin beynəlxalq təşkilatlara öz

maraqlarını diqtə etməsi beynəlxalq təşkilatlarda ciddi struktur dəyişiklikləri aparmaq zərurəti yaradır. İslahatlara ehtiyacı olan beynəlxalq təşkilatlardan ən ilki dünyanın ən böyük təşkilatı olan BMT-dir.

Bu gün beynəlxalq münasibətlərdə müxtəlif beynəlxalq qeyri-hökumət təşkilatlarının da rolu artmaqdadır. Onlar arasında əlaqələrin sıxlaşması isə beynəlxalq münasibətlərdə dövlətin rolunu xeyli zəiflədir. Beynəlxalq siyasi proseslərin digər iştirakçılarından fərqli olaraq, beynəlxalq qeyri-hökumət təşkilatları qeyri-ərazi birlikləridir.

## ƏDƏBİYYAT


1. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005. 631 s.
2. Məmmədov H. Azərbaycan Respublikası müasir beynəlxalq siyasi proseslərin aktoru kimi. Siyasi elmlər doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı. Bakı: 2013
3. Доклад Группы высокого уровня по угрозам вызовам и переменам (A/59/565 + corr/1), Часть вторая – коллективная безопасность и задача предотвращения. Роль санкций. http://www.un.org
4. Новиков Г. Теории международных отношений. Иркутск: Изд. Иркут.ун-та, 1996. 298 с.
5. Тиунов О. О понятии международного контроля. М:, 1989. с.41
6. Современные международные отношения и мировая политика: Учебник/Отв.Ред. А.В.Торкунов. М.: Просвещение, 2005, 990 с.
7. Morgenthau H. Politics among nation. N-Y. 1960
8. https://www.achiqkitab.az/upl/books/pdf/Muasir_beynelxalq_munasibetler_ve_Azerbaycanin_xaricisiyaseti_55b5f82ae5081.pdf
9. http://bdubm.blogspot.com/2014/11/bm-formalasma-bm-istirakclar.html
10. https://www.un.org/en/charter-united-nations/index.html
11. http://mfa.gov.az/az/content/173/birlesmis-milletler-teskilati


## SUMMARY

**Agshin Mammadzade**

### INTERNATIONAL ORGANIZATIONS MODERN INTERNATIONAL AS AN ACTOR OF RELATIONS

The article examines the role of international organizations in modern international relations. It is noted that although the main role in the system of international relations in the modern world is played by nation-states, the role of international organizations is still quite sufficient. Today, many international organizations covering various spheres play a unique role in global processes, forming a complex system. The article analyzes the features of the process of formation of international organizations and becoming an actor in international relations. It is noted that the emergence of modern international organizations and their relatively more active role in interstate relations is due to the Versailles system. At the present stage, international organizations have improved, formed from an institutional point of view, identified new forms of cooperation and acquired significant new features. Therefore, at present, international organizations play an important role in the socio-political, economic and cultural processes taking place in the modern world, in the development and strengthening of interstate relations. The role of international organizations in the system of international relations has increased especially in the post-World War II period. The article also covers the issues of reforming international organizations. It is noted that the realities of international relations, the dictation of the interests of some powerful states to international organizations create the need for serious structural changes in international organizations. The growing influence of international non-governmental organizations in current international relations and its consequences have also been studied.

## РЕЗЮМЕ

**Агшин Мамедзаде**

**МЕЖДУНАРОДНЫЕ ОРГАНИЗАЦИИ СОВРЕМЕННЫХ МЕЖДУНАРОДНЫХ КАК АКТЕР ОТНОШЕНИЙ**

В статье рассматривается роль международных организаций в современных международных отношениях. Отмечается, что, хотя основную роль в системе международных отношений в современном мире играют национальные государства, роль международных организаций все еще достаточно достаточна. Сегодня многие международные организации, охватывающие различные сферы, играют уникальную роль в глобальных процессах, образуя сложную систему. В статье анализируются особенности процесса формирования международных организаций и становления субъектом международных отношений. Отмечается, что появление современных международных организаций и их относительно более активная роль в межгосударственных отношениях обусловлено версальской системой. На современном этапе международные организации улучшились, сформировались с институциональной точки зрения, определили новые формы сотрудничества и приобрели существенные новые черты. Поэтому в настоящее время международные организации играют важную роль в общественно-политических, экономических и культурных процессах, происходящих в современном мире, в развитии и укреплении межгосударственных отношений. Роль международных организаций в системе международных отношений особенно возросла в период после Второй мировой войны. В статье также освещены вопросы реформирования международных организаций. Отмечается, что реалии международных отношений, диктование интересов некоторых влиятельных государств международным организациям создают необходимость серьезных структурных изменений в международных организациях. Растущее влияние международных неправительственных организаций в современных международных отношениях и его последствия также были изучены.

***Məqaləni çapa təqdim etdi:*** *tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov*
***Məqalə daxil olmuşdur:*** *03 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *11 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 84-90
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 84-90
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 84-90

# İQTİSADİYYAT

**CEYHUN MAHMUDOV**
*Naxçıvan Dövlət Universiteti*
*ceyhun.ilhamoglu@gmail.com*

**UOT: 332.1**

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TARAZLAŞDIRILMIŞ VƏ DAYANIQLI İQTİSADİ İNKİŞAFIN İNFRASTRUKTUR PROBLEMLƏRİ

*Məqalədə Naxçıvan Muxtar Respublikasının tarazlaşdırılmış və dayanıqlı sosial-iqtisadi inkişafına infrastruktur sahələrinin, xüsusilə nəqliyyat kompleksinin təsirləri nəzərdən keçirilmiş, nəqliyyat infrastrukturunun modernləşdirilməsi və gələcəkdə yük axınlarının intensivləşdirilməsi məqsədi ilə həyata keçirilən layihələr və onların nəticələri təhlil edilmişdir. Bunun ilə yanaşı, makroiqtisadi səviyyədə muxtar respublikanın aparıcı iqtisadi sahələrinin, mikroiqtisadi səviyyədə isə müəssisə və təşkilatların iqtisadi fəaliyyətinin nəqliyyat infrastrukturlarının inkişafından asılılığı tədqiq olunmuşdur.*

*Elmi məqalədə, həmçinin 2004-2019-cu illər ərzindəki sərnişin və yük daşımalarındakı mövcud vəziyyət araşdırılmış, artım meylləri şərh olunmuş və regionun tranzit imkanları dəyərləndirilmişdir.*

***Açar sözlər:*** *Naxçıvan Muxtar Respublikası, sosial-iqtisadi inkişaf, tarazlaşdırılmış və dayanıqlı inkişaf, nəqliyyat infrastrukturu, yük və sərnişin daşımaları.*

Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının tarazlaşdırılmış inkişafının təmin edilməsi və bu sahədə qarşıda duran problemlərin həlli infrastrukturların normal fəaliyyəti ilə birbaşa bağlıdır. Belə ki, makroiqtisadi səviyyədə muxtar respublikanın aparıcı iqtisadi sahələri, mikroiqtisadi səviyyədə isə müəssisə və təşkilatların iqtisadi fəaliyyəti, eləcə də region əhalisinin həyat səviyyəsi, onların maddi və mənəvi rifah halının yüksəldilməsi infrastrukturların inkişafından asılıdır. Ona görə də infrastrukturların inkişafı və muxtar respublika üzrə səmərəli yerləşdirilməsi tarazlaşdırılmış iqtisadi inkişafa çox böyük təsir göstərir.

Naxçıvan Muxtar Respublikasında infrastruktur sahələrinin formalaşması və inkişafı tarixinə nəzər yetirdikdə, muxtar respublikanın tarixi inkişaf xüsusiyyətləri, müstəqillik ərəfəsində və müstəqilliyin ilk illərində regionda yaranmış ağır siyasi vəziyyət, regionun Erməni təcavüzü nəticəsində düşdüyü blokada vəziyyəti, iqtisadiyyatın bütün sahələrinin dərin tənəzzülə uğraması, maliyyə imkanlarının məhdudluğu, keçid dövrü vəzifələrinin birinci növbədə yerinə yetirilməsi zərurəti və s. kimi səbəblər infrastruktur probleminin həlli üçün tələb olunan müddəti xeyli artırmışdı. Qeyd etdiyimiz bu müddətin uzanmasının digər bir səbəbi müstəqilliyin ilk illərində dövlət büdcəsinin mövcud vəziyyətinin daxili ehtiyatlar hesabına regionların, o cümlədən Naxçıvan Muxtar Respublikasının infrastruktur problemlərinin həll edilməsinə imkan verməməsi idi.

Lakin bütün bunlara baxmayaraq, hələ müstəqilliyimizin ilk illərində ümummilli liderimiz H.Əliyevin uzaqgörən siyasəti nəticəsində muxtar respublikada infrastrukturun bərpası və yenilənməsi istiqamətində tədricən tədbirlər həyata keçirilməyə başlanmış, daha sonra 2004-cü ildən ümummilli lider H.Əliyevin layiqli davamçısı olan İ.Əliyevin rəhbərliyi ilə yeni mərhələyə addım atan Azərbaycanda digər hədəflərlə yanaşı, regionların infrastruktur təchizatının təmini məqsədini nəzərdə tutan regionların sosial-iqtisadi inkişaf proqramlarının mərhələli şəkildə reallaşdırılması davam etdirilmişdir. İnfrastruktur sahələrinin dəqiq müəyyənləşdirilmiş prioritetlər, elmi və təcrübi əsaslara söykənən fundamental qərarlar, mobil idarəetmə mexanizmləri əsasında formalaşdırılması xalqımızın ümummilli lideri H.Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursunu səciyyələndirən

ən xarakterik xüsusiyyətlərdəndir. Qeyd edək ki, ötən dövr ərzində muxtar respublikada infrastruktur sahələrinin sürətli formalaşdırılması və inkişafına rəvac verən səmərəli iqtisadi siyasət regionda tarazlı inkişaf üçün başlıca vəsilə olmuş, sahibkarların normal fəaliyyəti üçün əlverişli biznes mühiti yaratmışdır. Məhz bu nöqteyi-nəzərdən söyləmək olar ki, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına təsir edən, tarazlaşdırılmış sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynayan infrastruktur sahələrinin araşdırılmasına böyük ehtiyac vardır.

Bildiyimiz kimi, istehsalın fasiləsiz inkişafına təsir edən istehsal infrastrukturlarından biri nəqliyyat sahəsidir. Belə ki, istehsal sahələrinin xammal və materiallarla təchizatı, istehsal olunmuş məhsulların istehlakçılara çatdırılması nəqliyyat infrastrukturları vasitəsilə həyata keçirilir. Müxtəlif funksional əlamətlərə görə fərqlənən (avtomobil, dəmiryolu, su, hava və boru-kəmər nəqliyyatı) nəqliyyat infrastrukturunun işinin təşkili və idarə olunması düzgün və səmərəli yerinə yetirilməzsə, istehsal prosesinin fasiləsiz işindən bəhs etməyə dəyməz. Bu zaman istehsal istehlakı və şəxsi istehlak pozular, cəmiyyət üzvlərinin həyat fəaliyyəti təhlükə qarşısında qala bilər, həmçinin region iqtisadiyyatında disproporsional inkişaf meylləri müşahidə olunar [1, səh. 88]. Məhz bu baxımdan nəqliyyat infrastrukturunun işinin fasiləsizliyinin təmin olunması üçün müasir tipli nəqliyyat vasitələri ilə yanaşı, həmin nəqliyyat vasitələrinin işini yaxşılaşdırmaq, yüklərin vaxtında, itkisiz və keyfiyyətlə daşınmasını həyata keçirmək üçün geniş və hamar yolların salınması, körpü və bərələrin tikilməsi xüsusi əhəmiyyətə malikdir.

Ötən 15 il ərzində (2004-2019-cu illər ərazində) Naxçıvan Muxtar Respublikasında nəqliyyat sisteminin ahəngdar işinin bərpası məqsədilə müasir avtomobil yolları şəbəkəsinin və dəmiryolu infrastrukturunun qurulması, qonşu xarici ölkələrin ərazisindən tranzit istifadə imkanlarının genişləndirilməsi, hava nəqliyyatının işinin gücləndirilməsi istiqamətində irimiqyaslı layihələrin icrası həyata keçirilmişdir. Belə ki, blokada vəziyyəti ilə bağlı çətinlikləri aradan qaldırmaq və nəqliyyat infrastrukturunu müasirləşdirmək məqsədilə Naxçıvan Beynəlxalq Hava Limanının, Sədərək, Culfa və Şahtaxtı sərhəd keçid məntəqələrində yeni körpülərin istifadəyə verilməsi, "Bakı-Naxçıvan-Bakı", "Naxçıvan-Təbriz-Naxçıvan" avtobus, "Naxçıvan-Təbriz-Tehran-Məşhəd" sərnişin qatarı və "Naxçıvan-İstanbul" hava nəqliyyatı marşrutlarının açılması nəqliyyat əlaqələrinin genişləndirilməsində mühüm mərhələ olmuşdur. Həyata keçirilən bu layihələr muxtar respublikanın sənayeləşmə siyasətinin tərkib hissəsi kimi regionun ixrac potensialının artmasına və muxtar respublika daxili inzibati rayonların tarazlaşdırılmış iqtisadi inkişafına, eyni zamanda, tarazlı iqtisadi inkişafın təmini baxımından infrastruktur təchizatının yaxşılaşdırılmasına zəmin yaratmışdır. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına nəzər yetirdikdə, atılan addımların rəqəmlərlə ifadə olunan konkret nəticələrini açıq-aydın görmək olur. Belə ki, 2004-cü ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 39073500 ABŞ dolları dəyərində olmuşdursa, bu rəqəm 2019-cu ildə təxminən 13 bənd artaraq 497068600 ABŞ dolları dəyərində olmuşdur. Əgər 2004-cü ildə ixracın həcmi 5239300 ABŞ dolları (saldo: - 28594900 ABŞ dolları) dəyərində olmuşdursa, 2019-cu ildə ixracın həcmi 81 dəfə artaraq 425539400 ABŞ dolları (saldo: +354010200 ABŞ dolları) olmuşdur [2]. Qeyd olunan bu fakt muxtar respublikanın nəqliyyat infrastrukturunun yenilənməsi istiqamətində görülən işlərin xarici ticarət dövriyyəsinin artmasına geniş imkanlar yaratmasının bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikasının blokada vəziyyətində olmasına baxmayaraq onun nəqliyyat-iqtisadi əlaqələrinin inkişafında özünəməxsus yeri ilə seçilən dəmiryolu nəqliyyatı region sərhədləri daxilində sərnişin və yük daşınmasını həyata keçirməklə yanaşı, Culfa dəmiryolu vasitəsilə İran İslam Respublikası ilə iqtisadi əlaqələri təmin edir. Muxtar respublika daxilində Naxçıvan, Qızılvəng, Şərur, Culfa, Orbubad dəmiryolu stansiyaları daxili və xarici yük axınlarının tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir. Daşınan yüklərin təhlili göstərir ki, muxtar respublika daxilində göndərilən və gətirilən yüklərin 37,6-15,1%-ni Naxçıvan, 14,2-4,3%-ni Şərur, 6,4-0,7%-ni Şahtaxtı, 0,7-0,6%-ni Qızılvəng, 8,9-0,9%-ni Başbaşı, 9,8%-ni Culfa, 8,0%-ni İran Culfası, 5,8-8,1%-ni Ordubad təşkil etmişdir. Əsas yük yaradan mənbələr muxtar respublikanın daxili yük axınları hesabınadır. Daşınan yüklərin əsas hissəsini tikinti materialları, kənd təsərrüfatı məhsulları təşkil edir.

Dəmiryolu nəqliyyatı muxtar respublika daxilində yük və sərnişindaşıma əməliyyatlarını yerinə yetirməklə bərabər, regionun tarazlı sosial-iqtisadi inkişafının formalaşmasına müsbət təsir göstərir.

Muxtar respublikada aparılan təhlillər göstərir ki, dəmiryolu boyu 20-40 km məsafəyədək olan ərazilərdəki təsərrüfat sahələrinə və istehsalın mərkəzləşməsinə onun təsiri daha fəaldır. Bu interval daxilində muxtar respublikanın bütün qəsəbələri və kənd təsərrüfatı məhsulları istehsalını həyata keçirən kəndləri yüksək səviyyədə inkişaf etmişdir. Bu cür əlverişli nəqliyyat şəraitinə malik olan ərazidə istehsal olunmuş məhsulun başqa rayonlara və ölkələrə göndərilməsi üçün daha əlverişli şərait yaranır. Muxtar respublikada bir neçə stansiyalar vardır ki, onlar mühüm nəqliyyat mərkəzləri və nəqliyyat qovşağı funksiyasını yerinə yetirir. Bu xüsusiyyətləri nəzərə alıb həmin stansiyaların iqtisadi əlaqələrdə olan mövqeyinin gücləndirilməsini məqsədəuyğun hesab edirik.

Naxçıvan dəmiryolu stansiyası yük və sərnişin dövriyyəsinə görə muxtar respublikada Culfa dəmiryolu qovşağından sonra ikinci mühüm stansiya hesab edilir. Bu stansiya mərkəzləşdirilmiş qayda ilə Naxçıvan şəhəri, Babək və Şahbuz rayonlarının yük əməliyyatlarının yerinə yetirilməsində bilavasitə mərkəz rolunu oynayır. Ümumiyyətlə, muxtar respublika daxilində dəmiryolu ilə daşınan ümumi yükün 37%-i bu stansiyanın payına düşür. Bu da ondan irəli gəlir ki, muxtar respublika daxilində istehsal edilən ümumi məhsulun 60-70%-i yuxarıda qeyd olunan şəhər və rayonların payına düşdüyündən, yükdaşımada həmin stansiyanın xüsusi çəkisi yüksəkdir. Muxtar respublikada 60-80 km və daha çox aralı məsafələrdə xalq təsərrüfatı yüklərinin mərkəzləşdirilmiş qaydada dəmiryolu stansiyasına daşınması səmərəli hesab edilir. Bu məsələnin həlli bir tərəfdən vaqonların yük altında həddindən artıq dayanması hallarını aradan qaldırmaqla səmərəsiz dayanmalara sərf olunan xərclərin aradan qaldırılmasına, digər tərəfdən məhsulların qısa vaxt ərzində istehlakçılara çatdırılmasına zəmin yaradır.

İldə bir milyon ton yük ötürmək imkanlarına malik olan Culfa dəmiryolu stansiyası muxtar respublika daxilində yükdaşıma əməliyyatları yerinə yetirməklə bərabər, İran dövlətinə dəmiryolu ilə yüklərin ötürülməsində tənzimləyici rola malikdir.

Başbaşı stansiyası vasitəsilə Naxçıvan duz mədənlərində istehsal edilən duzun birbaşa vaqonlara yüklənməsi və oradan müxtəlif regionların istehlakçılarına göndərilməsi üçün əlverişli şərait mövcuddur. 90-cı illərdə Naxçıvan duz mədənlərindən 100 min tondan çox duz hasil edilirdi. İstehsal edilən duz yerli tələbatı ödəməklə yanaşı, həmin stansiya vasitəsilə müxtəlif regionlara göndərilirdi. Qeyd edək ki, Başbaşı stansiyası muxtar respublika üçün strateji əhəmiyyət kəsb edən stansiyalar qrupuna daxil edilir [3].

Muxtar respublikanın şərq qurtaracağında yerləşən Ordubad rayonunun yük əməliyyatlarının yerinə yetirilməsində Ordubad dəmiryolu stansiyası mühüm əhəmiyyət kəsb edir. Muxtar respublika ərazisində daşınan yüklərin cəmi 15%-i bu stansiyanın payına düşür.

Gələcəkdə yük axınlarının intensivləşdirilməsini nəzərə alaraq yuxarıda adlarını sadaladığımız stansiyalarda beynəlxalq normalara uyğun olaraq tikinti işlərinin aparılması tələb olunur. Məhz bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında dəmiryolu nəqliyyatı sisteminin 2011-2015-ci illər üzrə inkişaf proqramı” Ali Məclis sədri tərəfindən zamanında atılmış addım kimi dəyərləndirilə bilər. Ali Məclis sədrinin diqqət və qayğısının bariz nümunəsi olan “Naxçıvan Muxtar Respublikasında dəmiryolu nəqliyyatı sisteminin 2011-2015-ci illər üzrə inkişaf proqramı”na uyğun olaraq mühüm dəmiryolu qovşağı olan Culfa stansiyasında Yük və Sərnişin Daşımaları İdarəsinin inzibati binası, Culfa Lokomotiv Deposu, Lokomotiv briqadaların idarə edilməsi mərkəzi və Radio-rabitə sex binası əsaslı təmir edilərək istifadəyə verilmiş, dəmiryolu keçidləri yenidən qurulmuş və yeni dəmiryolu keçidləri salınmışdır. 2018-ci ildə muxtar respublikanın dəmiryolu təsərrüfatı 8 yeni sərnişin vaqonu ilə təmin olunmuş, Ordubad dəmiryolu sərnişin vağzalı binasının, Ordubad yol sahəsinin inzibati binasının və 4 saylı yol məntəqəsi binasının tikintisi, Ordubad Stansiyası idarəetmə mərkəzinin əsaslı təmiri başa çatdırılmışdır [4]. Həyata keçirilən layihələrin uğurlu nəticəsidir ki, 2004-cü illə müqayisədə 2019-cu ildə dəmiryolu nəqliyyatı vasitəsilə həyata keçirilən yük daşımalarının həcmi 29,5 dəfə artmışdır. Başqa sözlə desək, muxtar respublikada dəmiryolu nəqliyyatı vasitəsilə həyata keçirilən yük daşımalarının həcmi 2004-cü ildə 9,6 min ton olmuşdursa, bu rəqəm 2019-cu ildə təxminən 29,5 bənd artaraq 283,5 min ton həcmində olmuşdur.

Naxçıvan Muxtar Respublikasının istər daxili, istərsə də xarici-iqtisadi əlaqələrinin inkişafında birinci yeri avtomobil nəqliyyatı tutur. Azərbaycan üzrə ümumi avtomobil yollarının 5,6%-i muxtar respublikanın payına düşür. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında bir sıra xüsusiyyətlərinə görə avtomobil nəqliyyatı digər nəqliyyat növlərindən fərqlənir. Birincisi, istənilən dağlıq ərazilər üçün avtomobil nəqliyyatı çevikliyinə, intensiv yükdaşınmasına görə digər nəqliyyat növlərindən üstündür. İkincisi, avtomobil nəqliyyatı rayon mərkəzləri ilə kənd yaşayış məntəqələri arasında əlaqələrin və sosial-iqtisadi inkişafın formalaşmasında, yük əməliyyatlarının yerinə yetirilməsində mühüm rol oynayır. Avtomobil nəqliyyatı son illərdə dünya ölkələri arasında iqtisadi əlaqələrin inkişafında və formalaşmasında mühüm əhəmiyyət kəsb etdiyindən geniş miqyasda istifadə olunmaqdadır. Son 15 ildə (2004-2019-cu illər ərzində ) Naxçıvan Muxtar Respublikasında 2027,2 km uzunluğunda yeni avtomobil yolları salınmış və ya əsaslı təmir olunmuşdur. Aparılan təhlil göstərir ki, muxtar respublika üzrə ümumi avtomobil yollarının 22,8%-i Babək, 31,5%-i Şərur və Kəngərli, 16,2%-i Ordubad, 14,4%-i Culfa, 14,4%-i Şahbuz rayonunun payına düşür. Əraziyə və əhaliyə görə avtomobil yolları ilə təmin olunma səviyyəsinə görə inzibati rayonlar bir-birindən fərqlidir. Naxçıvan Muxtar Respublikası üzrə hər 100 kv.km əraziyə 25,1 km, hər 1000 nəfərə isə 4,9 km avtomobil yolu düşür. Ərazinin və əhalinin nəqliyyatla təmin olunması iqtisadi rayon daxilində mövcud təbii və əmək ehtiyatlarının istehsal dövriyyəsinə cəlb olunmasına, istehsal sahələrinin yaranmasına və bu zəmin üzərində iqtisadi əlaqələrin formalaşmasına təsir göstərən əsas amillərdən biri kimi qiymətləndirilir. Eyni zamanda hər 100 kv.km əraziyə düşən avtomobil yollarının uzunluğuna görə ən yüksək göstərici Şərur rayonunda (33 km), ən aşağı göstərici isə Şahbuz rayonunda (17,8 km) müşahidə edilir. Hər 1000 nəfər əhaliyə gəldikdə isə Babək rayonuna 3,2 km yol düşür, qalan rayonlarda 8-10 km təşkil edir.

Naxçıvanın iqtisadi əlaqələrinin intensiv inkişafında mövcud yolların örtük quruluşu mühüm əhəmiyyət kəsb edir. Məhz bu baxımdan yol təsərrüfatının yenidən qurulmasında əsas amil olan keyfiyyətli asfalt istehsalı üçün möhkəm zəmin yaradılmış, müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodları istifadəyə verilmişdir. Bütün bu qeyd olunanlarla yanaşı, muxtar respublikada yol-nəqliyyat kompleksinin yenilənməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müvafiq sərəncamlar imzalanmışdır. İmzalanmış sərəncamlara əsasən, Culfa və Kəngərli rayonlarının tarazlaşdırılmış və dayanıqlı sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 5 milyon manat, o cümlədən Culfa rayonunda uzunluğu 57,6 km olan, 25 min nəfər əhalinin yaşadığı 20 kəndi əhatə edən Çeşməbasar-Boyəhməd avtomobil yolunun yenidən qurulması üçün 3 milyon manat, Kəngərli rayonunda uzunluğu 39,2 km olan, 12 min nəfər əhalinin yaşadığı 5 kəndi əhatə edən Naxçıvan-Sədərək magistralı- Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolunun yenidən qurulması üçün 2 milyon manat, Babək rayonunda 18 min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Hacıvar-Vayxır-Sirab avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 6,3 milyon manat, Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması məqsədi ilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ilkin olaraq 5 milyon manat və müvafiq yolda yenidənqurma işlərinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə əlavə olaraq, 5 milyon manat vəsait ayrılmış və müvafiq işlər başa çatdırılmışdır. Başa çatdırılaraq istifadəyə verilən ümumi avtomobil yollarının 16,3%-i asfalt-beton, 34,9%-i qara örtüklü, 24,6%-i çınqıl, 24,2%-i isə qrunt yollardan ibarətdir. Asfalt örtüklü yolların 43,7%-i Şərur, 20,7%-i Culfa, 19,2%-i Ordubad, 16,4%-i Babək rayonunun payına düşür. Son illərdə İran və Türkiyə ilə iqtisadi əlaqələrin geniş miqyasda inkişaf etməsi magistral avtomobil yollarında yenidənqurma işlərinin aparılmasına şərait yaratmışdır. Bu istiqamətdə həyata keçirilən ən böyük layihələrdən biri Culfa-Orbubad

magistral avtomobil yolunun tikintisidir. Culfa-Orbubad magistral avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 may tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 30 milyon manat vəsait ayrılmış və avtomobil yolunun yenidən qurulması işləri hazırda davam etdirilir. Muxtar respublikanın rayon və kənd yerlərində avtomobil yollarının müasir tələblər səviyyəsində qurulması avtomobil təsərrüfatlarının fəaliyyətinin yaxşılaşdırılmasına, məhsul itkisinin azalmasına səbəb olur. Yeni və hamar yollarda yüklərin daşınma sürəti artır və yanacaq məsrəfinə qənaət edilir [5, səh. 293-296].

Muxtar respublikada yol-nəqliyyat kompleksinin yenilənməsi istiqamətində atılan addımlar və həyata keçirilən layihələrin nəticələri öz əksini cədvəl 1-də tapmışdır.

***Cədvəl 1.*** *Avtomobil nəqliyyatı*

| İllər / Göstəricilər | 2004 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Yük daşınması, min ton | 6185,3 | 12413,7 | 13622,8 | 14976,0 | 15464,2 | 15803,6 | 16023,6 | 16246,4 | 16495,6 | 16671,5 |
| Sərnişin daşınması, min nəfər | 37.976,5 | 80222,2 | 87055,3 | 94825,2 | 96525,8 | 97755,5 | 99701,7 | 101508,6 | 103513,7 | 104777,6 |

***Qeyd:*** *2004-cü il tərəfimizdən baza ili kimi götürülmüşdür.*

Son 15 ildə muxtar respublikada avtomobil nəqliyyatı vasitəsilə həyata keçirilən yük və sərnişin daşınmalarına nəzər yetirdikdə görürük ki, 2004-cü illə müqayisədə 2019-cu ildə avtomobil nəqliyyatı vasitəsilə həyata keçirilən yük daşımalarının həcmi 2,6 dəfə artmışdır. Başqa sözlə desək, muxtar respublikada avtomobil nəqliyyatı vasitəsilə həyata keçirilən yük daşımalarının həcmi 2004-cü ildə 6185,3 min ton olmuşdursa, bu rəqəm 2019-cu ildə təxminən 2,6 dəfə artaraq 16671,5 min ton həcmində olmuşdur. Sərnişin daşınmalarına baxdıqda isə, 2004-cü illə müqayisədə 2019-cu ildə avtomobil nəqliyyatı vasitəsilə daşınan sənişinlərin sayının 2,7 dəfə artdığını görürük. Apardığımız təhlildən belə məntiqi nəticəyə gəlmək olar ki, istər təsərrüfat subyektləri, istərsə də region əhalisi tərəfindən avtomobil nəqliyyatının xidmətlərindən istifadə iqtisadi baxımdan daha sərfəli hala gəlmişdir.

Qeyd edək ki, yerli əhəmiyyətə malik avtomobil yollan istehsal sahələrinin inkişafında, təbii resursların istehsal dövriyyəsinə cəlb olunmasında, kənd yaşayış məskənləri ilə rayon mərkəzləri arasında, həmçinin rayondaxili və rayonlararası əlaqələrdə, sənaye və kənd təsərrüfatı məhsullarının daşınması zamanı baş verən itkilərin həcminin azaldılmasında mühüm əhəmiyyət kəsb edir.

Muxtar respublikanın iqtisadi əlaqələrində mühüm rol oynayan nəqliyyat sahələrindən biri də hava nəqliyyatıdır. 1991-ci ildən bəri Naxçıvanın blokada şəraitində olması hava nəqliyyatından daha səmərəli istifadə etmək zərurəti doğurmuşdur. 1974-cü ildə ümummilli lider Heydər Əliyevin qayğısı ilə tikilmiş Naxçıvan Hava Limanında hazırda Naxçıvan-Bakı, Naxçıvan-Gəncə, Naxçıvan-İstanbul istiqamətində uçuşlar həyata keçirilir. Heydər Əliyevin adını daşıyan Naxçıvan Beynəlxalq Hava Limanının məhz ulu öndərin təşəbbüsü ilə 2002-ci ildə yenidən qurulması və genişləndirilməsinə başlanması, 2004-cü il mayın 12-də istifadəyə verilməsindən sonra onun həm sərnişin daşınma, həm də yeni beynəlxalq əlaqələr saxlama imkanları genişlənmişdir. Yenidənqurma işlərindən sonra hava limanının illik sərnişin və yük daşıma dövriyyəsi xeyli artmış, təyyarə uçuşlarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə "Şərq" və "Qərb" terminalları istifadəyə verilmiş, hava limanının xidmətindən istifadə edən sərnişinlərin sayı 600 nəfərə çatdırılmışdır. Naxçıvan Beynəlxalq Hava Limanının mövcud imkanlarının genişləndirilməsinin nəticəsidir ki, 2004-cü illə müqayisədə 2019-

cu ildə hava nəqliyyatı vasitəsilə həyata keçirilən yük daşımalarının həcmi 1,1 dəfə artmışdır. Başqa sözlə desək, muxtar respublikada hava nəqliyyatı vasitəsilə həyata keçirilən yük daşımalarının həcmi 2004-cü ildə 5,1 min ton olmuşdursa, bu rəqəm 2019-cu ildə təxminən 1,1 dəfə artaraq 6,1 min ton həcmində olmuşdur. Sərnişin daşımalarına baxdıqda isə, 2004-cü illə müqayisədə 2019-cu ildə hava nəqliyyatı vasitəsilə daşınan sənişinlərin sayının 1,2 dəfə artdığını görürük. Belə ki, muxtar respublikada hava nəqliyyatı vasitəsilə daşınan sərnişinlərin sayı 2004-cü ildə 266,4 min nəfər olmuşdursa, bu rəqəm 2019-cu ildə 1,2 bənd artaraq 315,9 min nəfər olmuşdur.

Naxçıvan Muxtar Respublikasında nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində atılan addımların məntiqi nəticəsi olaraq regionun tranzit imkanlarının genişlənməsi muxtar respublikanın mövcud blokadadan çıxması üçün yeni alternativlər yaradır. Belə ki, "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinin məntiqi nəticəsi olaraq Qars-Naxçıvan dəmiryolu xəttinin reallaşması Naxçıvan Muxtar Respublikasına dəmiryolu vasitəsilə beynəlxalq nəqliyyat dəhlizlərinə birbaşa çıxış əldə edərək tranzit daşımaların mühüm mərkəzinə çevrilməsinə səbəb olacaqdır. Layihənin həyata keçirilməsi ilə Naxçıvan Muxtar Respublikası Londondan Şanxayadək açılmış olan Şərq-Qərb koridorunun bir nöqtəsinə çevriləcəkdir. Bu da muxtar respublikanın ixrac potensialının yüksəlməsinə, yeni yaradılan sənaye mallarının, kənd təsərrüfatı məhsullarının dünya bazarlarına çıxarılmasına əlavə imkanlar yaradacaqdır. "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinin həyata keçirilməsi və məntiqi nəticəsi olaraq Qars-Naxçıvan dəmiryolu xəttinin çəkilməsi muxtar respublikada dəmiryolu nəqliyyatının daha da canlanması, yeni iş yerlərinin açılması, işsizlik probleminin həll olunması, əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsi, nəticə etibarilə maddi rifah səviyyəsinin yaxşılaşması ilə yanaşı, "Yoxsulluğun aradan qaldırılması" haqqında Dövlət Proqramına da öz bəhrəsini verəcəkdir.

"Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinin məntiqi nəticəsi olaraq Qars-Naxçıvan dəmiryolu xəttinin reallaşmasında Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının mənfəətləri olduqca əvəzsizdir. Burada, ilk növbədə, Sovetlər İttifaqının dağılması və Ermənistanın təcavüzü nəticəsində itirilən və sərtləşən nəqliyyat kommunikasiyalarına alternativlərin təmin edilməsi, qardaş Türkiyə ilə genişlənən iqtisadi əlaqələrin möhkəmləndirilməsi, çox strateji əhəmiyyət kəsb edən Azərbaycandan ərazicə ayrı düşmüş Naxçıvan Muxtar Respublikası ilə yeni və əlverişli bağlantıya nail olunması strategiyası dayanır. "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinin məntiqi nəticəsi olaraq Qars-Naxçıvan dəmiryolu xəttinin həyata keçirilməsi Azərbaycanın milli lideri Heydər Əliyevin "bir millət iki dövlət" prinsipindən irəli gələn bitməyən inteqrasiyanı daha da möhkəmləndirəcək, Azərbaycanla Türkiyə arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilənin reallaşmasının əyani bir təzahürü olacaqdır.

Apardığımız araşdırmalar onu göstərir ki, Naxçıvan Muxtar Respublikasında nəqliyyat infrastrukturunun bütün sahələrinin yenidən qurulması və normal fəaliyyətinin təmini regionda məhsuldar qüvvələrin artmasına, ictimai məhsulun həcminin çoxalmasına, təkrar istehsal prosesinin genişlənməsinə və iqtisadi artımın yaranmasına təsir edir ki, bunun da nəticəsində muxtar respublikada tarazlaşdırılmış və dayanıqlı iqtisadi inkişaf bərqərar olur.

## ƏDƏBİYYAT


1. Məmmədov H.Ə. Davamlı iqtisadi inkişaf: infrastruktur problemləri. Naxçıvan: Əcəmi, 2017, 240 s.
2. http://www.statistika.nmr.az/x_news/index_news.php?par=news/2019/index_43.shtml
3. Qasımov E. Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının ərazi təşkili və inkişafının coğrafiyası. Bakı: Təhsil, 2011, 192 s.
4. Naxçıvan Muxtar Respublikası – 95. Statistik məcmuə. Naxçıvan: Əcəmi, 2019, 184 s.
5. Alıyev İ.H. Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri. Bakı: Elm, 2008, 391 s.

## SUMMARY

**Jeyhun Mahmudov**

## INFRASTRUCTURAL PROBLEMS OF A BALANCED AND SUSTAINABLE ECONOMIC DEVELOPMENT OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The article examines the influence of infrastructure, especially the transport complex, on the balanced and sustainable socio-economic development of the Nakhchivan Autonomous Republic, analyzes the implemented projects to modernize the transport infrastructure and intensify freight traffic in the future and their results. At the same time, at the macroeconomic level, the dependence of the leading sectors of the economy of the Autonomous Republic was investigated, and at the microeconomic level - the economic activity of enterprises and organizations on the development of transport infrastructure.

The scientific article also investigated the current situation in passenger and freight traffic in 2004-2019, commented on the growth trends and provided estimates of the transit possibilities of the region.

***Key words:*** *Nakhchivan Autonomous Republic, socio-economic development, balanced and sustainable development, transport infrastructure, freight and passenger traffic*



## РЕЗЮМЕ

**Джейхун Махмудов**

## ИНФРАСТРУКТУРНЫЕ ПРОБЛЕМЫ СБАЛАНСИРОВАННОГО И УСТОЙЧИВОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ НАХЧИВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В статье рассматривается влияние инфраструктуры, особенно транспортного комплекса, на сбалансированное и устойчивое социально-экономическое развитие Нахчыванской Автономной Республики, анализируются реализованные проекты по модернизации транспортной инфраструктуры и интенсификации грузопотоков в будущем и их результаты. При этом на макроэкономическом уровне была исследована зависимость ведущих секторов экономики автономной республики, а на микроэкономическом - хозяйственная деятельность предприятий и организаций от развития транспортной инфраструктуры.

В научной статье была также исследована текущая ситуация в пассажирских и грузовых перевозках в 2004-2019 гг., комментируются тенденции роста и даются оценки транзитных возможностей региона.

***Ключевые слова:*** *Нахчыванская Автономная Республика, социально-экономическое развитие, сбалансированное и устойчивое развитие, транспортная инфраструктура, грузовые и пассажирские перевозки*


---

***Məqalə daxil olmuşdur:*** *03 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *11 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 91-94
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 91-94
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 91-84

**FLORA KƏRİMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*flora.kerimova.80@mail.ru*

**UOT: 338.48; 796.5**

# TURİZMİN İNKİŞAFINDA YERLİ ÖZNÜNÜİDARƏLƏRİN ROLU

*Turizmin inkişafında yerli özünüidarələrin rolu və standartı davamlı olmalıdır. Yerli özünüidarəetmə orqanları vasitəsilə ölkəmizdə turizmin inkişafına dəstək vermək olar. Yerli problemlərin həlli baxımından ən vacib orqan bələdiyyə olmasına baxmayaraq, xüsusilə turizmdə öz vəzifələrini özəl sektora həvalə etmiş olaraq qarşımıza çıxır. Bunun səbəbi isə bələdiyyələrin qismən maliyyə problemi bağlı olsa da, digər tərəfdən isə bir qism işlər var ki, bunun üçün sadəcə bələdiyyələr təşəbbüskarlıq göstərməli və müəyyən təkliflər paketi hazırlamalıdırlar.*

*Xarici ölkələrin qabaqcıl təcrübələrindən faydalanmaqla bu sahənin inkişafına yeni, milli gəlirlərin artmasına, beynəlxalq əlaqələrin genişlənməsinə, yerli əhalinin rifahının yaxşılaşdırılmasına nail olmaq olar. Turizm regional xarakter daşıdığı üçün turizmin inkişafında bələdiyyələrin rolu əvəzedilməzdir.*

***Açar sözlər:*** *yerli özünüidarə, bələdiyyə, yerli əhali, turizm, inkişaf*

Yerli özünüidarələr 1985-ci ildə bu qurumlar haqqında Avropa Xartiyasında "yerli özünüidarə dedikdə, yerli özünüidarə orqanlarının qanun çərçivəsində, məsuliyyəti öz üzərinə götürərək və yerli əhalinin mənafeyi naminə dövlət işlərinin böyük hissəsini nizama salmaq və onu idarə etmək hüququ və real bacarığı başa düşülür".

Azərbaycan Respublikasının 1995-ci il 12 noyabrda ümumxalq referendumu ilə qəbul edilmiş Konstitusiyasının 142-ci maddəsində birmənalı olaraq Azərbaycanda yerli özünüidarəetmənin bələdiyyələr tərəfindən həyata keçirildiyi göstərilir.

Azərbaycan Respublikasında yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək və yerli əhalinin mənafeyi naminə Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsinə uyğun olaraq dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir. Bu hüququ qanunla müəyyən edilmiş qaydada ümumi, bərabər, birbaşa seçki hüquqları əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilmiş bələdiyyə üzvlərindən ibarət nümayəndəli kollegial orqanlar (bələdiyyələr) və ya vətəndaşların yığıncaqları həyata keçirirlər. Bələdiyyələr öz vəzifələrini yerinə yetirmək məqsədi ilə onların qarşısında məsuliyyət daşıyan, daimi fəaliyyət göstərən icra strukturları yarada bilərlər.

Yerli özünüidarəetmədə qarşıya qoyulan məqsədə çatmaq, yerli ehtiyyat mənbələrinin, insan resursların istifadəsinin səmərəliliyinin artırılması üçün planlaşdırma, nəzarət kimi funksiyaları özündə birləşdirir. Yerli özünüidarələr (bələdiyyələr) aid olduğu ərazini çox yaxşı tanıyan problemlərindən xəbərdar olan və həmin problemləri həll etməyə qadir olan qurumlardır. Xalqın seçilmiş nümayəndələri olan yerli özünüidarəetmə orqanları və yerli əhali bölgələrimizin gözəlliyini daha yaxşı bildiyi üçün onların birlikdə fəaliyyəti ölkəmizin daha az tanınan turizm bölgələrinin inkişafına təsir görtərməklə, yaddaqalan turizm bölgəsi kimi tanınmasını təmin edə bilərlər. Turizm Sektoru Strategiyasında göstərildiyi kimi yerli əhalinin turizmə yönəlməsi yerli əhalinin qismən işsizlik problemlərinin aradan qaldırılmasına səbəb olan amillərdəndir. Bələdiyyələr yerli əhali üçün işsizliyi azaltmaq, təhlükəsiz və sağlam bir mühit təmin etmək məqsədilə təşəbbüslər irəli sürə bilərlər. İlk olaraq həmin bölgələrdə turizmin inkişafı üçün orada müvafiq resurslar mövcudluğu yaradılmalıdır. Əgər hər hansı məkan lazımi resurslara malikdirsə, orada turizmin inkişaf etmə imkanı

yaranır; bu isə həmin məkana və oranın əhalisinə əhəmiyyətli mənfəət gətirə bilər. Yerli əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, habelə təbii mühit və mədəni irsin qorunması məqsədilə turizmin planlaşdırılması və idarəsi, onun uğurlu inkişafı üçün əsas şərtlərdəndir (1). Yerli səviyyədə turizmin inkişafının bir sıra faydaları mövcuddur:

1. Yeni iş yerləri və müəssisələrin açılması;
2. Əlavə gəlir və qazancların əldə olması;
3. Yerli mallar üçün yeni bazarların yaranması;
4. İnfastrukturun, habelə kommunal obyekt və xidmətlərin modernləşdirilməsi;
5. Yeni ixtisas və texnologiyaladan istifadə;
6. Ətraf mühit və mədəni irslə bağlı problemlərin və onların qorunması zərurətinin cəmiyyət tərəfindən daha dərin anlaşılan olması;
7. Torpaqdan istifadəyə yeni münasibət.

Yerli idarəetmə həm yerli sakinlərimizin, həm də qonaqlarımızın qarşılaşdığı mühitin təmiz, təhlükəsiz, sağlam, əlçatan və təsirli olmasını təmin etməkdə əsas rola malikdir. Turizm məkanı olaraq uğur qazanmaq, bir yerin sosial, maliyyə və təbii kapitalını yerli icmanın ümumi baxışı, məqsəd və hədəflərinə doğru səfərbər etməyi tələb edir. İnteqrasiya İnkişaf Planı bu ümumi baxış və hədəflərin uyğunlaşdırılmasında əsas vasitədir.

Yerli turizm sektorunun inkişafını asanlaşdırmaq və milli turizm strategiyasını dəstəkləmək üçün bələdiyyələri kapitallaşdırmaq, bütün səviyyələrdə dövlət və digər maraqlı tərəflərdən razılığın bir səy və tərəfdaşlığı mühüm rol oynaya bilər. Bu səylər mərkəzləşdirilməli və konsolidasiya edilməli, eyni zamanda bələdiyyələrdəki fərqləri qarşılayacaq qədər çevik olmalıdır. Turizm prioritetlərimizi məkan şəklində göstərmək və buna uyğun mənbələr ayırmaq bacarığımızı genişləndirməliyik.

Azərbaycan Respublikasının prezidentinin 2011-ci il 20 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında 2011-ci ilin "Turizm ili" elan edilməsi ilə bağlı Tədbirlər Planının bəzi maddələrinin icrasında müvafiq dövlət orqanları ilə bərabər, yerli özünüidarə orqanlarının - bələdiyyələrin də rolu müəyyənləşdirilib (2).

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsində qeyd olunduğu kimi Azərbaycanın bir çox turizm növləri üzrə potensialı vardır və həmin potensialın reallaşdırılması üçün dövlətin, eləcə də özəl sektorun davamlı dəstəyi vacib faktorlardandır (3).

Turizmin inkişafı dövlət və özəl qurumların, turizm şirkətlərinin, eyni zamanda bələdiyyələrin də bu işə töhfəsindən asılıdır. Azərbaycanda yerli özünüidarə qurumları turizm sahəsinin inkişafında bütün yerli məsələlərin həllində ən yaxşı icraçı və tərəfdaş ola bilərlər. Azərbaycanda turizmin inkişafında bələdiyyələr də maraqlı olmalıdırlar.

7 dekabr 1999-cu il tarixli "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununda bələdiyyələrin maliyyə vəsaitləri ilə maliyyə vəsaitləri anlayışları eyniləşdirilmişdir. "Bələdiyyələrin maliyyənin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində yerli maliyyənin strukturu müəyyənləşdirilib; həmin maddəyə əsasən bələdiyyə maliyyəsinin iqtisadi əsaslarını bələdiyyə əmlakı, bələdiyyə torpaqları, yerli büdcə və büdcədənkənar fondlar, bələdiyyənin istehsal, xidmət və digər iqtisadi fəaliyyəti təşkil edir. Qanunvericilikdə bələdiyyə maliyyəsinin əsaslarını təşkil edən iqtisadi fəaliyyət növlərinə hədd qoymayaraq, onun genişləndiriləsinə imkan verilir [4].

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Qanunun 7-ci maddəsi və eləcə də "Yerli vergi və ödənişlər haqqında" Qanunun 9-cu maddəsi yerli ödənişlərin tərkibi kimi, bələdiyyə ərazisində mehmanxana, sanatoriya, kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödənişi də nəzərdə tutur: "Bələdiyyələr həmin ödənişləri öz büdcələrinə daxil edə bilərlər. Təbii ki, hazırda Azərbaycanda turizmin inkişafı üçün daha çox perspektivlərin açıldığı bir şəraitdə bələdiyyələr turistlərin yerli sosial xidmətlərdən yararlana bilməsi mümkün imkanlardan istifadə etməlidirlər. Bələdiyyələr bir sıra yerli xidmətlər göstərmək səlahiyyətinə malikdirlər. Bu, bələdiyyə ərazisinin tullantılardan təmizlənməsi, yaşıllaşdırılması, parkların salınması və s. bu kimi fəaliyyətləri əhatə edir. Ona görə də

bələdiyyələr bu cür yerli xidmətlərin keyfiyyətini yaxşılaşdırmaqla həm də turizmin inkişafı üçün şərait yaratmış olurlar. Bu isə gələn turistlərin sayına müsbət təsir göstərir. Turistlərin sayının çox olması isə sanatoriya, kurort, mehmanxana və turist xidməti göstərən şəxslərin vəsaitlərinin artmasına, bu da öz növbəsində bələdiyyələrə daxil olan vəsaitlərin artmasına gətirib çıxarır. Bu baxımdan bələdiyyələr həm turizmin inkişafında maraqlıdırlar, həm də bu inkişafa yerli səviyyədə şərait yarada biləcək qurumlardan biridir".

Bələdiyyələrin səlahiyyətlərində və maliyyəsində mövcud olan bəzi problemlərin həlli onların turizm sahəsinə marağını daha da artırar: "Yerli özünüidarə sisteminə malik olan əksər ölkələrdə əhaliyə ictimai xidmətlərlə bağlı, demək olar ki, bütün səlahiyyətlər bələdiyyələrdədir. Onların bu sahədə səlahiyyətləri də dəqiqdir, kifayət qədər maliyyə mənbələri də var. Ona görə də bəzi fəaliyyət növləri ilə bağlı lisenziyaların verilməsi də yerli özünüidarə qurumlarının səlahiyyətindədir. Yol infrastrukturu, su təchizatı, kanalizasiya xidməti, məişət tullantılarının toplanması və nəql olunması ilə bağlı səlahiyyətlər və s. bələdiyyələrə verilib. Təbii ki, ölkəmizdə bələdiyyələrin səlahiyyətləri artırılarsa, o cümlədən maliyyə potensialı güclənərsə, bu sahənin inkişafında əhəmiyyətli rol oynaya bilərlər".

Bələdiyyələr torpaq paylarına malikdir, onlar müəyyən yerli vergilər alırlar, sosial xidmətlər göstərirlər. Bu baxımdan onların turizmin inkişafına birbaşa aidiyyəti vardır və turizmin inkişafında bələdiyyələrin rolu vacibdir.

Yerli özünüidarəetmə üzrə beynəlxalq təcrübə göstərir ki, bir çox ölkələrdə yerli özünüidarəetmədə bələdiyyələr böyük rol oynayır. Turizmin inkişafında bələdiyyələrin rolu ilə bağlı məsələlər Türkiyə təcrübəsinə nəzərən qeyd edə bilərik ki, Türkiyədə bələdiyyələr turizmin inkişafına çox böyük töhfə vermək imkanına malikdirlər: **"Bələdiyyələr müstəqil formada öz ərazisində müəyyən turizm təsisatı yaradıb, gəlir gətirmək, sakinlər üçün yeni iş yerləri yaratmaq səlahiyyətlərinə malikdirlər. Bu təcrübənin ölkəmizdə reallaşması həm regional, həm də yerli səviyyədə turizmin inkişafını təmin etməkdir.**

Türkiyədə bələdiyyələr turizmlə bağlı illik müəyyən kampaniyalar həyata keçirirlər. Şirkətlərin, turizm xidmətləri təşkil edən müəssisələrin, nəqliyyat firmalarının bələdiyyə ərazisində filiallarını açmalarına, öz xidmətlərini təklif etmələrinə köməklik göstərirlər, onlara öz səlahiyyətləri daxilində müəyyən güzəştlər tətbiq edirlər. Bu baxımdan ölkəmizdə də bələdiyyələrin rolu artırılmalıdır. Digər tərəfdən isə bələdiyyələr özləri bu işdə təşəbbüskar olmalıdır. Onların ərazilərində turizmin inkişafı ilə bağlı hər hansı tədbir həyata keçirilirsə, bələdiyyələr müşahidəçi qismində deyil, aktiv rol oynamalıdırlar.

Nəticə olaraq, ölkəmizdə son dövrlərdə müvafiq icra hakimiyyəti orqanı, bələdiyyə üzvləri və qulluqçularının peşəkarlıq səviyyəsinin artırılması məqsədilə xarici dövlətlərin yerli özünüidarəetmə orqanları, onların assosiasiyaları və ixtisaslaşdırılmış təşkilatları ilə təcrübə mübadiləsi təşkil edilir. Qanunvericiliyə uyğun olaraq bələdiyyələrə qismən geniş səlahiyyətlərin verilməsi, həmçinin maliyyə dəstəyini artırmaqla yerli turizmin inkşafınada bələdiyyələrin fəaliyyətinə müsbət təsir göstərmək olar.

Bələdiyyələrin turizmin inkişafına lazımi töhfənin verməməsi, onların səlahiyyətlərinin və resurslarının qismən azlığı ilə əlaqələndirilsə də bu bələdiyyələr üçün əsas olmamalıdır.

Fkirimizcə, bələdiyyələr də bu işdə təşəbbüskarlıq göstərməli və yeni təkliflər paketi hazırlamalıdırlar. Çünki bu bələdiyyələrin fəaliyyətində turizmin inkişafının təkmilləşdirilməsi üçün çox faydalı ola bilər.

## ƏDƏBİYYAT

1. Turizmin davamlı inkişafı yerli planlaşdırma üzrə mütəxəssislər üçün vəsait. Bakı: 2012
2. https://president.az/articles/2818?locale=en
3. https://mida.gov.az/documents/Turizm_s%C9%99nayesinin_inki%C5%9Faf%C4%B1na_dair_strateji_yol_xeritesi.pdf
4. "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" AR Qanunu. Bakı: 1999

## SUMMARY

**Flora Karimova**

## THE ROLE OF LOCAL GOVERNMENTS IN THE DEVELOPMENT OF TOURISM

The role and standard of local self-government in the development of tourism must be sustainable. It is possible to support the development of tourism in our country through local self-government bodies. Despite the fact that the most important body in terms of solving local problems is the municipality, we are faced with the task of entrusting its responsibilities to the private sector, especially in tourism. The reason for this is partly due to the financial problems of municipalities, but on the other hand, there is some work that only municipalities need to take the initiative and prepare a package of proposals.

Taking advantage of the best practices of foreign countries, the development of this field can achieve the creation of new jobs, increase national incomes, expand international relations and improve the welfare of the local population.Due to the regional nature of tourism, the role of municipalities in the development of tourism is irreplaceable.

***Key words:*** *local self-government, municipality, local population, tourism*



## РЕЗЮМЕ

**Флора Каримова**

## РОЛЬ ОРГАНОВ МЕСТНОГО САМОУПРАВЛЕНИЯ В РАЗВИТИИ ТУРИЗМА

Роль и стандарты местного самоуправления в развитии туризма должны быть устойчивыми. Поддержать развитие туризма в нашей стране можно через органы местного самоуправления. Несмотря на то, что наиболее важным органом с точки зрения решения местных проблем является муниципалитет, перед нами стоит задача возложить его ответственность на частный сектор, особенно в сфере туризма. Причина этого частично связана с финансовыми проблемами муниципалитетов, но, с другой стороны, есть определенная работа, в которой только муниципалитеты должны проявить инициативу и подготовить пакет предложений.

Используя передовой опыт зарубежных стран, развитие этой области позволит создать новые рабочие места, увеличить национальные доходы, расширить международные связи Роль муниципальных образований в развитии туризма незаменима, поскольку туризм носит региональный характер.

***Ключевые слова:*** *местное самоуправление, муниципалитет, мест население, туризм, развитие.*



***Məqaləni çapa təqdim etdi:*** *İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *04 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *09 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 95-98
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 95-98
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 95-98

**ÜLKƏR HƏSƏNZADƏ**
*Naxçıvan Dövlət Universiteti*
*ulker.hasanzade89@gmail.com*

**UOT: 338.488**

# TUR PAKETLƏRİN PLANLANMASI VƏ HAZIRLANMASI

*Turoperator tərəfindən turizm məhsulunun hazırlanması, eyni zamanda bu məhsulun satışı da həyata keçirilir. Turizm təşkilatlarının fəaliyyəti zamanı məhsulların satışı iki satış kanalı ilə-şirkətdaxili kanallar və şirkətdən kənar kanallar vasitəsilə həyata keçirilir. Satışın daxili kanallarına turoperatorun filialları, nümayəndəlikləri daxildir. Kənar satış kanallarına isə vasitəçi turoperatorlar, turagentlər daxildir. Bəzən turoperator hazırladığı məhsulu yalnız öz gücünə güvənərək geniş miqyasda sata bilmir. Bu səbəbdən turoperator turagentlər şəbəkəsinin fəaliyyətindən istifadə etməklə turizm bazarında müəyyən mövqe tutur və məhsulunu daha geniş həcmdə satmaq imkanı əldə edir.*

***Açar sözlər:*** *Turoperator, turagent, tur paket, destinasiya, tur, turist*

Turizm məhsulu yaradan, yaxud alıb-satan, vasitəçilik fəaliyyəti göstərən turizm müəssisələri turizmin inkişafına birbaşa təsir göstərir. Bu cür birliklər ölkə və beynəlxalq səviyyədə fəaliyyət göstərir. Müxtəlif ölkələrdə turoperatorlar, turagentlər, bələdçilər, mehmanxana, restoran birlikləri və hətta turizm müəssisələrinin mənafeyini qoruyan vəkillərin, turizm fəaliyyəti barədə yazan jurnalistlərin və s. birlikləri mövcuddur. Hətta ayrı-ayrı turizm növləri üzrə birliklər də mövcuddur. Yaradılmış turizm firmaları beynəlxalq səviyyədə qruplaşaraq ölkələrarası, regional, beynəlxalq miqyasda turizmin davamlı inkişafına dəstək verir və əhəmiyyətli rol oynayır [1, s.332].

Turizm firması hər hansı bir firmada olduğu kimi, fəaliyyətinin təşkilinin spesifikası, həmçinin fəaliyyətin məqsəd və vəzifələrindən asılı olan, agent-operator profilli turizm müəssisəsi deməkdir. Turizm firmasının əsas məqsəd və vəzifələri - turistlərin tələbatına uyğun olan cəlbedici turizm məhsulunun yaradılması, eyni zamanda təklifin tələb səviyyəsində saxlanılması, məhsulun rəqabətə davamlılığının qorunmasından ibarətdir.

Bu təşkilatların əsas vəzifələri, xidmət tədarükçüləri ilə istehlakçı - turistlər arasında əlaqələrin yaradılmasından ibarətdir. Bu biznesin, spesifik turizm növüdür. Burada əsas şərt turizm bazarını, biznesi, onun inkişaf xüsusiyyətlərini peşəkarcasına bilən xidmət tədarükçülərinin düzgün seçimidir. Peşəkar xidmət tədarükçüləri-turoperatorlar tur paketin düzgün şəkildə təşkilinə və turistlərə çatdırılmasına nail ola bilir. Bunun üçün böyük həcmli ön hazırlıq tələb olunur [3, s.126].

Yaşayış, nəqliyyat, alış-veriş, görməli yerlər və bənzər xidmətləri birləşdirmək, gətirmək çox vaxt aparır. Buna görə də turoperatorlar ilk dəfə təşkil edəcəkləri turda, turun başlamasından ən az 18 ay əvvəl, tur paketin dizayn işlərinə başlamalıdırlar.

Turpaketin təşkili üç əsas mərhələdə-dizayn mərhələsi, əməliyyat mərhələsi və yoxlama mərhələsində qiymətləndirilə bilər.

Əməliyyatın özü iki mərhələdən ibarətdir: birincisi, turun reallaşmasından əvvəl həyata keçirilmiş fəaliyyətlər; ikincisi turun reallaşması zamanı həyata keçirilən fəaliyyətlər.

Tur paketlərin dizayn mərhələsi beş əsas başlıq altında araşdırıla bilər:
ilkin təhlil və ya mövcud vəziyyətin təhlili;
məhsul dizaynı;
qiymətləndirmə;
çatdırılması;
təqdimat.

Mövcud vəziyyət analizinin ilk və ən vacib addımı bazar araşdırmasıdır. Bu tədqiqat turoperator və ya başqa bir mütəxəsis qrum tərəfindən aparıla bilər. Turoperator tədqiqatın nəticələrindən istifadə edərək və lazım olduqda əlavə araşdırmalar edərək, turistik tələb analizi, bazarda rəqib müəssisələrin mövqeyi, paylama kanalları, keçmiş və potensial müştəriləri təhlil edir. Bu tədqiqatın nəticələrinə əsasən rəqib firmaların siyasəti, mövcud turlara daxil ediləcək destinasiyalar qiymətləndirilərək, hansı növ turların daha çox gəlir gətirəcəyinə qərar verilir. Eyni zamanda müştərilər müxtəlif xüsusiyyətlərinə görə araşdırılır. Bura müştərilərin maraqları, sosial vəziyyəti, yaş qrupları, ailə vəziyyətləri, onların alıcılıq qabiliyyəti daxil edilir və sonda bazar proqnozu verilir.

Məhsul dizaynı. Mövcud vəziyyətin təhlili tamamlandıqdan sonra tur paketin yaradılması üçün turun təyin olunduğu yer müəyyənləşdirilməli və digər tərkib hissələrin bir araya gətirilməsi üçün müxtəlif istiqamətli araşdırmalara başlamaq lazımdır.

Gediləcək yerlərdə, turist marşrutunda ilkin araşdırma apararkən ziyarət ediləcək bütün yerlər daxil olmaqla əldə ediləcək ərazi haqqında sistematik məlumatlar toplanmalıdır. Az sayda yeni (turlara açıq olmayan) istiqamətlər olduğundan tədqiqat apararkən məqsəd kəşf edilməmiş yerləri tapmaq, mövcud olanları isə daha maraqlı və fərqli xüsusiyyətləri ilə turistlərə təqdim etməkdir.

Bu mərhələdə bəzi meyarlar nəzərə alınmalıdır. Bunlara turistik yerlər, turun maya dəyəri və qiyməti, destinasiyanın əlçatanlığı, turizm obyektləri, xidmətləri və keyfiyyəti, destinasiyanın iqtisadi-sosial-siyasi sabitliyi və təhlükəsizliyi, destinasiya tərəfindən verilən məlumatlar, destinasiyadakı insanların qonaqpərvərliyi, destinasiyada ətraf mühitin keyfiyyəti, destinasiyanın imici və digər amillər aid edilir.

Təşkil ediləcək yeri təyin etdikdən sonra turun təşkili qaydalarına və tur proqramına qərar verilməlidir. Gediş tarixləri, turun müddəti, istifadə ediləcək nəqliyyat vasitələri və təyinatdakı tura daxil ediləcək yerləşmə imkanları, ziyarət ediləcək yerlər və digər xidmətlər kimi mövzularda daha ətraflı araşdırmalar edilməlidir.

Müşayiət turları hazırlarkən, bir gündə qət ediləcək məsafə, turistlər üçün ayrılacaq asudə vaxt, turistlərə alış-veriş üçün ayrılan boş vaxt və turistlər üçün yerləşdirmə obyektlərinin müəyyən olunması böyük əhəmiyyətə malikdir. Bir gündə gedilə biləcək yol, ümumiyyətlə, ərazinin quruluşuna və yolun keyfiyyətinə əsaslanır.

Tur proqramının intensivliyi optimal səviyyədə saxlanılmalı, ziyarət yerləri və tədbirlərin tur proqramına daxil edilərkən turistləri yormayacaq və daha faydalı olacaq turlar proqrama daxil edilməlidir.

Bütün bu ilkin tədqiqatlar tamamlandıqdan sonra seçilmiş və tur paketin tərkib hissələrini təşkil edəcək xidmətlər istehsal edən müəssisələrlə müqavilələr bağlanmalıdır.

Bu tənzimləmə üç fərqli müqavilə növünü nəzərdə tutur.

Fərdi müştəri müqavilələri: Sayı 1-10 arasındakı dəyişən müştərilərin eyni yerləşdirmə yerindən faydalanması üçün hazırlanmış müqavilələrdir.

Qrup müqavilələri: 11 və ya daha çox nəfərdən ibarət qrupların eyni yerləşdirmə obyektindən faydalanmaq imkanı əldə etməsi üçün edilən razılaşmalardır.

Kvota müqavilələri: ardıcıl olaraq eyni yaşayış obyektinə mütəmadi olaraq gələcək qruplar və ya fərdi müştərilərlə əlaqəli olaraq və ya otaqların müəyyən bir müddət istifadəsi tələb olunduqda hazırlanır. Zəmanətli kvota müqavilələri və zəmanətsiz kvota müqavilələri olaraq iki fərqli kvota müqaviləsi mövcuddur.

Zəmanətli kvota müqavilələrində müəyyən edilmiş otaq rezervasyonla bağlanılır və satılıb satılmamasına baxmayaraq, otaq qiymətləri ödənilir. Zəmanətsiz kvota müqavilələrində isə satış edilən vaxt rezervasyon aparılır və otaqlar həqiqətən satılan vaxt ödəmə edilir. Zəmanətsiz kvota müqavilələri ən çox görülən müqavilə növüdür.

Turun başlanğıc tarixindən təxminən 12-14 ay əvvəl həyata keçirilən bu müqavilələr çox cəhətlidir və ümumiyyətlə, ödəmə şərtləri və kredit imkanları, ləğv qaydaları və otaq dəyişdirmə qaydaları və ad siyahıları kimi məsələləri əhatə edir.

Xaricə turlar təşkil edən turoperatorlar, turist gedəcəyi ölkədə hər hansı bir səyahət agentliyi ilə müqavilə bağlayaraq məhsulun ən yaxşı şəkildə istehsal və istehlak olunmasına kömək etməyini istəyə bilərlər [3, s.127].

Beləliklə, yerli agentlik nəqliyyat istisna olmaqla, digər xidmətlərin göstərilməsi üçün xidmət müqavilələrinin bağlanmasından və təyinatdakı bütün xidmətlərin göstərilməsindən məsuldur. Bu cür müqavilələr bağlayaraq, hər hansı bir problem olması halında məsuliyyət daşıması və müdaxilə etmə haqqının olması turoperatora böyük üstünlük təmin edir. Turoperatorlar yerli turizm agentlikləri ilə ancaq çox mərkəzli turlar təşkil etdikdə müqavilələr bağlayaraq əməkdaşlıq edir [2, s.59].

Qiymətləndirmə. Tur paketin proqramı təyin edildikdən və xidmət təminatçıları ilə müqavilələr bağlandıqdan sonar turun satış qiyməti formalaşmağa başlayır.

İlk növbədə turun dəyəri hesablanır. Bu xərclər sabit və dəyişkən xərclər olaraq iki qrupa bölünməlidir.

Hava nəqliyyatı, avtobus kirayəsi və tur bələdçisi və ya tur meneceri xidmətləri üçün edilən xərclər dəyişkən xərcləri təşkil edərkən; yaşayış, yemək və muzey giriş haqqı kimi adambaşına xərclər turun sabit xərcini təşkil edir.

Sabit və dəyişkən xərclər turla birbaşa əlaqəli məsrəflər olduğundan, birbaşa xərcləri təşkil edirlər. Bununla yanaşı, marketinq xərcləri, işçilərə ödənilən əmək haqqı və digər bəzi ümumi istehsal xərcləri kimi dolayı xərclər də mövcuddur. Birbaşa və dolayı xərclərin cəmi turun ümumi dəyərini təşkil edir. Bu xərclərə müəssisənin mənfəəti və pərakəndə satış komissiyası da əlavə edilərsə, turun satış qiyməti çıxır.

Sadə görünsə də, dəqiq bir hesablama ixtisaslı mütəxəssislərin çox ətraflı araşdırmaları və proqnozlaşdırma bacarıqlarını tələb edir. Bunun səbəbi tur qiymətini təyin edərkən kəmiyyət dəyərlərindən kənar bəzi keyfiyyət dəyərlərini nəzərə almağın zəruriliyidir. Bu dəyərləri rəqiblər tərəfindən təklif olunan məhsulun keyfiyyəti və qiyməti, istehlakçıların alıcılıq qabiliyyəti, tələbin intensivliyi, bazarın quruluşu kimi sıralaya bilərik.

Məhsul dizaynı və qiymətlərindən sonra sıra məhsulun istehlakçı ilə görüşməsinə gəlir.

Tur paketin dizaynının son iki mərhələsi paylanması və təqdimatı gediş tarixindən təxminən 10-12 ay əvvəl başlayır. Bu mərhələlər turun uğuru üçün çox vacibdir və əhatə dairəsi turoperatorun ölçüsündən və hədəflənən bazar seqmentlərinin genişliyindən asılıdır və broşura paylanması, media reklamları, fərdi satış və paylama kanalları ilə əlaqələr tələb olunur.

Çatdırılma. Turoperatorlarında marketinqin uğurlu olmasına təsir edən vacib amillərdən biri də satış kanallarının seçilməsidir.

Broşuraya çevrilən paket turlar, paylama kanallarının təyin etdiyi satış nöqtələrində istehlakçılara təklif olunur. Son illərdə Avropadakı bəzi böyük turoperatorlar məhsullarının satışını artırmaq üçün öz satış nöqtələrində istehlakçılara turlar təklif edirlər. Beləliklə, paket turlar istehlakçıya istehsalçının vasitəçiləri olmadan çatdırılır və turoperatorlar satışlarına təsirli şəkildə nəzarət etmək imkanına malikdirlər. Tur paketlərin birbaşa paylanması turoperatorların işçiləri tərəfindən həyata keçirilir və bu, bəzi kiçik turoperatorlar üçün əsas marketinq strategiyası ola bilər. Digər tərəfdən, böyük turoperatorlar satış təmsilçilərindən istifadə edərək turlarını paylama kanallarına (pərakəndə səyahət agentlikləri) çatdırmağı hədəfləyirlər. Hər iki halda da birbaşa satışlar edilir və bu, üz-üzə görüşmə, telefonla və ya bu günlərdə internet vasitəsilə həyata keçirilir.

Təqdimat. Broşüralar turoperatorlar üçün ən vacib marketinq vasitədir, çünki tur paket mücərrəd bir məhsuldur. Bu, turoperatorun imicini formalaşdırmağa kömək edir, eyni zamanda turistləri turlar barədə məlumatlandıraraq “xəyal quraraq” turu satın almağa həvəsləndirir.

Broşuralarda turoperatorun məhsulları haqqında məlumatlar və bu məhsullar haqqında bəzi təsvirlər, fotoşəkillər və digər məlumatlar, ləğv və geri ödəmələr verilir. Broşurada verilən məlumatlar dəqiq olmalıdır. Bəzi məhdudiyyətlər varsa, bunlar izah edilməlidir, çünki broşura həm də sənəddir və turoperatorun cavabdeh olduğu xidmətləri əhatə edir.

Bu gün broşuranı əvəz edən ən vacib satış kanallarından bəziləri veb səhifələr və sosial şəbəkələrdir. İstehsalçı ilə istehlakçı arasında ünsiyyəti təmin edəcək başqa bir marketinq vasitəsi reklamdır. Tur operatorları mesajlarını çatdırmaq üçün çox sayda mediadan istifadə edirlər: televiziya, radio, gündəlik qəzet, iş mətbuatı, jurnal (turizm və səyahət jurnalları). Üz-üzə və ya telefonla əlaqə iki tərəfli əlaqə metodundan da istifadə olunur. Hal-hazırda bir çox tur operatorları elektron poçtla turistlərə çatmağa çalışırlar. Bununla da tur paketin formalaşması başa çatır.

Beləliklə, düşünülmüş və peşəkarcasına hazırlanmış tur paketlər daha mənalı və daha keyfiyyətli səyahətlərin həyata keçirilməsinə imkan yaradır. Turistlər səyahətin onların arzuladıqları kimi həyata keçirilməsi üçün həmişə peşəkar müəssisələrin göstərdiyi xidmətlərdən yararlanmağa çalışırlar.

## ƏDƏBİYYAT

1. Bilalov B.Ə., Gülalıyev Ç.G. Turizmin əsasları. Bakı: " QHT Nəşriyyatı", 2015, 496 s.
2. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2010
3. Rəhimov S.H., Turizm-ekskursiya işinin təşkili. Bakı: Mütərcim, 2004, - 312 s.

## SUMMARY

**Ulkar Hasanzadeh**

## PLANNING AND PREPARATION OF TOUR PACKAGES

The development of a tourist product, as well as the implementation of this product, is carried out by the tour operator. During the activity of tourism organizations, the sale of products is carried out through two sales channels – through inbound channels and outbound channels. The internal channels of sale include branches, representations of the tour operator. Outbound sales channels include intermediary tour operators and travel agents. Sometimes the tour operator cannot sell the prepared product on a large scale, relying only on his own strength.

***Key words:*** *tour operator, turism-agent, tour package, destination, tour, tourist For this reason, the tour operator takes a certain position in the tourism market using the activity of the network of tour-agents and gets the opportunity to sell its product in a larger volume*

## РЕЗЮМЕ

**Улькер Гасанзаде**

## ПЛАНИРОВАНИЕ И ПОДГОТОВКА ТУРПАКЕТОВ

Разработка туроператором туристского продукта, и в то же время осуществляется реализация этого продукта. Реализация продукции в процессе деятельности туристских организаций осуществляется по двум каналам сбыта - по внутрифирменным каналам и по внефирменным каналам. К внутренним каналам продаж относятся филиалы, представительства туроператора. К внешним каналам продаж относятся туроператоры-посредники, турагенты. Иногда туроператор не может реализовать подготовленный им продукт в больших масштабах, полагаясь только на собственные силы. По этой причине туроператор, используя деятельность сети турагентов, занимает определенное положение на туристском рынке и получает возможность реализовывать свой продукт в более широких объемах.

***Ключевые слова:*** *туроператор, турагент, турпакет, пункт назначения, тур, турист*

***Məqaləni çapa təqdim etdi:*** *iqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *04 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *09 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 99-102
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 99-102
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 99-102

**HƏBİB ZEYNALOV**
*Naxçıvan Dövlət Universiteti*
*habib.zeynalov085@gmail.com*

**UOT: 338.48; 796.5**

# TEMATİK EKSKURSİYALARIN NÖVLƏRİ

*Məzmununa görə ekskursiyalar icmal və tematik ekskursiyalara ayrılır. Ekskursiya proqramlarının fərqləndirici xüsusiyyəti ekskursiyaların çox mövzulu olmasıdır. Tematik ekskursiyalar-konkret bir mövzunun açılmasına həsr olunur. Tematik ekskursiyalar -tarixi ekskursiyalar, istehsalat, coğrafi, ədəbi, memarlıq-şəhərsalma, sərgi və muzeylərə və s. növlərinə bölünən ekskursiyalar müəyyən bir mövzunun açıqlanmasına xidmət edir.*

***Açar sözlər:*** *tarixi ekskursiyalar, istehsalat ekskursiyası, coğrafi ekskursiyalar, ədəbi ekskursiyalar, memarlıq-şəhərsalma mövzusunda ekskursiyalar, sərgi və muzeylərə ekskursiyalar.*

**Tarixi ekskursiyalar**

Məzmununa görə aşağıda göstərilən yarımqruplara bölünür: tarixi-ölkəşünaslıq-bu sahədə baş verən hadisələri müxtəlif faktlarla təsvir edilməsi haqqında;

arxeoloji - maddi tarixi mənbələrin nümayişi;

etnoqrafik - müxtəlif millət və xalqların məişəti, adət və ənənələri haqqında;

hərbi - tarixi – hərbi əməliyyatlar haqqında;

tarixi – məşhur, tanınmış şəxsiyyətlərin həyat və fəaliyyəti ilə bağlı olan yerlər;

tarixi muzeylərə ekskursiyalar.

**İstehsalat ekskursiyası**

İstehsalat ekskursiyası mütəxəssislərin, tələbələrin, ümumtəhsil məktəblərinin, yuxarı sinif şagirdlərinin xüsusi hazırlığının əsas hissəsini təşkil edir. Bu tip ekskursiyaların iştirakçıları sənaye obyektləri, elmi-tədqiqat müəssisələrində olarkən, istehsalatla, yeni kəşflərlə, bazar iqtisadiyyatı dövründə sənayenin əsaslı yenidənqurulması və daha yaxından tanış olurlar.Turist firması və təşkilatları, istehsalat müəssisələri, elmi-tədqiqat institutları və sənaye obyektləri ilə sıx əlaqələr yaradırlar.

İstehsalat ekskursiyaları xarakterinə və məzmununa görə müxtəlif ola bilər. Bu tip icmal xarakterli ekskursiyalarda ekskursant olan tələbə qruplarına və mütəxəssislərə müəssisənin yaranma tarixi, gündəlik həyatı, istehsal texnikası və prosesi haqda məlumat verilir. Hər bir müəssisədə ekskursiyalar, yalnız müəssisənin rəhbərinin əmri və ya sərəncamı ilə icazə verilir. Turist firması, təşkilatın (müəssisənin) rəhbəri ilə, ekskursiyanın təyinatı, istiqaməti, ekskursiya rəhbərinin əmək haqqı, ekskursiyanın marşrutu və məqsədi haqda saziş imzalayır.

Ekskursiya rəhbəri, təşkilata gələn ekskursiya qrupu (ekskursantlarla) tanış olur, qrupun tərkibini, ümumi texniki hazırlığını müəyyənləşdirir və qrupun xüsusi marağını öyrənir. Sonra ekskursiya rəhbəri, əsas qaydalar və təhlüksizlik texnikası haqda məlumat verir. Təhlükəsizlik texnikası qaydalarına müəssisədə riayət etmək lazımdır.

Ekskursantlar təhlükəsizlik texnikası ilə tanışlıqdan sonra, ekskursiya rəhbəri, müəssisənin tarixi inkişaf yolu və istehsal etdiyi məhsul barədə məlumatlar verir, xammaldan hazır məhsulun necə alınmasının texnoloji prosesini başa salır.

**Coğrafi ekskursiyalar**

Coğrafi ekskursiyalar respublikamızı və onun təbiətini yaxından tanımağa kömək edir. Ekskursiyanı coğrafi ekskursiya hesab etməyə imkan verən əsas amil onun uzaq və ya yaxınlığı deyil. Coğrafı ekskursiya ərazi, onun təbiəti, iqtisadi xüsusiyyətləri ilə bütöv tanışlığa əsaslanır. Coğrafi

ekskursiyalar həm də miqyasına görə fərqlənir. Miqyasına görə coğrafı ekskursiyalar diyar və ölkə ekskursiyalarına bölünür. Diyar ekskursiyaları, ekskursantları şəhər, qəsəbə və onun yaxın əraziləri ilə tanış edir. Adətən bu ekskursiya 10 km hüdudlarında olur. Diyarşünaslıq ekstursiyaları vasitəsi ilə rayonla onun ətraf əraziləri öyrənilir. Ölkə üzrə coğrafı ekskursiyalar daha geniş ərazini, yəni respublikanı əhatə edir.

Məqsədinə və təşkili formasına görə coğrafi ekskursiyaları tədris təyinatlı, həvəskar, mədəni-maarif, istirahət, əyləncə və idman məqsədli ekskursiyalara ayırmaq olar. Bundan başqa, stasionar mərkəzlərə əsaslanan (müalicə-profilaktik düşərgələr) və marşrut ekskursiyalar (radial, çıxış məntəqəsinə qayıtmaqla, tranzit və s.) olur.

Tranzit ekskursiyalar respublika üzrə ekskursiyalara, diyarşünaslıq radial ekskursiyalara uyğundur.

Landşaftı bütöv göstərən ekskursiyalardan başqa, onun ayrı-ayrı elementlərini (relyefi, bitkilər və heyvanat aləmi) göstərən ekskursiyalar da təşkil olunur. Müəyyən ərazidə yaşayan əhalinin məişəti, adət-ənənələri, təsərrüfatını əks etdirən etnoqrafik ekskursiyalar da mühüm yer tutur.

**Ədəbi ekskursiyalar**

Bədii ədəbiyyat dünyanı dərk etmə və estetik qavrayış vasitəsidir. O, insanın mədəni inkişafına birbaşa təsir edir.

Ədəbi mövzulu ekskursiyalar dinləyicilərə bu və ya başqa əsərin bədii xüsusiyyətlərini açmalı, yazıçının düşüncələrini və hisslərini insanlara çatdırmalıdır.

Şəhər üzrə ədəbi ekskursiyalar dinləyiciləri bir yazıçının və ya yazıçılar qrupunun o şəhərlə bağlı əsərləri ilə tanış edir, yazıçının sənətkarlığı və dünya görüşünün formalaşmasına mühitin təsirini açıqlayır.

Ədəbi ekskursiyaların mövzuları müxtəlifdir. Onlar icmal xarakterli ola bilər. Şəhərin ədəbi həyatını ilk günlərdən indiyə kimi əhatə edə bilər. Bir yazıçını yaradıcılığına aid məhdud mövzulu ekskursiyalar da ola bilər. Hər bir mövzu öz spesifik xüsusiyyətlərinə və istiqamətinə malikdir.

Ekskursiyanm tərtibatının ilk mərhələsi material toplamaqdır. Yazıçının həyatını dəqiq öyrənmək, yaradıcılığını təhlil etmək, müasirlərinin xatirələrinə müraciət etmək lazımdır. Bundan başqa, şəhərin ədəbi mühitini xarakterizə etmək, qəzet və jurnallardan istifadə etmək, məşhur ədəbi qruplardan danışmaq lazımdır.

Ekskursiyanın hazırlanmasında əsas amillərdən biri də obyektlərin seçilməsidir. Sözsüz ki, ənənəvi ədəbi obyektləri - yazıçının yaşadığı evi göstərmək vacibdir.

Ekskursiyanın kompozisiyasının da böyük rolu var. Ədəbi həyatın hadisələrini əyani şəkildə göstərəndə ekskursiya daha dəyərli olur.

Ekskursiyanın kompozisiyasının özünəməxsusluğu mövzudan asılıdır. İcmal ekskursiyalarının spesifikası isə onun çoxplanlı olmasıdır.

Müəyyən bir ədəbi adla bağlı olan ekskursiya başqa cür tərtib olunur. Onun məqsədi yazıçının bədii və ictimai fəaliyyətini geniş və hərtərəfli göstərməkdir.

**Memarlıq-şəhərsalma mövzusunda ekskursiyalar**

Dünya memarlıq tarixində parlaq səhifələr yazmış Azərbaycan memarları var. Buna nümunə olaraq, gözəlliyinə görə təkrarolunmaz Şirvanşahlar sarayını, Qız qalasını, Möminə Xatun türbəsini (Naxçıvanda) və qədim İçəri şəhəri göstərmək olar. Bütün bu böyük mədəni dəyərlər xalqımıza irsən qalıb. Abidələr və ansambllar tarixi inkişafın mərhələlərini və milli xüsusiyyətlərini əks etdirir.

Memarlıq və şəhərsalma üzrə ekskursiyalar Azərbaycan şəhərsalma tarixinin mühüm mərhələləri ilə, maraqlı tarixi abidələr isə şəhərimizin inkişaf mərhələləri ilə tanış edir.

Memarlıq və şəhərsalma ekskursiyaları bu və ya başqa mövzuları açıqlayır. Bu ekskursiyalar avtobus və ya piyada ekskursiyaları ola bilər. Onların mövzuları müxtəlifdir. Bəziləri bütün tarixi dövrü əhatə edir (“Abşeronun memarlıq abidələri” mövzulu avtobus ekskursiyası), “İçəri şəhər” piyada ekskursiyası (Qədim şəhər və Şirvanşahlar ansamblı). Bəziləri isə müəyyən dövr memarlıq abidələrinə həsr olunur.

Qoruqlarda da həmçinin bir çox ekskursiyalar təşkil etmək mümkündür. Qalalara və qəsrlərə də gəzintilər təşkil olunur. Muzeyə çevrilmiş belə binalarda təşkil olunmuş ekskursiyalar bu və ya

başqa tarixi dövrlər haqda parlaq təsəvvür yaradır, müəyyən dövrün görkəmli memarlıq əsərləri ilə tanış edir.

Hər tarixi dövrün memarlığı həyatın sosial şərtlərini və ictimai fikri əks etdirir. Bu və ya digər memarlıq abidələrindən danışarkən ekskursiya rəhbəri onun konstruksiyasının xüsusiyyətlərini nəzərə çatdırır, o dövrdə daha çox işlədilən tikinti və bəzək materiallarından danışır.

Abidənin memarı məşhur bir sənətkardırsa, ekskursiya rəhbəri qrupu onun həyatı, yaradıcılığının özünəməxsus xüsusiyyətləri ilə tanış edir.

Binanın memarlıq görünüşünü xarakterizə edərkən onun vəzifələrinə və bədii tərtibatının ona necə uyğun gəldiyini nəzərə almaq lazımdır.

Memarlıq mövzulu şəhər ekskursiyaları. Memarlıq mövzulu şəhər ekskursiyaları ya böyük tarixi dövrü, ya müəyyən dövrün memarlıq abidələrini, ya da bir memarın yaradıcılığını əhatə edə bilər.

İstənilən ekskursiyada olduğu kimi, burada da çətinlik ilk növbədə göstərilən obyektlərin xronoloji ardıcıllığını gözləməkdir. Bu cür ekskursiyalarda xronologiya daha vacibdir. Xronologiyanın pozulması qarışıqlığa gətirər və ekskursiya rəhbəri yüzillik və müəyyən dövr memarlığını əks etdirən ekskursiyanı aparmasına mane ola bilər. Nümayiş üçün, dövrü və stili xüsusilə parlaq əks etdirən memarlıq əsərləri seçilir. Bundan başqa, ənənəvi və müasir motivlərin ahəngini, incəsənətdəki indiki cərəyanları əks etdirən keçid dövrün əsərləri də seçilir.

Ekskursiya bir memarın yaradıcılığına həsr olunursa marşrut elə seçilir ki, ekskursantlar onun bütün yaradıcılıq yolunun və həyat fəaliyyətinin bütün mərhələlərini izləyə bilsinlər.

**Sərgi və muzeylərə ekskursiyalar**

İnformasiya-ekskursiya işinin ümumi kompleksində xüsusi yeri sərgilərə təşkil olunan ekskursiyalar tutur. Bu cür ekskursiyalar turistlərin elm, iqtisadiyyat, mədəniyyət, kənd təsərrüfatı sahələrinin inkişafında insanların nailiyyətləri ilə tanış olmasına kömək edir.

Muzey ekskursiyaları xüsusi əhəmiyyət kəsb edir. Ekskursiya rəhbərlərinə muzeylərdə tarix, ədəbiyyat və s. haqqında turistlərə məlumatlandırmaq imkanı verilir.

Regionlarda yerləşən ölkəşünaslıq muzeylərinə səfərlər böyük əhəmiyyət və maraq daşıyır. Turistlərin ölkəmizdə qaldığı müddət ərzində onların bədii muzeylərə və şəkil qalereyalarına tamaşa etməsi üçün də geniş imkanlar verilir. Bunlardan S.Bəhlulzadə adına Şəkil Qalereyasını, Müasir İncəsənət Mərkəzini (MİM) və s. göstərmək olar. Azərbaycan xalqının keçmişdən miras qalmış mədəni və ədəbi irsə, mədəniyyət ənənələrinə və incəsənətə bəslədiyi böyük rəğbətin turistlərə inandırılması üçün bu cür ekskursiyalar böyük ideoloji təsirə malikdir.

Ekskursiya rəhbərləri turistlərə incəsənətin bütün forma və növlərinin inkişaf etdirilməsinə, həmçinin keçmişin ən gözəl mədəniyyət nümunələrinin qorunub saxlanmasına, Azərbaycan dövlətinin ayırdığı böyük qayğı və diqqətdən danışmalıdır.

Muzeylərə və xüsusilə də tarixi-memarlıq abidələrinə ekskursiyaların keçirildiyi vaxt ekskursiya rəhbəri tərəfindən aktuallığını bu gün də itirməyən obyektlərin və eksponatların xüsusi qeyd edilməsi, maraqlı tarixi hadisələr və faktlar haqqında danışmaq bacarığı əsas şərtlərdən biridir.

Bu və ya digər muzeyin ekskursiya obyektini seçərkən turistlərin tərkibi diqqətlə nəzərə alınmalıdır. Turistlərin tələbatlarına uyğun olaraq, ekskursiya mövzusunun düzgün seçimi çox vacibdir.

## ƏDƏBİYYAT


1. Sabir Rəhimov. Turizm–ekskursiya işinin təşkili. Bakı: -2004
2. Əli Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Bakı: -2017
3. Müzəffər Ağakərimov. Ekskursiya və ekskursiya rəhbəri. Bakı: -2006

**SUMMARY**

**Habib Zeynalov**

**TYPES OF THEMATIC EXCURSIONS**

According to its content, the excursions are divided into two parts: review and thematic excursions. The distinctive feature of the excursion programs is their multi-topic nature. Thematic tours-dedicated to the disclosure of a specific topic. Thematic excursions, which are divided into types of historical excursions, industrial, geographical, literary, architectural and urban planning, excursions to exhibitions and museums, serve to reveal a specific topic.

***Key words:*** *historical excursions, industrial excursions, geographical excursions, literary excursions, excursions on architectural and urban planning, excursions to exhibitions and museums.*

**РЕЗЮМЕ**

**Хабиб Зейналов**

**ВИДЫ ТЕМАТИЧЕСКИХ ЭКСКУРСИЙ**

По содержанию экскурсии делятся на обзорные и тематические. Отличительной особенностью экскурсионных программ является то, что экскурсии очень тематические. Тематические экскурсии - посвящены раскрытию конкретной темы. Тематические экскурсии - исторические экскурсии, производственные, географические, литературные, архитектурно-градостроительные, по выставкам и музеям и др. экскурсии, разделенные на виды, служат для раскрытия определенной темы.

***Ключевые слова:*** *Исторические экскурсии, производственные экскурсии, географические экскурсии, литературные экскурсии, экскурсии по архитектурно-градостроительной тематике, экскурсии по выставкам и музеям*

---

***Məqaləni çapa təqdim etdi:*** *İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *04 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *09 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 103-109
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 103-109
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 103-109

**İMRAN QARAYEV**
*Vergilər Nazirliyinin Tədris Mərkəzi*
**ƏDALƏT ƏSƏDOV**
*Azərbaycan Kooperasiya Universiteti*

**UOT336.1; 336.22**

# VERGİ SİYASƏTİNİN DAVAMLI İQTİSADİ İNKİŞAFA TƏSİRİNİN MÜASİR PROBLEMLƏRİ

*Məqalədə vergi siyasətinə iqtisadi artımın stimullaşdırılmasının əsas tənzimləyici mexanizmi kimi baxılmış və onun xüsusiyyətləri araşdırılmışdır. Nəzəri və praktiki baxımdan iqtisadi artımın davamlı xarakter almasına təsir edən amillərin sayı kifayət qədər çoxdur. Bu faktı nəzərə alaraq iqtisadi artımı stimullaşdıran mühitin formalaşması prosesində vergi alətlərindən kənar digər amillərin rolu da nəzərə alınmışdır. Müəllif ümumdaxili məhsulun dinamikası ilə vergi daxil olmalarının dinamikası arasındakı münasibətləri təhlil etmişdir. İqtisadi artımı stimullaşdıran vergi siyasətinin beynəlxalq təcrübədə istifadə olunan seçim istiqamətlərinə baxılmışdır. Bu seçim istiqamətlərinin müxtəlif vergi növləri üzrə tətbiqi xüsusiyyətlərinə də diqqət yetirilmişdir.*

***Açar sözlər****: iqtisadi artım, vergi siyasəti, vergi dərəcələri, vergi yükü, davamlı inkişaf*

Vergi siyasətinin əsas funksiyalarından biri dövlət sektorunun qarşısında duran vəzifələri həyata keçirmək üçün zəruri olan büdcə gəlirlərinin təmin edilməsindən ibarətdir. Vergi siyasətinin bu istiqaməti adətən fiskal funksiyaya aid edilir. Vergi siyasətinin digər və hal-hazırda daha çox tətbiq edilən istiqamətlərindən biri də iqtisadi artımın stimullaşdırılmasından ibarətdir. Nəzəri tədqiqatlar və praktiki müşahidələr sübüt edir ki, vergi gəlirləri birbaşa olaraq ölkədəki mövcud iqtisadi artım səviyyəsindən asılıdır. Yalnız iqtisadi artım hesabına yüksək vergi daxilolmalarını təmin etmək mümkündür. Vergi inzibatçılığının təkmilləşdirilməsi hesabına vergi gəlirlərinin artırılması imkanları məhduddur.

Vergi siyasətinin iqtisadi inkişafa təsiri mexanizmlərinin təhlili istər nəzəri, istərsə də praktiki baxımdan mühüm əhəmiyyət kəsb edir. Qloballaşan dünya iqtisadiyyatında iqtisadi artımın təmin edilməsi və onun davamlı inkişaf xarakter alması iqtisadi nəzəriyyənin əsas məsələlərindən biridir.

Vergi siyasətinin digər mühüm funksiyalarına gəlirin paylanmasına görə müxtəlif əhali qrupları arasında sosial-iqtisadi bərabərsizliyinin tənzimlənməsi də aid edilir. Bu funksiya inkişaf etmiş Avropa ölkələrində və xüsusi ilə ABŞ-da geniş şəkildə tətbiq edilir. Aparılan elmi araşdırmalar sübut edir ki, Cini əmsalının artması iqtisadi artıma mənfi təsir göstərir və cəmiyyətdə sosial gərginliyin artmasına səbəb olur [11].

Davamlı sosial-iqtisadi inkişaf bir tərəfdən makroiqtisadi göstəricilərin stabilliyinin təmin edilməsində, digər tərəfdən isə dövlət sektorunun inkişafında, onun qarşısında duran vəzifələrin yerinə yetirilməsində əsas və həlledici şərtdir. Lakin iqtisadi artıma təsir edən amillər müxtəlif xarakterli göstəricilərdən ibarətdir. Vergi siyasəti, sosial siyasət, investisiya siyasəti, monetar siyasət birbaşa və dolayı olaraq iqtisadi artımı stimullaşdıran institusional mühitin formalaşmasına təsir göstərir. Bu, eyni zamanda davamlı iqtisadi inkişafa təsir etdiyinə görə hansının daha əhəmiyyətli olmasını söyləmək üçün xüsusi şərtlər irəli sürmək lazımdır. Məsələn, monetar siyasəti alətlərinin (faiz dərəcəsi, ehtiyat normaları, pul aqreqatları, pul kütləsi və s.) sabit qaldığı şəraitdə vergi siysətinin iqtisadi inkişafa təsir mexanizmlərinin səmərəliliyini təhlil etmək olar. Bu amillər sırasına aşağıdakıları aid etmək olar:

- daxili və xarici investisiyaların dinamikası və əsas istiqamətləri;
- ölkənin iqtisadi modernləşdirilməsi və innovativ inkişaf potensialı;

- sahibkarlığın mövcud vəziyyəti və inkişaf perspektivləri;
- əmək ehtiyatlarının strukturu və onun iqtisadi inkişaf tendensiyalarına uyğunluğu;
- sosial-iqtisadi infrastrukturun səviyyəsi;
- əmək bazarının çevikliyi və mobilliyi;
- sosial kapitalın, institusional mühitin iqtisadi inkişaf baxımından üstünlükləri;
- əsas ticarət partnyorlarının iqtisadi inkişaf templəri;
- rəqabət qabiliyyətli mühitin formalaşma səviyyəsi.

Göründüyü kimi, iqtisadi artıma təsir edən amillər müxtəlif olmaqla demək olar ki, iqtisadiyyatın və cəmiyyətin bütün sahələrini əhatə edir. Bu amillərin formalaşmasında və son nəticədə iqtisadi artıma təsir dərəcəsində vergi sistemi xüsusi rol oynayır. Müxtəlif vergi növlərinin və vergi dərəcələrinin tətbiqi, vergi inzibatçılığının keyfiyyəti, vergi qanunvericiliyinin təkmilləşdirmə dərəcəsi bilavasitə iqtisadi artıma təsir göstərir. İqtisadi ədəbiyyatlarda bu problemlər daimi diqqət mərkəzində olmaqla çoxlu sayda tədqiqatlardan ibarətdir (1;3;6; 10; 11).

Ölkədə həyata keçirilən vergi siyasəti birbaşa olaraq makroiqtisadi səviyyədə vergi yükünə təsir göstərir. Qloballaşan dünyada iqtisadi artımın əsas göstəricisi olan ÜDM-in formalaşmasında ölkədə fəaliyyət göstərən multi-milli korporasiyalar, beynəlxalq şirkətlər və holdinqlər əhəmiyyətli rol oynayır. Yalnız bir faktı qeyd etmək olar ki, hal-hazırda dünyada həyata keçirilən beynəlxalq ticarət əlaqələrinin 80%-i multi-milli korporasiyalar tərəfindən həyata keçirilir. Həmin şirkətlərin müxtəlif vergi dərəcələrinə malik ölkələrdə fəaliyyət göstərməsi onların gəlirlərinin artırılması məqsədilə vergilərin minimuma endirilməsi məsələsinin real surətdə həyata keçirilməsinə imkan verir ki, nəticədə külli miqdarda vəsait dövlət büdcəsindən yayındırılır. Cədvəl l-də müxtəlif ölkələr üzrə vergi yükünün göstəriciləri verilmişdir. Cədvəldən göründüyü kimi, Azərbaycanda vergi yükü digər ölkələrlə müqayisədə xeyli aşağıdır. Cədvəldə Azərbaycan üzrə vergi yükü gömrük rüsumlarında daxilolmalar nəzərə alınmaqla hesablanmışdır.

***Cədvəl 1.*** *Müxtəlif ölkələr üzrə vergi yükü, 2017-ci il ÜDM-ə nisbətdə %-lə*

| | |
|---|---|
| Azərbaycan | 12,1 |
| Belçika | 44,6 |
| Türkiyə | 24,9 |
| ABŞ | 27,1 |
| Meksika | 16,2 |
| İsveçrə | 28,5 |
| Polşa | 33,9 |
| İsveç | 44 |

***Mənbə:*** *Revenue Statistics 2018/ Tax revenue trends in the OECD, OECD, 2018.*

Göründüyü kimi inkişaf etmiş ölkələrdə vergi yükü kifayət qədər yüksəkdir. Ən yüksək vergi yükü güclü sosial siyasət həyata keçirən Skandinaviya ölkələrində müşahidə edilir. İsveçdə vergi yükü 2017-ci ildə 44% təşkil etmişdir. Vergitutma iqtisadiyyatının əsas prinsiplərinə görə iqtisadi artımı stimullaşdıran vergi siyasəti aşağıdakı ümumi cəhətləri özündə birləşdirməlidir:

-vergi yükünün aşağı salınması;
-vergi yükünün istehsaldan istehlaka və əmlaka keçirilməsi;
-aşağı vergi dərəcələrini tətbiq etməklə, vergitutma bazasının genişləndirilməsi;
- vergi kreditlərinin verilməsi;
- vergi qanunvericiliyinin sadələşdirilməsi və s .

Vergi siyasətinin iqtisadi artıma təsir mexanizmlərinin araşdırılması sahəsində aparılan beynəlxalq təcrübə sübut edir ki, bu ümumi cəhətlər hər bir ölkədə fərqli təsir dərəcəsinə malikdir. Məsələn, vergi yükünün istehsaldan istehlaka keçirilməsi ancaq iqtisadi islahatlar apardıqdan sonra gözlənilən nəticələri verə bilər. Əmlak vergisinin dərəcəsinin artırılması ev təsərrüfatlarının əmlakdan azad olunmasını stimullaşdırır və nəticədə onun satışından əldə olunan vəsaitin

investisiyalar istiqamətində yönəldilməsinə şərait yaranır. Belə olduğu halda, əldə olunan vəsaitlər daha mobil xarakter daşıdığına görə qısa müddətdə mənfəət verən sahələrə yönəldilməklə iqtisadi artımı stimullaşdırır.

Bütün bu deyilənlər ilk növbədə vergi daxilolmalarının ümumi daxili məhsuldan asılı olması faktını irəli sürür. Cədvəl 2-də Azərbaycanda vergi daxilolmaları və ÜDM barədə statistik məlumatlar verilmişdir.

***Cədvəl 2.*** *Azərbaycan Respublikasında ÜDM və vergi daxilolmaları*

| İllər | Ümumi daxili məhsul (ÜDM), milyon manatla | Vergi və digər ödənişlər, milyon manatla |
|---|---|---|
| 2005 | 12 522,50 | 1427,4529 |
| 2006 | 18 746,20 | 2706,2823 |
| 2007 | 28 360,50 | 4549,259 |
| 2008 | 40 137,20 | 5746,5658 |
| 2009 | 35 601,50 | 4113,4 |
| 2010 | 42 465,00 | 4292,8 |
| 2011 | 52 082,00 | 5475,062 |
| 2016 | 60425,70 | 7015,3665 |
| 2017 | 70 337,00 | 6973,6334 |
| 2018 | 79797,80 | 7907,6224 |

***Mənbə*** *: www.taxes.gov.az; www.stat.gov.az*

Bu asılığın xətti reqressiya modeli E-views 7.0 proqram paketi əsasında qurulmuş və aşağıdakı nəticələr əldə edilmişdir [2].

Vergi daxilolmalarının ÜDM-dən asılılığı üçün aşağıdakı reqressiya tənliyi alınır:

$$TAX=729459.061829+101.585327306*UDM \, , \qquad (1)$$

Burada:

*TAX* – vergi daxilolmalarıdır.

Dependent Variable: TAX
Method: Least Squares
Included observations: 10
TAX=C(1)+C(2)*UDM

| | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| C(1) | 729459.1 | 557197.2 | 1.309158 | 0.2268 |
| C(2) | 101.5853 | 12.93110 | 7.855892 | 0.0000 |

| | | | |
|---|---|---|---|
| R-squared | 0.885247 | Mean dependent var | 4811344. |
| Adjusted R-squared | 0.870903 | S.D. dependent var | 1770975. |
| S.E. of regression | 636312.6 | Akaike info criterion | 29.74162 |
| Log likelihood | -146.7081 | | |
| F-statistic | 61.71504 | | |
| Prob(F-statistic) | 0.000050 | | |

Substituted Coefficients:
======================
TAX=729459.061829+101.585327306*UDM

Qrafik 1-dən göründüyü kimi, hər iki göstərici arasında güclü asılılıq mövcuddur.

***Qrafik 1.*** *Ümumi daxili məhsul ilə vergi daxilolmaları arasında asılılıq [4].*




Hər hansı bir ölkədə iqtisadi artımı stimullaşdıran aktiv vergi siyasətinin səmərəliliyi mövcud vergi sistemi ilə yanaşı, iqtisadiyyatın cari vəziyyətindən də əhəmiyyətli dərəcədə asılıdır. Məsələn, əmək ehtiyatlarının yüksək olduğu ölkələrdəki gəlir vergisi siyasəti əhalinin qocalması problemi ilə üzləşən ölkələrdən fərqlidir. Son zamanlar maliyyə böhranı baş verən ölkələrin böyük əksəriyyətində əhalinin əmək qabiliyyətli yaşdan yuxarı olan təbəqəsinin payı kifayət qədər yüksəkdir.

İqtisadi artımı stimullaşdıran vergi siyasətinin əsas xüsusiyyətlərini təhlil etməmişdən əvvəl qeyd etmək lazımdır ki, eyni stimullaşdırıcı təkliflər müxtəlif ölkələrdə fərqli nəticələrə gətirib çıxara bilər. Bu faktın əsas səbəbi vergi mexanizmlərinin mürəkkəb olması, onun sosial xarakterli faktorlar və insan amili ilə bağlı olması ilə əlaqədardır. Tətbiq edilən vergi növləri və onların dərəcələri də bir-birindən fərqli olduğuna görə iqtisadi artımı stimullaşdıran vahid vergi sistemini formalaşdırmaq mümkün deyildir.

Qloballaşma prosesləri demək olar ki, ölkələrin böyük əksəriyyətinin iqtisadiyyatını açıq iqtisadiyyata çevirmişdir. Liberal və açıq iqtisadiyyatda vergi sistemi xarici vergi sistemlərindəki xüsusiyyətlər nəzərə alınmaqla formalaşmalıdır. Məsələ ondan ibarətdir ki, vergi siyasəti adətən lokal xarakter daşıyır və yalnız ölkə sərhədləri daxilində təsir göstərir. Lakin vergi ödəyiciləri öz fəaliyyətini genişləndirmək üçün ölkə xaricində kənar fəaliyyət göstərmək istəyir. Bu isə vergi siyasətləri sahəsində ölkələr üzrə böyük fərqlərin aradan qaldırılmasını və bu sahədə beynəlxalq standartların qəbul edilməsi zərurətini yaradır. Bu zaman beynəlxalq şirkətlərin rolu və onların iqtisadi artıma təsir dərəcəsi də nəzərə alınmalıdır. Beynəlxalq korporasiyaların milli iqtisadiyyatda fəaliyyəti investisiya imkanlarını genişləndirməklə yanaşı, yeni iş yerlərinin yaradılmasına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə kömək edir. Buna görə də vergi qanunvericiliyinin təkmilləşdirilməsi və xüsusilə transfer qiymətləndirmə haqqında normativ hüquqi aktların hazırlanması bu şirkətlərin iqtisadi aktivliyini məhdudlaşdırmamalıdır (11).

Qloballaşmanın sürətlənməsi, informasiya imkanlarının gücləndirilməsi, rəqəmsal iqtisadiyyatın inkişafı vergi sisteminin formalaşmasında aşağıdakı ümümi prinsiplərin nəzərə alınması zərurətini qarşiya çıxarır:

- Vergilər birbaşa olaraq maya dəyərinə təsir göstərir. Bu isə qlobal iqtisadiyyatda rəqabət qabiliyyətli mühitdə struktur dəyişikliklərin baş verməsinə, iqtisadiyyatın müxtəlif sektorlarında nisbi üstünlüklərin əmələ gəlməsinə səbəb olur;

- Gəlir vergisinin yüksək olması əmək resurslarının miqrasiyasına səbəb olur. Bu isə öz növbəsində yüksək təhsil səviyyəsinə malik olan işçilərin aşağı vergi dərəcəli ölkələrdə işləməklə yüksək gəlirlər əldə etməsini stimullaşdırır;

- Hüquqi şəxslərin mənfəət vergisi dərəcəsi investisiyaların hansı ölkələrdə yerləşdirilməsinə təsir göstərir. Vergi siyasəti ölkədə rəqabətqabiliyyətli mühitin formalaşmasında mühüm rol oynayır. Lakin aşağı vergi dərəcələri hesabına iqtisadiyyatını inkişaf etdirən ölkələr, çox qısa bir müddət ərzində investisiyaların cəlb edilməsinə baxmayaraq, uzunmüddətli dövrdə daimi vergi sistemindən həssas şəkildə asılı bir vəziyyətə düşürlər;

- Beynəlxalq aləmdə əmək bazarında baş verən dəyişikliklər, iqtisadiyyatın tələbləri ilə əmək bazarında məşğulluğun strukturundakı uyğunsuzluq, yüksəkixtisaslı mütəxəssislərlə, ixtisassız əmək arasındakı fərqlər vergi sisteminin təkmilləşdirilməsini tələb edir;

- Qloballaşma şəraitində tətbiq edilən korporativ vergilərin dərəcəsi multi-milli şirkətlərin istehsalının hansı ölkədə təşkil edilməsinə birbaşa təsir göstərir və beləliklə, kapitalın yüksək vergi dərəcələrinə malik olan ölkələrdən aşağı vergi dərəcəli ölkələrə axını baş verir.

Bu isə onu göstərir ki, iqtisadi artımı stimullaşdırmaq məqsədi ilə aparılan vergi siyasəti beynəlxalq aləmdə baş verən proseslərə uyğun şəkildə aparılmalıdır. Artıq heç bir ölkə qapalı şəkildə öz vergi siyasətindəki mövcud problemləri təklikdə, beynəlxalq konvensiyalara qoşulmadan həll etmək iqtidarında deyildir. Bu isə vergi siyasəti sahəsində beynəlxalq əməkdaşlığın daha da gücləndirilməsini zəruri edir.

İqtisadi nəzəriyyə sübut edir ki, vergi siyasəti birbaşa olaraq ÜDM-in artım sürətlərinə təsir göstərir. Lakin buna baxmayaraq bir çox səbəblərə görə bu təsirlərin riyazi-iqtisadi modellər vasitəsi ilə qiymətləndirilməsi kifayət qədər çətindir. Bu səbəblərin ümumi cəhətlərini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

- Vergi sistemi bir çox müxtəlif tipli vergilərdən ibarətdir. Bu vergi növləri isə xarakterinə və xüsusiyyətinə görə bir-birindən fərqlidir. Məsələn, istehlak vergiləri ilə birbaşa vergilərin iqtisadi artıma təsiri tam şəkildə fərqlidir;
- Yalnız bir vergi növü dərəcəsində baş verən dəyişikliklər ÜDM-in müxtəlif komponentlərinə təsir göstərir. Məsələn, fiziki şəxslərin gəlir vergisində və sosial vergilərin dərəcələrində baş verən azalmalar məşğulluğun səviyyəsini artırmaqla yanaşı, yüksəkixtisaslı təhsilə çəkilən xərclərin alternativ dəyərini artırır. Bu isə öz növbəsində təhsilə yönəldilən investisiyaların stimulunu azaldır;
- Vergi islahatları adətən bir vergi növünü yox ümumi vergi sisteminin təkmilləşdirilməsini nəzərdə tutur. Bunun nəticəsində ÜDM-in determinantlarının əksər komponentləri təsirə məruz qalır;
- İqtisadi islahatlar yalnız vergi siyasətini deyil digər sahələrdəki məsələn, invesitisiya, sahibkarlığın inkişafı, sosial sahələrdə dövlət tərəfindən həyata keçirilən siyasəti nəzərdə tutur. Çox vaxt bu siyasətlər paralel olaraq həyata keçirildiyinə görə hansının təsirinin daha çox olmasını demək çətinləşir. Ekonometrik modellərə aid izahedici dəyişənlərdə olan multikolleniarlıq xüsusi riyazi metodların tətbiq edilməsini tələb edir.

Vergi siyasətinin iqtisadi artıma təsirinin hərtərəfli araşdırılması ümumi tarazlıq modelinin qurulmasını zəruri edir. Bu modellər sisteminin əsas məqsədi iqtisadi sistemdə baş verən dəyişikliklərə uyğun olaraq makro və mikro səviyyədə vergi proqnozlarının və potensialının qiymətləndirilməsi və vergi siyasətində baş verə biləcək dəyişikliklərin kompyuter imitasiyası şəklində təhlilinin aparılmasından ibarətdir.

Beynəlxalq təcrübədə istehlak vergiləri iki əsas təsnifat üzrə qruplaşdırılır:

- Ümumi istehlak vergiləri;
- Xüsusi istehlak vergiləri.

Birinci qrup vergilərə klassik olaraq əlavə dəyər vergisi (ƏDV), maların satışından və xidmətlərin göstərilməsindən təbiq edilən satış vergisini göstərmək olar. İkinci növ vergilərə bir qrup mal və xidmətlər üçün tətbiq edilən aksizləri və idxal rüsumlarını aid etmək olar. İqtisadi ədəbiyyatlarda adətən istehlak vergiləri dolayı vergilər olmaq etibarı ilə neytral xarakter daşıyır və mənfəət vergisinə nisbətən ev təsərrüfatlarının və şirkətlərin qərarvermə prosesinə az təsir göstərir. Adətən istehlak vergiləri proqressiv xarakter daşımır və vahid vergi dərəcəsi üzrə tətbiq edilir. Bu xüsusiyyətinə görə istehlak vergilərinin ÜDM-ə təsiri də nisbətən zəifdir.

İqtisadi sistemdə baş verən dəyişikliklər birbaşa olaraq vergi potensialına və vergi daxilolmalarının proqnoz göstəricilərinə təsir göstərir. Bu baxımdan vergi modelləri sistemi iqtisadiyyatın ümumi tarazlıq modelləri ilə bağlı şəkildə işlənilməlidir. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün ümumi iqtisadi tarazlıq modellərinin aşağıdakı əsas alt sistemləri hazırlanmalıdır:

- Çoxsektorlu ümumi tarazlıq modelinin qurulması;
- İstehlak vergiləri üzrə mikrosimulyasiya modellərinin qurulması;
- Birbaşa vergilər üzrə simulyasiya modellərinin qurulması;
- Ümumi tarazlıq modeli çərçivəsində vergi sistemi modellərinin uzlaşdırılması;

Vergi siyasətinin təhlil edilməsi prosesində qarşıya qoyulan əsas məsələlərdən biri də iqtisadiyyatın vergi yükünün qiymətləndirilməsindən ibarətdir. Vergi yükünün qiymətləndirilməsi zamanı iqtisadiyyatın mövcud vəziyyəti, onun quruluşu, xarici iqtisadi əlaqələri nəzərə alınmaqla yanaşı, vergi yükünün struktur və konyunktur tərkib hissələri də təhlil olunmalıdır.

Əgər dövlət büdcəsinə daxil olan vergilər xarici bazardakı mövcud qiymət münasibətlərindən

asılıdırsa, onda belə vergi daxilolmaları vergi yükünün konyunktur, əks halda isə struktur komponentləri adlandırılır. Vergi gəlirlərinin struktur tərkib hissələri fundamental amillərdən – vergi qanunvericiliyindən, vergi dərəcələrindən asılı olmaqla iqtisadiyyatın strukturu ilə müəyyən olunur. Konyunktur komponent isə bilavasitə xarici bazardakı mövcud qiymətlərin səviyyəsindən asılı olmaqla dəyişməyə meyllidir. Azərbaycan iqtisadiyyatının ixrac potensialında neft sektorunun payı yüksək olduğundan dünya bazarında neftin qiymətində baş verən dəyişikliklər vergi yükünə təsir göstərə bilir.

Dünya bazarında neftin qiymətində baş verən dəyişikliklər bir çox iqtisadi və siyasi amillərdən asılı olduğundan onun qiymətlərinin dinamikasını proqnozlaşdırmaq mümkün deyildir. Bu isə vergi daxilolmalarının proqnozlaşdırılması üçün struktur komponentlərdən istifadə olunmasını zəruri edir. Dünya bazarında neftin qiymətindəki baş verən dəyişikliklər əgər orta qiymətlərindən kəskin şəkildə fərqlənərsə, onda vergi yükündə baş verən dəyişikliklər (vergi daxilolmalarının ÜDM-də xüsusi çəkisi) ümumi vergi yükünə təsir göstərən vergi sisteminin dəyişilməsi kimi qiymətləndirilə bilməz. Dünya bazarında qiymətlərin qalxması nəticəsində büdcəyə daxil olan vergi gəlirlərinin artması və onun ÜDM-də xüsusi çəkisinin yüksəlməsi, həmçinin vergi yükünün artması kimi qəbul edilməməlidir.

Azərbaycan iqtisadiyyatında baş verən inkişaf vergi sistemində səmərəli islahatların aparılmasına, bu sahədə möbil və aktiv vergi siyasətinin həyata keçirilməsinə şərait yaratmışdır. 2003-2018-ci illər ərzində vergi sisteminin təşkilati-nəzarət potensialının daha da gücləndirilməsi, maddi-texniki təchizatının yaxşılaşdırılması, vergi inzibatçılığının bütün sahələrində müasir informasiya kommunikasiya texnologiyalarının tətbiqi, inzibati idarəetmənin keyfiyyətcə yaxşılaşdırılması və avtomatlaşdırılması sahəsində həyata keçirilən irimiqyaslı tədbirlər qısa müddətdə öz müsbət təsirini göstərmişdir.

2006-ci ildən başlayaraq Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertlərin həyata keçirilməsi nəticəsində vergi daxilolmalarının büdcə gəlirlərindəki xüsusi çəkisi azalmışdır. Əgər 2003-cü ildə vergi daxilolmaların büdcə daxilolmalarındakı xüsusi çəkisi 67,4% təşkil edirdisə, 2017-ci ildə bu göstərici 39% təşkil etmişdir.

2013-ci ilin yekununa görə tədiyyələr üzrə vergi daxilolmalarına diqqət yetirdikdə görərik ki, 2003-cü illə müqayisədə ən çox artım mənfəət vergisi və əlavə dəyər vergisi üzrə olmuşdur. İnvestisiyaları təşviq etmək, müəssisələrin istifadəsində qalan maliyyə vəsaitlərini artırmaq məqsədilə ötən 10 il ərzində mənfəət vergisinin dərəcəsi mərhələlərlə aşağı salınaraq, 2003-cü ildə 27 faizdən 25 faizə, 2004-cü ildə 24 faizə, 2006-cı ildə 22 faizə, 2010-cu ildən isə 20 faizə endirilmişdir. Vergi dərəcələrini azalması vergitutma bazasını genişləndirilməsinə, o cümlədən də mənfəət vergisi üzrə daxilolmaların artmasına səbəb olmuşdur. Beynəlxalq təcrübədə mənfəət vergisi dərəcəsinin azaldılması meylləri müşahidə edilir. Xüsusi ilə son dövrlər ABŞ-da mənffət vergisi dərəcəsinin azaldılması yüksək iqtisadi inkişaf meyllərinə səbəb olmuşdur. Digər tərəfdən isə kiçik və orta biznesin vergi yükünün azaldılması, elmi tədqiqat (R&D) işlərinə, bilik yönümlü kapitala (BYK) vergi kreditlərinin verilməsi ilə bağlı tədbirlərə üstünlük verirlər. Hal-hazırda bilik yönümlü kapital və onun vergiyə cəlb edilməsi müasir vergi siyasətinin ən mühüm istiqamətlərindən biridir.

Hal-hazırda dünyanın inkişaf etmiş ölkələrində verginin istehsaldan istehlaka ötürülməsi meylləri artmaqdadır. Mənfəət vergisinin dərəcələri aşağı salınmaqla dolayı vergilərin dərəcələri də qaldırılır. Gələcəkdə əmlak vergisinin potensial mənbə kimi rolunun artması da beynəlxalq təcrübədə əsas gözləntilərdən biridir. Azərbaycanda vergi sisteminin inkişafının növbəti mərhələsi olaraq vergi siyasəti vasitəsi ilə kölgə iqtisadiyyatının səviyyəsinin aşagı salınması vacib istiqamətlərdən biri kimi qeyd olunur. Gəlir vergisinin təkmilləşdirilməsi bu sahədə şəffaflığın əldə olunmasına təsir göstərəcəkdir.

## ƏDƏBİYYAT

1. Qarayev İ.Ə. Beynəlxalq təcrübədə vergi xərcləri və vergi güzəştlərinin tətbiqi. Azərbaycanın vergi jurnalı 2017, № 3
2. Garayev İ.A. Globalization and Tax policy. EcoMod 2017. İnternational Conference on Economic Modeling, Sloveniya 2017, p. 64-66
3. Musayev A.F. Moderləşdirmə və aktiv vergi siyasəti. Azərbaycanın vergi jurnalı, -2012, №6
4. Qarayev İ.Ə., Rəcəbov B.Ə., Rəsulova G.B. Vergi siyasəti və iqtisadi artımın stimullaşdırılması. Azərbaycanın vergi jurnalı, 2016, №1

5. Musayev A.F. Vergi siyasətinin iqtisadi problemləri. Bakı: 2004
6. Musayev A.F., Qarayev İ.Ə. Sosial siyasət və iqtisadi inkişaf. Azərbaycanın vergi jurnalı, 2013, №1
7. Musayev A.F., Qarayev İ.Ə. Elektron kommersiya və vergitutma. Azərbaycanın vergi jurnalı, 2013, № 2
8. Тарасов В.Ф., Владыка М.В., Сапрыкина Т.В., Семыкина Л.Н. Налоги и налогообложение. Учебник, Москва: 2012
9. Пансков В.Г. Налоги и налогообложение. Учебник, Москва: 2018
10. David Romer. Advanced makroeconomics. Second edition, Mc. Graw. Hill, 2013
11. OECD (2010) Tax Policy Reform and Economic Growth, OECD Tax Policy Studies, No. 20
12. Beck W., Laurent J., van der Macsen and Alan Walker. Social Quality: A Vision for Europe. Kluwer Law International, 2002
13. The Journal of Private Enterprise, The Impact of Economic Growth, Tax Policy and Economic Freedom on İncome İnequality, 24 (1), 2008, 23-31
14. OECD (2009) Transver Pricing Guidelines for Multinational Enterprises and Tax Administrators

## SUMMARY

**Imran Qarayev, Adalet Asadov**

## THE MODERN PROBLEMS OF TAX POLICY INFLUENCE TO SUSTAINABLE ECONOMIC DEVELOPMENT

Tax policy has been reviewed as the main regulatory mechanism for stimulating economic growth and its characteristics were investigated in the article. Theoretically and practically, the number of factors affecting the sustainable growth of economic growth is quite high. Considering this fact, the role of other factors beyond tax tools have also been taken into account in the process of forming an environment that stimulates economic growth. The author has analyzed the relationship between the dynamics of gross domestic product and the dynamics of tax revenues. The choice directions of tax policy used in international practice for stimulating economic growth has been reviewed. Features of the application of these choice directions on different types of taxes were also mentioned.

***Key words:*** *economic growth, tax policy, tax rates, tax burden, sustainable development*

## РЕЗЮМЕ

**Имран Караев, Адалат Асадов**

## СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ ВЛИЯНИЯ НАЛОГОВОЙ ПОЛИТИКИ НА УСТОЙЧИВОЕ ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ

В статье рассматривается налоговая политика как основной регуляторный механизм стимулирования экономического роста, и исследуются ее особенности. Теоретически и практически число факторов, влияющих на устойчивый рост экономического роста, достаточно велико. Учитывая этот факт, роль других факторов, помимо налоговых инструментов, также была учтена в процессе формирования среды, стимулирующей экономический рост. Автор проанализировал взаимосвязь между динамикой валового внутреннего продукта и динамикой налоговых поступлений. Рассмотрены направления выбора налоговой политики, используемые в международной практике для стимулирования экономического роста. Также были упомянуты особенности применения этих направлений выбора по различным видам налогов.

***Ключевые слова:*** *экономический рост, налоговая политика, налоговые ставки, налоговая нагрузка, устойчивое развитие.*

***Məqaləni çapa təqdim etdi:*** *İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *04 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *09 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 110-118
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 110-118
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 110-118

**GÜLNARƏ QURBANOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*

**UOT: 550.3-051; 550.3:331.108**

# MÜASİR DÖVLƏT İDARƏÇİLİYİNDƏ KADR POTENSİALININ HAZIRLANMASINDA ƏLAVƏ TƏHSİLİN ƏHƏMİYYƏTİ

*Məqalədə dövlət qulluğunda kadr potensialının formalaşdırılmasında təhsilin rolu öyrənilmişdir. Qeyd edilmişdir ki, dövlət qulluğunun peşəkar kadr potensialının formalaşdırılmasında dövlət qulluqçularının təhsilinin düzgün qurulması vacib əhəmiyyət kəsb edir.*

*Müasir dövrdə dünyada baş verən dəyişikliklər, mobilləşmə, informasiya-kommunikasiya texnologiyalarının inkişafı, innovativ texnologiyalar dövlət idarəçiliyinə də təsirsiz ötüşmür. Bu isə dövlət idarəçiliyində, eyni zamanda dövlət qulluğunda kadr potensialının mövcud tələblər səviyyəsində hazırlığının təmin edilməsi zərurətini ortaya qoyur.*

*Dövlət qulluqçularının təhsilindən bəhs edərkən iki mərhələ fərqləndirilir: qulluqdan əvvəlki və ixtisasartırma təhsili.*

*Dövlət qulluqçusu öz vəzifəsi üçün zəruri olan dəyişiklikləri, qanuvericiliklə bağlı yenilikləri, innovasiyaları və s. mənimsəməyə borcludur. Məhz bu mənada dövlət qulluqçusu çalışdığı dövrdə əlavə təhsil proqramlarına cəlb edilməlidir. Məqalədə milli qanunvericilikdə dövlət qulluğunda əlavə təhsillə bağlı əksini tapan normativ əsaslar təhlil edilmişdir.*

*Hazırda Azərbaycan Respublikasında dövlət qulluqçularının əlavə təhsili və ixtisasartırılması istiqamətində Prezident yanında Dövlət İdarəçilik Akademiyası mühüm rol oynayır. Bununla yanaşı, məqalədə dövlət qulluqçularının fasiləsiz peşəkar inkişafının təmin edilməsində dövlət orqanlarının nəzdində fəaliyyət göstərən tədris mərkəzlərinin fəaliyyətinin də dövrün tələblərinə uyğunlaşdırılması ilə bağlı mövcud vəziyyətin təhlili və görülməli olan işlər öz əksini tapmışdır.*

*Məqalədə dövlət idarəçiliyində kadr potensialının formalaşdırılmasında tədrisin əhəmiyyətinə dair beynəlxalq təcrübə təhlil edilir. Göstərilir ki, dünyanın bir çox ölkələrində dövlət hakimiyyəti orqanlarında işləmək üçün kadrlar hazırlayan, dövlət qulluqçularının peşə hazırlığını həyata keçirən xüsusi tədris mərkəzləri fəaliyyət göstərir ki, həmin tədris müəssisələrinin məzunları ən mühüm dövlət vəzifələrini tutmağa qabil olan elitanı təmsil edir.*

***Açar sözlər:** dövlət qulluğu, dövlət qulluqçusu, kadr potensialı, dövlət qulluqçularının əlavə təhsili, ixtisasartırma, dövlət idarəçiliyi*

Müasir dövlət idarəçiliyi sistemində dövlət qulluğunun peşəkar kadr potensialının formalaşdırılması qarşıda duran mühüm vəzifələrdəndir. Bu istiqamətdə əsas vasitələrdən biri dövlət qulluqçularının təhsilinin düzgün qurulmasıdır. Hazırda Azərbaycanda dövlət qulluğunda peşəkarlığın artırılması istiqamətində çoxaspektli işlər görülməkdədir.

Ölkədə dövlət qulluqçularının öz bilik və bacarıqlarını artırmaq, həmçinin yeni biliklər əldə etməsi üçün kifayət qədər imkanlar vardır. Bunun üçün xüsusilə dövlət qulluqçularının əlavə təhsili sistemi müvəffəqiyyətlə təşkil edilmişdir. Əlavə təhsil zamanı dövlət qulluqçularının nəzəri biliklərlə yanaşı, dövlət qulluğunda tətbiq olunan informasiya kommunikasiya texnologiyalarına yiyələnməsi istiqamətində də mühüm addımlar atılır. Dövlət qulluqçularının peşəkarlığının artırılması məqsədilə onlar öz təhsillərini xaricdə də davam etmək imkanlarına malikdirlər.

Azərbaycanda dövlət qulluğunda təhsilin bu günü və qarşıda duran vəzifələrin təhlili mühüm əhəmiyyətə malikdir. Həmçinin ölkədə dövlət qulluğu sistemində təhsilin təşkilində xarici təcrübənin də mühüm əhəmiyyəti vardır. Bu mənada, bir sıra aparıcı dövlətlərin dövlət qulluğu sistemində

reallaşdırılan əlavə təhsil və onun xüsusiyyətlərinin təhlili vacib aktuallıq kəsb edir.

**Dövlət qulluqçularının fasiləsiz peşəkar inkişafının təmin edilməsində təhsilin rolu**

Müasir dövrdə dövlət qurumlarında yeni çağırışlara cavab verən, peşəkar, yüksək səviyyəli ixtisaslı kadrlara ciddi ehtiyac vardır. Ümumilikdə dünyada gedən sürətli dəyişikliklər, mobilləşmə, informasiya-kommunikasiya texnologiyalarının inkişafı, innovativ texnologiyaların bütün sferalara nüfuz etməsi dövlət idarəçiliyində də adekvat reaksiya zərurətini ortaya qoyur. Bu mənada dövlət idarəçiliyində, dövlət qulluğunda kadr potensialının mövcud tələblər səviyyəsində hazırlığının təmin edilməsinin labüdlüyü ortaya çıxır. Bu isə dövlət qulluğunda təhsilin əhəmiyyətini göstərir.

Dövlət qulluqçularının təhsilindən bəhs edərkən iki mərhələ fərqləndirilir: qulluqdan əvvəlki və ixtisasartırma təhsili. Qulluqdan əvvəlki təhsil dedikdə şəxsin dövlət qulluqçusu statusuna yiyələnməzdən əvvəl aldığı təhsil nəzərdə tutulur. Əlbəttə ki, bu təhsil çox vacib olmaqla, insanın ümumi dünyagörüşünü, biliklərini, analitik bacarıqlarını və s. formalaşdırır.

Əlavə peşə təhsili isə dövlət qulluqçusunun qulluğa uyğunluğunu təmin etmək, səmərəliliyi artırmaq, gələcəkdəki vəzifə və öhdəliklərini daha vaxşı yerinə yetirməsi üçün onların bilik, təcrübə və bacarıqlarını artırmaq məqsədi güdən təhsil və təlim fəaliyyətidir [7, s. 43].

Dövlət qulluqçularının əlavə peşə təhsilinin məqsədi dövlət qulluqçularının fəaliyyətində səmərəliliyin artırılması, onlar tərəfindən nəzəri və praktiki biliklərinin əldə edilməsi və artırılması, qulluq funksiyalarının icrası ilə əlaqədar qabiliyyət və peşəkar vərdişlərin inkişaf etdirilməsi, dövlət qulluqçularının ümumi intellektual səviyyəsinin artırılmasıdır.

Dövlət qulluğunda əlavə təhsilin əhəmiyyətli tərəfləri sırasında dövlət orqanlarında keçirilən qiymətləndirmələr nəticəsində dövlət qulluqçularının əmək fəaliyyətindəki zəif tərəflərin tamamlanması və idarəetmənin müasir texnologiyalarına yiyələnməsi istiqamətində fəaliyyətin təmin olunmasıdır. Azərbaycanda bu çərçivədə dövlət orqanlarında ən müxtəlif təlim formalarından, o cümlədən əlavə kursların keçirilməsindən, seminar-müşavirələrdən və digər üsullardan istifadə olunur.

Ümumiyyətlə, dövlət qulluqçularının əlavə peşə təhsili dövlətin həm təhsil siyasətinin, həm də kadr siyasətinin xüsusi tərkib hissəsi olub mahiyyətcə eyni və məzmunca müxtəlif məqsədlərə xidmət göstərir. Bir tərəfdən bu, vətəndaşların dövlət qulluqçusu adına sahib olan təbəqəsinin fasiləsiz təhsil hüququnun təmin edilməsinə yönəldilmiş, digər tərəfdən, dövlətin kadr potensialını gücləndirmək, dövlət orqanlarını ixtisas sahibi olan kadrlarla təmin etmək baxımından dövlət qulluğunda xidmət göstərənlərin əlavə təhsil hüququnun həyata keçirilməsinə istiqamətləndirilmiş bir siyasətdir. Dövlət qulluğu sferası üçün peşəkarların kadr hazırlığı getdikcə incə və həm də mürəkkəb və məsuliyyət dolu bir məsələdir [6, s. 43].

Dövlət qulluqçularının tutduqları vəzifələrə uyğun olaraq öz bilik və bacarıqlarını artırmaları zəruridir. Belə ki, əgər hansısa dövlət qulluqçusu qəbul zamanı nəzərdə tutulan ümumi tələblərə cavab verərək qulluğa qəbul olduqdan sonra işlədiyi sahə üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsinə ehtiyac duyur. Dövlət qulluqçusu öz vəzifəsi üçün zəruri olan dəyişiklikləri, qanuvericiliklə bağlı yenilikləri, innovasiyaları və s. mənimsəməyə borcludur. Məhz bu mənada dövlət qulluqçusu çalışdığı dövrdə əlavə təhsil proqramlarına cəlb edilməlidir.

Azərbaycna Respublikasının "Dövlət qulluğu haqqında" Qanununda [1, 22-1] göstərilir ki, dövlət qulluqçusunun əlavə təhsili fasiləsiz təhsilin və peşə hazırlığının tərkib hissəsi olmaqla, peşə-ixtisas təhsilinin hər hansı pilləsini bitirmək haqqında dövlət sənədi olan hər bir dövlət qulluqçusunun (o cümlədən stajçı kimi və sınaq müddətinə qəbul edilmiş şəxslərin) fasiləsiz təhsil almaq imkanını təmin edir. Dövlət qulluqçusunun əlavə təhsil aldığı müddət onun qulluq stajına daxildir. Dövlət qulluqçusunun əlavə təhsil alması üçün aşağıdakılar əsasdır:

- dövlət qulluğunda daha yüksək vəzifəyə təyin edilməsi;
- dövlət qulluğunun ehtiyat kadrlarının siyahısına daxil edilməsi;
- dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi;
- dövlət qulluqçusunun şəxsi təşəbbüsü;
- dövlət qulluqçusunun əlavə təhsil alması həmin dövlət orqanının rəhbəri tərəfindən müəyyən edilir.

Göründüyü kimi, dövlət qulluqçusunun əlavə təhsil alması üçün bir sıra mühüm əsaslar müəyyən edilmişdir. Dövlət qulluqçusunun daha yüksək vəzifəyə təyin edilməsi zamanı, onun bilik

və bacarıqlarını artırması, təhsil səviyyəsini yüksəltməsi zəruridir. Bundan başqa, əgər dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi üzrə nəticələr qənaətbəxş deyildirsə, onun əlavə təhsili alması zərurəti ortaya çıxır. Dövlət qulluqçusunun şəxsi təşəbbüsü ilə əlavə təhsil almaq imkanın verilməsi də əhəmiyyətlidir. Belə ki, dövlət qulluqçusu öz vəzifə və peşəsinə uyğun şəkildə əlavə təhsilə ehtiyac duya bilər ki, bunun da reallaşdırılması imkanına sahib olması vacibdir.

Qanunda dövlət qulluqçularının əlavə təhsillərini ala biləcəyi qurum və müəssislərlə bağlı da müəyyən düzənləmələr nəzərdə tutulur. Belə ki, Qanunun 22-ci maddəsində göstərilir ki, dövlət qulluqçusunun əlavə təhsili ixtisasartırma və yenidənhazırlanma qurumlarında, peşə-ixtisas təhsili müəssisələrində yaradılmış müvafiq strukturlarda, stajkeçmə və peşə hazırlığı kurslarında və bu sahə üzrə fəaliyyətinə xüsusi razılıq verilmiş digər müəssisələrdə qanunvericiliklə müəyyən olunmuş istiqamətlərdə həyata keçirilir.

Hazırda Azərbaycan Respublikasında dövlət qulluqçularının əlavə təhsili və ixtisasartırılması istiqamətində Prezident yanında Dövlət İdarəçilik Akademiyası mühüm rol oynayır. Həmçinin dövlət idarəçilik sahəsi üçün mütəxəssislər hazırlanmasını və onların peşəkarlıq səviyyələrinin artırılmasında Akademiyanın müstəsna xidmətlər göstərir. Bundan başqa, Dövlət İdarəçilik Akademiyası öz nizamnaməsinə uyğun olaraq dövlət idarəçiliyi və dövlətin kadr siyasəti sahəsində elmi–tədqiqatlar aparır, dövlət vəzifələrində çalışan dövlət qulluqçularını, habelə onların əvəz edilməsi üçün ehtiyatı hazırlayır, yenidən hazırlayır, yaxud ixtisaslarını artırır, dövlət idarəçiliyi məsələləri üzrə dövlət hakimiyyət orqanlarının analitik informasiya təminatını həyata keçirir, dövlət qulluqçularının peşəkarlıq səviyyəsinə olan əsaslı tələblərin ekspertizasını keçirir [2].

“Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya”da dövlət qulluqçularının fasiləsiz peşəkar inkişafının təmin edilməsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının qarşısında duran vəzifələr öz əksini tapmışdır. Göstərilir ki, dövlət qulluqçularının peşəkar səviyyəsinin artırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət qulluqçularının əlavə təhsili sahəsində fəaliyyəti daha da təkmilləşdirilməlidir. Akademiyada qısamüddətli yenidənhazırlanma və ixtisasartırma proqramlarının sayı və çeşidi artırılmalı, təhsilin müasir metodlarından, elmi-texniki yeniliklərdən istifadə genişləndirilməlidir. Akademiyanın pedaqoji heyətinin nəzəri və praktiki bilikləri, habelə pedaqoji bacarıqları artırılmalıdır. Akademiya dövlət qulluğunda əlavə təhsil sisteminin səmərəliliyinin artırılması məqsədilə Şura və Mərkəz ilə qarşılıqlı fəaliyyət göstərməlidir.

Strategiyada dövlət orqanlarının nəzdində fəaliyyət göstərən tədris mərkəzlərinin fəaliyyətinin dövrün tələblərinə uyğunlaşdırılması məqsədilə tədbirlər planının hazırlanması, dövlət orqanlarının tədris mərkəzlərinin təcrübəsinin öyrənilməsi və onların gələcək fəaliyyəti ilə bağlı təkliflər hazırlanması, tədris mərkəzlərinin fəaliyyətinin əlaqələndirilməsi üçün koordinasiya qurumunun yaradılmasının zəruriliyi də öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, ölkədə dövlət idarəçiliyində və kadr hazırlığı prosesində innovasiyaların tətbiqi, həmçinin informasiya-kommunukasiya texnologiyalarının tətbiqi ən ümdə vəzifələrdəndir. Bu mənada dövlət orqanlarının nəzdində fəaliyyət göstərən tədris mərkəzlərində tədris prosesinin bu tələblər səviyyəsində qurulması vacibdir. Məhz Strategiyaya bu məqamların nəzərə alınması kadr potensialının mövcud tələblər səviyyəsində yenidən hazırlanmasına şərait yaradacaqdır. Bundan başqa, sözügedən tədris mərkəzlərinin fəaliyyətinin əlaqələndirilməsi üçün koordinasiya qurumunun yaradılması məsələsi də olduqca aktualdır. Çünki dövlət qurumlarında həyata keçirilən tədris prosesinin sistemli, koordinasiyalı həyata keçirilməsi, beləliklə də kadr hazırlığı sahəsində vahid strategiyaya uyğunluğun təmin edilməsi olduqca vacibdir.

Bundan başqa, Strategiyada ən zəruri məqamlardan olan dövlət qulluqçularının əlavə təhsilinin maliyyə təminatı sisteminin formalaşdırılmalı, o cümlədən dövlət orqanlarının büdcəsində əlavə təhsilin maliyyə mənbələrinin ayrıca bənddə nəzərdə tutulması da xüsusi olaraq vurğulanır.

Bu məqam dövlət qurumlarının dövlət qulluqçularının əlavə təhsili məsələsinə daha ciddi yanaşmasına, eyni zamanda bu prosesin davamlılığının və dayanıqlılğının təmin olunmasına müsbət təsir göstərəcəkdir.

Dövlət qulluqçularının peşəkar inkişafının keyfiyyətini artırmaq məqsədilə onların təlimə tələbatının öyrənilməsi mütəmadi qaydada həyata keçirilməli və dövlət qulluqçuları üçün təlim strategiyası hazırlanmalıdır [3].

Burada, fikrimizcə, dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi vacib rol oynayacaqdır. Belə ki, məhz qiymətləndirmə nəticələrinin təhlili kadrların təlimə tələbatı ilə bağlı konkret təkliflərin irəli sürülməsi üçün əsas olacaqdır.

Dövlət qulluqçularının peşəkarlığının və ixtisasartırmasını təmin etmək məqsədilə dövlət qulluqçusunun əlavə təhsil almaq üçün xarici ölkələrə ezam edilə bilməsi də "Dövlət qulluğu" haqqında Qanunda öz əksini tapmışdır ki, bu da xarici təcrübənin öyrənilməsi, innovativ yeniliklərlə tanışlıq baxımından mühüm əhəmiyyət kəsb edir.

Qanunun 22-1.7-ci maddəsində göstərilir ki, dövlət qulluqçusunun əlavə təhsili qulluqkeçmədən ayrılmaqla, qismən ayrılmaqla və ya ayrılmamaqla həyata keçirilir.

Dövlət qulluğu haqqında Qanunun 22-1.9-cu maddəsində isə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının və Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) aparatlarında, habelə 2-ci-5-ci kateqoriya dövlət orqanlarında ali hüquq təhsili tələb edən vəzifələrdə qulluq keçən dövlət qulluqçuları mütəmadi olaraq müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində peşə hazırlığına və ixtisasının artırılmasına cəlb edilməsini imperativ norma kimi müəyyən edilmişdir.

Beləliklə də görmək olar ki, "Dövlət qulluğu haqqında" Qanunda dövlət qulluqçusunun əlavə təhsili ilə bağlı konseptual çərçivə müəyyən edilmişdir. Burada təhsilin məqsədindən tutmuş təhsilin formasınadək bir çox məqamlar öz əksini tapmışdır. Bu isə dövlət qulluqçularının qulluq vəzifələrinin tələblərinə uyğun şəkildə inkişafına təminat verir.

"Dövlət qulluğu haqqında" Qanunun 22-1.8-ci maddəsinə müvafiq olaraq Nazirlər Kabineti tərəfindən "Dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı Qaydaları"[4] təsdiq edilmişdir ki, burada göstərilir ki, dövlət qulluqçularının əlavə peşə təhsilinin proqramları onların çalışdıqları sahə üzrə yenilikləri, texnikanın, texnologiyaların, hüququn, siyasətin, iqtisadiyyatın və elmin digər sahələrinin mövcud və perspektiv sahələrini əhatə etməli, təlimlərin hazırlanması və keçirilməsində qabaqcıl dünya və milli təcrübədən istifadə edilməlidir.

Göründüyü kimi, ölkəmizdə dövlət qulluqçularının əlavə təhsilində innovativliyin təmin edilməsi, İKT-nin imkanlarından yararlanılması və bu sahədə yeniliklərin daimi izlənilməsi və mənimsənilməsi, həmçinin hüquqi biliklərin dərinləşdirilməsi, kadrların siyasi şüurunun inkişaf etdirilməsi prioritet kimi müəyyənləşdirilmişdir.

Qaydalarda, həmçinin göstərilir ki, dövlət qulluqçularının yenidənhazırlanma və ixtisasartırma kursları keçməsi dövlət sifarişi əsasında həyata keçirilir. Dövlət orqanları peşə təhsili keçmə üçün dövlət büdcəsindən ayrılmış vəsaitə uyğun olaraq, cari il üçün əlavə peşə təhsili keçəcək (növü və forması göstərilməklə) dövlət qulluqçularının sayı və peşə təhsili keçirilməsi zəruri olan ixtisas və vəzifələrə dair məlumatları hər ilin may ayının sonuna qədər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim etməlidirlər. Mərkəz həmin məlumatlar əsasında dövlət sifarişini hazırlayaraq təsdiq edilmək üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

Bu isə dövlət orqanlarının öz əməkdaşlarının əlavə təhsilinə marağını daha da artırmaqla ümumilikdə dövlət qulluğunda təkmilləşmənin, peşəkar kadr bazasının formalaşmasına gətirib çıxarır. Bundan başqa, dövlət qurumlarına davamlı şəkildə öz kadrlarının ixtisasartırmasını təmin etmək imkanı yaratmış olur. Hazırda ölkədə dövlət qulluqçularının yenidənhazırlanma və ixtisasartırma prosesi uğurla həyata keçirilməkdədir.

Qaydalara görə, dövlət qulluqçusunun ixtisasartırma keçməsi - dövlət qulluqçusunun peşə və ixtisas üzrə biliklərinin artırılması məqsədi ilə həyata keçirilən qısamüddətli təlimlər (treninq, seminar və s.) və ya ixtisasartırma kursları şəklində təşkil edilən əlavə peşə təhsilidir.

Qaydalar ixtisasartırma ilə bağlı məsələləri də tənzimləyir. Belə ki, ixtisasartırma kurslarına daimi dövlət qulluğuna qəbul edilmiş dövlət qulluqçuları və ya dövlət qulluğuna qəbul edilmə (müsahibə yolu ilə) vaxtından 1 il keçmiş dövlət qulluqçuları göndərilə bilər.

Dövlət qulluqçusunun əlavə peşə təhsilinin müddəti ilə bağlı da tənzimləmə Qaydalarda əksini tapıb. Belə ki:

təcrübə keçmə üzrə: 15 günədək müddətdə;

ixtisasartırma keçmə üzrə: 4 ayadək müddətdə;

yenidənhazırlanma keçmə üzrə: təhsil başa çatanadək [4, maddə 12].

Məlum olduğu kimi, dövlət qulluqçusunun əlavə təhsilə cəlb edilməsi üçtərəfli prosesdir. Belə ki, burada qulluqçunu əlavə təhsilə göndərən dövlət təşkilatı, dövlət qulluqçusunun özü və təhsil müəssisəsi çıxış edir. Bu üç tərəf arasında qarşılıqlı münasibətlərin rəsmiləşdirilməsi ilə bağlı xarici təcrübə maraq kəsb edir. Belə ki, Avropanın Almaniya, Fransa kimi ölkələrində dövlət qulluqçusunun əlavə təhsili üzrə hüquq münasibətlərinin tərəflərinin - subyektlərin qarşılıqlı əlaqəsinin səmərəli sistemi formalaşmışdır. Tərəflərin öhdəlikləri, əsasən, müvafiq tədris proqramlarının hazırlanması, onun reallaşması mərhələsində hər bir tərəfin məsuliyyətini və əldə edilən biliklərin nəticəsi olaraq həmin mütəxəssislərdən səmərəli istifadəni müəyyən edən üçtərəfli inzibati müqavilə vasitəsi ilə təyin olunur. Sınaqdan keçmiş və səmərəli elementləri ilə diqqəti cəlb edən bu tip müsbət təcrübələrdən milli şərait nəzərə alınmaqla istifadə edilməsi təqdirə layiq olardı [8, s. 31].

**Kadr potensialının formalaşdırılmasında tədrisin əhəmiyyətinə dair beynəlxalq təcrübənin təhlili**

Dövlət qulluqçularının səriştəliliyinin və bacarığının daima yüksəldilməsi müasir dövlət qulluğunun vacib problemlərindəndir. Bu, hazırda bütün dünyada daim diqqət mərkəzindədir. Məsələn, İspaniya dövlət qulluğu sistemində xidmətə qəbul edilən işçilər işə başlamazdan əvvəl dövlət qulluqçularına təhsil verən müəssisələrində təlim keçirlər. Dövlət siyasəti, şəxsi bacarıqlar, dövlət menecmenti, dövlət liderliyi və s. geniş mövzuları əhatə edən təlimlərdə dövlət qulluqçuları qısamüddətli və ya uzunmüddətli kurslarda iştirak edirlər. Təhsil forması əyani, distant və qarışıq şəkildə keçirilir. Müxtəlif ixtisaslarla yanaşı, mütəmadi olaraq müxtəlif formalarda (intensiv, distant) xarici dil kursları təşkil edilir. Dil təlimləri ixtisaslara görə verilir.

Bir çox digər ölkələrdə də dövlət hakimiyyəti orqanlarında işləmək üçün kadrlar hazırlayan, dövlət qulluqçularının peşə hazırlığını həyata keçirən xüsusi tədris mərkəzləri fəaliyyət göstərir. Həmin tədris müəssisələrinin məzunları ən mühüm dövlət vəzifələrini tutmağa qabil olan elitanı təmsil edir. Məsələn, Almaniyada Ali İnzibati Elmlər Məktəbi, Fransada Milli İnzibati Məktəb, İngiltərədə Mülki Xidmət Kolleci, Çexiyada Ümumi İdarəçilik İnstitutu, Rusiya Federasiyasının Prezidenti yanında Dövlət Qulluğu Akademiyası belə təhsil müəssisələrindəndir. ABŞ-da da bir çox idarəetmə məktəbi vardır. Bunlardan biri də Harvard Universitetinin yanında fəaliyyət göstərən Kennedi adına məktəbdir. Bunlar öz xərclərini özləri ödəyir və yüksək səviyyəli dövlət qulluqçuları hazırlayırlar [5, s. 20-29].

Türkiyədə də dövlət qulluqçularının peşəkarlığının, bilik və bacarıqlarının yüksəldilməsi dövlət qulluğunda mühüm vəzifələrdən hesab edilir. Türkiyədə dövlət məmurlarının biliklərinə, bacarıqlarına və məmurların hazırlanmasına xüsusi fikir verilir. Burada dövlət qulluqçusu həm qulluqdan əvvəl, həm də qulluq dövründə təhsilini artırmaq məcburiyytindədir. Təhsil həm qulluq keçdiyi dövlət orqanında, həm də ölkədə fəaliyyət göstərən müvafiq təhsil mərkəzində həyata keçirilə bilər.

Türkiyənin Dövlət məmurları haqqında Qanununun (DMK) 214-cü maddəsində deyilir: "Dövlət məmurlarının təlimini təmin etmək, səmərəliliyini artırmaq və sonrakı vəzifələrə hazırlamaq məqsədi ilə həyata keçiriləcək karyera təhsili Dövlət Kadrlar Baş İdarəsi tərəfindən müvafiq qurumlarla birlikdə hazırlanacaq tənzimləmə çərçivəsində həyata keçirilir [10].

215-ci maddədə isə deyilir ki, hər bir dövlət qurumunda ixtisasartırma fəaliyyətinin təşkili, aparılması və qiymətləndirilməsinə cavabdeh olan "Tədris Mərkəzi" yaradılır.

Bəzi tədqiqatçılara görə, Türkiyədə dövlət qulluğunda personalın əlavə təhsilini təmin edən qanunverici əsaslar kifayət qədər olmasına baxmayaraq, heyətin təhsili ilə bağlı tətbiq olunan üsullar yetərli deyil. Çünki bu üsullar daha çox nəzəri səviyyəni əhatə edir və işçilərin bilik və bacarıqlarla təmin olunmasına effektiv təsir göstərmir. Buna görə də bəzi dövlət qurumları "işlətməklə öyrətmək" metodundan istifadə edirlər. Bu üsul digər üsullarla müqayisədə daha ucuz olduğu üçün dövlət qurumları tərəfindən üstünlük verilir [12, s. 14].

Qərbdə dövlət qulluqçularının yetişdirilməsi və onların ixtisaslaşma təhsili ilə bağlı iki ənənəvi model diqqəti cəlb edir. Bunlardan biri kontinental Avropa, digəri isə ABŞ və İngiltərənin liderlik etdiyi anqlo-sakson modelləridir.

Kontinental Avropa modeli üzrə idarəetmə kadrlarının yetişdirilməsinin ilk nümunəsi, kameralist idarəetmə anlayışı ilə 1729-cu ildə Prussiya universitetlərində qurulan "Kameral elm kafedraları" hesab edilir.

Kameralist kafedralarında təhsilin əsas qayəsi dövlətlə bağlı təməl bilikləri öyrətməkdən ibarət idi. Burada əsas məsələ "Güclü dövlət necə yaranır və nə edir?" sualına cavabın tapılmasından ibarət idi. Sosial rifahın yalnız güclü bir dövlət qurumunun olması ilə mümkün ola biləcəyini müdafiə edən kameralistlər dövlətin iqtisadi, siyasi və maliyyə sahələrində funksiyaları və vəzifələrini müəyyənləşdirməyə çalışırdılar [13, s. 406].

Prussiyada formalaşmış idarəetmə məktəbi anlayışı getdikcə bütün Avropaya və o cümlədən Fransaya sirayət etmişdir. Fransada bu model daha da təkmilləşərək yeni idarəetmə anlayışı və kadr yetişdirilməsi sistemi olaraq bütün kontinental Avropa üçün nümunə təşkil etmişdir.

Onu da qeyd etmək yerinə düşərdi ki, Fransadakı idarəetmə mexanizminin əsas elementlərindən biri bürokratik quruluşdur. Əslində "Grand Corps" adlanan yüksək səviyyəli dövlət idarəçiləri bu ölkədə idarəetmə sisteminin əsas təyinedicisi olaraq göstərilir. Məşhur fransız mütəfəkkiri Diamentin "Cümhuriyyət müvəqqəti, idarəetmə isə daimidir" fikri Fransada bürokratiyanın yeri və əhəmiyyətini aydın şəkildə izah edir. Məhz Fransada tarixən tez-tez təkrarlanmış ictimai-siyasi qeyri-sabitliyə baxmayaraq, dövlətin sabitliyini təmin edən ən vacib amilin məhz bürokratiya olduğunu ortaya qoyur.

Ümumiyyətlə, müasir dövrdə kontinental Avropa idarəetmə kadrları yetişdirmə məktəbi dedikdə ilk növbədə Fransa diqqəti cəlb edir. Fransada xüsusilə də İkinci Dünya müharibəsindən sonra yaradılmış Milli İdarəetmə Məktəbi və Paris və digər şəhərlərdə meydana çıxan Siyasi Elmlər İnstitutları ölkədə idarəetmə kadrlarının yetişdirilməsi ilə məşğul olmağa başlamışlar. Hazırda Fransada dövlət qulluğu işçiləri üçün təlim keçən 70-ə yaxın idarəetmə məktəbi mövcuddur [14].

Tədqiqatçı Çiner qeyd edir ki, Fransada, II Dünya Müharibəsindən sonrakı dövrdə dövlət məmurlarının təhsili texniki bir siyasət olaraq irəli sürülmüşdür. Bunu Fransa dövlət idarəetməsində baş verən düşüncə dəyişikliyi ilə izah edən araşdırmaçı göstərir ki, 19-cu əsrdən bəri hüquq baxımından yanaşılan inzibati idarəetmə fenomeninə, zaman keçdikcə texniki baxış formalaşmış və onun öyrədilməsi ehtiyacı yaranmışdır [9, s. 51-71].

Qeyd edək ki, Fransadakı təhsil sistemi üç səviyyədən ibarətdir: ibtidai, orta və ali. Fransanın ali dövlət və özəl təhsil müəssisələri iki kateqoriyaya bölünür:

• Universitetlər

•"Grande Ecole" və ya "Məşhur məktəblər" (elit, ixtisaslaşmış universitetlər). Fransada 83 dövlət universiteti var. Universitetlərə daxil olmaq üçün bakalavr diplomu tələb olunur. Dövlət İdarəetməsi ilə bağlı lisenziyalı proqrama sahib olan və təhsil verən universitetlərdə tədris olunan bəzi əsas mövzular aşağıdakılardan ibarətdir [15]:

• Konstitusiya Qanunu: V Respublika institutları və rejimi;
• İnzibati hüquq: inzibati qurumlar, ümumi inzibati hüquq, dövlət qulluğu və digər ümumi qanunlar;
• Ümumi iqtisadiyyat və iqtisadi düşüncə tarixi;
• İqtisadi siyasətlər;
• Avropa və Birlik hüququ;
• Siyasi Düşüncə Tarixi;
• Siyasi Elm;
• İnformatika;
• Beynəlxalq münasibətlər və cari beynəlxalq problemlər;
• Mövcud siyasi və sosial məsələlər;
• Dövlət maliyyəsi;
• Xarici dil (ingilis, alman və ya ispan) ;
• Ümumi mədəniyyət, ictimai hüquq və iqtisadiyyat.

Dövlət idarəçiliyində təhsil və təlim prosesində növbəti model olan anglo-sakson modelində, əsasən, ABŞ və İngiltərə təcrübəsi diqqəti cəlb edir. Hər iki ölkənin idarəetmə, bürokratiya sisteminin oxşarlığı vardır.

ABŞ-da dövlət kadrlar sistemi karyera prinsipinə əsaslanır və "Kadr və İdarəetmə Ofisi" tərəfindən idarə olunur. Bu qurum 1978-ci ildə "Dövlət Qulluğu Komissiyası"nın əsasında qurulmuşdur. Onun əsas vəzifəsi peşəkar kadrların iş şəraitini və işə qəbulla bağlı əsas ixtisasları müəyyən etməkdən ibarətdir. Bürokratiyanın ümumi quruluşu daxilində vəzifədə irəli çəkilmə və vəzifədən azad edilməsi prinsiplərini müəyyən etmək üçün cavabdeh olan qurum Fəxri Müdafiə Şurasıdır. Təhsil səviyyələrinə görə fərqlənən namizəd dövlət məmurları 7-ci dərəcəyə qədər dövlət qulluğunda irəliləyə bilərlər. Lakin qulluqda daha yüksək vəzifələrə qəbul çətinləşdirilmişdir. Onlara yalnız universitet məzunları qəbul edilə bilər. Hüquq üzrə magistr dərəcəsinə sahib olanlar dövlət qulluğu imtahanlarından azad edilirlər. 15 illik dövlət qulluğunda iş təcrübəsindən sonra daimi dövlət qulluğu hüququ əldə edilir.

İngiltərədə də dövlət idarəçilərinin, qulluqçularının hazırlanması, təhsili və vəzifəyə təyin edilməsi prosesində ABŞ nümunəsinə bənzər bir mexanizm mövcuddur. Dövlət qulluğu sistemi ilə bağlı yazılı bir tənzimləmə olmadığı üçün dövlət qulluqçularının seçilməsi və təyin olunmasında əvvəlcədən müəyyən edilmiş qaydalara uyğun hərəkət etmək mümkün deyildir.

Ancaq bu, xaotik və özbaşına təcrübələrin tətbiq edildiyi demək deyildir. Məlum olduğu kimi, İngiltərə yazılı Konstitusiyası olmayan, lakin konstitusiya problemləri ən az gündəmə gələn və konstitusiya quruluşunun ən yaxşı şəkildə qorunub saxlanıldığı ölkələrdən biridir. Eynilə, qeyd etmək lazımdır ki, dövlət kadr potensialı və dövlət qulluqçularının təhsili, vəzifələrə təyin edilməsi proseslərində də "açıqlıq", "ləyaqət" və "bərabərlik" prinsiplərinə riayət olunur [11].

Beləliklə də, dünyanın aparıcı dövlətlərinin təcrübəsinin təhlili belə qənaətə gəlməyə imkan verir ki, dövlət qulluqçularının potensialının artırılmasıvə bu potensialdan səmərəli istifadə edilməsi, həmçinin informasiya-kommunikasiya texnologiyalarından istifadə bacarıqlarının artırılması naminə dövlət qulluqçularının əlavə təhsili daim diqqət mərkəzindədir.

Bütün bunlar bir daha onu göstərir ki, dövlət qulluğunda başlıca vəzifələrindən biri peşəkar dövlət qulluqçularının formalaşdırılmasından ibarətdir. Peşəkar kadr potensialı isə dövlət qulluğunun qarşısında duran vəzifələrin daha keyfiyyətli və çevik şəkildə həllinə imkan verir. Həm Azərbaycan-da, həm də dünyanın aparıcı ölkələrində dövlət qulluğunun peşəkar kadr potensialının formalaşdırıl-ması məqsədilə dövlət qulluqçularının təhsili vacib əhəmiyyət kəsb edir. Dövlət qulluqçuları qulluq fəaliyyətinə qəbul edildikdən bəlli bir zaman ərzində fəaliyyətə başladıqları dövlət orqanının fəaliy-yətinə aid bu və ya digər biliklərin əldə edilməsi və ya təkmilləşdirilməsi məqsədilə təhsilə cəlb edilir.

Belə ki, dövlət qulluqçusu qulluğa qəbul olduqdan sonra işlədiyi sahə üzrə bilik və bacarıq-larının təkmilləşdirilməsinə ehtiyac duyur. Dövlət qulluqçusu öz vəzifəsi üçün zəruri olan dəyişiklikləri, qanuvericiliklə bağlı yenilikləri, innovasiyaları və s. mənimsəməyə borcludur. Hazırda bu təhsilin həm ölkəmizdə, həm də xarici təcrübədə müxtəlif üsul və formaları istifadə edilir.

## ƏDƏBİYYAT

1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: 2000
2. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı: 1999
3. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya" 2018-ci il 23 noyabr tarixli Sərəncamı / http://www.e-qanun.az/framework/40748
4. "Dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı Qaydaları". Bakı: 2009. / http://www.e-qanun.az/alpidata/framework/data/16/f_16444.htm
5. Həsənov M., Quliyev H.: Azərbaycan Respublikasında dövlət qulluqçularının təhsili və beynəlxalq təcrübə. Geostrategiya 2019 №6 (54), Bakı, 2019, s. 20–29/ http://geostrategiya.az/pdf/2019 /0654nd19.pdf

6. Qəndilov S. Dövlət idarəçilik nəzəriyyəsi. Dərslik. Bakı: Elm və təhsil, 2010
7. Rəhimli R. Azərbaycanda dövlət qulluqçularının hazırlanması. AMEA-nın Naxçıvan bölməsinin xəbərləri. İctimai və humanitar elmlər seriyası. 2017. № 3
8. Səfərov R.A. Dövlət qulluğu. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2014. 228 s.
9. Çiner C.U., 2012. Sömürgecilikten İşbirliğine Kamu Yöneticilerinin Yetiştirilmesi: Ulusal Yönetim Okulu (ENA) Deneyimine Farklı Bir Bakış. Amme İdaresi Dergisi, 45(4), pp. 51-71.
10. Devlet Memurları Kanunu, Resmi Gazete, 12056, 23.07.1965 https://www.mevzuat.gov.tr/MevzuatMetin/1.5.657.pdf
11. Tahir BAYSAL. Türkiye'de Kamu Yöneticilerinin Yetiştirilmesi, Sorunlar ve Çözüm Önerileri https://dergipark.org.tr/tr/download/article-file/269307
12. Gül Hüseyin, (2000), "Türkiye'de Kamu Yönetiminde Hizmet İçi Eğitim", Dokuz Eylül Sosyal Bilimler Enstitüsü Dergisi, Cilt 2, Sayı 3, İzmir
13. Kalfa Ceren, (2011), "Kamu Yönetimi Disiplininin Gelişimi ve Kimlik Tartışmaları", Süleyman Demirel Üniversitesi İ.İ.B.F. Dergisi, Cilt 16 Sayı:1, s. 406. (ss. 403–417).
14. Kolisnichenko, N., 2002. National Organizational Arrangements For Delivering Public Administration Education And Training, s.l.: UN and Odessa Regional Institute of Public Administration.
15. https://www.academia.edu/17343760/FRANSA_DA_KAMU_SEKT%C3%96R%C3%9CNE_YC3%96NET%C4%B0C%C4%B0_YET%C4%B0%C5%9ET%C4%B0REN_BA%C5%9ELICA_KURUMLAR

## SUMMARY

**Gulnara Gurbanova**

## THE IMPORTANCE OF ADDITIONAL EDUCATION IN THE TRAINING OF THE SPECIALISTS' RESOURCE IN MODERN PUBLIC ADMINISTRATION

The article explores the role of education in the formation of the specialists' resource in the civil service. It was noted that the proper organization of education of civil servants is important in the formation of the specialists' resource of the civil service.

As regarding the education of civil servants, two stages are differed: pre-service and postgraduate training.

The civil cervant must own necessary changes and innovations related to legislation. In this sense, a civil servant should be involved in additional education programs while working.

At present, the Academy of Public Administration under the President of Azerbaijan Republic plays an important role in the direction of additional education and advanced training of civil servants in Azerbaijan.

In many other countries, there are special training centers that train personnel to work in public authorities and provide professional training to civil servants. Graduates of these educational institutions represent the elite capable of holding the most important public positions.

***Key words:*** *civil service, civil servant, the specialists' resource, additional education of civil servants, professional development, public administration*

## РЕЗЮМЕ

**Гюльнара Гурбанова**

## ВАЖНОСТЬ ДОПОЛНИТЕЛЬНОГО ОБРАЗОВАНИЯ В ПОДГОТОВКЕ КАДРОВ В СОВРЕМЕННОМ ГОСУДАРСТВЕННОМ УПРАВЛЕНИИ

В статье исследуется роль образования в формировании человеческих ресурсов на государственной службе. Было отмечено, что правильная организация обучения государственных служащих имеет важное значение в формировании профессионального кадрового потенциала государственной службы.

Когда речь идет об образовании государственных служащих, существует два этапа: предварительное обучение и переподготовка.

Государственный служащий обязан вносить изменения, необходимые для его должности, нововведений, нововведений, связанных с законодательством, и другие обязан освоить. В этом смысле государственный служащий должен участвовать в программах дополнительного образования во время работы.

В настоящее время Академия Государственного Управления при Президенте Азербайджанской Республики играет важную роль в области дополнительного образования и повышения квалификации государственных служащих в Азербайджанской Республике.

Во многих других странах существуют специальные учебные центры, которые готовят персонал для работы в органах государственной власти и проводят профессиональную подготовку государственных служащих. Выпускники этих учебных заведений представляют собой элиту, способную занимать самые важные государственные должности.


***Ключевые слова:*** *государственная служба, государственный служащий, кадровый потенциал, дополнительное образование государственных служащих, повышение квалификации, государственное управление*

***Məqaləni çapa təqdim etdi:*** *İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *04 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *09 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 119-126
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 119-126
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 119-126

**УЛЬФАТ МЕХДИЕВ**
*Академия Государственного Управления при Президенте Азербайджанской Республики*

**UOT: 550.3-051; 550.3:331.108**

# ГЛОБАЛЬНЫЕ ЦЕЛИ УСТОЙЧИВОГО РАЗВИТИЯ КАК ПЛАТФОРМА ДЛЯ ЧЕЛОВЕЧЕСКОГО РАЗВИТИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

*В научной статье обосновывается, что глобальные усилия в области устойчивого развития нашли свое продолжение в принятии новой программы на период до 2030 года, основу, которой составляют 17 универсальных Целей устойчивого развития (ЦУР) создания экономических, социальных и экологический условий для достойного проживания всех и каждого и развития человеческого потенциала. Азербайджанская Республика приступила к реализации Целей устойчивого развития, принимая достижение ЦУР как основной приоритет стратегии развития страны, который создаст экономически обоснованные, социально ответственные и экологически безопасные условия для развития человеческого потенциала в стране для последующей трансформации части его в человеческий капитал.*

*В научной статье раскрываются принципы и механизмы реализации ЦУР на глобальном уровне, их преемственная связь с Целями Развития Тысячелетия, проводится анализ концепции человеческого развития с ЦУР. В статье описываются основные приоритеты и направления реализации ЦУР в Азербайджане, начиная с разработки комплекса мероприятий, направленных на институциональное формирование государственного органа, отвечающего за реализацию ЦУР в стране, комплексной оценки национальных программ и стратегий и их соответствия с Глобальными ЦУР, этапами формирования национальной системы мониторинга и отчетности по ЦУР. Важным этапом в реализации ЦУР является международное признание и сотрудничество с Программой Развития ООН, результатом которой стали одобренные Бакинские Принципы, успешно представленные Добровольные Национальные Обзоры, представленные Политическому форуму высокого уровня по устойчивому развитию в 2017 году и в 2019 году. В статье подтверждается приверженность Азербайджанской Республики в последовательной реализации целей устойчивого развития, ее полному соответствию глобальным ЦУР и как следствие всестороннему развития человеческого потенциала.*

***Ключевые слова:*** *устойчивое развитие, Азербайджан, человеческий потенциал, человеческое развитие, ЦУР, глобальное развитие*

## Введение

Цели Развития Тысячелетия, сформулированные в Декларации Тысячелетия, стали важной платформой для развития человеческого потенциала, и по ряду Целей в мире был достигнут значительный прогресс, в частности, снижение уровня бедности в мире почти вдвое. Однако этот прогресс был неравномерным и некоторые Цели так и не были достигнуты. Кроме того, возникли новые трудности в области развития, варьирующиеся от неравенства до изменения климата, от эпидемий до безрассудной миграции, от конфликтов до экстремизма с применением насилия. Но не смотря на это, Азербайджанская Республика смогла обеспечить устойчивость развития. В представленной научной статье рассматриваются элементы глобальных целей устойчивого развития и стратегия развития Азербайджана.

## Глобальное устойчивое развитие

Обновленное глобальное партнерство в интересах устойчивого развития, предполагающее участие всех стран, прежде всего, необходимо для мобилизации средств направленных

для осуществления Повестки 2030 и ориентированно в первую очередь на поддержку наиболее уязвимых групп населения. Взаимосвязь этих важнейших пяти компонентов создает основу для разработки стратегий, позволяющих достичь подлинного устойчивого развития [8].

Основу Повестки 2030 и ЦУР составляют ряд принципов.

***Рисунок 1.*** *Основные принципы Повестки дня в области устойчивого развития на период до 2030 года и ЦУР*

| Принципы | ЦУР |
|---|---|
| **1. Универсальность** | Повестка 2030 и ЦУР применимы ко всем странам с учетом разных национальных реалий, возможностей и уровней развития и охватывают как развитые, так и развивающиеся страны. |
| **2. Комплексность и неделимость** | ЦУР - это единый и взаимосвязанный комплекс, не допускающий обособленную реализацию отдельных целей и обеспечивающий сбалансированность всех трех составляющих устойчивого развития. |
| **3. Развитие для всех и каждого** | ЦУР охватывают все страны и все слои общества, в первую очередь самых уязвимых групп, включая детей, молодежь, инвалидов, ВИЧ-инфицированных, престарелых, коренных народов, беженцев, внутренне перемещенных лиц и мигрантов. Никто не должен быть забыт. |
| **4.Инклюзивность** | Участие в реализации ЦУР представителей всех слоев общества независимо от расы, пола, принадлежности. Это Повестка людей, созданная людьми и для людей. |
| **5. Национальная ответственность** | Каждая страна несет главную ответственность за согласованную стратегию и политику в области устойчивого развития, при неукоснительном соблюдении соответствующих международных правил и обязательств. |

***Источник****: составлено автором по [10]*

Система ЦУР сохранила методический подход ЦРТ и также имеет трехуровневую структуру. Для достижения 17 ЦУР было определено 169 задач, сформулированных в форме пожеланий, при этом каждое правительство устанавливает свои собственные национальные задачи, руководствуясь глобальными ориентирами. Для измерения ЦУР и связанных с ними задач, Международной группой экспертов по показателям достижения ЦУР была разработана система глобальных показателей. В июле 2017 года Генеральная Ассамблея ООН утвердила 232 (244) глобальных показателя для оценки хода осуществления Повестки 2030, в качестве инструмента, применяемого странами добровольно и по их усмотрению и могут дополняться самостоятельно разработанными национальными показателями [5].

Система глобальных показателей ЦУР ориентирована на экономические, социальные, экологические измерения и предполагая их сбалансированность в равных долях, также включает средства осуществления [8]. Планируются ежегодные уточнения показателей на предмет соответствия измерениям прогресса в достижении целей и дважды (в 2020 и 2025 году) предусмотрен пересмотр показателей для рассмотрения и принятия решения на сессиях Статистической комиссии ООН.

Заслуживает внимания беспрецедентная система мониторинга реализации Повестки 2030 и ЦУР, действующая на национальном, региональном и глобальном уровнях по принципу добровольных обзоров и по инициативе самих стран [8].

На глобальном уровне главная роль в контроле за процессами реализации Повестки 2030 и проведения обзора возложена на Политический форум высокого уровня по устойчивому развитию (ПФВУ)**.** Форум был создан в 2012 году в соответствии с Итоговым документом Конференции Рио+20 и заменил Комиссию ООН по устойчивому развитию, которая существовала с 1993 года.

***Рисунок 2.*** *Аналитическая связь между концепцией человеческого развития и Целями в области устойчивого развития*




***Источник:*** *составлено автором по [4]*

Анализируя содержание и принципы ЦУР, нельзя не заметить связь между концепцией человеческого развития и ЦУР, как и в случае с ЦРТ, которая состоит, прежде всего, в том, что во главе угла стоит развитие человеческого потенциала.

За четыре года, прошедшие с момента подписания Повестки дня в области устойчивого развития на период до 2030 года, многие страны приняли меры, направленные на интеграцию ее целей и задач в свои национальные планы развития, а также на реализацию программных и организационных мероприятий для их претворения в жизнь. [3]

Переходу на модель устойчивого развития в значительной мере способствовало принятие и реализация Концепции Развития «Азербайджан 2020: перспективы на будущее», утвержденной Указом Президента Азербайджанской Республики в 29 декабре 2012 года.

Основными приоритетами Концепции являются: формирование высококонкурентной экономики; развитие информационных и коммуникационных технологий и обеспечение перехода к информационному обществу; развитие человеческого капитала и построение эффективной системы социальной защиты; совершенствование законодательства и создание институционального потенциала; развитие гражданского общества; сохранение и эффективное управление культурным наследием; обеспечение охраны окружающей среды и экологического баланса. [1]

Определение национальных приоритетов в области устойчивого развития и связанных с ними показателей ЦУР, обеспечение согласования государственных программ и стратегий в социально-экономической сфере страны с ЦУР, а также подготовка и представление добровольных национальных обзоров (ДНО) руководству страны и Политическому форуму высокого уровня (ПФВУ), были определены в качестве основных задач НКСУР. Для координации НКСУР был создан постоянный Секретариат и четыре рабочие группы по экономическому развитию и достойной занятости, социальным вопросам, экологическим проблемам, мониторингу и оценке. [16]

Указом Президента Азербайджанской Республики в декабре 2016 года были утверждены 12 стратегических планов развития национальной экономики «дорожные карты» на период до 2025 года и 11 приоритетных секторов. Стратегические дорожные карты - это программные документы, которые провозглашают новую модель развития страны после нефтяной эпохи, основанной на концепции устойчивого развития страны, способствующей достижения ЦУР. [12]

Мероприятия по национализации Повестки 2030 начались с оценки национальных и отраслевых программ и других программных документов в области развития, которые осуществляются или планируются к утверждению на предмет их соответствия глобальным ЦУР и их задачам.

В этих целях, на основе подхода быстрой комплексной оценки (БКО), проведенной НКСУР в 2016 году при поддержке странового и регионального отделений ПРООН, была

оценена степень готовности страны к достижению ЦУР. Были оценены более 50-ти текущих и находящихся в стадии разработки государственных и отраслевых стратегий, программ и планов действий в области развития. [12] По результатам БОК степень интегрированности ЦУР в стратегические и программные документы в 2016 году составляла в пределах 58%. Важно отметить, что БКО отражает степень соответствия задач ЦУР в документах, а не степень их достижения.

***Рисунок 3.*** *Результаты быстрой комплексной оценки соответствия национальных программ развития глобальным задачам* ЦУР (%)




*Источник: [12]*

Как показано на Рисунке 3. было выявлено полное соответствие с ЦУР 5 (гендерное равенство), по 9-ти ЦУР наблюдается высокий уровень соответствия (от 60% до 80%). Более низкое соответствие 7-ми ЦУР (от 18% до 42%) определяет необходимость усиления дальнейших мер по их интеграции. Кроме того, на рисунке также можно проследить взаимосвязь ЦУР друг с другом.

Очевидно, что по мере согласования методологии на глобальном уровне и определения национальных источников данных, процесс формирования показателей будет продолжаться. НКСУР был разработан Национальный механизма мониторинга ЦУР в стране, этапы формирования которого представлены на рисунке.

Как следует из приведенной схемы Национальная система мониторинга и отчетности по ЦУР состоит из двух основных элементов: интеграции показателей ЦУР в документы системы государственного планирования и официальных статистических данных. Кроме того, статистические отчеты различных отраслевых министерств и ведомств, предоставляемые в ГКС, также могут служить источниками данных по ЦУР.

По результатам исследования был подготовлен обстоятельный отчет с рекомендациями в контексте подхода MAPS (подход по страновой поддержке ЦУР Группы Развития ООН), который после согласования с НКСУР, Секретариатом и рабочими группами, с учетом предложений был представлен правительству страны. Отчет MAPS был одобрен правительством и принят в качестве руководящего документа для планирования и реализации государственными органами программ по достижению ЦУР. Следуя рекомендациям миссии MAPS, в настоящее время разрабатывается проект новой Национальной стратегии развития на период до 2030 года, с учетом национальных ЦУР и задач [12].

***Рисунок 4.*** *Этапы формирования Национального механизма мониторинга ЦУР*




*Источник: [2]*

**Реалтзация ЦУР в Азербайджанской Республики**

Важно отметить, что согласно оценки соответствия глобальных ЦУР стратегии развития Азербайджанской Республики, ООН определила для нашей страны соотношение ЦУР в приоритетных областях развития, из числа 169 глобальных задач.

***Рисунок 5.*** *Соотношение глобальных задач ЦУР в приоритетных областях развития для Азербайджана (%)*




*Источник: [12]*

Данные оценки, приведенные на Рисунке 5. свидетельствуют о том, что в государственных программ и других стратегических документах, принятых в нашей стране, три измерения устойчивого развития сбалансированы, при этом и в центре внимания находится благополучие людей.

Наряду с описанным выше процессом национализации ЦУР, в стране проводились мероприятия по повышению всеобщей осведомленности в области ЦУР и значении участия всех слоев общества в их достижении.

Также были реализованы инициативы, в области сотрудничества и партнерства, в их числе:

- Международный Форум по устойчивому развитию организованный в 2018 году, с участием представителей из 30 стран; по итогам которого были приняты Бакинские принципы лучшей реализации ЦУР;

- Национальный конкурс инноваций, который проводится третий год с целью поиска

инновационных и практических решений для достижения ЦУР.

Эти и многие другие инициативы были организованы в сотрудничестве со страновым офисом ПРООН в рамках проекта «Поддержка реализации Национальной стратегии ЦУР». [12]

Продвижению ЦУР не в малой степени способствует оценка социально-экономических достижений Азербайджана в международных рейтингах. Согласно Отчету Всемирного банка «Doing Buisness 2019» Азербайджан вошел в десятку лучших реформаторов и был признан страной с наивысшей степенью реформ, заняв 25-е место среди 190 государств мира. [12]

Реализация принятых обязательств по Повестки 2030, процесс национализации ЦУР с учетом приоритетов страны, имеющиеся препятствия и дальнейшие действия по ускорению были отражены в двух Добровольных национальных обзорах (ДНО), представленных Политическому форуму высокого уровня по устойчивому развитию в 2017 году и в 2019 году.

В ДНО особо подчеркивается, что главной проблемой успешной реализации Повестки 2030 остается Нагорно-Карабахский конфликт между Арменией и Азербайджаном, представляющий серьезную угрозу миру, безопасности и сотрудничеству на Южном Кавказе. В результате конфликта более миллиона беженцев и вынуждено перемещенных лиц лишены права на достойную жизнь, в связи с чем, реализация ряда ЦУР в соответствии с принципом «никого не оставлять позади» для Азербайджана остается невыполнимой в полной мере. [12]

Резюмируя вышесказанное, важно отметить, что глобальные ЦУР во многом согласуются со стратегией развития Азербайджанской Республики и могут стать концептуальной основой для решения национальных задач, лучшим тому подтверждением является разработка в настоящее время проекта Национального плана действий (стратегия 2030) для улучшения координации политики и ускорения достижения ЦУР, а также для более эффективного использования существующих ресурсов.

Проведенное аналитическое исследование процесса национализации глобальных ЦУР, определило ряд направлений, которые способствовали бы ускорению достижения поставленных задач, в частности:

- формирование интегрированного межсекторального подхода к достижению ЦУР, согласованного на уровне целей и показателей;
- повышение осведомленности на всех уровнях и расширение конструктивного диалога с различными слоями общества на национальном и региональном уровнях, что будет способствовать выбору качественных показателей для отслеживания прогресса достижения ЦУР;
- дальнейшие усилия по ускорению развития и диверсификации ненефтяных секторов национальной экономики, повышению эффективности социальных услуг (социально ориентированная экономика) и укрепление экологической безопасности (зеленая экономика).

Подводя итоги, важно отметить, что что глобальные усилия современного мира в области развития сосредоточены на «достижение равных возможностей, позволяющий в полной мере раскрыть человеческий потенциал» [9].

В концепции человеческого развития высокоразвитый благополучный человек - это цель, а обеспечение его благосостояния-конечная и единственная задача развития, человеческий потенциал рассматривается не как средство достижения благосостояния людей, а как обязательный компонент их благосостояния. Именно поэтому структурные элементы человеческого развития явились аналитическим фундаментом для Декларации тысячелетия и Целей развития тысячелетия и сформировали и Повестку дня в области устойчивого развития на период до 2030 г. и Целей в области устойчивого развития.[4]

**Заключение.** Азербайджанская Республика, добившись значительного прогресса в достижении ЦРТ и ЦУР, следуя принципу национальной ответственности Повестки 2030, планомерно и последовательно создает экономически обоснованные, социально ответственные и экологически безопасные условия для развития человеческого потенциала страны для последующей трансформации части его в человеческий капитал. Концепцией человеческого развития сформулирован качественно новый подход к пониманию общественного прогресса, который основан на развитии способностей и потребностей человека для его самореализации и

развитии человеческого потенциала. Индекс человеческого развития (ИЧР) является стратегическим инструментом концепции человеческого развития, оценивающим уровень достижений стран по трем основным направлениям в области развития человека: состояния здоровья, получения образования, фактического дохода граждан. Благодаря достигнутым успехам в области развития человеческого потенциала Азербайджанская Республика с 2010 года входит в категорию стран с высоким уровнем человеческого развития.

## ЛИТЕРАТУРА

1. «Azərbaycan 2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyası- https://www.president.az/files/future_az.pdf
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin portalı - www.stat.gov.az
3. Доклад о целях в области устойчивого развития, 2018 год- https://unstats.un.org/sdgs/files/ report/ 2018/ TheSustainableDevelopmentGoalsReport2018-RU.pdf
4. Доклад о человеческом развитии 2016, Человеческое развитие для всех и каждого // ПРООН, Нью-Йорк: 2016
5. Доклад о целях в области устойчивого развития, 2019 год https://unstats.un.org/sdgs/report/2019/ The-Sustainable-Development-Goals-Report-2019_Russian.pdf
6. Резолюция Генеральной Ассамблеей ООН 67/290. Формат и организационные аспекты политического форума высокого уровня по устойчивому развитию 9 июля 2013 года - https://undocs.org/ru/A/RES/67/290
7. Резолюция Генеральной Ассамблеей ООН 69/313
8. Резолюция Генеральной Ассамблеей ООН 70/1. Преобразование нашего мира: Повестка дня в области устойчивого развития на период до 2030 года 25 сентября 2015 года - https://undocs.org/ru/A/RES/70/1
9. Резолюция Генеральной Ассамблеей ООН 70/299. Осуществление последующей деятельности в связи с Повесткой дня в области устойчивого развития на период до 2030 года и проведение обзора хода ее реализации на глобальном уровне 29 июля 2016 года - https:// undocs. org/ru/A/RES/70/299
10. Цели развития тысячелетия: доклад за 2015 год. ООН-https:// www.un.org/ru/ millenniumgoals/reports.shtml
11. Azerbaijan progresses toward the achievement of the Millennium Development Goals. Progress report – 2003/2004, SPPRED, Baku: 2005
12. Second Voluntary National Review of the Republic of Azerbaijan on the implementation of “Transforming our world: the 2030 Agenda for Sustainable Development”. - https://sustainable development.un.org/content/documents/23411AZERBAIJAN_VNR_Report.pdf

## XÜLASƏ

**Ülfət Mehdiyev**

## DAVAMLI İNKİŞAFIN QLOBAL MƏQSƏDLƏRİ AZƏRBAYCAN RESPUBLİKASINDA İNSAN İNKİŞAFININ PLATFORMASI KİMİ

Elmi məqalədə əsaslandırılır ki, davamlı inkişaf sahəsində qlobal səylər öz ifadəsini 2030-cu ilə qədər olan dövr üçün qəbul olunmuş yeni proqramda tapmışdır. Hansında ki, hər kəsin layiqli həyatı və insan potensialının inkişafı üçün iqtisadi, sosial və ətraf mühit şəraitinin yaradılmasına xidmət edəcək 17 universal Dayanıqlı İnkişaf Məqsədləri müəyyənləşdirilmişdir. Azərbaycan Respublikası DİM-lərin əldə edilməsini ölkənin inkişaf strategiyasının başlıca prioriteti kimi qəbul edən Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə başlamışdır ki, bu da ölkədə insan potensialının inkişafı üçün iqtisadi əsaslamış, sosial məsuliyyətli və ekoloji təhlükəsiz cəhətdən şərait yaradacaq və onun bir hissəsinin insan kapitalına çevriləcəkdir.

Elmi məqalədə DİM-lərin qlobal səviyyədə həyata keçirilməsinin prinsipləri və mexanizmləri, Minilliyin İnkişaf Məqsədləri ilə davamlılığı açıqlanır, SDG-lərlə insan inkişafı konsepsiyası təhlil

olunur. Məqalədə ölkədə DİM-lərin həyata keçirilməsinə cavabdeh olan bir dövlət orqanının institusional formalaşmasına, hərtərəfli qiymətləndirilməsinə yönəlmiş bir sıra tədbirlər hazırlanmasından başlayaraq Azərbaycanda DİM-lərin həyata keçirilməsinin əsas prioritetləri və istiqamətləri, milli proqramlar və strategiyalar və bunların qlobal DİM-lərə uyğunluğu, milli monitorinq sisteminin formalaşması və DİM-lər haqqında hesabat vermə mərhələləri təsvir edilmişdir. DİM-lərin həyata keçirilməsində vacib bir mərhələ, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə təsdiqlənmiş Bakı Prinsipləri ilə nəticələnən, 2017 və 2019-cu illərdə davamlı inkişaf üzrə Yüksək Səviyyəli Siyasi Foruma təqdim olunan Könüllü Milli Rəyləri uğurla təqdim edən beynəlxalq tanıma və əməkdaşlıqdır. Məqalədə Azərbaycan Respublikasının davamlı inkişaf hədəflərinin ardıcıl şəkildə həyata keçirilməsinə, qlobal DİM-lərə tam uyğunluğuna və nəticədə insan potensialının hərtərəfli inkişafına dair öhdəliyi təsdiqlənir.

***Açar sözlər:*** *davamlı inkişaf, Azərbaycan, insan potensialı, insan inkişafı, DİM-lər, qlobal inkişaf*

## SUMMARY

**Ulfat Mehdiyev**

## GLOBAL SUSTAINABLE DEVELOPMENT GOALS AS A PLATFORM FOR THE HUMAN DEVELOPMENT IN THE REPUBLIC OF AZERBAIJAN

In a scientific article, global efforts in the field of sustainable development were continued in the adoption of a new program for the period until 2030, the basis of which is the 17 universal Sustainable Development Goals (SDGs) of creating economic, social and environmental conditions for a decent living for everyone and human development potential. The Republic of Azerbaijan has embarked on the implementation of the Sustainable Development Goals, accepting the achievement of the SDGs as the main priority of the country's development strategy, which will create economically sound, socially responsible and environmentally friendly conditions for the development of human potential in the country for the subsequent transformation of part of it into human capital.

The scientific article reveals the principles and mechanisms for implementing the SDGs at the global level, their continuity with the Millennium Development Goals, analyzes the concept of human development with the SDGs. The article describes the main priorities and directions for the implementation of the SDGs in Azerbaijan, starting with the development of a set of measures aimed at the institutional formation of a state body responsible for the implementation of the SDGs in the country, a comprehensive assessment of national programs and strategies and their compliance with the Global SDGs, the stages of formation of a national monitoring system and reporting on the SDGs. An important stage in the implementation of the SDGs is international recognition and cooperation with the United Nations Development Program, which resulted in the approved Baku Principles, successfully presented Voluntary National Reviews presented to the High-Level Political Forum on Sustainable Development in 2017 and 2019. The article confirms the commitment of the Republic of Azerbaijan in the consistent implementation of sustainable development goals, its full compliance with the global SDGs and, as a consequence, the comprehensive development of human potential.

***Key words:*** *sustainable development, Azerbaijan, human potential, human development, SDGs, global development*

---

***Məqaləni çapa təqdim etdi:*** *İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *04 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *09 dekabr 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 6 (107), 127-132
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 6 (107), 127-132
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 6 (107), 127-132

**KƏMALƏ ZEYNALOVA**
*AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*
*kamala_zeynalova1965@mail.ru*

**UOT: 338.48; 796.5**

# AZƏRBAYCANDA DAVAMLI TURİZM TƏSƏRRÜFATININ İNKİŞAFINDA TUROPERATOR VƏ TURAGENTLƏRİN ROLU

*Müasir dövrdə sosial-iqtisadi inkişaf göstəriciləri və xidmət sahələri arasında turizm sektoru xüsusi yer tutur və inkişaf etdirilir. Bu istiqamətdə ona təbii və antropogen turizm ehtiyatları ilə yanaşı, turoperator və turagentliklər də yaxından köməklik göstərir. Çünki turizm sektorunun inkişaf etdirilməsi və canlandırılması üçün yalnız turizm ehtiyatları kifayət etmir. Onların təşviqi, stimullaşdırılması, turistlərin ölkəyə cəlb olunması, nəqliyyat vasitələri ilə təminatı və s. turoperator və turagentliklər vasitəsilə həyata keçirilir ki, bu da davamlı turizm təsərrüfatının yaradılmasına və inkişafına nail olmaq üçün əlverişli bir mühit formalaşdırır. Məhz bu baxımdan, təqdim olunan məqalədə "davamlı turizm" anlayışı açıqlanmış, turoperator və turagentliklərin vəzifələri, səlahiyyətləri və funksiyaları göstərilmiş, 2013-2018-ci illər ərzində Azərbaycanda fəaliyyət göstərən turoperator və turagentliklərin ümumi göstəriciləri təhlil olunmuş, onların vasitəsilə Azərbaycan vətəndaşlarının ölkə daxili və ölkədən kənar səyahətləri, eləcə də Azərbaycan ərazisində səyahət edən əcnəbi vətəndaşların say dinamikası öyrənilmiş, turoperator və turagentliklərin üstün və zəif cəhətləri qeyd olunmuşdur.*

***Açar sözlər:*** *davamlı turizm, turoperator, turagent, turpaket, təbii və antropogen abidələr, turizm infrastrukturu*

**Aktuallıq.** Turizm iqtisadiyyatın yüksək gəlirli və ən dinamik sahələrindən biridir. Turizm sahəsində 297 mln-dan çox insan çalışır ki, bu da dünya üzrə hər on nəfərindən birinin məhz turizm sektorunda çalışması deməkdir. Bu sektor dünya üzrə ümumi investisiyaların 7%-ni, istehlak xərclərinin 11%-ni, vergi daxilolmalarının 7%-ni və xidmət ticarətinin 30%-ni özündə birləşdirir [8, s. 4]. Turizm sosial-iqtisadi vəziyyəti stimullaşdırır, nəqliyyat, ticarət, tikinti, səhiyyə, kənd təsərrüfatı, istehlak mallarının istehsalı və bir çox digər sahələrin inkişafına müsbət təsir göstərir. Lakin turizm təsərrüfatının inkişaf etdirilməsi üçün bir sıra vacib məsələlərin həlli tələb olunur. Bunlara, turizm baxımından daha cəlbedici olan təbii və antropogen abidələrin və obyektlərin qiymətləndirilməsinin aparılması, turizm infrastrukturunun müasir tələblər səviyyəsində qurulması, dünya turizm standartlarının tətbiqi, turistləri cəlb edən və həvəsləndirən turagentlik və turaperatorların işinin təşkli və s. amillər aiddir.

**Davamlı turizm.** 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Konfransı keçirilmişdir. Konfransın adı beynəlxalq sənədlərdə "Sivilizasiyanın davamlı inkişafı", "İnsan potensialının davamlı inkişafı", "İnsan cəmiyyətinin davamlı inkişafı" kimi adlandırılsa da, son nəticə kimi təbiət, cəmiyyət və insan həyatının bütün sahələrini əhatə edən "Davamlı inkişaf" adlandırılmış, sonda isə "Rio Bəyannaməsi" və digər mühüm sənədlər qəbul olunmuşdur. 2000-ci ildə BMT-nin təşəbbüsü ilə "Minilliyin Forumu" keçirilmiş və "Minilliyin Bəyannaməsi", 2015-ci ildə BMT-nin Baş Assambleyasının təşkil etdiyi Dünya Sammitində 2015-2030-cu illər üzrə davamlı inkişafın 17 məqsədi irəli sürülmüşdür [9, s. 26]. Bu məqsədlər müxtəlif istiqamətləri əhatə etsə də, onların hər birində turizmin elementləri vardır. Məhz bu baxımdan, "Davamlı turizm" anlayışı dedikdə biz onu bəşəriyyətin davamlı inkişaf konsepsiyası ilə əlaqələndiririk.

Turizimdə davamlılıq prinsiplərini Ümumdünya Turizm Təşkilatı və Ümumdünya Səyahətlər

və Turizm üzrə Şura tərəfindən formalaşdırılıb. Onlar hesab edirlər ki, turizm ekoloji, mədəni, iqtisadi, eləcə də yerli icmalar üçün davamlılığa gətirib çıxarır. Turizmdə davamlı inkişafa məqsədli yanaşma, yəni təbii və mədəni potensialdan səmərəli istifadə, turizm müəssisələrində resursları qənaət etmək üçün müasir texnologiyalara keçidi, istehsal tullantılarının azaldılması, yerli əhalinin turizmin inkişafına dair məsələlərin həllinə cəlb edilməsi, dövlət və özəl sektorun qarşılıqlı münasibətlərdə tərəfdaşlığı, turizmin ayrı-ayrı regionların və bütövlükdə ölkə ərazisinin sosial-iqtisadi yüksəlməsinə yardım göstərməsi deməkdir.

**Turoperator və turagentlər.** Turizm sənayesinə daxil edilən nəqliyyat müəssisələri, yerləşdirmə vasitələri, ictimai iaşə və əyləncə obyektləri turizm xidmətlərinin ilkin istehsalçıları hesab edilir. Lazım olan iqtisadi resurslardan istifadə etməklə onlar satış üçün bazara çıxardıqları xidmətləri yaradırlar. Hər bir istehsalçı xidmətlərin özü üçün ən sərfəli satış üsulunu, yəni satış yollarını müəyyən edir. Bu da xidmətin bir sıra alqı-satqı aktları vasitəsi ilə son istehlakçıya çatdırılır. İstehlakçının, yəni turistin işini asanlaşdırmaq və xidmətin səviyyəsini yüksəltmək üçün turoperator (turizm məhsulunu təqdim edir) və turagentlərdən (turistlərlə xidmət təminatçıları arasında vasitəçi) geniş istifadə edilir. Onlar turizm tədbirlərinin təşkili, vasitəçilik və agent funksiyalarını həyata keçirirlər.

"Turizm haqqında" Azərbaycan Respublikası Qanununun (04.07.1999-cu il) birinci maddəsi "Əsas anlayışlar" bölməsində turoperator turların komplektləşdirilməsi, turizm məhsulunun formalaşdırılması, hərəkətə gətirilməsi və satışı ilə məşğul olan turizm təşkilatı, turagent isə turoperator tərəfindən turların satışı, turizm məhsulunun hərəkətə gətirilməsi və satışı üzrə vasitəçilik fəaliyyəti göstərən fiziki və ya hüquqi şəxs kimi izah olunur [10].

Turoperator turizm bazarının aktiv subyektlərindən biri olub, kommersiya məqsədləri ilə turizm məhsulunun planlaşdırılması, işlənib-hazırlanması, hərəkətə gətirilməsi və satışını həyata keçirir [5, s. 323]. Turoperator təşkil edilmiş istənilən turizmin növünün "generatoru" hesab olunur və turizm xidmətləri bazarının formalaşmasında birbaşa iştirak edir [7, s 207]. Onun fəaliyyətinin əsas istiqaməti kütləvi istehlakçı tələbləri üçün nəzərdə tutulmuş turizm məhsulunun işlənib hazırlanmasıdır. Turoperator səyahət marşrutlarını, proqramları və kompleks xidmətləri standartlaşdırma yolu ilə turistlərə bir paketdə istifadə etməyə imkan yaradır. Bu da kütləvi turizmin yaranmasına səbəb olur ki, onun da sayəsində xərclər azaldılır, nəticədə turizm bazarında rəqabətqabiliyyətli təkliflə çıxış edən şirkətlərin sayı artır. Turizm şirkətləri ilə yanaşı, müştəri uğrunda mübarizəyə turoperatorlar da qoşulur və onlar daha cəlbedici qiymətlər müəyyən etməyə çalışırlar. Bu zaman bir çox turoperatorlar turpaketindən bəzi xidmətləri çıxardaraq ucuz səyahət görkəmi yaradırlar. Beləliklə, turoperatorlar təklif etdikləri turlarda yalnız marşrut üzrə oteldə yerləşdirilmə, hava limanında qarşılanma və geri daşınma xidmətini qüvvədə saxlayır, qidalanma, ekskursiya, SPA və digər xidmətlər isə turistlərə əlavə ödəniş etməklə təklif edilir.

Turagentin əsas vəzifəsi turist məhsulunu turoperatordan alıb müştəriyə satmaqdır. Bundan ötrü, o, turoperatordan turun öz dəyərindən 7-15%-ə qədər mükafat (komission) alır [6, s. 109]. Turagent turoperatordan fərqli olaraq, turun keyfiyyətinə məsuliyyət daşımır. Ümumi qaydada olaraq, o, müəyyən seqmentə işləyir və həmin seqmentdə operatordan aldığı məhsulu satır [6, s. 105]. Beləliklə, turagent turizm sahəsində turizm məhsulunu son istehlakçıya, yəni turistə çatdıran vasitəçilər zəncirinin ən əsas halqası hesab olunur. Turizm səyahətlərinin, ilk növbədə xarici səyahətlərin böyük bir hissəsinin satışı məhz turagentin vasitəsi ilə həyata keçirilir. Əməliyyatların xarakterinə görə turagent pərakəndə satıcısı hesab edilir. Buradan belə nəticəyə gəlmək olar ki, klassik turagent öz turizm məhsullarını yaratmır, sadəcə onların satışını təşkil edir.

Təcrübə göstərir ki, maraqlı səyahət marşrutunu fikirləşmək və təşkil etmək asan bir məsələdir, lakin onun istehlakçısını tapmaq olduqca çətindir. Bazarda oxşar təkliflərin çox olduğu, kəskin rəqabət və əhalinin alıcılıq qabiliyyətinin məhdud olduğu şəraitdə müştərini cəlb etmək və onu məhz bu turla səyahətə getməyə razı salmaq, sonra isə onunla müqavilə bağlamaq, ödənişi almaq, pasportu, vizanı, bileti rəsmiləşdirmək və səyahətə yollamaq kimi ən çətin məsələlər turagentin üzərinə düşür.

Turagentlər iki vacib funksiyanı yerinə yetirir. Birinci turagentlər potensial alıcılara turizm obyekti, nəqliyyatın hərəkət cədvəli, yerləşdirmə variantları, qüvvədə olan qiymətlər barədə məlumat

verir və səyahət xərclərinin təqribi smetasını tərtib etməyə kömək edir. Müştəri ilə birbaşa əlaqədə işləmək, onlara məsləhət vermək, həmçinin məlumat materiallarının seçilməsi və işlənməsi çox əziyyət tələb edən və vaxt xərcinin yarı və daha çox hissəsini təşkil edir. Bu hissə xüsusən istirahət üçün bahalı turpaketlərin satışı zamanı daha da artır. İkinci turagent bütün nəqliyyat vasitələrinə biletlərin satışını həyata keçirir, otellərdə və digər yerləşdirmə yerlərini bron edir, avtomobili icarəyə kötürməyə kömək göstərir, ekskursiya sifariş edir, çıxış sənədlərini rəsmiləşdirir, turistlərin sığortasını təşkil edir, valyuta mübadiləsini həyata keçirir, diskont kartlar verir, turizm ədəbiyyatı və suvenir satır, fotolentləri emal edir və s. işləri görür. Turagent ayrı-ayrı turizm xidmətlərindən başqa turların tam, kompleks turpaketlərin də satışını həyata keçirir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, turoperator və turagent bir-birindən fərqlənir və ayrı-ayrı anlayışları ifadə edir. Göstərilən fərqlər, əsasən, aşağıdakılarda özünü büruzə verir [2, s. 133]:

- təşkilati-hüquqi formasına görə. Belə ki, turizmlə bağlı meydana çıxan münasibətlərdə turoperator təşkilat qismində çıxış etsə də, turagent hüquqi və ya fiziki şəxs olmaqla, öz fəaliyyətini sərbəst şəkildə davam etdirə bilər.
- həyata keçirilən funksiyaları baxımından. Turoperatordan fərqli olaraq, turagentin fəaliyyətinin əsas istiqaməti vasitəçiliyə yönəlmişdir.

**Təhlil.**

Azərbaycanda son illər turizm sektoru yüksək templə inkişaf etdirilməkdədir. Lakin davamlı turizm təsərrüfatının inkişafı üçün bu amil yetərli deyildir. Belə ki, turizmin təşviqi ilə yanaşı, ölkə ərazisində fəaliyyət göstərən turoperator və turagentlərin rolunu da stimullaşdırmaq lazımdır.

Azərbaycanda turizm sahəsinin inkişaf etdirilməsi üçün turagent və turoperatorların fəaliyyəti vacib şərtlərdəndir [4, s. 22]. Hazırda respublikamızda 374 turoperator və turagentlik fəaliyyət göstərir ki, onlardan da cəmi ikisi dövlətin nəzarətindədir. Yerdə qalanları isə qeyri-dövlət sektorunun payına düşür. Biz 2013-2018-ci illər ərzində turoperator və turagentliklərin sayı, onlarda işləyənlərin sayı, əldə etdikləri gəlir və xərclərin nisbətinə nəzər salsaq görərik ki, müvafiq illər ərzində artım tendensiyası nəzərə çarpır. Amma bu göstəricilər içərisində ən zəif artım tendensiyası turoperator və turagentliklərdə işləyənlərin sayında qeydə alınmışdır. Belə ki, müvafiq illər ərzində işləyənlərin sayında artım cəmi 19,9% olmuşdur. Halbuki yuxarıda qeyd etdiyimiz kimi turistlərə xidməti təklif edən və vasitəçi rolunu oynayan turagentlərin sayı çox olmalıdır ki, ümumi turizm bazarında müsbət bir rəqabət formalaşsın.

2013-2018-ci illərdə turoperator və turagentliklərin əldə etdikləri gəlir və xərclər arasında da müsbət tendensiya müşahidə edilmişdir. Bu göstərici özünü gəlir və xərclər arasında fərqdə də göstərmiş və müvafiq illər ərzində 140,3%-ə kimi artmışdır. 2013-cü ildə gəlir 53,9%, xərc 46,1% olduğu halda, 2018-ci ildə müvafiq olaraq 55,1% və 44,9% olmuşdur (cədvəl 1). Gəlirlərin artması müsbət hal kimi dəyərləndirilsə də onlar hələ də istənilən səviyyədə deyildir. Xərclər isə əsasən turizm yollayışlarına (32,5%), əmək haqlarına (17,7%), vergi rüsumlarına (17,6%), reklam işlərinə (4,4%) və s. çəkilmişdir [1, s. 12]. Turizm yollayışlarına yerləşdirmə, qidalanma, nəqliyyat, ekskursiya, viza və s. xidmətlər aiddir.

Qeyd edilməlidir ki, turizm məhsulunun satışı zamanı (bu tur, ekskursiya və ya öncədən bronlaşdırılmış mehmanxana xidməti ola bilər), bir qayda olaraq turizm məhsulunun ödənilməsi faktı və onun istehlakı faktı arasında zaman kəsiyi var. Turist səyahət üçün yollayışı öncədən alaraq turoperator və turagent vasitəsilə marşrutda xidmət göstərən təşkilatların xidmətini əvvəlcədən ödəməli olur (yəni o birbaşa pulu xidmətlər istehsalçısına yox, yollayışı satana verir) [3, s. 83]. Bu da turoperator və turagentliyin etibarlılığı ilə birbaşa bağlıdır. Çünki turistə məhsulu təşkif edən və satan məhz onlardır.

***Cədvəl 1.*** *Azərbaycanda turoperator və turagentliklərin ümumi göstəriciləri*

| Göstəricilər | illər | | | | | | 2013-2018 %-lə |
|---|---|---|---|---|---|---|---|
| | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | |
| Turoperator və turagentliklərin sayı, vahid | 197 | 2018 | 243 | 272 | 339 | 374 | 89,8 |
| Turoperator və turagentliklərdə işləyənlərin sayı, nəfər | 1729 | 1794 | 1586 | 1838 | 1891 | 2074 | 19,9 |
| Turoperator və turagentliklərin əldə etdikləri gəlir, min manat | 29600,9 | 31107,1 | 36482,2 | 36758,3 | 41034,2 | 56439,4 | 90,7 |
| Turoperator və turagentliklərə çəkilən xərclər, min manat | 25292,5 | 27018,1 | 30811,6 | 29101,8 | 36734,6 | 46085,1 | 82,2 |
| Turoperator və turagentliklərin gəlir və xərcləri arasında fərq, min manat | 4308,4 | 4089 | 5670,6 | 7656,5 | 4299,6 | 10354,3 | 140,3 |

***Mənbə:*** *Azərbaycanda turizm, 2019. ARDSK*

Təhlil etdiyimiz illər ərzində biz turoperator və turagentliklərin fəaliyyətini daha dərindən tədqiq etmək üçün Azərbaycan vətəndaşlarının ölkə daxili və ölkədən kənar səyahətlərini, eləcə də Azərbaycan ərazisində səyahət edən əcnəbi vətəndaşların dinamikasını da öyrənməyə çalışmışıq. Nəticə etibarilə isə müəyyən edilmişdir ki, Azərbaycan və əcnəbi vətəndaşlarının ölkə daxili səyahətləri artmış, Azərbaycan vətəndaşlarının ölkədən kənar səyahətlər isə azalmışdır. Məsələn, 2013-cü ildə ölkə daxili səyahət edən Azərbaycan vətəndaşları 10,8%, Azərbaycan ərazisində səyahət edən əcnəbi vətəndaşlar 7,1% olduğu halda, 2018-ci ildə bu göstəricilər artmış və müvafiq olaraq 14,8% və 12,3% təşkil etmişlər. Ölkədən kənar səyahət edən Azərbaycan vətəndaşları isə 2013-cü ildə 82,1%, 2018-ci ildə 72,9% olmuşdur (şəkil 1).




***Şəkil 1.*** *Azərbaycanda turoperator və turagentliklərin vasitəsilə səfər edən turistlərin göstəriciləri*

Ümumiyyətlə, turoperator və turagentliklər vasitəsilə 2018-ci ildə 12777 turist Azərbaycana səfər edib. Bu turistlərin əsas hissəsini BƏƏ (31,3%), Rusiya (17,4%), İsrail (13,5%), Hindistan (4,1%), Ukrayna (3,2%) və digər ölkə vətəndaşları təşkil edir [1, s. 17-18]. Lakin regional inkişaf baxımından mənfi bir hal kimi qeyd etmək lazımdır ki, Azərbaycana gələn turistlərin çox hissəsi paytaxt Bakı şəhərinə gəlir. Çünki Bakı şəhərində yol-nəqliyyat infrastrukturu və xidmət sferası digər regionlara nisbətən daha yaxşı inkişaf edib. Regional baxımdan isə Qəbələ, Şəki, Qax, İsmayıllı, Quba, Qusar və Xaçmaz rayonlarına xarici turist axınını müşahidə etmək olar. Azərbaycandan gedən 52899 turist isə, əsasən, Türkiyə (50,1%), BƏƏ (10,8%), Rusiya (10,7%), İran (8,3%), Gürcüstan (3%), Ukrayna (2,8%) və digər ölkələrə üz tutur [1, s. 18-19]. Bu da yaxın coğrafi mövqedə olmamız, dini və tarixi faktorlarla bağlıdır. Hazırda xarici ölkələrə səfər edən ölkə vətəndaşlarımız əsas etibarilə, işgüzar, müalicə, şopinq, əyləncə, az bir hissəsi isə macəra, dini və ekskursiya kimi turizm növlərinə üstünlük verir.

**Nəticə.** Davamlı turizm prinsipləri ekoloji, mədəni və iqtisadi baxımdan əsaslandırılmış, təbii potensialdan səmərəli istifadə və sosial-iqtisadi yüksəlişə nail olmanın yolları qeyd olunmaqla turoperator və turagentliklərin təhlili aparılmış və müəyyən edilmişdir ki, respublikamızda fəaliyyət göstərən 374 turoperator və turagentlik öz funksiyalarını tam şəkildə yerinə yetirmirlər. Buna səbəb kimi kadr çatışmazlığını, yəni turagentlərin sayının az olmasını deyə bilərik.

- Turoperator və turagentliklər vasitəsilə Azərbaycana gələn (12777 turist) və gedən (52899 turist) turistlərin müqayisəli təhlilini aparsaq görərik ki, xarici turistlərlə aparılan işi qənaətbəxş hesab etmək olmaz. Bu qiymətlərin yüksək olması, servis xidmətinin aşağı olması, reklam və təbliğat işinin zəif aparılması ilə bağlıdır.
- Turoperator və turagentliklərin əldə etdikləri gəlirlərin 81,6%-ni xərclər təşkil edir ki, bu da olduqca yüksək göstəricidir. Xərclərin əsas hissəsi, yəni 50,2%-i turizm yollayışlarına və əmək haqlarının ödənilməsinə sərf edilmişdir. Turizm sektoru üçün daha vacib və onu stimullaşdıran reklam işlərinə isə cəmi 4,4% xərc çəkilmişdir.
- Xarici turist səfərlərinin dinamikası və onların gəlmə nöqtələri onu sübut edir ki, regional baxımdan yalnız Bakı şəhəri turizm mərkəzi kimi inkişaf etdirilmişdir. Davamlı turizm konsepsiyası baxımından bu göstərici mənfi bir hal kimi dəyərləndirilir və gələcəkdə Bakı şəhəri ilə yanaşı, respublikanın digər şəhər və rayonlarına turoperator və turagentliklər vasitəsilə turpaketlərin hazırlanması və güzəştli əsaslarla onların xarici ölkə vətəndaşlarına təşkil edilməsi olduqca vacib məsələlərdən biridir. Yalnız bu halda ixtisaslaşdırılmış turizm mərkəzlərinin yaradılmasına nail olmaq mümkündür.

## ƏDƏBİYYAT


1. Azərbaycanda turizm. Bakı: DSK, 2019, 99 s.
2. Əliyev Ə.İ., Aslanov E.Z. Beynəlxalq turizm hüququ. Bakı: NAT, 2011, 475 s.
3. Rəhimov S.H., Turizm-ekskursiya işinin təşkili. Bakı: Mütərcim, 2004, 312 s.
4. Soltanova H. Azərbaycan Respublikasında turizm və onun inkişafı. Bakı: AzTU, 476 s.
5. Turizmin əsasları. Bakı: QHT Nəşriyyatı, 2015, 496 s.
6. Yeganlı S.T., Hacıyev E.M. Turizm. Bakı: ABU, 2006, 324 s
7. Александрова А.Ю. Международный туризм. Москва: 2002, 338 с.
8. Рзаев М.Г., Джаббаров А.Х. Туризм и современность: Нахчыванская Автономная Республика, Азербайджан. Новосибирск: 2011, 160 с.
9. Michael P. Todaro, Stephen C. Smith. Economic development. New York: Pearson, 2015, 860 p.
10. http://www.e-qanun.az/framework/4759 (10.03.2020)

## SUMMARY

**Kamala Zeynalova**

## THE ROLE OF TOUR OPERATORS AND TRAVEL AGENCIES IN THE DEVELOPMENT OF SUSTAINABLE TOURISM INDUSTRY IN AZERBAIJAN

In modern times, the tourism sector occupies a special place among the indicators of socio-economic development and services and is developed. Along with natural and anthropogenic tourism resources, tour operators and travel agencies also closely assist it in this direction. Thus, tourism resources alone are not enough to develop and revive the tourism sector. Their promotion, stimulation, attracting tourists to the country, providing them with vehicles, etc. are carried out through tour operators and travel agencies, which result in favourable conditions for the creation and development of sustainable tourism. From this point of view, the article explains the concept of "sustainable tourism", shows the duties, competencies, and functions of tour operators and travel agencies, analyses the general indicators of tour operators and travel agencies operating in Azerbaijan in 2013-2018, as well as studies travels of Azerbaijani citizens within the country and abroad, the number of foreigners traveling in the territory of Azerbaijan by means of these tour operators and travel agencies, and provides the advantages and disadvantages of tour operators and travel agencies.


***Key words:*** *sustainable tourism, tour operator, travel agency, tour package, natural and anthropogenic monuments, tourism infrastructure*


## РЕЗЮМЕ

**Камала Зейналова**

## РОЛЬ ТУРОПЕРАТОРОВ И ТУРАГЕНТСТВ В РАЗВИТИИ УСТОЙЧИВОЙ ТУРИСТИЧЕСКОЙ ПРОМЫШЛЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ

В наше время туристический сектор занимает особое место среди показателей социально-экономического развития и сферы услуг. Наряду с природными и антропогенными туристическими ресурсами туроператоры и турагентства также тесно помогают этому сектору. Так как только природные и антропогенные ресурсы недостаточно для развития и возрождения туристического сектора. Для продвижение, стимулирование, привлечение и обеспечение туристов в основном осуществляются через туроператоров и турагентств. В результате чего создаются благоприятные условия для развития устойчивого туризма. С этой точки зрения в статье разъясняется понятие «устойчивый туризм», компетенция и функции туроператоров и турагентств, анализируются общие показатели туроператоров и турагентств Азербайджана в 2013-2018 гг., а также изучается поездки граждан Азербайджана по стране и за границу, количество иностранцев путешествующих по территории Азербайджана с помощью туроператоров и турагентств, а также предоставляется преимущества и недостатки туроператоров и турагентств.


***Ключевые слова***: *устойчивый туризм, туроператор, турагентство, турпакет, природные и антропогенные памятники, туристическая инфраструктура*

---

***Məqaləni çapa təqdim etdi:*** *İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *04 dekabr 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *09 dekabr 2020-ci il*

# MÜNDƏRİCAT
## TARİX

1. **Şamxal Məmmədov.** “Ermənistan” və “erməni” anlayışları antik dövrdə və günümüzdə.......3
2. **Allahverdi Hüseynov, Xəzər Hüseynov.** Azərbaycan xalq cümhuriyyəti parlamentinin yaranması tarixindən..........................................................................................8
3. **Yaşar Rəhimov.** Naxçıvan yeni iqtisadi siyasət dövründə (1921-1925)...............................14
4. **Sehran Səfərov.** XIX əsr-XX əsrin əvvəllərində Böyük Britaniyanın Cənubi Qafqazda və Mərkəzi Asiyada maraqları olan Rusiya və İran ilə münasibətləri...................................19

## SOSİAL ELMLƏR VƏ HÜQUQ

5. **Şükür Məmmədov.** Beynəlxalq humanitar hüquq tarixdə və günümüzdə.........................25
6. **Nurlan İsmayılov.** Azərbaycan Respublikasında məhkəmə hakimiyyəti və onun həyata keçirilməsinin xüsusiyyətləri.......................................................................................31
7. **Firuzə Quliyeva.** Sosial iş üzrə tədqiqatların sosial həyat problemlərinin həllində rolu...................................................................................................................36
8. **Kamran Vəlizadə.** Hüquqi dövlət quruculuğu prosesi və siyasi aksiologiya.......................................................................................................39
9. **Asif Abdullayev**. İnsan resurslarının idarə edilməsində beynəlxalq təcrübələrin müqayisəli təhlili.........................................................................................................45
10. **Günel Məlikli.** Azərbaycan Respublikasının milli inkişaf sistemində Hərbi və sərhəd təhlükəsizliyi problemi...................................................................................................50
11. **Könül Qəhrəmanova.** Ruh anlayışının şüur kateqoriyasına doğru inkişaf dinamikası..........55
12. **Habil Məmmədov, Nailə Məmmədova.** “Humanitar müdaxilə” anlayışının mahiyyəti və beynəlxalq siyasi-hüquqi aspektləri...................................................................61
13. **Şəfəq Əhmədova.** Cənubi Qafqazda siyasi münaqişələr və informasiya.............................................................................................................66
14. **Məmməd Çıraqlı.** Diplomatik müdafiə xarici investisiyaların qorunmasının əsas beynəlxalq hüquqi vasitələrindən biri kimi......................................................................71
15. **Aqşin Məmmədzadə**. Beynəlxalq təşkilatlar müasir beynəlxalq münasibətlərin aktoru kimi....................................................................................................................77

## İQTİSADİYYAT

16. **Ceyhun Mahmudov.** Naxçıvan Muxtar Respublikasında tarazlaşdırılmış və dayanıqlı iqtisadi inkişafın infrastruktur problemləri...........................................................................84
17. **Flora Kərimova.** Turizmin inkişafında yerli öznünüidarələrin rolu……..............................91
18. **Ülkər Həsənzadə.** Tur paketlərinin planlanması və hazırlanması............................................95
19. **Həbib Zeynalov.** Tematik ekskursiyaların növləri...................................................................99
20. **İmran Qarayev, Ədalət Əsədov.** Vergi siyasətinin davamlı iqtisadi inkişafa təsirinin müasir problemləri.......................................................................................103
21. **Gülnarə Qurbanova.** Müasir dövlət idarəçiliyində kadr potensialinin hazırlanmasında əlavə təhsilin əhəmiyyəti..............................................................................................110
22. **Ульфат Мехдиев.** Глобальные цели устойчивого развития как платформа для человеческого развития в Азербайджанской Республике......................................119
23. **Kəmalə Zeynalova.** Azərbaycanda davamlı turizm təsərrüfatının inkişafında turoperator və turagentlərin rolu…………………….....................................................…127

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası 30 aprel 2010-cu il tarixli (protokol №10-R) qərarı ilə Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalının aşağıdakı seriyalarını müstəqil jurnallar kimi tanımışdır:

1. Elmi əsərlər. *Humanitar elmlər seriyası*
2. Elmi əsərlər. *İctimai elmlər seriyası*
3. Elmi əsərlər. *Təbiət elmləri və tibb seriyası*
4. Elmi əsərlər. *Fizika-riyaziyyat və texnika elmləri seriyası*

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası sədrinin 20 dekabr 2010-cu il tarixli 48-01-947/16 saylı məktubuna əsasən "Elmi əsərlər" jurnalına çap üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Məqalənin mətni – 17 sm x 25 sm formatında, sətirlərarası – 1 intervalla, Times New Roman-12 (Azərbaycan dilində - latın, rus dilində - kiril, ingilis dilində - ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Müəllifin (müəlliflərin) adı və soyadı, elmi dərəcəsi tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompyuterdə çap olunmuş şəkildə CD-lə (disklə) birlikdə təqdim edilməlidir, CD-lər geri qaytarılmır.

4. Ədəbiyyat siyahısı AAK-ın "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan Təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2-10.4.6 tələblərinə uyğun tərtib olunmalıdır.

5. Məqalənin xülasəsi və açar sözləri rus və ingilis dillərində olmalıdır (150-200 söz)

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir.** *Məs.: Həbibbəyli İ.Ə. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, Nurlan, 2007, 696 s.*

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir.** *Məs.: Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan: Əcəmi, 2010, 300 s.*

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** *Məs.: Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, I cild, Bakı, Lider nəşriyyat, 2004, 440 s.*

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır:** *Məs.: Hacıyev İ.M. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, bunun qarşısının alınması. // NDU-nun Elmi əsərləri. İctimai elmlər seriyası, 2011, №1, s.13-18*

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir:** *Məs.: Həbibbəyli İ.Ə. Naxçıvan şəhərinin yaşı-beş min il./ "Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik" mövzusunda elmi-praktik konfransın materialları. Bakı: Nurlan, 2007, s.20-27*

**Dissertasiyaya aşağıdakı kimi istinad olmalıdır:** *Məs.: Həsənli O.Q. Şagird şəxsiyyətinin formalaşdırılmasında diyarşünaslıq materiallarından istifadənin sistemi: Pedaqoji elm.dok. ... . dis. Naxçıvan, 2005, 240 s.*

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız "avtoreferat" sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır:** *Məs.: Şeremetyevski P.A. Naxçıvanın duz yataqları. "525-ci qəzet" qəz., Bakı, 28 iyul 2012*

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir.** *Məs.: Naxçıvan MDTA: f.19, siy.3, iş 56 v.7-9*

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

**Elmi əsərlər jurnalında çap olunan məqalələrin elektron variantı ilə
**www. ndu.edu.az.** saytında tanış olmaq olar.

***P.S: Kənar müəssisələrdən NDU-nun "Elmi əsərlər"inə məqalə göndərən müəlliflər NDU rektorunun adına, təmsil olunduğu müəssisə rəhbərinin məktubunu da təqdim etməlidir. Növbəti saylarda bu tələblərin hər hansı birinə cavab verməyən məqalələr nəşriyyat tərəfindən qəbul edilməyəcəkdir.***

***REDAKSİYA HEYƏTİ***

## TO THE AUTHORS!

By its 30 April, 2010 (minutes J\b 10-R) decision of the Higher Attestation Commission attached to the President of the Azerbaijan Republic has admitted the following series of the journal **"Scientific works" of Nakhchivan State University as independent journals:**

**1. Scientific works. Humanitarian sciences series**

**2. Scientific works. Social sciences series**

**3. Scientific works. Nature sciences and medicine series**

**4. Scientific works. Physics-mathematics and technical sciences series**

By the letter Ns 48-01947/16, 20 December, 2010 of the Chairman of the Higher Attestation Commission attached to the President of the Azerbaijan Republic the articles submitted for publication in the journal **"Scientific works"** of NSU should follow the following the rules**:**

**1. Papers should be typed in single space ,{4 size (17sm x 25sm) format, in l2pt Times New Roman (in Azerbaijani -in Latin alphabet, in Russian - in Cyrillic, in English –in the English alphabet).**

**2. Name(s) and surname(s) of the author(s) and affiliation(s), their scientific degree should be given in full, their e-mail address and complete address (university, organization) should be shown.**

**3. Each article should include UOT indexes or codes of PACS type and keywords (keywords should be in the language in which the article and abstracts have been written).**

The articles and abstracts (in three languages) should be submitted in computer typed form and electronic form (in CD disk); CDs ate not given back.

**4. List of literature (References) should meet the 10.2 -10.4. 6. requirements of the section "Used Literature" of the Instruction of the HAC "Rules for Dissertations" which is in power.**

**5.The abstract and key words of the article should be in Russian and English language (150-200 words) Sources in "References" are shown as follows:**

Books (monographies, text-books, etc.) Habibbayli I.A. Literary-historioal memory and modernism**. Baki, Nurlan, 2007,696 p.**

Multi-authored books ( collective monographies and text-books) Noah prophet, world's gale and Nakhchivan: **Adjami, 2010, 300 p.**

Multi-volume publications Encyclopedia of the Azerbaijan People's Republic. In 2 volumes, I volume, **Baki, Lider Publishing house, 2004,440 p.**

**Articles/ Papers Hajiyev LM. Tenitorial claims of the Atmenians against Azerbaijan during the Azerbaijan People's Republic and its prevention. //** Scientific works of NSU. Social sciences series, 2011, Nr 1, pp. 13-18.

Series of articles and conference materials Habibbayli I.A. Age of the city Nakhchivan- five thousand years. **/ Materials of the scientificpractical conference "Establishment of Nakhchivan Autonomous Republic: history and modernism". Baki, Nurlan, 2007, pp.20-27**

**Thesis /Dissertation Hassanli O.G.** Use system of regional ethnographic materials in the formation of student personality: Doctor of pedagogical sciences ... Disselt, Nakhchivan, 2005, 240 p.

**The same is applied to the Synopsis of thesis, only the word "synopsis of thesis" is added.** Newspaper materials Sheremetyevski P. A. Salt deposits of Nakhchivan. Newspaper "Newspaper 525", Baki, 28 July,20l2.

**Archive materials Nakhchivan MDTA:** f. 19, list 3, work 56 v.7-9

The literature ofthe last 5-10 years in the references is specially prefened.

**P.S: The authors from other enterprises should also submit the letter by his/her head to the rector of NSU for publication of their papers. the papers which do not meet these requirements will not be admitted.**

## К СВЕДЕНИЮ АВТОРОВ!

Высшая Аттестационная Комиссия при Президенте Азербайджанской Республики по решению (протокол № 10-Р) от 30 апреля 2010 года признал как самостоятельные журналы нижеследующие серии журнала **«Научные труды» Нахчыванского Государственного Университета:**

1. **Научные труды.** ***Серия гуманитарных наук***
2. **Научные труды.** ***Серия общественных наук***
3. **Научные труды.** ***Серия естественных и медицинских наук***
4. **Научные труды.** ***Серия физико-математических и технических наук***

На основани письма № 48-01-947/16 от 20 декабря 2010 года председателя Высшей Аттестационной Комисси при Президенте Азербайджанской Республики статьи, представленные для публикации в журнале **«Научные труды»**, должны составляться на основе нижеследующих требований:

1. Текст статьи должен быть набран в формате 17 см х 25 см, межстрочный интервал 1 на компьютере в программе Times New Roman-12 (на азербайджанском языке латинским, на русском – на кирили, на английском – на английском алфавите).

2. Имя и фамилию автора (авторов), ученую степень следует написать полностью, указать адрес электронной почты, название предприятия (организации), где работает.

3. В каждой статье следует дать индексы УДК или коды типа PACS (ключевые слова должны быть написаны на языке статьи и резюме).

4. Ключевые слова статьи должны быть на русском и английском языках.(150-200 слов)

Статьи и резюме должны быть набраны на компьютере (на трех языках) и представлены в электронной версии на диске СД (СД не возвращаются).

5.Список литературы должен составляться в соответствии с требованиями раздела 10.2-10.4.6 «Использованная литература» существующей Инструкции ВАК «О порядках составления Диссертаций».

**Библиографическое описание книг (монографий, учебников и т.д.) составляется названием книги.** *Напр.: Габиббейли И.А. Литературно-историческая память и современность. Баку, Нурлан, 2007, 696 с.*

**Книги, в которых не указан автор, и которые имеют более четырех авторов (коллективные монографии или учебники), даются по названию книги.** *Напр.: Пророк Ной, всемирный потап и Нахчыван: Аджеми, 2010, 300 с.*

**На многотомное издание ссылка дается в нижеследующем порядке:** *Напр.: Энциклопедия Азербайджанской Народной Республики. В 2-х томах, том I, Баку, издательство Лидер, 2004, 440 с.*

**Ссылка на статьи должна быть в нижеследующем порядке:** *Напр.: Гаджиев И.М. Территориальные притязания армян к Азербайджану в период Азербайджанской Народной Республики и их предотвращение. // Научные труды НГУ. Серия общественных наук, 2011, № 1, с. 13-18.*

**На источники по сборникам статей и материалам конференций следует указать так:** *Напр.: Габиббейли И.А. Городу Нахчыван – пять тысяч лет. / Материалы научно-практической конференции на тему: «Создание Нахчыванской Автономной Республики: история и современность». Баку: Нурлан, 2007, с. 20-27.*

**На диссертацию следует ссылаться так:** *Напр.: Гасанлы О.Г. Система использования краеведческих материалов в формировании личности ученика: Дис... доктора педагогических наук. Нахчыван, 2005, 240 с.*

**На автореферат диссертации ссылка дается также, но следует добавить слово «автореферат».**

**Ссылка на газетные материалы производится так:** *Напр.: Шереметевски Р.А. Сольные скважины Нахчывана. Газ. «525-я газета», Баку, 28 июля 2012*

**Ссылка на архивные материалы дается так:** *Напр.: НГИА Нахчывана: ф.19, оп.3, д. 56, лл.7-9.*

В списке использованной литературы следует предпочитать литературу последних 5-10 лет.

**П.С.: Присылающие в «Научные труды» НГУ статьи из других организаций авторы, должны представить на имя ректора НГУ письмо руководителя организацию, которую они представляют. Статьи, не отвечающие на эти требования, не будут в последующем приняты издательством.**

**РЕДКОЛЛЕГИЯ**

# DÜZƏLİŞLƏR ÜÇÜN SƏHİFƏ

## PAGE FOR CORRECTION

## СТРАНИЦА ДЛЯ КОРРЕКЦИЙ

| | |
|---|---|
| Nəşriyyat direktoru: | Samir Tarverdiyev |
| Mətbəə müdiri: | Vidadi Kazımov |
| Baş mühəndis-proqramçı: | Sahilə Abbasova |
| Aparıcı redaktor: | Günel Məmmədova |
| Aparıcı redaktor: | Sitarə Əlizadə |
| Aparıcı korrektor: | Roza Abdullayeva |

Yığılmağa verilib: 10. XII. 2020
Çapa imzalanıb: 15. XII. 2020
Formatı: 60/90, 32/1, həcmi 8.6 ç/v
Sifariş № 143, sayı 100 nüsxə

NDU-nun «Qeyrət» nəşriyyatının mətbəəsində çap olunmuşdur.

**REDAKSİYANIN ÜNVANI:** *7000. Naxçıvan şəhəri,*
*Universitet şəhərciyi,*
*Naxçıvan Dövlət Universiteti,*
*Əsas bina, I mərtəbə,*
*“Qeyrət” nəşriyyatı*
**TELEFON**: (00994 036) 545-45-59
(00994 036) 544-08-61
**E-mail:** *elmi.hisse@mail.ru*